# BƏXTİYAR VAHABZADƏ

ƏSƏRLƏRİ

III

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ
**(1960-1969)**

*On iki cilddə*

**III *cild***

Bakı - 2008
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə.** Əsərləri. On iki cilddə. III cild (1960-1969). - Bakı, “Elm” nəşriyyatı, 2008. - 582 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (07)\ -\ 2008}$ Qrifli nəşr

© B.Vahabzadə - 2008

# UCALIQ POEZİYASI

***Bəxtiyar Vahabzadənin*** poeziyası elə nəhəg çıraqdır ki, nurunu mənəvi aləmin ən dərin guşəsinə çatdırmağa qadirdir, dinləyicilərinə haqqın yolunu göstərir, ruhları saflaşdırır. Bu poeziyanın sadəliyinin içərisində dərin fəlsəfi fikirlər gizlənir. Şeirlərinin poetik strukturuna nəzər salanda görürük ki, o, xalqın universallaşıb ümumbəşəri anlam kimi işlənən rəmzlərinə daha çox üz tutur. Müasir elmi ədəbiyyatda «arxetipik simvol» termini adı ilə şərh olunan kateqoriya bədii mətnlərin strukturlarında əsas detallardan biri olsa da, nədənsə, Azərbaycanda indiyədək araşdırılmamışdır. Ona görə də nəzəri aspektdə izahlar verməklə məsələni Bəxtiyar Vahabzadənin yaradıcılığında izləməyə çalışacağıq.

Bəşər oğlu ilk əvvəl dünyanı simvollarla dərk etmişdir. Mifik görüşlərdəki dolayılıq və məcazilik metaforik düşüncə tərzinin inkişafına şərait yaratmış, totemizm, animizm, magiya, fetişizm, kultçuluq mərhələlərində təbiətdəki varlıqlar çevrilmə, cildini dəyişib başqa hala düşmə (metamorfoza), şəxsləndirilmə, canlandırılma (alleqoriya) şəklində qavranılmışdır. Yaranışların mahiyyətini, məkan, zaman, keyfiyyət və kəmiyyət dəyişikliklərinin ardıcıllığını, vəhdətini anlamağa doğru gedilən uzun, yorucu yolda baxışların müxtəlifliyinin nəticəsi olaraq onların dildə ifadəsi də fərqli formalarda təzahür etmişdir. Eyni varlıq və hadisə bir tərəfdən xeyirə, digər tərəfdən şərə yozulmuşdur. Çünki ilkin mifoloji baxış bucağından baxanda gerçəkliklər qatı dumanın arxasında görünmüşdür. Duman çəkilib hava durulanda hər şey aydınlaşdığı kimi, təcrübə, bilik çoxaldıqca fövqəltəbii mənzərələr də təfəkkürdə öz təbii halına qayıtmışdır. Təsadüfi de-yil ki, ibtidai görüşlərdə *torpaq anadır* - doğub-törəyir, xeyirxahlıq, xilaskarlıq funksiyasına malikdir, övladlarını qida ilə təmin edir, həmçinin öz körpələrini (toxumları) udmaqla, ölmüşləri qoynuna almaqla şərin daşıyıcısıdır.

Ancaq onun indi şər kimi anılan «körpələrini yemə» əməlinin də nəticəsi yeni yaranışla (toxum cücərib bitkiləri meydana gətirir) başa çatır. Bu onu göstərir ki, təbiətin özündə müşahidə olunan ikili xüsusiyyətlər (havaların isinib-soyuması, qaranlıqlaşıb-işıqlaşması) maddi və mənəvi varlıqlara da şamil edilirdi. Torpağın ən əsas rolu, daha doğrusu, gerçək funksiyası - bütün mövcudluqların (insanın, heyvanın, bitkinin və s.) məkanı olması, sinəsində canlıları bəsləməsidir. Onun bu cəhəti tam anlaşılanadək təfəkkürdə tamamilə fərqli xüsusiyyətlərdə təsəvvürə gətirilmişdir. Başqa sözlə, torpağın adiliyi qeyri-adiliyin içərisindən keçərək gerçəkliyə çevrilmişdir.

Bəxtiyar Vahabzadə gen yaddaşına əsaslanaraq gerçəkliyi torpağın mifoloji anlamdakı funksiyasına uyğunlaşdırdığı mətndə insanı yerindən oynadan obrazlı fikir ortaya qoyur:

*Bircə rəngli **qara torpaq***
*Güllərdə min rəng yaradır.*
*Hər ağrıya, hər acıya*
*Əsl çara torpaqdadır.*
*Göylərin də min bir sirri*
*Yenə **qara torpaq**dadır.*

“Qara torpaq” deyiminin birinci tərəfinin anlamı birmənalı deyil. İlk baxışda “qara”lıq şər məkan anlamı təsiri bağışlayır. Lakin “qara” kəlməsinin daha dərin mənaları da var: böyük, geniş və s. Başı bəlalı Qarabağımızda olduğu kimi “qara torpaq”dakı əlamət bildirən söz də ulu məskənin əhatəliliyini nəzərə çatdırır. Və hər ikisinin tarixi taleyində nəzərə çarpan qara günlər insanlarda ani olaraq çaşbaşlıq yaradır, elə bilirik ki, məkan, yurd yeri düşmən tapdağındadır – üzü qaradır. Əks halda Şəmşir bir vaxtlar ata-baba yurduna dönük çıxanlara üzünü tutub deməzdi ki:

*Küsmə, gileylənmə ana Vətəndən,*

*Torpaq qarğış elər, inciyər səndən.*

Torpağın ən böyük qarğışı nə ola bilər? Dünyasını dəyişmişlərə öz qoynunda yer ayırmamaq və bərəkətini kəsmək… Elin dilinə düşən deyimlərdə də bu öz ifadəsini tapıb: *"Səni torpaq götürməsin!"*

Bəxtiyar Vahabzadə yaradıcılığının ilk çağından başlayaraq torpağı incidənlərə qarşı çıxır və bəyan edirdi ki, Azərbaycan atalarımızın çox-çox uzaqlardan qopan qalib səsi ilə Vətənləşib. O səs ulu bir millətin köklə bağlanan fəlsəfi düşüncələrinə çevrildiyindən Qafqaz torpağını loğmanlaşdırıb:

*Hər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*

Bəli, torpaq bəşər oğlunun üz ağlığıdır.

Göründüyü kimi, bu gün hamıya sadə hadisə, cisim, varlıq təsiri bağışlayan elə hallar və əşyalar var ki, əvvəllər bütün möcüzəli təsəvvürlərin mayasını təşkil etmiş, başqa sözlə, fövqəltəbiiliyin fövqündə durmuşdur. Əksər xalqlarda eyni və oxşar anlamlarda götürülən söz, ifadə və cümlələr məhz insanların keçdiyi analoji həyat tərzində formalaşdığından işarəli dilin növlərindən - simvollardan biri kimi təsdiqlənmişdir. Beləliklə, fikrin ümumiləşməsində, geniş məzmunun daraldılıb bir sözün məna tutumunda yerləşdirilməsində, bədiilik üsullarının meydana gəlməsində *arxetipik simvollar* xüsusi rol oynamışdır.

Dildə elə rəmzləşmiş ifadələr var ki, böyük insan kütləsi (çox hallarda bütün bəşəriyyət) üçün oxşar anlamlarda başa düşülür. Müxtəlif zamanlarda yaransa, ayrı-ayrı dillərdə tamamilə başqa cür səslənsə də, bir-birindən çox uzaq məkanlarda yaşayan əksər xalqların milli mədəniyyətlərində eyni məna yükünü daşıyır və

müxtəlif dünyagörüşlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. İlkin çağlarda miflərlə yozulan və magikliklə əlaqələndirilən bir çox varlıqlar, eləcə də hallar inkişafın sonrakı mərhələsində özündə ibtidai görüş formalarının əlamətlərini yaşatmaqda davam etmiş, gerçək anlamı ilə yanaşı rəmzi mənalar da daşımışdır. Onlar ulu əcdadın kortəbii şüurunun içərisindən keçdiyindən - eyni həyat şəraitində, eyni psixi səviyyədə yaşayan bütün xalqların düşüncəsində bir-birinə uyğun şəkildə başa düşülmüşdür.

Arxetipik simvolların geniş şərhini amerikalı tədqiqatçı F.Uilrayt vermişdir. O, «Metafora və gerçəklik» əsərində müqayisələrdən yaranan metaforik düşüncə tərzinin əlamətlərindən bəhs açmış, fikirdə dolayılığın əmələgəlmə üsullarını göstərmiş və simvolların ibtidai növlərini müəyyənləşdirib sistemini yaratmışdır. Onun irəli sürdüyü qənaətlərdə dil faktoru səslənmədəki oxşarlıqla xarakterizə edilmir, şüurun oyanması dövründə və ibtidai təfəkkür tərzinin kortəbiilik mərhələsində meydana gəldiyi üçün daşıdığı məna tutumunun universallığını dünyanın əksər xalqlarında eyni hal kimi qoruyub saxlamaqla arxetipik simvola çevrilmişdir. Deməli, mifik düşüncədə fikirlər, məlumatlar adi şəkildə də işarələrlə, dolayılıqla və hamının anladığı metaforik ifadələrlə çatdırılır. İnsan düşündüklərini nitqində əks etdirəndə ağlına gətirmir ki, simvollardan faydalanır, yoxsa faydalanmır, sadəcə olaraq hisslərini cilovlayıb düşüncələrini oxşarlıqlar üzərində cəmləşdirir; yeri gələndə ya şərti rəmzlərə üz tutur, ya da elə danışmağa çalışır ki, daha çox gərginlik yaratsın. Deməli, simvollar həm də ictimai-siyasi münasibətlərdə insan qruplarının mövqeyini bildirən vasitədir, bədii yaradıcılıqda isə obrazlı dili formalaşdıran üslubi fiqurlardan biridir. Onların yaranmasında ayrı-ayrı fərdlər iştirak edir. Çox hallarda hamı tərəfindən başa düşülməsi üçün xüsusi izahata ehtiyac duyulur. Doğrudur, bəzi simvollar illər keçdikcə geniş yayılaraq bütün xalqın tez-tez üz tutduğu, hətta canlı danışığında fikrini daha səlis ifadə etdiyi əsas amilə çevrilir. Məsələn, ilk dəfə M.Qorkinin hekayəsi vasitəsi ilə həyata vəsiqə qazanan

«fırtına quşu» obrazı neçə illik təbliğatın nəticəsində əksəriyyət tərəfindən azadlığın carçısı kimi anılırdı. Sovet hakimiyyətinin yer üzündən silinməsi nəticəsində «fırtına quşu»nun simvollaşdırılması hadisəsi ancaq tarixin faktoru tək xatırlanır. Lakin arxetipik simvollar lap başlanğıcdan bütün icma üzvlərinin inancı şəklində meydana gəlir, daha doğrusu, mifoloji əlamətlərlə yoğrulduğundan yarandığı çağlardan başlayaraq tarixin bütün mərhələlərində öz universallığını qoruyub saxayır. Bu səbəbdən də çoxsaylı arxetipik simvollar - ***alt-üst, yuxarı-aşağı, şimal-cənub, göy-yer (ata göy - ana torpaq), gecə-gündüz, xeyir-şər, işıq-zülmət, qan, çevrə (təkər), qılınc, qalxan, ox-yay, od, ocaq, su, torpaq, hava, bayraq, sakral rəqəmlər*** barədəki qənaətlər Yer kürəsinin dili, dini əqidəsi, inkişaf səviyyəsi bir-birindən köklü şəkildə fərqlənən millətlərinin inanclarında üst-üstə düşür. Maraqlıdır ki, əksər məqamlarda insan toplumlarını nə tarixi-mədəni əlaqələr, nə qan qohumluğu, nə də dil birliyi bir-birinə bağlamışdır, lakin aralarındakı hədsiz məsafə, zaman, əqidə, dil ayrılıqlarına baxmayaraq onların arxetipik simvollarla əlaqədar gəldikləri qənaətlər bir-birini təkrarlamışdır. Sual doğur: heç bir rabitə ilə yolları kəsişmədiyi halda hansı səbəbdən dünya xalqlarının çoxu eyni şəkildə düşünmüş və oxşar yaradıcılıq hadisələri ilə rastlaşmışlar? Arxetipik simvolların bəzilərinin yaranmasına təkan verən amilləri müəyyənləşdirib üzə çıxarmaqla oxşarlığın səbəblərini aydınlaşdırmaq mümkündür.

***Aşağı - yuxarı (üst - alt, göy - yer, dağ - düzən).*** Cəmiyyətlərin bir-birindən tamamilə seçilən, ayrılan cəhətləri var, ancaq bütün insanların dünyabaxışı formaları, düşüncə üsulları, təfəkkür tərzi, gördüklərinə, hadisələrə (təbiətdə və cəmiyyətdə baş verən) reaksiyası və təsir dairəsi oxşardır, eləcə də onlar eyni fiziki, əsas psixi quruluşa malikdirlər. Məhz bəşər övladları arasındakı təbii yaxınlığın nəticəsidir ki, şüurun məhsulu olan arxaik simvollarda bənzərlik nəzərə çarpır. F.Uilrayt yazır ki, insanların hamısı fiziki cazibə qüvvəsinə meyillidirlər, ona görə də yuxarıya doğru

addımlamaq, aşağıya getməkdən daha çətindir. Bu, yüksəyə qalxma ilə uğurqazanma ideyaları arasında təbii assosiasiya yaratmışdır. Həmçinin digər müxtəlif obrazlarla assosiasiyalardan *yüksəklik - yüksəlmək, dağ - vüqar, ucalmaq, zirvəyə çatmaq - üstünlük qazanmaq, birincilik əldə etmək, yuxarıda oturmaq - hakimiyyət pillələrində başqalarından fərqləndiyini nümayiş etdirmək* ideyaları meydana atılmışdır. Bu mənada ucalıq, yüksəklik Bəxtiyar Vahabzadənin nəzərində zirvə, dağ və göylə assosiasiyada təqdim olunur.

*Bir rəngi yox, göylərin min rəngini sevirəm,*
*Bir gülü yox, güllərin çələngini sevirəm.*
*Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,*
*Həyatı həyat kimi yaşamaq istəyirəm.*

Şairin "Gülüstan" poemasınadək keçdiyi yaradıcılıq yolu axtarışlar, mövqeyinin müəyyənləşməsi və gen yaddaşının oyanması ilə xarakterizə olunur. 1959-1969-cu illər arasında isə o, milli ruhlu söz sənətkarı kimi haqqın carçısına çevrilib humanizm mövqeyində durur və hamını mənsub olduğu xalqın dilinin saflığı, kökünün dərinliyi, soyunun ululuğu, uzaq keçmişindən qalan inanclar, adətlər, tarixi ənənələri barədə düşünməyə çağırır. Manifest xarakterli "Dağda şəlalə kimi" şeirində B.Vahabzadə daim döyüş meydanına cıxmağı bacarmağı yaşamağın əsas mənası sayırdı:

*Göydə qürub çağı da, dan yeri də gözəldir,*
*Həyatın sevinci də, kədəri də gözəldir.*
*Həyat – bir cıdır düzü, bir döyüş meydanıdır.*
*Hər kəsi öz cürəti, öz qüdrəti tanıdır.*

Bütün yaxşı cəhətlərin mənbəyini göydə, işıqlı aləmdə axtaran B.Vahabzadə mübarizə, döyüş üçün stimul yaratdığından kədərdə

də gözəllik tapır və həyatı həyat kimi yaşamayanlara, “namusu xərcləməkdən çəkinməyənlərə”, “gündən qaçıb həmişə kölgə axtaranlara” qarşı üsyan qaldırır. Ona görə ki, onlar:

*Atlarını daşlığa salıb səyirtmədilər,*
*Adları kişi oldu, ömürdə bircə kərə*
*kişilik etmədilər.*

Sovet ideologiyasının ən mühafizəkar çağında bir çox şeirlərində onlarla arxetipik simvoldan - *isti-soyuq, axşam-səhər, təpə-dağ, dərya, göy, ulduz, dəniz, günəş, şaxta, qar, boran* və s. istifadə edərək insanın hansı misiya ilə dünyada yaşamasını cəsarətlə irəli sürlür. Sair kommunist partiyasının artıq mübarizəyə ehtiyac qalmadığını irəli sürdüyü məqamda dağda şəlalə kimi çağlamaq istəyini açıq-aydın bəyan edirdi. Çünki xalqının haqqı tapdalanmış, Yer üzündə Azərbaycan türklərinə məxsus məkana şər gözlər dikilmiş, dünəni şübhə dumanına bürünmüş, əcdadları danılmış, millət adı belə zorla əlindən alınmışdı. Bütün bunlar elə məharətlə yerinə yetirilmişdi ki, üzdə fitnə-fəsad şəklində görünmür, milli ruhun öldürülməsi üçün saxta “dostluq”, “qardaşlıq” şüarları irəli sürülürdü. B.Vahabzadə anlayırdı ki, Azərbaycanı parçalayanların nəvə-nəticələri babalarının məkrli əməllərini “papış tikməklə” davam etdirir, pambıqla baş kəsirlər. Ona görə də soydaşlarını gücünü tükənməz şəklə salmağa, döyüşkən ruhunu oyatmağa səsləyirdi:

*Yaşamaq istəmirəm sürünüb dizin-dizin,*
*İstəyirəm **ən uca zirvələrə** mən qonam.*
*Xəfif sakitliyini neyləyirəm dənizin,*
*Onun qasırğasına, dalğasına vurğunam.*
*...**Çağlamaq istəyirəm dağda şəlalə kimi**,*
*Səpilmək istəyirəm çöllərə lalə kimi.*
*Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,*

*Göylərdə **ulduz kimi** mən yanmaq istəyirəm…*

Hər kəs nailiyyətlərdən danışanda heç vaxt *«pillələrlə aşağı enirəm»* demir, *«yuxarı qalxıram»* kəlmələrini işlədir. Eləcə də yarışlarda uduzan tərəflə bağlı söyləyirlər ki, *«rəqibi üzərində qələbə çaldı»*. Təbiidir ki, rəqibin altına düşən - aşağıda qalan üstünlükdən danışa bilməz. Dildə belə bir fikir də işlədilir: *«Hökmdarın nəzəri həmişə rəiyyətinin üstündədir»*, yaxud el alqışlarında vurğulanır ki: *«Atanızın kölgəsi həmişə başınızın üstündə olsun!»* Birinci fikirdə «üst-yuxarı» iqtidarlığı, ikincidə «böyüklüyü» mənalandırır.

«Yuxarı» ideyasının çoxsaylı assosiasiyalarının nəticəsində formalaşan obrazlar: *yüksəkdə uçan quşlar, havaya atılan oxlar, dağlar, ulduzlar, göydələn ağaclar, sıldırım daş qayalar* və *nəhəng qalalar* başqa mənalarla yanaşı (digər anlamları tamamilə fərqli olsa da) dəyəri, arzunu, uğuru bildirir. «Aşağı» sözünün kontekstində isə sadalananların əksi özünə yer alır. Ən xarakter hal budur ki, *«baş ucalığı»* şərəfi, mənliyi, ləyaqəti ifadə etdiyi kimi, *«ayaqlar altına enmək»* namərdliyi, şərəfsizliyi anladır. «Kimlərinsə qarşısında başı aşağı olmamaq», «həyatın dibinə düşməmək» üçün özümüzü gözütox, nəfsi yüksək göstəririk. Təsadüfi deyil ki, «aşağı»lıq Azərbaycan türklərində kişiliyə yaraşmayan hərəkət sayılır. Ona görə də şairin yaratdığı ana obrazı:

*Dolanırdı quş kimi*
*balasının başına.*
(“Mən onu dəyişmərəm” şeirindən)

Yaxud:

*«Başın sağ olsun» - deyib*
*Dağıldılar, getdilər.*

(“Borc” şeirindən)

Mifoloji sistemlərdə və dini inamlarda «yuxarı» Yaradıcının məskənidir, «aşağı» isə onun yaratdıqlarının şərlə əlaqələrinin yerləşdiyi yerdir. Aşağıdakı (miflərdə ortadakı) bolluğun, bərəkətin, xeyirin, haqqın təminatçısı da yuxarıdır. Bu mənada B.Vahabzadə poeziyası ancaq yüksəkliyə meyillidir:

*Qalxıb zirvəsinə uca bir dağın*
*Burdan seyr edirəm ənginlikləri.*
*Qəribə duyğular hey axın-axın,*
*Süzülür qəlbimə bayaqdan bəri.*

(“Ucalıq” şeirindən)

Lakin bəzən aşağıda Yaradıcının iradəsindən kənar qüvvələr də fəaliyyət göstərir və insanlar şərin artıb çoxalmasına şərait yaratdıqda yuxarının qəzəbinə tutulurlar. Onu da qeyd etmək lazımdır ki, hər iki tərəflə bağlı əksliklər də özünü biruzə verir. Yuxarı uğurlara yol açmaqla yanaşı, həm də fəlakətlərin (tufanın, qasırğanın) törədicisidir. Eləcə də aşağı insanın nüfuzuna xələl gətirməkdən başqa, digər əks funksiyanın daşıyıcısıdır (bərəkət, bolluq diyarıdır).

Sair aşağıdakı şərliklərdən bezəndə kimsəsiz dağ zirvəsinə üz tutur:

*Çıxdım dağ başına bir səhər çağı,*
*Ayağım altında daşlar da dindi.*
*Mənə göz elədi hər gül yarpağı,*
*Ürək təzələndi, ruh təzələndi.*

(“Dağ çiçəkləri” şeirindən)

Doğrudur, dilin frazeoloji inkişafında bu cəhət az iz qoysa da, mifopoetik yaradıcılıqda böyük rol oynamışdır. Belə ki, səxavətli

yer üzü «aşağı»da yerləşir. Anaların anası torpaq bütün canlıları qida ilə təmin edir. «Yuxarı - aşağı»nın daxi-li ziddiyyətləri və bir-biri arasındakı qarşıdurmalar konkretləşəndə uyğun olaraq göy - yer şəklində ümumiləşdirilir və iki qlobal mifik obraza çevrilir, mifik dünya modelinin ən mühüm elementlərinin yerini tutur. B.Vahabzadənin misralarında göstərilir ki, yuxarının - göyün əlçatmazlığına baxmayaraq aşağıdakılar - yerdəkilər bəzən ona daş atırlar. Günəşin dağlardan boylanması, yağışın göydən yağması ilə yer üzünün bərəkəti artır:

*Təbiət dirçəldi, həyəcana gəldi,*
*Günəş gülümsündü dağlar başından.*
*Torpaq cana gəldi, yer cana gəldi,*
*Tıpır-tıpır yağan yay yağışından.*

(“Yağış və torpaq” şeirindən)

Ümumiyyətlə, Azərbaycan mifoloji görüşlərində yuxarı-aşağı bir neçə tərzdə anılır: *Birinci halda,* Günəş gündüzlər, Ay gecələr ən ali və hər şeydən yüksəkdə duran varlıqlardır. Aşağıdakılar onun övladlarıdırlar. *İkinci halda,* Dağ Günəşin və Ayın yerini tutur, onların funksiyasını öz üzərinə götürür. *Üçüncü halda,* bütün varlıqların yaradıcısı onların üstündə dayanan Göy üzüdür - Göy tanrıdır. İşıq da, bolluq - bərəkət də, qaranlıq - bəlalar da ordan gəlir. *Dördüncü halda,* göy özü iki yerə parçalanır: gündüzlər İşığın, Odun - xoşbəxtliyin, gecələr isə Qaranlığın, Soyuğun - fəlakətlərin məskəninə çevrilir. Deməli, yüksəkliyin, ucalığın əzəmətini əbədi qoruyub saxlamaq üçün İşıq və Odun zamana daimi sahibliyi gərəkdir. Bu isə o vaxt gerçəkləşə bilər ki, xeyir şərə - qaranlığa qalib gəlsin. *Beşinci halda* yuxarı qatlardan ibarətdir, ən yüksəkdə Vahid - tək Allah oturmuşdur, aşağının da mərtəbələri var, ən dərin və qızğın yerdə (atəşpərəstlikdə soyuq) haqq-hesab çəkilir. Göründüyü kimi, ulu əcdadın ilkin təsəvvürlərində bütün yaranışların kökü göylə bağlanır.

İlahi qüvvələrin qarşılaşması, təbii fəlakətlərin mənbəyi, bolluğun, bərəkətin artmasının səbəbləri, ilin zaman bölgülərində təbii şəraitin dəyişmələri, gecənin gündüzlə, isti havaların soyuqla əvəzlənmələri - bütün funksiyalar yer üzünə səmadan keçir, hər şey yuxarıdan idarə olunur, insanların aşağıda (miflərdə orta qatda) - yer üstündə fəaliyyəti, yaşamaq uğrunda mübarizəsi xeyirlə şər qarşılaşmasının nəticələri kimi götürülür. Şair gen yaddaşından gələn təsəvvürlərə əsaslanaraq bu qənaətləri ümumiləşdirib "Zəhmətimiz" şeirində bildirir:

*Allah deyə-deyə min il, milyon il,*
*Dikildi insanın gözü göylərə.*
*Əvvəlcə xəyalı gəzdi səmanı,*
*Hələ getməsə də özü göylərə.*

*Yazdı zəkasının təntənəsini*
*İnsan ayağının izi göylərə.*
*Demə zəhmətimiz qüdrətimizmiş,*
*Ucaltdı torpaqdan bizi göylərə.*

Y.M.Lotman şeirin struktur təhlilini aparanda mifoloji amillərin hətta müasir poeziyanın da ən sirli cəhətlərinin, görünməyən tərəflərinin əlaqələndiricisi rolunu yerinə yetirdiyini göstərir. Poetik fiqurların dünyanın quruluşuna uyğun verilməsi bir tərəfdən ənənədən gəlir, digər tərəfdən «arxetiplər» təliminə uyğun olaraq alimin yaradıcılığına üz tutduğu söz sənətkarının (N.A.Zabolotski) həyatda çətinliklərlə qarşılaşıb psixoloji hallar keçirməsindən doğur. «Yuxarı-aşağı» modelinin cəmiyyətdəki əksliklərə şamil edilməsindən danışanda Y.M.Lotman bildirir ki, «yuxarı» həmişə «uzaq», «aşağı» isə «yaxın» anlayışlarına sinonimdir. Ona görə də hər bir hərəkət son nəticədə ya aşağı, ya da yuxarı istiqamətlənir. Hərəkətin təşkili də bu səbəbdən yalnız bir şaquli oxla şərtlənir».

Bədii əsərlərinin poetik strukturu bütünlüklə ilkin təsəvvürlərdən, xalq inanclarından qidalanan B.Vahabzadə kimi şairin yaradıcılığının mifoloji modellərə uyğunluğu ilk baxışda təəccüb doğursa da, əslində əsas mənəvi sərvət sayılan ölçülü-biçimli poeziyanın ilhamdan - dünyanı idarə edən qüvvədən, kənar enerjidən doğduğunu sübuta yetirir. Çünki şeir adi informasiyanın ruhun dərin qatlarından keçirilməsi, xəyali dünyalarda obrazlaşması və kodlarla, işarələrlə, simvollarla əksidir. Bu mənada B.Vahabzadəyə görə, a) yüksəklik, kamillik, haqq (ədalət), xeyir, yaradıcılıq vüsəti, işıq, istilik, gerçəklik, uzaqlıq, genişlik, inkişaf//fəaliyyət, metamorfoza, azadlıq // müstəqillik, müxtəlif məzmunlu dolğun informasiya, fikir // düşüncə (əməl, mədəniyyət), mənəvi varlıqlar, yaradıcılıq potensialı (yeni formalar yaratmaq), harmoniya // tarazlıq, əbədiyyət, yaşarlığın mənbəyi **yuxarıda**; b) alçaqlıq, nadanlıq, zülm, şər, mütilik, zülmət, soyuqluq, yalan (uydurma), yaxınlıq, sıxlıq, fəaliyyətsizlik, mexaniki hərəkət, əsarət // köləlik, məddahlıq, təbiət // maddi varlıqlar, qabiliyyətin yoxluğu, qarışıqlıq, durğunluq, ölüm isə **aşağıda** yerləşir.

Dahi Nizami kimi B.Vahabzadə də belə qənaətə gəlir ki, eşq aşağı ilə yuxarı arasında vasitəçilik edib tarazlıq yaratmasaydı, dünya məhvərindən çıxardı, yüksəklik - alçaqlıq, kamillik - nadanlıq, haqq (ədalət) - zülm, xeyir - şər, istedad - mütilik, işıq - zülmət, istilik - soyuqluq, uzaq - yaxın, genişlik - sıxlıq, inkişaf (fəaliyyət) - fəaliyyətsizlik (tənbəllik), metamorfoza - mexaniki hərəkət, azadlıq (müstəqillik) - əsarət (köləlik), informasiya - məddahlıq, fikir // düşüncə (mədəniyyət) - təbiət, mənəvi aləm - fiziki aləm (maddi varlıqlar), xəyali obrazlar - gerçəklik, yaradıcılıq (yeni formalar tapmaq) - qabiliyyətin yoxluğu, harmoniya (tarazlıq) - qarışıqlıq, əbədiyyat - durğunluq, gerçəklik - yalan (uydurma), həyat - ölüm qarşıdurması təzədən xaos yaradardı. Məhəbbətin atəşi yuxarıdan aşağıya doğru uzanan düz ox boyu çoxaldıqca pisliklərin, mənfiliklərin gücü tükənir, fəallığı sönür. Və B.Vahabzadənin insan-

lardan ən böyük istəyi odur ki:

*Çıraq ol! Nurunu artır günbəgün,*
*Hər yerdə həyatın boğ zülmətini.*
*Məncə, çıraq olub başqalarıyçün*
*Yananlar tapıbdır səadətini!*

***Ramazan Qafarlı***

* * *

Xalq şairi Bəxtiyar Vahabzadənin çoxcildlik “Əsərləri”nin 3-cü cildinə onun ötən əsrin 60-cı illərində (1960-1067) yazdığı şerlərin bir qismi (onların böyük əksəriyyəti, 320-dən çox şeir 2-ci cilddə verilmişdir) daxildir. Həmin şerilər “Səyahət dəftərindən”, “Nəğmələr”, “Uşaq və məktəb dünyası” bölmələrində toplanmışdır. Cilddə, həmçinin, şairin həmin dövr yaradıcılığının məhsulu olan 10 epik və lirik poeması da çap olunmuşdur. Təkcə B.Vahabzadənin öz yaradıcılığının uğurları deyil, həm də o illər ədəbiyyatımızın nailiyyəti sayılan “Etiraf”, “Ağlar-güləyən”, “Yollar-oğullar”, “Həyat-ölüm”, “Təzadlar”, “Dörd-yüz on altı” kimi məşhur poemalar da onların arasındadır. Müxtəlif mövzularda yazılmış bu şeir və poemalar şairin yaradıcılığına, ümumiyyətlə, xas olan fəlsəfi təfəkkür, insanın mənəvi-əxlaqı və psixoloji aləminə dərindən nüfuz etmək, vətəndaşlıq qayəsi, insanın, doğma xalqının, bütönlükdə, bəşəriyyətin taleyi üçün narahatlıq, güclü həyati müşahidələrə əsaslanan zəngin obrazlı bədii dil birləşdirir. Xarici ölkələrə səyahət təssüratları altında yazılmış şerilərində, xüsusilə poemalarında şair uğurlu bir bədii üsuldan - hadisə və mətləbləri başqa məkan və zamana

keçirməklə, bir növ, "qızım sənə deyirəm, gəlinim sən eşit" üsulundan məharətlə istifadə edərək, o illərdə açıq demək mümkün olmayan həqiqətləri, əslində, imperiya əsarətində olan, maddi və mənəvi sərvətləri əsrlər boyu yadellilər tərəfindən talan edilən doğma xalqının milli azadlıq amallarını tərənnüm etmiş, totalitar sovet rejiminin bir sıra sosial-mənəvi eybəcərliklərini cəsarətlə qamçılamışdır. Tam inamla demək olar ki, B.Vahabzadənin digər əsərləri kimi, bu əsərlər də xalqımızın milli-mənəvi oyanışında və özünə qayıdışında, müstəqillik ideologiyasının yaranmasında, təşəkkülündə və inkişafında önəmli rol oynamışlar.



# SƏYAHƏT DƏFTƏRİNDƏN

*Hansı dilə ölü deyək:*
*Vətən varkən,*
*Millət varkən,*
*Kiçik, yoxsul komalarda*
*dustaq olan bir diləmi?*
*Yoxsa, uzun əsrlərdən*
*keçib gələn,*
*Xalqı ölən,*
*Özü qalan bir diləmi?*



## GÖZLƏRİM

Çox şey bəxş eləyib təbiət mənə:
Görmək, hiss eləmək, eşitmək, duymaq.
Bu qoca dünyanın sirlərinə
Bütün bu nemətlər bəs deyil ancaq.

“Qurğuşun asılar idrakımızdan
Bir məna güzğüylə baxsaq hər şeyə;
Ürəklər aldadır bizi çox zaman,
Ağıl da işləmir çox dərinliyə”.

Yenə də gözlərdir hər şeyi düzgün,
Hər şeyi apaçıq bizə göstərən.
Dünyanı azacıq dərk etdiyimçün
Yenə gözlərimə minnətdaram mən.

Gözlərim şövqünü salır dərinə,
Açılır önümdə göy varaq-varaq.
Qulaqlar inanır özgələrinə,
Gözlərsə özünə inanır ancaq!..

*Mart 1961*

## RAFAELİN QƏBRİ ÜSTDƏ

Bir qapını açmaqçın
Min qapını bağlayan,
Qılıncını ildırım,
Özünü Allah sayan
Kralların məzarı
Mərmər daşlar içində.
Hamısı bir ölçüdə.
Hamısı bir biçimdə.
Məzarlar bər-bəzəkli,
Məzarlar təmtəraqlı.
Zər yazılar, naxışlar
Heyran qoyar hər ağlı.
Panteonda sol əldə
Bircə sadə məzar var,
Nə üstündə zər yazı,
Nə də qızıl naxışlar.
Belə bəzək-düzəyə
Ehtiyacı yox onun,
Ən böyük zinətidir
O, özü panteonun.
Yatır burda sənəti
Dünyalara səs salan,
Can verdiyi cansıza
Özü də heyran qalan,
Ömrü insan kədəri,
Eşqi gözəllik olan
Bir ustalar ustası...

O, rənglər sultanıdır.
Onun adı dünyanın
Şərəfidir, şanıdır.
Orqan da bir tərəfdən
Həzin-həzin ağlayır,
“Ave Mariya” - deyə,
Səslər də gəlmiş bu gün
Bu məzarı səcdəyə.
Misilsiz gözəlliyi
Bəlkə də o gətirmiş
İlk dəfə bu cahana.
Heyran olmaq dərsini
O öyrətmiş insana.
Zamanın rüzgarına
Sinəsini gərmiş o,
Lövhəsinə baxanı
Lövhəyə döndərmiş o.
Qəlbinin atəşini
Yeddi rəngə o qatmış,
İnsan duyğularının
Min rəngini yaratmış.
Qüsursuz gözəlliyi
Yaratmaq bu dünyada
Nəsib olmuş tək ona.
Allah belə darılmış
Onun yaratdığına.
Hamı gəlib dayanır
Bu məzarın önündə,
Hamı əyir başını
Sənətkarın önündə.
Təkcə bu qəbrin üstə

Gül dəstəsi qoyulmuş.
Məhəbbətin töhfəsi
Yenə məhəbbət olmuş.
Krallar özləriyçün
Panteon tikdirdilər.
Ancaq istər-istəməz,
Onun şərafətini
Rafaelə verdilər.
Orqan nalə çəkərək
Həzin-həzin inləyir,
"Yaşa Mariya" demir,
"Yaşa Rafael!" - deyir...

*Fevral 1961, Roma*

## "İSTİQLAL"*

Ramazan ayında oruc tutub sən,
Kimi doydurursan, qardaş, de kimi?
Öz ana yurdunda səni qul edən
Varını talayan yadellinimi?

Yadlar geyindikcə, lüt qaldın özün,
Sərvətin, dövlətin göz dağın oldu.
Gəlmələr evində şişdi günbəgün,
Evinin sahibi qonağın oldu.

Öz ana yurdundan özünə təkcə
Torpağı qazdığın xış qaldı, qardaş!
Madrid küçələri hey genəldikcə,
Sənin küçələrin daraldı, qardaş!

Bir zaman nə idin, bəs indi nəsən?
Su axdığı yerdən yenə axacaq.
Köhnə cəlalını görmək istəsən,
Madridə, Parisə, Nyu-Yorka bax!

Yetər, əsrlərlə çəkildin şişə,
Hərrac bazarında satıldı dərin.
Biz yaxşı bilirik: boynu həmişə
Pambıqla kəsilmiş əyilənlərin!

---

** 1943-cü ildə Mərakeşdə yaranmış partiyanın adıdır.*

Ayağa qalxmışdır artıq vətənin,
Qoy onun önündə diz çöksün zaman.
Öpürəm, qardaşım, öpürəm sənin
İstiqlal söyləyən dodaqlarından!

*Fevral 1961, Tetuan*

## MAVİ MAĞARA

Ləpə vurur, oynaşır
köpük-köpük halqalar.
Bir qayanın dibində
oyuq açmış dalğalar.
O, böyümüş, genəlmiş
neçə yüz ildən bəri,
Min qayığa, oyuqdan,
gir astaca içəri.
Oyulmuş sal daşların
içində bir mağara.
Adamı vəhmə basır,
göz qaralır bu ara.
Üstün daş, altın dəniz,
qarşın zülmət, yerin dar.
Avar suya dəyincə,
gəlir qulaqlarına
qəribə pıçıltılar.
Qayığın asta-asta
ləngər vurur yerində...
Əlvan rənglər oynaşır
qaralan gözlərində...
Qəribə səslər ilə
uğuldayır mağara.
Ürəyində deyirsən:
"Dəniz hara, mən hara!?"
Qorxa-qorxa çevrilib
arxana boylanırsan.
Sən özünü bu zaman

qəribə, əfsanəvi
bir dünyada sanırsan.
Dalğalanır sularda
mavi işıq sütunu.
Səmayamı bənzədim,
çəmənəmi mən onu?
Elə bil qırıq-qırıq
gömgöy şüşədir sular;
Bu mavi sular kimi
ürəyimdə göyərib
dalğalanır duyğular.
Dəniz suyu deyil bu,
yox, nəsə özgə sudur.
Su da deyil, bəlkə də
gözdən axan uyqudur,
Düşüncədir, xəyaldır
alıb məni qoynuna;
Düşünmək istəyirəm
hey baxdıqca mən ona.
Mənə elə gəlir ki,
özgə əyyamdır əyyam;
Nənəmin danışdığı
nağıl dünyasındayam.
Deyirəm ki, bəlkə də
insanın xəyalını–
dərdli, qəmli halını
yaradırkən Rafael.
Nəzər salmış bu mavi,
bu düşünən sulara.
Bu sulardan rəng almış
narahat duyğulara.

Düşüncəni, xəyalı
mavilikdə o görmüş,
Düşünən gözlərdəki
Kölgələrin rəngini
bu sulardan götürmüş.

*Fevral 1961, Kapri adası*

## AĞLAYAN PƏRİ

Gözəl bir qız heykəli,
Çənəsində sağ əli,
Düşünür incə-incə;
Daş üstündə düşüncə?!
Onun sol yanağında
Göz yaşı giləlenmiş.
Elə bil şeh çilənmiş
Üstünə ağ çiçəyin.
Bu günahsız mələyin
Kədərini, qəmini,
Öz gizli aləmini
Soyuq daşa həkk edən
Sənətə heyranam mən.
Mərmər ağdır, qəm qara,
Ağ rəng hara, qəm hara?
Çöküb bir axşam kimi
Dalğın baxışlara qəm,
Ağ daşın sinəsindən
Baş qaldırıb qara qəm.
Daş üstündə duyğu, can?!
İnsan duyğularından
Gör bir nələr yaranmış,
Möcüzələr yaranmış!
Can vermiş insan əli
Xarabazar dünyanın
Torpağına, daşına;
Bu heykəldə qəlb odu
Soyuq daşı çevirmiş

İsticə göz yaşına.
Daşda ürək döyünür,
Baxıram dönə-dönə,
Barmağımı qoyuram
Göz yaşının üstünə.
Əlim yanır elə bil.
Yox, yox, bu, heykəl deyil.
Ağlayan bir pəridir,
Qulağımda səslənən
Onun nalələridir.
Əyri-əyri o baxır
Usandığı cahana...
Sənət verən bir cana
Ölüm yoxdur, o sağdır!
Nə qədər ki, insanın
Arzuları gülməmiş
O qız ağlayacaqdır!.

*Fevral 1961, Roma*

## MUMİYA

Mumiyası muzeydədir
Əzəmətli bir firounun.
Dəvə boyda canı varmış,
Gövdəsinə bir bax onun!

Əzəl gündən qoca dünya
Hər gedəndən bir şey alır;
Kimindən əməl qalanda,
Kimindən də bədən qalır.

*Fevral 1961, İstanbul*

## BİRCƏ AYDA

Qışdan çıxıb yaya düşdük,
Yaydan çıxıb qışa düşdük.
Biz küləkdən qanad alıb,
Fəsillərlə hey ötüşdük.

Bir ölkədə alça yedik,
Bir ölkədə biz çiyələk.
Bir şəhərdə palto geydik,
Bir ölkədə dümağ köynək.

Bircə ayda dörd fəsili
Yaşadıq biz.
İqlimləri birləşdirdi
Sürətimiz.

*Fevral 1961, Konakri yollarında*

## MİKELANCELONUN
## “KƏDƏR”İ ÖNÜNDƏ

İsanın cəsədi uzanıb lal, kar,
Dizləri üstündə ana Məryəmin.
Saçır atəşini solğun baxışlar
Ana qəlbindəki o sonsuz qəmin.

Baladır ananın imanı, dini,
Ucalır bu dinlə göylərə torpaq,
Məryəm ağı deyir... onun səsini
Hər kəs öz qəlbində eşidir ancaq.

Baxıram heykələ..., mən heyrətdəyəm...
Necə yerindədir hər xətt, hər qırış!
Dizləri üstündə Məryəmin bu dəm
Elə bil doğrudan ölü uzanmış.

Heykələ baxıram, fikri dumanlı,
Ömür vəfasızdır, əcəl amansız.
Məryəmə baxıram, kədəri canlı,
İsaya baxıram, cəsədi cansız.

Məryəm heykəldə də canlıdır, əlbət,
Axır damarından elə bil qan da.
Özgə bir can verib İsaya sənət
Ölü cəsədinin cansızlığında.

*Fevral 1961, Roma*

## GƏMİLƏRİN DİLİ

Dəniz zülmət içində, uğuldayır dalğalar.
Hər vəhşi uğultuda min ölüm hədəsi var.
Könül mənalandırır dənizdəki hər səsi,
Gecələr yaman olur dənizin vahiməsi.
Zülmətin sinəsini yara-yara gəmilər,
Yol alır bu diyardan o diyara gəmilər.
Nə yorulur gəmilər, nə dincəlir gəmilər,
Gəlir, gedir gəmilər, gedir, gəlir gəmilər.
Gözümü zilləyirəm qaranlığa dəmadəm,
Heç nə görə bilmirəm, heç nə görə bilmirəm.
Dəniz qarışıb göyə, göy qarışıb dənizə,
Heç nə görünmür gözə, heç nə görünmür gözə.
Gözlərimin önündə əlvan-əlvan halqalar,
Uğuldayır dalğalar, uğuldayır dalğalar...

Birdən xeyli uzaqda yanır, sönür bir işıq,
İşıq-ümid, səadət, qaranlığa yaraşıq.
İynə kimi zülmətin bağrını dəlir işıq,
Uzaqdan gəlir işıq, uzaqdan gəlir işıq.
İşıq fərəh gətirir, gözləri nurlandırır,
İşıq üzümüzdə də sanki işıq yandırır.
Gəmilərin dilidir o görünən işıqlar,
Yanıb-sönən işıqlar, yanıb-sönən işıqlar.
Şirin-şirin danışıb qaranlıqda gəmilər,
Bir-birinə uzaqdan uğurlu səfər dilər.
Hansı dildə danışır bu gəmilər, görəsən?
Bunu anlamıram mən, bunu anlamıram mən.

Arzu, ümid dilində danışıb zaman-zaman,
Onlar gəzir cahanı, onlar gəzir cahanı.
Başqa-başqa olsa da, dorlarından asılan
Bayraqların nişanı, bayraqların nişanı.

*Fevral 1961, Atlantik okeanı*

## İSTANBUL

Bosfor körfəzi...
İki qitə
Söykənmiş bir-birinə
Ortasında bu yolun.
Bir tərəfi Avropadır,
Bir tərəfi Asiya
İstanbulun...
Türk oğlu durub ortada
Seyr edir
Sağını,
Solunu.
Bir şəhərdə birləşir
İki qitə.
Birinin başlanğıcıdır,
Birinin sonu...
Sol tərəfində
Dəbdəbəli keçmişindən yadigar qalan,-
Başı göylərə ucalan
Cameləri, bürcləri, qələləri;
Durur min ildən bəri.
Sağ tərəfində
Modern evlər, banklar, otellər...
Türk oğlu
Gözlərindən suallar yağa-yağa,
Gah sola baxır, gah sağa.
İstanbulun keçmişi vüqarlı, şanlı,
Bu günü özünə yad.

Gələcəyi dumanlı...
Bu gün
Bir ayağı Avropadadır,
Bir ayağı Asiyada
Türkün.
Qulaqlarında motor səsi,
Dilində “QuranQ surəsi
Türkün.
Zaman onu dilləndirir,
Əsrin ahənginə səs verir
Düşünüb dərindən;
Ancaq babası çəkir ətəklərindən.

Çırpınır şəhər
İkilik içində.
Düyüm-düyüm olmuş fikirlər
Əsrin keşməkeşində...

Bir şəhərdə görüşür
İki dünya, iki aləm.
Tapacaqdır, əminəm,
Türk oğlu haqq yolunu.
O, hələlik seyr edir
Sağını,
Solunu...
Ürəyi Şərq ürəyi,
Ağlı Qərb ağlıdır
Türkün.
Bu təzaddan
Sinəsi dağlıdır
Türkün.

Durub hiss ilə ağıl arasında.
Həqiqətlə nağıl arasında.
İrəlimi getsin,
Geriyəmi dönsün?!
Keçmişindən qopa bilmir,
Bu gününü
Tapa bilmir.
Axtarır,
Axtarır,
Axtarır.
Qarşıda işıq var,
Axtaran tapar!...

*Fevral 1961, İstanbul*

## AÇIQ ŞƏHƏR

"Açıq şəhər" qoydular
Adını hamilərin. Sən açılıb saçıldın,
Soyuldu qat-qat dərin.
Qapıların taybatay
Açılandan bu yerə
Düşdün yaman əllərə.
"Beynəlxalq şəhər" oldun
Sən hərraca qoyuldun.
Ağaclar oldu sənin,
Meyvələri özgənin.
Yandı könlündə nifrət,
Balan xoş günə həsrət,
Özün özünə həsrət.
Qumlu düzlərin kimi
Yandı bağrının başı
Dondu yanaqlarında
Övladının göz yaşı.
Sən ey sinəsi dağlı,
Qapın üzünə bağlı!
Sən ey başı bəlalı,
Hamıya açıq oldun,
Sahibinə qapalı.
Oldun yadlara möhtac,
Yersiz gəldi, yerli qaç!
Öz oğluna, qızına
Güzəran çətin oldu.
Gələn qara ehtiyac
Gedən ismətin oldu.

Elin də getdi əldən,
Dilin də getdi əldən,
Uçurmaq istədilər
Dönməz iradəni də,
Ruhunu da təməldən.
Ancaq bacarmadılar.
Nifrət coşub sel kimi
Qəlbinə doldu sənin.
Zülmlə qazandığın
Bu nifrət oldu sənin.
Hər gecənin gündüzü.
Hər zülmün də sonu var.
Qardaş, topla, tüfənglə
Açılan bu qapılar,
Aşıb-daşan nifrətin
Gücüylə də qapandı
Ərəb oğlu yenə də
Öz gücünə tapındı...

*Fevral 1961, Tanjer*

## ATILMAYAN TOPLAR

Daş barılar, qalalar,
Bürclər durur yanyana.
Onlar keşik çəkirlər
Sultanın sarayına.
Toplar da tuşlanıbdır
Daş barıdan şəhərə.
Toplar bura gələli
Atılıbmı bir kərə?

Yox! Niyə də atılsın?
Sultanın bu dünyada
Nə dərdi, nə qəmi var.
Axı, niyə atılsın
Axı, niyə, bu toplar?

Gəlmələr yerliləri
Çapır da, talayır da...
Sultan hasar içində,
Millət isə bayırda...
Toplar da mürgüləyir,
Elə bil yasa batmış,
Təkərləri əyilmiş,
Lülələri pas atmış...

Yadlar hücum çəkdilər,
Yadlar doldu şəhərə,
Paslı toplar dinmədi,

Atılmadı bir kərə.
Sultan öz aləmində,
Sultan öz kefindədir.
Axı, ona nə var ki,
Milləti nə gündədir.
Toplar atılmadı ki,
Sultan diksinə bilər
Güllələrin səsinə.
Niyə zəhər qatılsın
Kişinin nəşəsinə...
Yadların tapdağında
Vətən oldu tarımar.
Axı, niyə atılsın,
Axı, niyə, bu toplar?

Millət ölür acından
Lüt gəzir, üryan gəzir,
Əcnəbinin önündə
Sultan özü müntəzir...
Öz dilindən də gözəl
Bilir firəng dilini
Axı, Parisdə alıb
Sultan öz təhsilini.
Arvadı firəng qızı,
Övladı da firəngdir,
Bilmir ərəb dilini
Axı, niyə də bilsin,
Bu dil kimə gərəkdir?..
Sultanın firənglərə
Çox böyük hörməti var,
Axı, niyə atılsın,

Axı, niyə, bu toplar?..
Vətən əsir olubdur
Gəlmələrin əlində...
Ərəbin öz elində;
Məktəb firəng dilində,
Qəzet firəng dilində
Elmi-nücum yaradan
Ərəb dili bəs hanı?
Qaldırın məzarından
Böyük Əbül Vəfanı*.
Qoyun o qoca loğman
Tarixi varaqlasın.
Hanı Müərri şeri?
Bu günə qan ağlasın!
Sultan öz sarayında
Qulaq asır nəğməyə,
Şərab içib məst olur
"Dünya fanidir"- deyə
Onunçün bu dünyada
Bir qadın, bir şərab var
Axı, niyə atılsın,
Axı, niyə, bu toplar?

Topların üstündəki
Nişana bax, nişana,
Əcnəbi özü satmış
Bu topları Sultana.
Bu toplar məmləkəti
Qorumaq üçün deyil,

---

** X əsrdə yaşamış böyük ərəb filosofu.*

Yada satmaq üçünmüş.
Yurdu verib özgəyə
Rahat yatmaq üçünmüş.
Bu toplar özgələrdən
Qorumurmuş bu yeri.
Öz doğma millətindən
Qoruyur gəlmələri.
Sultan özü bəxtiyar,
Gözləri süzgün, xumar.
Axı, niyə atılsın
Axı, niyə, bu toplar?..

*Tetuan, fevral 1961*

## BİR ÜZDƏ
## İKİ DÜNYA

Sağ tərəfdən baxıram:
Üzü gülür heykəlin,
Sol tərəfdən baxıram:
gözündən damla-damla
yaş tökülür heykəlin...
Düz qarşıdan baxıram:
nə gülür, nə ağlayır,
Dünya əzablarından
elə bil can saxlayır.
Elə bil biganədir
dünyanın hər işinə,
Əsrin keşməkeşinə,
zamanın gərdişinə...
Bir üzdə iki dünya
bir üzdə iki aləm.
Bu nə hikmətdir, görən,
heç anlaya bilmirəm?
Düşünürsən: həm gülüb
həm ağlayan dəlidir,
Bu kimin heykəlidir,
bu kimin heykəlidir?
Heykəlin üzündəki
qırışlar dilə gəldi,
Deyəsən, o danışdı,
ya mənə elə gəldi:
"Bir üzündə gün batan,
Bir üzündə gün doğan,

Həm qəlbində gül açan,
Həm qəlbinə qar yağan.
Gündüzünü həmişə
gecələr təqib edən,
Həm dünyada inləyib,
həm dünyanı inlədən,
Adicə bir insanın
heykəliyəm... yaxşı bax!
Həyatın öz hüsnüdür
həm gülmək, həm ağlamaq".
Bu dünyaya gələli
Başı bəlalı insan,
Bir gün şərbət içirsə,
bir gün də zəhər udur...
Gülüşlə göz yaşının
arasında oynayan
Bir saat rəqqasına
bənzərimiz yoxmudur?

*İstanbul, fevral 1961*

## FƏRYAD

*İtaliyanın qədim Pompey şəhəri Vezuvi vulkanının püskürməsindən məhv olmuşdur.*

Vulkan püskürdü birdən,
Bircə anın içində
    Əsər belə qalmadı
Min illik bir şəhərdən...
Şəhər göyə sovrulub
    Yer ilə yeksan oldu,
Min ilin yaratdığı
    Bir ana qurban oldu.
Deyirlər, göylər belə
    Üzünə pərdə çəkmiş,
    Görməməkçün bu halı.
Batdı insan arzusu,
    Batdı insan xəyalı.
Bir şəhərin taleyi
    Axdı bir ulduz kimi.
Yanaqlarda gülüşlər,
    Dodaqlarda kəlmələr
    Donub qaldı buz kimi.
Fəryad qopardı insan,
Lalələrin bağrına
    Xal düşdü birdən-birə
    Bu heybətli nidadan.
Diksindi göy də, yer də,
    Təbiət yasa batdı.
Bu dəhşətli bağırtı

Axşamçağı göylərin
Sinəsini qanatdı.
Keçdi illər, əsrlər
Hər şeyə qadir insan
Yer üzündə beləcə
Çıxdı min imtahandan.
Təbiətlə nə qədər
İnsan üz-üzə gəldi,
Döyüşdə gah əyildi,
Gah dikəlib düzəldi...
İnsan qələbə çaldı,
Min bir arzuya çatdı,
Təbiətin önündə
Qopardığı fəryadı
Daş üstündə yaratdı:
O, diz üstə yıxılmış
Kainatı çağırır
Fəryadıyla imdada,
Sol əli torpaq eşir,
Sağ əliysə havada...
Üzdəki dəhşətə bax,
Qorxuya heybətə bax!
Dolandıqca bu nəhəng
Heykəlin dörd yanına,
Vahimədən adamın
Lərzə düşür canına...
Üzdəki dəhşətə bax!
Qorxuya heybətə bax!
Daş üstündə yaranan
Bu insan fəryadına,
Baxdıqca nələr düşür

Hər baxanın yadına.
Təbiətdən güclüdür
İnsan əzəldən bəri,
Pompeyin birdən-birə
Batmasına baxma sən.
Təbiətin qəzəbi
Məhv etdi bir şəhəri,
Dünya dağıla bilər
İnsanın qəzəbindən.
İnsan öz qəzəbiylə
İnsanlığın kökünü
Kəsə bilər dünyadan,
Bir dəfə öz əlindən
Fəryad qoparar insan,
Yenə dodaqlarda söz
Üzlərdə gülüş donar,
Əməli öz başına
Cidar olan insana.
İnsanın sualı var:
Biz batan bir şəhərin
Acısını düşünüb,
Ah çəkirik bu gün də,
Əgər dünya batarsa,
Bu dərdə ah çəkməyə
Bir nəfər qalacaqmı
Dağılmış yer üzündə?..

*Pompey xarabaları, fevral 1961*

## GİZLİ TƏBƏSSÜM

Əcnəbi sahilə yan alır gəmi,
Şiddətlə döyünür qəlbimiz nədən?
Özgə bir aləmi seyr edir kimi,
Baxırıq sahilə biz göyərtədən.

Burda da adamlar erkən qalxaraq,
Harasa tələsir belədən-belə.
Şəhərlər hər yerdə şəhərdir, ancaq
Adamlar hər yerdə adamdır elə.

Düşürük gəmidən... adamlar bizi
Üzük qaşı kimi alır dövrəyə.
Sıxırlar möhkəmcə əllərimizi,
"Hamımız insanıq, qardaşıq!" - deyə.

Qayğılı üzlərə nəzər salıram
Çalışır, tər tökür insan hər yerdə.
Elə bilirdim ki, adamlar tamam
Ayrı cürə olur yad ölkələrdə.

Hər yerdə insandır insan hər zaman,
Onun min qəmi var, min sevinci var.
İnsanı çıxartmır insanlığından
Dinlər, əqidələr, dillər və yollar.

Bizim dilimizi bilməsələr də,
Gülüşlə nurlanır onların üzü.

Ürəyin dilidir gülüş hər yerdə,
Gülüşdür dünyanın ən gözəl sözü...

Unuda bilmərəm bu gözəl günü,
Xoşdur adamları duymaq ürəkdən.
Onların bir gizli təbəssümünü
Min açıq sazişə dəyişmərəm mən.

*Fevral 1961, Abican*

## BAKI VAXTI İLƏ...

Neapol Bakıya çox bənzəyir, çox,
Dənizə qol atan sahillərindən.
Bir qara daşını Bakımın ancaq
Yüz-yüz Neapola dəyişmərəm mən.

Min atəş qalanır ürəkdə, canda
Yanıqlı Neapol nəğmələrindən.
Ancaq segahımın bircə xalında
Minillik dərdimi dinləyirəm mən.

Çal, Yusif*, de durma, çal, qadan alım,
Sularda səslənsin bizim mahnılar.
Vətənin ətrini nəğmədən alım,
Çal, yenə qəlbimdə bir fırtına var.

Çal, qardaş, bir anlıq qoy qanadlanaq,
Özüm dəryadayam, can vətəndədir.
Dalğalar üstündə nəğməyə bir bax,
Dəryada deyiləm, dərya məndədir.

Nəğmə çalındıqca, qəlb aşdı-daşdı,
Gördüm vətənimi öz qarşımda mən.
Anlaya bilmirəm necə sığışdı
Bu boyda gəmiyə o boyda Vətən?!

---

* *Yusif Səmədoğlu.*

Doğrusu, bu gecə özgə haldayam,
Bilmirəm haradır yurdum, məskənim.
Dənizdə gecədir, mən xəyaldayam,
Qızım dərsə gedir bu saat mənim.

Bakıda səhərdir, mənimçün, bəli,
Burda da səhərdir, saatıma bax.
Mənim saatım da ürəyim təki
Bakı vaxtı ilə işləyir ancaq!

*Mart 1961, Atlantik okeanı*

## VƏTƏN HƏSRƏTİ

Atlantik dəryası...Gecə tən yarı,
Duyğular, arzular sıxır sinəmi.
Udub dalğa-dalğa qaranlıqları,
Afrika boyunca şütüyür gəmi.

Günləri barmaqla hey sayıram mən,
Bir aydır gəzirik yad ölkələri.
Vətənlə daha çox yaşayıram mən
Bu uzun səfərə çıxandan bəri.

Dərya çalxalanıb aşıb-daşdıqca,
Elə bil mən özüm aşıb-daşıram.
Gəmi vətənimdən uzaqlaşdıqca,
Vətənə daha çox yaxınlaşıram!..

*Mart, 1961*

## GÜNAHSIZ MÜQƏSSİRLƏR

*16 ildən çox Egin həbsxanasında yatan iki min yunan vətənpərvərinə.*

Hitlerin ölüm yayan
Əli qanlı bayrağı,
Xaç nişanlı bayrağı
Akropolun üstündə
Neçə il dalğalandı,
Yunanıstan talandı.
Döndü, dolandı dövran.
Faşizmin bayrağını
Akropoldan saldıran,
Qəlbi nifrətlə dolu
İki min yunan oğlu,
Dava qurtaran kimi
Zindanda əsir oldu.
Müqəssiri məhv edən
Özü müqəssir oldu.
Haqqı pərdələdilər,
Xalqın əsl dostuna
Xalq düşməni dedilər.
Səs yayıldı hər yerə,
Zindanlar vətən oldu
Vətəni sevənlərə.
Əli, ayağı bağlı,

İki min yunan oğlu
Zamanın bu çağında
On altı ildir yatır,
Zindanlar qucağında.
Sən bir dərdə, zülmə bax:
Könül
Könüldə dustaq!
Azadlıq verdikləri
O qocaAkropola
Barmaqlıqlar dalından
Onlar baxırlar bu gün,
Gözləri dola-dola...
On beş yaşlı bir oğlan
Sözü, sirri dərində,
Gəzir gözləri yaşlı
Pirey küçələrində.
Zindanın dövrəsinə
O dolanır dəmbədəm.
Atasıyla özünün
Arasında on addım
Olar-olmaz, bilmirəm.
Doğulandan bu yerə,
O hələ bircə kərə
“Ata! Ata” deyilən
Ən əziz bir insanın
Üzünü də görməmiş...
O bir kəsə dərdini
Yana-yana söyləyib,
Ürəkdən hönkürməmiş...

Özü özünə bir yük,
Dərdi özündən böyük.
Oğul ataya həsrət,
Ata oğula həsrət.
Ayaqları olsa da,
On altı ildir onun
Ayağı yola həsrət.
Bu həsrətə dözməyib
Oğul can verdi bir gün,
Yaz çağında ömrünün...
On addımlıq bir yolu
Ata gələ bilmədi,
Balasını qəbrə də
Yola sala bilmədi.
Oğul dünyaya gəldi,
Ata xəbər tutmadı
Bir şəhərin içində.
Dünyadan gedəndə də
Ata xəbər tutmadı
Bir şəhərin içində...
Ata doğma oğlunun
Nə qəlbindən keçəni,
Nə bir işini bildi.
Bu vəfasız dünyaya
Nə gəlişini bildi,
Nə gedişini bildi...
Balanın matəminə
Yas tutub ağlamadı.
Zindanlar qucağında
Ömrə ömür yamadı.

Əyilmədi o yenə
Vətəni sevdiyindən
Vətənin qucağında
Həsrət qaldıVətənə!...

*Mart 1961, Afina*

## LATIN DİLİ

Latın dili!
Hər sözündə dünya boyda yük daşıyır,
Latın dili!
Millət ölüb, dil yaşayır.

"Ana" deyən, "torpaq" deyən,"Vətən" deyən
yox bu dildə.
Ancaq yenə yaşar bu dil.
Sabah bizim ərzimizin
Sərhəddindən o yana da
Qoşar bu dil.
Bəlkə... bütün ulduzları
Gəzər bu dil.
Döyüşlərdə zəfər çalıb
Ölən ərə bənzər bu dil.
Vətəni yox,
Milləti yox
Yaşar özü.
Elmlərin təməlidir
Əvvəl sözü, axır sözü.
Kim deyir ki, ölüdür bu?
Həkimlərin,
Alimlərin,
Loğmanların dilidir bu.
Bu dil ilə hesablanır ay da, il də.
Çiçəklərin,
Böcəklərin,
Küləklərin,

Fələklərin
Adlarını yazır alim
Ölü dildə.
Kim deyir ki, ölüdür bu?
Ölülərin dili deyil,
Dirilərin dilidir bu.

Atlantika sahilində
Coşa-coşa,
Daşa-daşa:
- Mən azadam, mən xoşbəxtəm, -
Deyir natiq yad dilində.

Söylə natiq,
İndi nəyə inanaq biz -
Qulağamı,
Ya gözəmi?
Əmələmi,
Ya sözəmi?
“Mən azadam, müstəqiləm” sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?..

Söylə, necə azadsan ki,
Komalarda dustaq olub
ana dilin.
Böyük-böyük məclislərdən
İtirilib ilim-ilim?..
İclaslarda bir kəlməsi, sözü yoxdur.
Bəlkə... onun böyük, rəsmi məclislərə

Çıxmaq üçün üzü yoxdur?
Söylə, bəlkə, bic doğulub,
Atasından yox xəbəri?
Bəlkə bu dil çox kasıbdır,
Qucağına sığışmayır
Əsrin böyük fikirləri?..

Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.
Elə bil ki,
Güzgü kimi, hamar, şəffaf röyalın var,
dili yoxdur...

İndi söylə,
Hansı dilə ölü deyək:
Vətən varkən,
Millət varkən,
Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi?
Yoxsa, uzun əsrlərdən
keçib gələn,
Xalqı ölən,
Özü qalan bir diləmi?

*Aprel 1967, Kasablanka*



# NƏĞMƏLƏR



*Dünyamız da dolanır*
*Səhər, axşam bizimtək.*
*Günəş yerdə xətt cızır*
*Mənim ayaq izimtək.*

*Biz günəş övladıyıq,*
*Alnımızda gur işıq.*
*Günəşi göydə deyil,*
*Biz ki yerdə tapmışıq.*

## BU GECƏ
*(Romans)*

Həsrət, hicran yolunu,
Gülüm, birlikdə keçdik.
Sona çatdı intizar,
Biz yenə də görüşdük.

Könlümüzün səsinə
Həmdəm olduq bu gecə.
Elə bil ki, təzədən
Biz doğulduq bu gecə.

Susdu çəmən, susdu çöl,
Başını əydi güllər,
Təbiət lal kəsilər
Danışanda könüllər.

Bülbül də nəğməsini
Sanki deyir bizimçün.
Güllər açar qışda da
Həsrətlər qovuşan gün.

Mənə elə gəlir ki,
Günəş də doğdu gecə.
Heç kəs yaşamır, gülüm,
Bizdən özgə bu gecə.

*Fevral 1960*

## MİN İL DANIŞMAQ OLAR

Dünya gülür gözümə
Səndən söz açanda mən.
Min il danışmaq olar
Bircə təbəssümündən.

Könlümün son arzusu,
İlk səsi deyim sənə.
Hər il gələn baharın
Müjdəsi deyim sənə.

Arzumun heykəlitək
Qəlbimdə yüksəlmisən.
Sən bu qoca dünyaya
Sevilməkçün gəlmisən!

*Noyabr 1960, Şüvəlan*

## SƏN OLMASAYDIN

Eşqin olmasaydı, olmazdı dərdim
Bilirsən aydın.
Bilmirəm, mən kimi sevə bilərdim,
Sən olmasaydın?

Məhəbbət nurunu sən incə-incə
Aləmə yaydın.
Məhəbbət özü də olmazdı məncə,
Sən olmasaydın.

*Noyabr 1960*

## HƏR GÜN
*(Romans)*

Axşam düşür şəhərə...
Yanır qızıl çıraqlar.
Axşam üstü yenə də
Könlüm səni soraqlar...

Könül buza dönərmiş
Adam yalqız olanda.
Gözüm səni axtarır
Hər gün qaş qaralanda.

Axşam düşür, çıraqlar
Tutur bağça-bağları.
Sən ki, yoxsan, yanmayır
Könlümün çıraqları.

*Dekabr 1960*

## TELEFON TELLƏRİ

Ay telefon telləri,
Dadıma çox yetdiniz.
Qəlbimin tellərini
Nə qədər titrətdiniz.

Sizsiniz hicran günü
Könlümə müjdə verən.
Məhəbbətin səsini
Qulağıma yetirən.

Niyə od almırsınız
Aşiqlərin dilindən?
Bəlkə yaranmışsınız
İki qəlbin telindən?

Ay telefon telləri,
Dadıma çox yetdiniz.
Qəlbimin tellərini
Nə qədər titrətdiniz.

*Dekabr 1960*

## NEÇİN?

Axtarmışam, gəzmişəm
Ömrüm boyu səni mən.
Xəyalımın ilki sən,
Arzumun sonu sənsən.

Kim deyir, görə bilməz
Bir kimsə öz könlünü.
Mən könlümü görmüşəm,
Yar, səni tapan günü.

Bir gedib, bir gəlirik
Bir yol ilə biz hər gün.
Bəs neçin birləşməyir
Yolları ömrümüzün?

Neçin, neçin ürəyim
İçin-için hey inlər?
Məhəbbətin özüymüş
Bəlkə də bu neçinlər...

*Dekabr 1960*

## MÜMKÜNMÜ AYIRMAQ
*(Romans)*

Ay süd kimidir... Bir ləkə yoxdur bənizində,
Yerlər də çimir sanki bu dəm nur dənizində.
Mümkünmü ayırmaq o həzin nəğməni çaydan?
Mümkünmü ayırmaq Ayı göydən, göyü Aydan?
Gəl, gəl gözəlim, gəl, keçəlim biz bu çəməndən,
Mümkünmü ayırmaq məni səndən, səni məndən?
Mümkünmü ayırmaq sözü dildən, dili sözdən,
Mümkünmü ayırmaq bu gözəllikləri bizdən?
Hər şey görünür indi bizə ayrı biçimdə,
Hər şey ərimiş bir-birinin sanki içində.
Göylərdə də, yerlərdə də min cilvəli bir rəng,
Ruhumla təbiət necə gör oldu həmahəng.
Bizdən şur alan canlı füsunkarlıq içində
Yoxluq əriyibdir elə bil varlıq içində.

*May 1962*

## BİRİ SƏNSƏN, BİRİ MƏN

*(Əhsən Dadaşov bəstələmişdir)*

Bir bulağın iki gözü,
Biri sənsən, biri mən.
Bir almanın iki üzü,
Biri sənsən, biri mən.

Qoşa simin titrəməsi,
Biri sənsən, biri mən.
Bir pərdənin iki səsi,
Biri sənsən, biri mən.

Açıq səma, göy qurşağı,
Biri sənsən, biri mən.
Dan ulduzu, səhər çağı,
Biri sənsən, biri mən.

Bu həyat da iki rəngdir,
Bir sevinc, biri qəm.
Sevinc kimdir, kədər kimdir?
O həm sənsən, həm də mən.

Bu dünyaya biz gələli
Həm qəmik, həm də sevinc.
Sən məndəsən, mən səndəyəm,
Gözəldir qəmdə sevinc.

*İyul 1962*

## ŞİRİN ARZULAR

*(Ələkbər Tağıyev bəstələmişdir)*

Quş qanadla uçar, insan diləklə,
Yatır hər ürəkdə min-min arzular.
Tutub əlimizdən ucaldır bizi
Arzular, arzular, şirin arzular.

Qəlbə naxış salar hər eşqin izi,
Diləkdir güldürən əməlimizi.
Təzə arzulara aparır bizi,
Arzunun özündən doğan arzular.

Vətən günü-gündən dönür gülzara,
Gör dünənim hara, bu günüm hara,
Aparır daha xoş gözəl çağlara,
Bitib tükənməyir bir an arzular.

*1962*

## DODAQDA GƏZ

Könül, dolan el-obanı,
O dağda gəz, bu dağda gəz.
Leylək olub yer eşincə,
Sən bülbül ol, budaqda gəz.

Hər atəşə, oda yanma,
Sözün haqsa, onu danma.
Manat olub xırdalanma,
Yaqut kimi barmaqda gəz.

Əskik olma xeyir-şərdə,
Gün tək görün sən hər yerdə,
Duyğu kimi ürəklərdə,
Nəğmə kimi dodaqda gəz.

*Sentyabr 1963*

## YADINDAMI?
*(Romans)*

*(Xəyyam Mirzəzadə bəstələmişdir)*

Yadındamı, ötən günlər,
Ağac altı... bulaq səsi.
Günlər keçir... bizə qalır,
O günlərin xatirəsi.

Gəl, qardaşım, keçənləri
Yada salaq dönə-dönə.
Ötən günə gün çatarmı
Calasan da günü günə?

Yadındamı, ötən günlər,
Qəm çoxalır, ömür azalır.
Üzümüzdə, alnımızda,
O illərdən izlər qalır.

Saç ağarır... qoy ağarsın!
Qoy var olsun ellərimiz.
Yenə şirin diləklərdə,
Ürəklərdə yaşarıq biz.

*Sentyabr 1963*

## AĞARMA, SAÇIM, AĞARMA

*(Ə.Habil bəstələmişdir)*

Baş götürüb günlər axır,
Nə ömrə, nə eşqə baxır,
Saçımızda iz buraxır,
Ağarma, saçım, ağarma!

Sarı xal yarpağa düşər,
Birinci qar dağa düşər.
Ömür də sazağa düşər,
Ağarma, saçım, ağarma!

Ürəyimdə çox sözüm var,
Hər guşəsində közüm var.
Min diləyim, min arzum var,
Ağarma, saçım, ağarma!

Qoy düşməsin yaşım yada,
Yetişərmi yaş imdada?
Deyərəm, yüz yaşımda da
Ağarma, saçım, ağarma!

*Fevral 1962*

## YAR, YARA BAĞLAR

Ayırmaz özünü öz sevdiyindən,
Könül tellərini yar, yara bağlar.
Qanatdın cövrünlə köhnə yaramı,
Yar açmaz yaranı, yar, yara bağlar.

Könlümün başında inlədi bir saz
Neçə ay söylədim: hardasan, ey yaz?
Qışın cəfasını çəkən quşcuğaz
Yenə ümidini bahara bağlar.

Xəyal köhlənini çaparaq keçir,
Gözümdən yazılı min varaq keçir.
Mənim ürəyimdən neçə bağ keçir,
Toxunur könlümdə bağlara, bağlar.

*1962*

## NEYLƏRƏM

Açmışkən könlümdə al-əlvan güllər?
Bağçada açılan gülü neylərəm?
Könlümdə əbədi odum var mənim
Ocaqda qaralan külü neylərəm?

Könlüm ki tutuldu, yazda da qışam,
Ayları, illəri qarışdırmışam.
Təqvimdə sabahı bu gün cırmışam
Mən ayı neylərəm, ili neylərəm?

Gözlərim həsrətdir, həmişə gözlər,
Həmişə axtarar, həmişə izlər,
Könlümdə çaxnaşır göllər, dənizlər
Görünən dənizi, gölü neylərəm?

Başımda min səsli sövdalarım var,
Könlümdə min rəngli xülyalarım var,
Yuxumda min dürlü röyalarım var
Dövləti, sərvəti, pulu neylərəm?

Dünya sala bilməz könlümü bəndə
Gecə də məndədir, gündüz də məndə.
Sığınıb könlümə çöl də, çəmən də
Gəzməyə çəməni, çölü neylərəm?

Bəxtiyar, şairlik öz həvəsimdir,
Şeirçün ürəyim əsim-əsimdir,
Dünyadan köçəndə bez də bəsimdir
İpəyi neylərəm, tülü neylərəm?

*1964*

## BİR TƏRƏFDƏ

Gah ağlıma uydum, gah da könlümə,
Ürək bir tərəfdə, baş bir tərəfdə,
Qəlb iki qansızın arasındadır,
Zaman bir tərəfdə, yaş bir tərəfdə.

Ömür köhlənimi daşlığa sürdüm.
Gah coşub kükrədim, gah köks ötürdüm.
Həmişə dünyanı mən belə gördüm,
İştah bir tərəfdə, aş bir tərəfdə.

Əzəldən qayğısız doğula insan,
Ya da qəm çəkməyə dağ ola insan.
Gah sağa boylanır, gah sola insan,
Bahar bir tərəfdə, qış bir tərəfdə.

Bir yanım gecədir, bir yanım səhər.
Bir əlimdə şəkər, birində zəhər.
Deyirəm, nolaydı bütün tərəflər,
Hamısı olaydı kaş bir tərəfdə.

*Fevral 1965*

## NƏĞMƏLƏR

Nə qədər gözəldir bizi bir anda
Dalğadan-dalğaya atan nəğmələr.
Çarpışır, döyüşür bəzən şir kimi,
Bəzən quzu kimi yatan nəğmələr.

Gəzir yer üzünü, gəzir büsbütün
Elimin şöhrəti, şanıdır bu gün.
Yurdumu dünyaya tanıdır bu gün
Ərzin o başına çatan nəğmələr.

Gah sevinc, gah da ki, qəm sarır bizi,
Torpaqdan ayırıb qoparır bizi,
Sirli bir aləmə aparır bizi
Kədəri sevincə qatan nəğmələr...

Ümiddir, dayaqdır ürəyimizə.
Gəlir hər məqamda köməyimizə.
Çətinə düşəndə anadır bizə
Bizim əlimizdən tutan nəğmələr.

*1965*

## KÖLGƏM QƏDƏR YAXINSAN...

*(Niyaməddin Musayev bəstələmişdir)*

Ayrılığın eylədi,
Könlümü dağ-dağ, gülüm.
Qış kimi düşüncəli,
Yaz kimi oynaq gülüm.

Kölgəm qədər yaxınsan,
Ancaq tuta bilmirəm.
“Unut” demək asandır,
Mən unuda bilmirəm.

Soyuqluğun könlümə
Saldı qara xal, gülüm,
Dəniz kimi dalğalı,
Heykəl kimi lal gülüm.

Bəs nəyədir gümanın,
Ay gümanlı gümansız?
Könül kimi vəfalı,
Ağıl kimi amansız.

Gecə kimi fikirli,
Gündüz kimi şən, gülüm
İki hissin əlində
Gəl, oynama sən, gülüm.

*Aprel 1965*

## DAİM UCALAQ BİZ

*(R.Mustafayev bəstələmişdir)*

Gün doğdu, günəş sanki salamlar bizi göydən,
Bir şıltaq uşaqtək o gülümsər bizə şən-şən.
Göydən nur ələndi,
Dünya təzələndi.

Xoşdur səhərin seyrinə dalmaq, yenə dalmaq,
Xoşdur günəşin eşqinə yerlərdən ucalmaq,
Gəl-gəl, səhərim, gəl!
Xoş nəğmələrim, gəl!

Gəlsin təzə illər, təzə aylar, təzə günlər
Min arzu, min ilham da gətirsin bizə günlər.
Vaxtdan güc alaq biz!
Daim ucalaq biz!

*1965*

## NAĞILLAR

Nağıllar gözəl,
Nağıllar şirin,
Göy kimi sonsuz,
Göl kimi dərin...

Nağıllar arzum,
Xəyalım mənim.
Nağıllar eşqim,
Kamalım mənim.

Nağıllar almaz,
Nağıllar inci,
Babamın dərdi,
Qəmi, sevinci.

Nağıllar elin
Ürəyi, gözü.
Bu günün eşqi
Dünənin sözü.

*1965*

## MƏN HƏMİŞƏ SƏNİNLƏYƏM

*(İ.Topçubaşov bəstələmişdir)*

Könül ki, var, gah acilir, gah tutulur,
Kim deyir ki, sevgi sönür, unudulur?
Unut demə, sevən dil yox, ürəyimdir,
Dilə nə var, dildə hər şey asan olur...

İstərəm ki, simə dönüb mən inləyəm,
Öz könlümü nəğmələrlə sənə deyəm.
Güman etmə məndən qaçmaq asan olar,
Onu bil ki, mən həmişə səninləyəm...

Ovçun olub mən kəsərəm bənd-bərəni
Dolaşaram o dərəni, bu dərəni.
Qaçıb girsən otağına külək olub,
Səhər-axşam mən döyərəm pəncərəni...

Dağa qalxsan, buludlara dönərəm mən,
Yerə ensən, yağış olub enərəm mən.
Nəğmə olub bir dodaqda çiçək açsan,
Kaman olub səsin üstə dinərəm mən.

*1965*

## GƏL, DİLƏYİM, GƏL

*(A.Bəbirov bəstələmişdir)*

Baxıram, yel kimi ötmüş o keçən illərə mən.
Baxıram, məndən uzaq düşmüş o sahillərə mən.
Gəncliyimdən uzağam.
Elə billəm cavanam,
Mən uşağam,
Şirindir həyat!

Gəncliyimdən uzaq olsam da, yenə gənc kimiyəm.
Vaxta mən qul deyiləm, vaxtın əzəl hakimiyəm.
Gəncliyimdən uzağam,
Elə billəm uşağam.
Şirindir həyat!

Saatın əqrəbi üstündə dolansam da bu gün,
Onu mən hərlədirəm ən gözəl amallar üçün.
Gözəl amallar üçün,
Şanlı, böyük yollar üçün
Şirindir həyat!

*1965*

## ALMA AĞACLARI ÇİÇƏKLƏNƏNDƏ

Ötən yaz görüşdük sizin bağçada
Könlümə yaz köçdü o gündən bəri.
Noğultək səpildi başımız üstə
Alma ağacının ağ çiçəkləri.

Görüşdük həmişə sizin bağçada
Hər görüş neçə yaş böyüyürəm mən.
Bahar paltar biçdi bu məhəbbətə
Alma ağacının ağ çiçəyindən.

Çəmənlər, çiçəklər, min ətir saçdı
O vaxt ki mən tapdım özümü səndə.
Bizim eşqimiz də ilk çiçək açdı
Alma ağacları çiçəklənəndə.

*1965*

## QƏLBİ DOLU GECƏLƏR

*(Ş.Kərimov bəstələmişdir)*

Göydə yanır aypara
İşıq düşür yollara.
Bənzəyir nağıllara
Bizim ulu gecələr,
Qəlbi dolu gecələr.

Səsləyib haylar məni,
Ulduzlu göylər məni.
Yuxudan eylər məni
Bu yuxulu gecələr,
Gül qoxulu gecələr.

Gah sönür, gah alışır,
Öz rənginə qarışır.
Bizə nağıl danışır
Min duyğulu gecələr,
Qəlbi dolu gecələr.

Dan ulduzu pəncərə,
İşıq saçır hər yerə.
Kəsə bilmir səhərə
Gedən yolu gecələr,
Əsrar dolu gecələr.

*1965*

## XƏYALIM

Budaqdan-budağa qonur quş kimi,
Dayanmır bir yerdə bir an xəyalım.
Hara baş götürüb uçursan yenə
Ay məni özümdən alan xəyalım?

Vətəndən od alır hər yanan ürək,
Vətəndən dönənə ar olsun gərək.
Dünyanı gəzsən də bir pərvanətək,
Vətənin başına dolan, xəyalım.

Bir kitaba dönüb açıl, varaqlan,
Gücünü yerdən al, yerə dayaqlan.
Qırılmaz tellərlə arzuma bağlan,
Ömrə ömür kimi calan, xəyalım!

*1965*

## ULDUZLARA SALAM

Babalar “Allah” deyib
Lal göylərə vuruldu,
Babaların nəvəsi
Göylərə hakim oldu.

Göylərin sinəsində
İnsanın ayaq izi...
Min həsrətlə gözləyir
Göydə ulduzlar bizi.

Bizim sizə, ey ulduzlar,
Ey ulduzlar,
Sözümüz var...

İndi bizə sirr deyil
Ulduzların cilvəsi;
İnsan ulduzdan uca,
Zirvələrin zirvəsi...

*1966*

## DAN ULDUZU

Dan ulduzu, səhərlər
Salamlarsan bizi sən.
Sən günəşin elçisi,
Sən səhərin gözüsən.

Gecələrdən gizlənib
Doğulursan səhərlər.
Sən səhəri gətirib
Yox olursan səhərlər.

Göylərin sinəsində
Sən bir almaz, bir inci,
Ümidlərin gülüşü,
Arzuların sevinci.

Min-min ulduz içində
Sən hamıdan başdasan.
Milyon-milyon yaşın var,
Ancaq səhər yaşdasan!

*Mart 1966*

## TƏZƏ BAHAR GƏTİR

Yenə bahar gəldi, yenə gül açdı,
Susan lal çeşmələr təzə dil açdı,
Yarpaqlar günəşə baxıb əl açdı,
Dedi, nəğmə gətir təzə quşlara.

Sevgilim, sən özün bahardan gözəl,
Bəzənsin hüsnünlə bu çəmən, bu gül.
Baharın əlində ilk bənövşəm ol,
Təzə bahar gətir köhnə bahara.

Gəl, gülüm, gözləyir bizi çöl-çəmən,
Dərs alaq dağların dik qamətindən.
Bizim eşqimizin təravətindən,
Təzə bahar gəlsin köhnə bahara.

Köhnə ağaclar da oyanır bir-bir,
Təzə yarpaqlardan açır min çətir.
Köhnə sevgimizə təzə ruh gətir
Təzə bahar gəlib köhnə bahara...

*Aprel 1966*

***

Külək döyür pəncərəni, qapını,
Yuxum qaçıb dağlara.
Külək qırır xəyalımın sapını,
Yuxu hara, mən hara.

Özüm sakit uzanmışam yerimdə,
Xəyallarım min budağı silkələr.
Xəyal belə irişməyən dağlara
Ləpir saldı "bəlkələr".
Şübhə nədir?
O görünməz gözlərə,
Salar ancaq ürəklərə
qara-qara kölgələr.

*Mart 1966*

## KÖNLÜMÜN KÖNLÜ

Sən axşamın qəribliyi,
Sən səhərin dan yerisən.
Köhnə, qədim bir mahnının
Unudulmuş sözlərisən.

Buludların sərt kölgəsi,
Yerə düşür, göyə düşmür.
Gözdən uzaq düşən arzum,
Bəs könüldən niyə düşmür?

Çıxmaq olmaz bu sehrdən
De, çıx, görüm, bu mən, bu sən.
Könül deyil sənsiz könül,
Sən könlümün öz könlüsən.

*İyul 1966*

## QÜRURU NEYLƏYİRSƏN?

*(R.Mirişli bəstələmişdir)*

Ömrün bahar çağında
Qəlbə yağan qar nədir?
Sevirsənsə, sevgilim,
Səndə bu vüqar nədir?

Bütün arzularına
Zirvə mənəm, son mənəm,
Qüruru neyləyirsən?
Sənin qürurun mənəm...

Vüqar hara, eşq hara?
Sevənlər "mən", "mən" deməz.
Sevənlər eşq odunda
Əriyib itməzmi bəs?

Vüqarınla döyüşdə
Məhəbbətin uduzmuş,
Mənim isti göz yaşım
Boş qürurdan ucuzmuş?...

*1967*

## AZƏRBAYCAN

*(Musiqisi E.Sabitoğlunundur)*

Azərbaycan, sənsən mənim
Ülviyyətim, şan-şöhrətim.
Adın mənim öz adımdır,
Sənsiz mənim nə qiymətim?

Nəfəsimiz Babəklərin,
Sabirlərin od nəfəsi.
Mahnımızda yaşar bizim
Babaların ayaq səsi.

Biz tarixə sığınmadıq,
Dünən varıq, bu gün varıq.
Biz keçmişə güvənərək
Gələcəyə addımlarıq.

Azərbaycan, mənim eşqim,
Mənim andım, mənim anam.
Biz ikimiz bir torpağıq,
Mən də sənin bir parçanam.

## VƏTƏN TORPAĞI

Xəyaldan şirin
Arzudan gözəl,
Vətən torpağı.
Canımdan əzəl,
Vətən torpağı.

Anadan doğma
Baladan əziz,
Vətən torpağı.
Bir heçik sənsiz,
Vətən torpağı.

Dünyadan qoca,
Balamdan cavan,
Məsləkdən uca,
Vətən torpağı.
Həmişəcavan,
Vətən torpağı.

*1968*

## HƏYAT EŞQİ

*(Ş.Axundova bəstələmişdir)*

Zaman qovur, ömür qaçır, gün qaçır,
Zaman bizə, yaman bizə sirr açır.
Arzu, dilək könlümüzə nur saçır,
Arzu böyük, ömür gödək, gün gödək,
Ötən günü gələn günə bənd edək.

Qədrini bil axıb keçən günlərin,
Həyat şirin, ömür şirin, gün şirin,
Bu dünyanı düşün dərin, duy dərin,
Eşq oduna yana-yana yaşayaq,
Duya-duya, qana-qana yaşayaq.

Hər çəməndə, hər çiçəkdə gözüm var,
Hələ mənim sinəmdə çox sözüm var,
Qoy dayansın, işləməsin saatlar,
Həyat eşqi! Baş əyirik önündə,
İşığısan sən ayın da, günün də...

*1968*

## EL ARASINDA

Dağlar uçar, muma dönər
İki könül arasında.
Bəs nə qədər durmaq olar
Bəm ilə zil arasında?

Yadda saxla aman günü,
Yaxşı gündə yaman günü.
Çağırar öz gördüyünü
Aşıqlar el arasında.

Açıb yalançı dilləri
Qapamayaq könülləri.
Qaralayaq vergülləri
Sözlə əməl arasında.

Sular axsın, sel durulsun.
Əməl sözə yoldaş olsun.
Daş hasarlar uçurulsun
Ürəklə dil arasında.

*Oktyabr 1969*

## YADDAŞIM

Hər gün neçə dəfə ötən günlərin
Xatirə bağını gəzər yaddaşım.
İtən illərimin solub-saralmış
Sarı yarpağını üzər yaddaşım.

Məni öz-özümdən didərgin salan,
Dünənə bağlayan, bu gündən alan,
Gah söyüb danlayan, gah peşman olan
Qəribə hakimə bənzər yaddaşım.

Qırıldı son ümid, öldü son güman,
Necə peşimanam, necə peşiman.
Bu günüm bir rəngli, dünənim əlvan
Mənim bu günümü bəzər yaddaşım.

Bəxtiyar, könlümə hey dedim, kiri.
Özümü dəfn etdim mən diri-diri.
Qovmaq istədikcə xatirələri,
Fikrimin sapına düzər yaddaşım.

*1969*

## ƏLVİDA

Deyirəm, səfası bitdi ömrümün,
İndi dağ çıxıram, düzə əlvida.
Gözə duman çökür, başa qar yağır,
Bahara əlvida, yaza əlvida.

Eşqinə hər zaman müqəddəs dedin.
Günlər əldən gedir, sən tələs, dedin.
Çoxu istəmədin, aza bəs dedin,
Dedim, çox yox isə, aza əlvida.

İndi öz kökündən üzülən mənəm,
Özgə budaqlara düzülən mənəm.
İndi nə sən sənsən, nə də mən mənəm,
Bizki biz deyilik, bizə əlvida.

Bəxtiyar, dərində sızlayıb yaran,
Səni keçmişinə bağlar hər zaman.
Zülmət ürəyini işıqlandıran,
Yoluna şam tutan gözə əlvida.

*1969*

## İLLƏR GƏLİB KEÇSƏ DƏ

Zaman keçir, il dönür,
Bahar gedir, qış gəlir.
Bizi qocaldan illər
Ömrümüzə xoş gəlir.

Əməlləri, işləri
Ölçməyək illərlə biz.
Çıxaq vaxt ölçüsündən
Böyük əməllərlə biz.

Biz illərin qoynunda
Gülüş əkək, gül dərək,
Sözü işə, arzunu
Əməllərə döndərək.

İllər gəlib keçsə də,
Töhfələri bol olsun.
İllər əbəs ötməsin-
Şəhər olsun, yol olsun!

*Aprel 1967*

## BİZ GÜNƏŞ
## ÖVLADIYIQ

Bizim kimi dolanır
Saatın əqrəbləri.
Zaman axır irəli
Zaman dolanmır geri.

Dünyamız da dolanır
Səhər, axşam bizimtək.
Günəş yerdə xətt cızır
Mənim ayaq izimtək.

Biz günəş övladıyıq,
Alnımızda gur işıq.
Günəşi göydə deyil,
Biz ki yerdə tapmışıq.

Yollarımız irəli,
Alnımızda nur yanır.
Əqrəblərin ucunda
Əməlimiz dolanır.

*1969*



# UŞAQ VƏ MƏKTƏB DÜNYASI

*Gül-çiçək səpilsin yollara bu gün,*
*Məktəb kandarına sən ayaq basdın.*
*Zəng vurdu... quş kimi çırpındı könlün,*
*Bu səsə ilk dəfə sən qulaq asdın.*



## ŞƏFƏQİN ARZUSU

Yamanca qızdır
Bu Şəfəq, yaman!
Doymaq bilməyir
Hey oynamaqdan.

O yemir, içmir,
Danışır elə
Tullanır, qaçır
Beləndən-belə.

Qumların üstə
Açır min naxış
Böyümək istər
Gündə bir qarış.

Bizim Şəfəqin
Dördcə yaşı var
Elnaz adında
Bir yoldaşı var.

Elnaz böyükdür
Bircə yaş ondan
Onlar dost olub
Körpə yaşından.

Hər gün Elnazın
Yanında durur

Boyunu ölçüb,
Boynunu burur.

Anası ona
Deyir hər səhər:
- Sən böyüməzsən,
Yeməsən əgər.

Bir azca yeyib,
Atılıb düşür;
Qaçıb o, dərhal
Boyunu ölçür.

Deyir:-Ay ana,
Axı mən yedim,
Niyə Elnaza
Çata bilmədim?

*İyul 1960, Riqa*

## GƏLİN, DOSTLAR, GÖRÜŞƏK

*(Nəğmə)*

Mənim məktəb dostlarım,
Məktəb bizdən gen düşüb.
Üzümüzə qırışlar,
Saçımıza dən düşüb.

Arzular qatar-qatar,
Xəyallar işıq-işıq.
Biz məktəbdə birləşib,
Həyatda ayrılmışıq.

Həyat-coşqun bir dəniz,
Tək-tək adalarıq biz.
Dünənin şagirdləri,
Bu gün atalarıq biz.

Gəlin, dostlar, görüşək,
Ayda, ildə bir kərə...
Heç olmasa xəyalda
Qayıdaq keçmişlərə.

Uşaq olaq bu anlar,
Sevinək biz, gülək biz.
Fərəhləri bölərdik,
İndi dərdi bölək biz.

Vurulmayaq ad-sana,
İnsanlığa vurulaq.
Biz sinifdə bir idik,
Həyatda da bir olaq...

*Sentyabr 1963*

## SİNİF-HƏYAT

Sadə sinif otağı,
Ömrümüzün ilk çağı
Qoynunda keçir sənin.
Yolu səndən başlanır
Ən böyük diləklərin.

Sən elə ucasan ki,
Başın dəyir buluda.
Sənin qoynundan keçir
Ulduzlara ucalan
Gəmilərin yolu da.

Öyrənib ilk sirrini
Göyün, anamız yerin,
Əyləşsə də qoynunda,
Yol gedir sakinlərin.

"Yol gedir... hey irəli,
Bu yol geriyə dönmür.
Bu yol qəribə yoldur,
Bu yol gözə görünmür.

Bu yol sonsuzdur, ancaq
Zirvələrə ucalır.
Bu yol gözə görünmür,
Beyinlərdə iz salır.

Sən ey sinif otağı,
Beş-on uşağın deyil,
Sən neçə minlərinsən.
Sən bu sadəliyinlə
Həm gözəl,
Həm dərinsən!

Saraylardan gözəldir
Divarları əhəngli,
Bərbəzəksiz bu otaq.
Gələcək xoş günlərin
Bəzəyidir,qoynunda
Pərvazlanan hər uşaq.

Yurda şərəf verənlər
Sənin öz sinəndədir.
Arzularla döyünən
Balaca ürəklərin
Döyüntüsü səndədir.

Mən də yolçusu oldum
Min arzunun, niyyətin.
Sənin qoynunda keçdim
Ağ saçlı tarixini
Bütün bəşəriyyətin...

Fəzaların qoynuna
Gah qalxıb, gah enmişəm.
Düşünməyi, duymağı
Mən səndən öyrənmişəm.

Lövhənin qabağında
Bəzən vəcdə gəlmişəm,
Bəzən karıxmışam mən.
Sənin qoynunda ilkin
Füzulinin, Sabirin
Əlini sıxmışam mən.

Dahilərin önündə
Əyilmiş başlarımız.
İlk dəfə bu otaqda
Çatılmış qaşlarımız.

Öyrəndikcə aləmi
Önümüzdə dayandı
Yığın-yığın suallar.
Hər cavabın özündə
Neçə-neçə sual var.

Sual doğdu sualdan,
Düşündük zaman-zaman.
O çətin sualların
Cavabını biz ancaq
Ala bildik həyatdan.

*Fevral 1962*

## BİRİNCİ ZƏNG

*Balaca Şəfəqə*

Gül-çiçək səpilsin yollara bu gün,
Məktəb kandarına sən ayaq basdın.
Zəng vurdu... quş kimi çırpındı könlün,
Bu səsə ilk dəfə sən qulaq asdın.

Səni tələsməyə çağırır bu səs,
Deyir, tələsməyən ucala bilməz.
Deyir, tələsməyən sayır yerində,
Fırlanır həmişə öz məhvərində.

Deyir, bundan belə bircə dəqiqən
Unutma, getməsin gərək boş yerə.
Deyir, bundan belə bölməlisən sən
Ömrünü anlara, dəqiqələrə.
Deyir, bundan belə ömrünə bir-bir
Ölçülər, qaydalar, nizamlar gəlir.

Bu səs nöqtəsidir əyləncələrin,
Deyir, at kuklanı, götür çantanı.
Açılır önündə təzə yol sənin.
Bu təzə yol kimi şanlı yol hanı?

Evdən məktəbədir sənin ilk yolun
Bu yol böyüyəcək, genişlənəcək.
Səni qaldıracaq göylərə bir gün,
Bu yola göylər də baş əysin gərək!

Uğurlar! Bu yola min-min uğurlar!
Cəfasız bir yolun səfası nədir?
Bil ki, bütün yollar, bütün cığırlar
Məktəb yollarından ayrılıb gedir.

Birinci zəng səsi! Səni indidən
Aparır gələcək, gözəl günlərə.
O səni çağırır sonuncu zəngdən
Sonra başlanacaq toy-düyünlərə!

*Oktyabr 1963*

## AYNASI BOL, DAŞI AZ

Yüz binanın içində
Məktəb binalarını
Uzaqdan kim tanımaz?
Aynası bol, daşı az...

Qapısı, pəncərəsi
Gen olur məktəblərin.
Bu da bir dəbmi?
Yox, yox!..
Ömrü çox gödək olur
Boş, mənasız dəblərin.

Qoy günəşin işığı
Siniflərdə bol olsun.
Sinif otaqlarından
Günəşə gen yol olsun!

Ey məktəbli, indidən
Qoy gen olsun, gen, yolun.
Əvvəli məktəbdədir
Günəşə gedən yolun.

*1963*

## QƏBƏLƏ MƏKTƏBİ

*(Qəbələ məktəbinin 75 illiyi münasibətilə)*

Qəbələ məktəbi, yetmiş beş ildə
Neçə min şagirdi sən yola saldın.
Səndən işıq alıb neçə nəsil də
Ucaldı,
Onunla sən də ucaldın.

Körpə balaları gətirdin dilə
Onların gözündə uca dağ oldun.
Ucqar bir diyarda o zaman hələ
Qaranlıq içində ilk çıraq oldun.

İşıq paylamısan sən əqillərə,
Əqli, kamalıdır hər kəsin gözü.
Səninlə bərabər birinci kərə
Gəldi Qəbələyə dünyanın özü.

*1963*

## FƏRQƏ BAX...

Toy məclisiydi...
Qoca bir kişi
Girdi otağa...
Qalxıb ayağa
Yerimi verdim
Mən ona dərhal.
Apardı məni
Çox uzaqlara
Bir qərib xəyal.

Dedim, qəlbimdə
Özümə "əhsən".
Hamıdan əvvəl
Keçdim onunçün
Mən öz yerimdən...
Xoşuma gəldim
Özüm özümün.
İkinci bir səs
Dedi astadan:
Düşün, sən düşün.
Otaqda verdin
Sən öz yerini
Qocaya... ancaq,
Həyatda verdi
O öz yerini
Sənə... fərqə bax!

*Noyabr 1966*

## QAR YAĞIR

Gör ağır-ağır
Necə qar yağır.
Ağa bürünmüş
Başabaş şəhər.
Göz darıxardı
Qarın üstündə
Qaralmasaydı
Bala sərçələr.

*1966*

***

Uşaqkən düşünərdim,
Göl suları dumduru,
Çay suları lillidir.
Dəniz bircə sahilli,
Çay iki sahillidir.

*1966*

## ÜŞÜMÜRMÜ, GÖRƏSƏN?

Göy atlasdan hər bahar
Paltar geyir ağaclar.
Qış gəlincə buz tutub,
Torpaq donur, daş donur.
Bəs nədəndir ağaclar
Paltarını soyunur?
Qar yağanda onların
Budaqları ağ olur.
Boranda, tufanda da
Ağaclar çılpaq olur!
Yel əsir,
Şaxta kəsir.
Mat qalmışam buna mən,
Bu şaxtada
Ağaclar
Üşümürmü, görəsən?

*1966*

## SAAT

Saat çıqhaçıq
Gündüz işləyir,
Gecə işləyir.
Ancaq bilmirəm
O, qaranlıqda
Necə işləyir?

*1965*

## GÜNƏŞ VƏ MƏN

Səhər-səhər
Göylər nura boyanır.
Günəş məndən
Tez oyanır, oyanır.
Qoy oyansın,
Yatanlara o gülsün,
Pəncərəmdən
Şəfəq-şəfəq süzülsün.
Bircə şeyi
Unutmasın günəşim:
Axı ondan
Gec yatıram mən hər gün.

*1966*

## TAXIL İÇİNDƏ ÇİÇƏK

Gözəldir çiçək
Bağçada, bağda.
Yerinə düşsə,
Çox gözəl olur
Qara da, ağ da.
Taxıl içində
Alaqdır çiçək.
O, nəyə gərək!
Onun qədrini
Kim biləcəkdir?!
O, alaq kimi
Biçiləcəkdir.

*1965*



# POEMALAR

*Bəzən bir çiçəyin, gülün iyində*
*Böyük bir aləmi görüb duyuruq.*
*Ancaq qəlbimizin dərinliyində*
*Yatan duyğulardan xəbərimiz yox.*



# ETİRAF

## PROLOQ

Toxumu könlümə düşdü,
Yaşandı.
Yazmağa çağırdı "Etiraf" məni.
Görən, nə düşündü, görən, nə andı
Oxucum görüncə bu sərlövhəni?

Etiraf! Bu sözdə ürək səslənər,
Bu söz başdan-başa həqiqət, işıq.
Etiraf - cəsarət, etiraf - hünər,
Etiraf - təmizlik, paklıq, ucalıq!

Etiraf edənin hər sözü min-min,
Səhər günəşinin ilkin nurudur.
Burda nə riya var, nə böhtan, nə kin,
Sözlər aydan arı, sudan durudur...
Hər çılğın nidada can gizlənibdir,
Söz, ürək qanıyla təmizlənibdir.

Etiraf - vicdanın nəğməsi, neyi,
Hər kəsin özündən öc almasıdır.
Qəlbin həm kiçilib, həm böyüməyi,
İnsanın alçalıb ucalmasıdır.

Dünya qəribədir dahilər belə
Həyat səhnəsində yolunu azmış.
Ən böyük ürəklər qəlbin dililə
Ömrün son çağında etiraf yazmış.

Ürəyin ürəyə öz ithafını,
Ayrı bir mətləbə yozmaq olarmı?
Ürəyin sözünü, etirafını
Ürəksiz, duyğusuz yazmaq olarmı?

Deyirəm, nolaydı tanımayaydı
Nə qorxu, nə də bir hədə, etiraf.
Yox!.. İnsan insanı qəlbən duyaydı,
Nə günah olaydı, nə də etiraf!

Dərk etmək həvəsi!.. Ürəklərimiz
Qoy xilas olmasın bu dərdi-sərdən
Gəlin, şərab içib məst olmayaq biz,
Məst olaq mənalı düşüncələrdən.

Bilək, öz rəngini hardan alır qan,
Neçin yatanda da döyünür ürək.
Çiçəyin ətrini bilək tumundan,
Çeşmənin gözünü suyunda görək.

Bilək, hara gedir əməllərimiz,
Neçin ömrün yolu düyün-düyündür.
Bilək, dünya üçün yaranmışıq biz,
Yoxsa dünya özü bizim üçündür?!

Niyə, könül yaxan nəğmənin, sazın,
Yanğısı görünür, közü görünmür?

Niyə ağlımızın, idrakımızın
Əməli görünür, özü görünmür?

Bilək, bu dünyada dünya yaradan
Ömürlər dünyanı niyə tərk edir?
Göyləri, yerləri dərk edən insan
Bəs niyə özünü çətin dərk edir?

İnsan gah daş olur, gah od, gah da su;
Gah sevinir,
                    gah da peşiman olur.
Bir anın içində gah sakit quzu,
Gah da çalxalanan bir ümman olur.

Bir rəngdə deyildir insan fitrəti,
Quzuykən qəflətən o dönür şirə.
Bu gücü, hünəri, bu cəsarəti
İnsan hardan alır bəs birdən-birə?

Torpağa bənzəyir insan da bəzən,
Köksünün atəşi üzdən duyulmur -
Çox zaman özünün
                    içindən keçən
Qızıl damarından xəbəri olmur.

Bəzən bir çiçəyin, gülün iyində
Böyük bir aləmi görüb duyuruq.
Ancaq qəlbimizin dərinliyində
Yatan duyğulardan xəbərimiz yox.

Mənadan, mətləbdən xalidir sözlər
Ağızdan çıxmayıb söylənilməmiş.

Bizə kainatı göstərən gözlər
Hələ öz-özünü görə bilməmiş!
Gəlin, özümüzü görə bilək biz,
Açılsın kitabtək ürəklərimiz.

Ömürdən getməsin an da boş yerə,
Gəlin toxunmamış dinən sim olaq.
Ehtiyac qalmasın məhkəmələrə,
Həm müttəhim olaq, həm hakim olaq.
Ürəkdən keçəni özgəsi bilsə,
Nə olar?..
Bəs niyə gizli saxlanır?
Əgər ürəyimiz çirkin deyilsə,
Özgələr önündə niyə bağlanır?

Etiraf eləyən bir dil yorulmaz,
Danışan dil deyil, çünki ürəkdir;
Etiraf! Hamıda bu ürək olmaz,
Etiraf - özünü görmək deməkdir!..

## *I fəsil*

Bu gün könül açan bir təntənə var,
Şəhər klubunda axşamdan bəri.
Yubiley gecəsidir... Sonsuz alqışlar...
Titrəyir salonun pəncərələri...

Baş ucda əyləşib həkim Cahangir;
Sağında, solunda dostlar, tanışlar.

İstəyən söz alıb danışır bir-bir,
Zillənib həkimə bütün baxışlar.

Bütün bu baxışlar sanki bu ara
"Elin xidmətində belə dur" - deyir,
Bütün bu baxışlar, o ağ saçlara,
O solğun çöhrəyə təşəkkür deyir.

Ömrə ömür qatıb illərdən bəri,
Ölümün bağrına o, min dağ vurub.
Onun o şəfalı, xırda əlləri,
Quru ağaclara çox calaq vurub.

Neçə min həyatın, ömrün sonundan
O, həmən əllərlə pozub nöqtəni.
Ey ağ saçlı həkim, ey gözəl insan,
İndi alqışlasın qoy əllər səni.

Zalı titrətdikcə alqış səsləri
Utanır, sıxılır həkim, yerində
Nəsə fikirlidir... Bayaqdan bəri
Bir aləm canlanır nəzərlərində.

- Otuz il onunla həmkarıq - deyə
Ağ saçlı bir həkim qalxır kürsüyə:
- Yaxşı tanıyıram ahangiri mən,
Xoşlanmaz heç zaman mədhnamədən.

Ona fikir verin, danışdıqca biz
Tər tökür, sıxılır, utanır hər an.

Hələ tələbəykən məclislərimiz
Tərifsiz keçərdi o olan zaman.

Sağlıq deyəmməzdik onun şəninə
O saat mətləbi dəyişdirərdi.
Yamanlıq etməzdi o düşməninə
Hamıya birinci salam verərdi...

Sadə yaşamışdır ömrü boyunca
Onun zinətidir öz əməlləri.
Zəhməti hər şeydən o tutub uca
Cərrah bıçağını tutandan bəri.

Bu gün bu fürsəti verməyib əldən,
Könlüm istəyəni deyəcəyəm mən.
Salonda qəhqəhə, salonda alqış
Cərrahın qaşları yenə çatılmış.

Başını tərpədir astaca hərdən,
Deyən, bu son nitqə dözməyir artıq.
Gurlayan sürəkli qəhqəhələrdən
Onun dodağı da qaçmır azacıq.

Nəsə narahatdır... Bayaqdan bəri
Eynəyin altından onun gözləri
Dikilmiş soldakı qabaq cərgəyə,
Düşünür: “Bu odur, özüdür” - deyə.

“Bəlkə yanılıram... Dəyişir insan...
İyirmi il keçib axı o vaxtdan...
Bəli, o özüdür bayaqdan bəri,

Onun da gözləri gözlərimdədir.
Bu gün yad eləyib ötən illəri
Bəs bura gəlməkdə qərəzi nədir?...
Bəlkə də...

İçində qırılır səsi.
“Gör necə tutqundur onun çöhrəsi...
Bahadır, Bahadır!... Bu gün önümdə
O adam deyilsən, sən düzəlmisən.
İyirmi ildən sonra yubiley günümdə
Biləydim sən bura niyə gəlmisən?

Keçən günlərimi yad elədikcə,
Durur gözlərimdə bir o, bir də sən;
Camaat şənimə tərif dedikcə
Yəqin ki, içində mənə gülürsən.

O gündən çəkmişəm gizli-gizli ah...
Bilmirəm sinəmdə alışan nədir...
Günahda deyildir ən böyük günah,
Onu adamlardan gizlətməkdədir.

Bir təqsir üstündə səni özgəsi,
Məzəmmət eyləsə yüngülləşərsən.
Kimsə bilməyəndə, vicdanın səsi
Rahat buraxmayır səni həşrəcən.

Özgənin danlağı xoşdur min kərə
Vicdan danlağından, öz danlağından.
Xoşbəxtdir uymayıb özgə səslərə
Vicdanın səsini dinləyən insan...”

Zalı titrətdikcə alqış səsləri.
Utanır,
Sıxılır həkim yerində,
O çox narahatdır,
Bayaqdan bəri
Ötənlər canlanır nəzərlərində:

### *II fəsil*

Bahadır ilkiydi Rüstəm kişinin
Qamətdə, cüssədə sanki özüydü.
Uşaq, qayğılarla bəsləndi min-min
O, böyük külfətin iki gözüydü.

Bu ilkin meyvəni bircə yaşından.
Qohum da, qardaş da çox əzizlədi.
Bığ yeri təzəcə tərləyən zaman
Rüstəm Bahadıra "qardaşım" - dedi.

On dördcə yaşında bir uşaq ikən,
Başqa duyğularla coşub çağladı.
Dəbli kostyum geydi o "üç min üçdən"*
Qoluna da qızıl saat bağladı.

Tanındı mahalda on beş yaşından,
Bahadırın adı dillərdə gəzdi.

---

**Çox qiymətli yun parça.*

"Gözüm dəyər" - deyə ata çox zaman
Oğlunun dalınca baxa bilməzdi.

Elə bilirdi ki, atası, şəksiz,
Mahalda oğlunu hamı çox sevir.
Hərdən arvadına deyərdi: - Ay qız,
Uşağın başına üzərrik çevir.

Beş cahıl içində çəkildi adı,
Ötdü atasını boyda Bahadır;
At sürdü, güləşdi, meydan suladı
Şənlikdə Bahadır, toyda Bahadır.

Baxıb görkəminə o, günü-gündən,
Özünə güvənir, lovğalanırdı;
Yollara sığmırdı təkəbbüründən,
Özünü hamıdan üstün sanırdı.

Hələ "dava-dava" oynayanda da
O, "başçı" olardı həmişə ancaq.
"Mən kimdən...", "Mən kimdən..." deməzdi əsla,
"Kim məndən..." deyərdi bu çılğın uşaq.

Daim narahatdı, hələ uşaqkən
Onun ürəyindən nələr keçirdi.
O, özü-özünə hələ çox erkən
"Rütbəm olmalıdır" - deyə söz verdi.

Orta təhsilini bitirən kimi,
Hüquq şöbəsinə verdi imtahan.

Həmən yay sarsıldı, o silkələndi,
Rüstəmin qəflətən tutulmasından.

Anbar müdiriydi kolxozda Rüstəm
Narazı deyildi güzəranından.
Şükr edib xudaya deyərdi hərdən,
Gərək qul olmaya nəfsinə insan.
Elliyin malına kəm baxmazdı o
Kimsəni anbara buraxmazdı o.

Savadsız olsa da, Rüstəm büsbütün
Ancaq etibarlı yaddaşı vardı.
Gəlir-çıxarını anbarın hər gün,
O, sür təsbehilə hesablayardı.

Dünyanın malında yoxdu heç gözü,
Özü də düzgündü, sözü də düzgün.
Ancaq sadəlövhdü...
Sədrin bir sözü
Müqəddəs qanundu Rüstəm kişiyçün.

O, bir gün sədrinin göstərişilə
Birinə iki ton taxıl buraxdı.
Düşdü bu əhvalat ağıza, dilə...
İmzasız məktublar hər yana axdı.

Anbardan çatmayan o iki tonçun,
Ondan qəbz istədi lap sədrin özü.
Nə qəbz? Nə sənəd?
Məyər onunçün
Qanun deyildimi sədrin bir sözü?

Sədr öz sözünü geri götürdü.
Bəs söz, bəs etibar harada qaldı?
Hərə öz atını bir yana sürdü,
Rüstəm iki tonla arada qaldı.

Kişi and da içdi, inanmadılar,
Kağız istədilər ondan, bir kağız.
“Üz necə dönərmiş...
Bəs namus, bəs ar?
İnsan da bu qədər olarmı qansız?

Etibar, sədaqət nə günə qaldı?..”
Deyə çox düşündü, daşındı Rüstəm.
Bütün təlaşları özünə qaldı,
Dost-düşmən içində çox sındı Rüstəm.

Rüstəm bilmədi ki, düzülüb çin-çin,
Söylənir havaya məgər azmı söz?
Yalnız öz nəfsiylə yaşayan kəsin
Özü alçalanda alçalmazmı söz?

Rüstəm bilmədi ki, nadan yanında
Ağıla nə hacət, gözə nə hacət.
Həyatın dolaşıq burulğanında
Kağızlar var ikən, sözə nə hacət.

İstintaq qurtardı, divan quruldu,
Yeyən kim, tələyə düşən kim oldu.
Açıldı, töküldü dür də, düyün də.
Yıxıb tapdadılar,
Haqq əzilmədi.

Sözünü dananlar haqqın önündə
Özünü gizlədib dana bilmədi.
Sağ yanda prokuror, sol yanda vəkil,
Hakim işə baxır...
Lal kəsilib zal.
Rüstəm elə bil ki, o Rüstəm deyil,
Sərçəyə dönübdür o qoca qartal.

Dili topuq çalır, dinir birtəhər,
Sözü gah çeynəyir, sözü gah udur.
İgid atasını bu vaxta qədər
Belə görməmişdi hələ Bahadır.

Hakim üstünə də qışqırır hərdən
Rüstəmin qorxudan əsir dizləri.
Kişini bu halda görüncə birdən
Oğlunun qəhərdən doldu gözləri.

Hələ istədi də, qalxıb yerindən,
Hakimin üstünə cuma, dayandı.
Rüstəmin rəhm uman nəzərlərindən
Canına od düşdü, yandıqca yandı...

Qırıldı içində qəlbinin səsi,
Axdı yanağına göz yaşı dən-dən.
Vəkilin hər sözü, hər ibarəsi
Bir tikan çıxarır onun qəlbindən.

Vəkilin tutarlı dəlillərini,
Eşidib az qalır qalxıb əl vura.

İpək yaylığıyla silib tərini,
Gah hakimə baxır, gah prokurora.

Yenidən söz alır prokuror Eyvaz,
Od-alov tökülür onun dilindən.
Deyir: - Cinayətə göz yummaq olmaz,
Cəza istəyirəm ona, cəza, mən!

Əli olmasaydı burda Rüstəmin
Niyə göz yumurdu bəs yeyənlərə?
Ona da bığ yağı düşübdür yəqin,
Yoxsa, o susmazdı axı boş yerə.

Əgər yeməyibsə, o vaxtdan bəri,
Evindən tapılan on pud dən hardan?
Oğlunun gündə bir geyindikləri,
Meydan suladığı o köhlən hardan?
Saxlaya bilmədi burda özünü
Bahadır yerindən qışqırdı: - Alçaq!
Prokuror yarımçıq kəsib sözünü
Arxaya boylandı:
- Sən bir buna bax!
İlanın balası, ilan olacaq!

Anbarın gəliri qudurdub səni,
İndi bildirərik sənə həddini.
Dövlətin hökmüdür mənim bu nitqim
Burda sən nəçisən?
Uşağın biri!
Mən tələb edirəm, möhtərəm hakim,

Cəzasız qalmasın onun təhqiri.
Hakim zalı süzüb ayağa qalxdı,
Qapıda dayanan milisə baxdı.
Milis işarəni anladı dərhal,
Tutub Bahadırın qolundan ehmal
İstədi astaca çıxara zaldan,
Təklif Bahadırı çıxartdı haldan.
O dedi, bu dedi...
Yalvardı Rüstəm.
Saxlayıb özünü Bahadır bu dəm
Dedi: - Mən çıxıram, zora nə hacət,
Biz də tanınarıq gələr bir məqam.
Ancaq Eyvaz kişi, atama lənət
Əgər bu hayıfı mən səndə qoysam!

Hakim qəzəbləndi,
Çıxdı Bahadır,
Üzündən-gözündən od-alov yağır!
Çək-çevir uzandı,
Axır məhkəmə
İki il iş kəsdi qoca Rüstəmə.
Sındı, Bahadırın vüqarı sındı,
Tanışdan gizləndi, dostdan yayındı.
Gecə də, gündüz də olmadı rahət,
O, bir gün Bakıya gəldi nəhayət.
Ali məhkəməyə ərizə verdi,
Ədalət naminə işi bitirdi.
Təzədən baxdılar burda hər şeyə
Şərti iş kəsdilər Rüstəm kişiyə.

## *III fəsil*

Beş dəfə dəyişdi çöllərin donu,
Bahadır bitirdi darülfünunu.
O, müstəntiq gəldi rayonlarına,
Camaat hörmətlə yanaşdı ona.

Yenə baş qaldırdı köhnə təkəbbür,
Geyindi-kecindi gündə cürbəcür.
O şişdi fərəhdən, qürurdan yenə,
Bir aya sığmadı öz dərisinə.
Özünü Allahı sandı bu yerin.
Salamı bir qədər ləng verənlərin
Vurdu sinəsinə dağı dağ üstə.
Hər gün məclis açdı bir bulaq üstə;
Hər gün bir "afətə" göz-qaş atdı o,
Mənsəbin gücünə at oynatdı o.

Elə ki, prokuror qoydular onu,
Qudurdu, daha da azdı yolunu.
Narazı qalmadı bir an özündən.
Bahadır rayona gəldiyi gündən
Qoydu qarşısına bir məqsəd ancaq,
O köhnə hayıfı Eyvazdan almaq!..

Eyvaz qocalmışdı, düşmüşdü əldən,
Prokuror deyildi o, keçən ildən.
Ötən illərini saldıqca yada
Özü də düşürdü öz nəzərindən.
Çeşid bazasında müdür olsa da,

O, işə çıxmırdı günlərlə bəzən.
Ürək ağrısından gəlmişdi zara,
Evdə qol çəkirdi gəlir-çıxara.
Anbardar sevinər, əl-qol açardı,
Müdir xəstələnib evdə yatanda.
Çirkin əməllərə min yol açardı,
Bircə sıfır ilə o, bircə anda.

Bahadır rayona gələndən bəri,
Eyvazın baxdığı köhnə işləri
Töküb qabağına, yoxladı bir-bir.
Yox!.. Fayda vermədi ancaq bu tədbir,
Hirsindən başına dünya dar oldu,
Yediyi-içdiyi zəhrimar oldu,
Açdı öz başına özü min oyun.
Düşündü-daşındı,
Kağızlar onun
Su səpə bilmədi yanan qəlbinə,
Ancaq inadından dönmədi yenə.
Mahalda çoxuna o, quyu qazdı,
Olmadı həddini bildirən ona.
İmzasız, bir gizli məktub da yazdı,
Göndərdi poçt ilə öz ünvanına.
Dəstəvüz eləyib bunu əlində,
Bazanı yoxlatdı o, bircə gündə.
Barama az gəldi öz qədərindən,
Bahadır möhkəmcə tutdu bu yerdən.
Eyvaz anlamadı bu necə işdi,
O ki, bir xəyanət eləməmişdi.
Lap yerinə düşdü, deyəsən, qisas
İtirdi özünü qorxudan Eyvaz.

Bildi, Bahadırın fikrini bildi,
Kişinin yuxusu ərşə çəkildi.
Yaman hala düşdü dərddən-fikirdən,
Xəstəlik güc gəldi kişiyə birdən.
Kimsə bəd ayaqda gəlmədi haya,
Axır Eyvaz düşdü xəstəxanaya.
Bahadır rayona saldı bir avaz:
“Vurub xəstəliyə özünü Eyvaz.
Bazanı yeyirmiş...”
Buna rayonda
İnanan da oldu, inanmayan da...
İşi tez axıra yetirmək üçün
Bahadır zəng çaldı həkimə bir gün:
“Yalançı xəstəni buraxın” - deyə.
Yaman qəzəbləndi bu zəvzəkliyə
Baş həkim Cahangir çıxdı özündən:
- Yoldaş prokuror, utan sözündən, -
Deyə o, dəstəyi asdı yerinə;
Bahadır səhəri zəng çaldı yenə.
Dedi: - Baş aparma, yoldaş Cahangir,
Səndəki bu qürur, bu əda nədir?
Qanunun hökmünü yada sal barı,
Oğrunu nə yaman əzizləyirsən.
Bazanı dağıdan cinayətkarı
Qanadın altında nə gizləyirsən?
Cahangir hirsləndi, dedi: - Bir kərə
Gəlin, nöqtə qoyun bu hədələrə!
Müqəssir olsa da bu işdə Eyvaz,
Onu bu halında buraxmaq olmaz.
Əgər tərpənərsə bir az yerindən
Kişi ölə bilər.

- Əməllərindən
Qorxub gizlənibdir.
- İnsafın olsun!
- Mənimçün hər şeydir ədalət, qanun!
- Bəs insan? Bəs onun həyaı?
- Yetər!
Mənə gərək deyil bu əfsanələr.
Onu buraxınız xəstəxanadan.
- Bu mümkün deyildir, yox, yox, heç zaman!
- Qanunun hökmünə zidd getməyin siz,
- Deyən, əmr etməyə öyrənmişsiniz?
Unutma, bizim də qanunumuz var.
- O hansı qanundur?
- Qanun-qaydalar
İnsana xidmətçin yaranıb ancaq.
İnsanın taleyi deyil oyuncaq!
- Yaxşı, heç eybi yox, baxarıq, - deyə
Bahadır yenə də keçdi hədəyə.
Həkim möhkəm durdu,
O karıxmadı!
Hədə-qorxudan da bir şey çıxmadı.
Prokuror qəzəblə asdı dəstəyi.
Dedi: - Daş qayaya rast gəlib, deyən.
Götür-qoy elədi bir də hər şeyi,
Hələ utandı da acizliyindən...

"Necə? Mən prokuror, adi həkimlə
Bacara bilməyim?
Bu nə deməkdir?
Eşidən nə deyər? Bu nədir, hələ
Camaat arxamca gülüşəcəkdir...

Birinci düşməni susdurmamış mən
Qazandım özümə ikinci düşmən?..”

Gözləri önündə oynadı şimşək,
Eyvaz yalan oldu, Cahangir gerçək...
Gündə öz-özünə min hökm verdi,
Ancaq qulaqlara çatmadı səsi.
Cavan prokurora ağır gəlirdi
Sözünün, əmrinin yerə düşməsi.
Bir həftə gözlədi,
Nəhayət, bir gün
Özü durub gəldi istintaq üçün.
Cahangir yox idi xəstəxanada,
Yetişə bilmədi heç kəs imdada.
Bacılar çox dedi, o eşitmədi,
- Məni palataya aparın, - dedi.

Eyvaz onu görüb qalxdı yerindən.
- Salam.
Köks ötürdü kişi dərindən.
- Salam!
“Ah, bu mənə salam da verdi.
Bu salam salama bənzəməyirdi.
Gör o nə gündədir, gör mən nə gündə,
Bu salam qələbə, bu salam zəfər.
Bu salam məğlubun başı üstündə
Qalibin dediyi rəcəzə* bənzər.

Yoxsa... zaman özü bu hökmü vermiş,
Mənimki, deyəsən, bura qədərmiş...”
Düşdü əl-ayağa bacılar həmən,

Biri baş həkimə zəng çaldı dərhal.
Suallar ağırdı biri-birindən,
Kişinin üstünə yağdı dalbadal.

Yaman qəzəbləndi bu suallara
Eyvaz əsdi, coşdu, çıxdı özündən.
Dedi: - Eyvaz hara, oğurluq hara,
Qismətə şükr edib yaşamışam mən.

Zəhər içirməyib həyat az mənə
Yaxdığın qarasa yapışmaz mənə.
- Onda hara yazaq bu səkkiz tonu,
Bazanın müdiri sənsən, yoxsa mən?
Əsl müqəssirin kim olduğunu
Bahadır bilmişdi birinci gündən.
O, yaxşı bilirdi, kələk hardadır
Düyümün açarı anbardardadır.
Ancaq onunla ki, işi yox onun.

O yaxşı bilir ki, bu səkkiz tonun
Adı var, özü yox... Havadır yalnız.
Alınan, satılan kağızdır, kağız.
Eyvazın bədəni tir-tir əsirdi,
Bu zaman Cahangir içəri girdi.

Hamı öz yerində duruxdu bir an,
Cahangir salamsız, tutub qolundan
Çəkdi Bahadırı dəhlizə birbaş
Yalnız bunu dedi: - Gediniz, yoldaş!
Bahadır dinməzcə çıxdı qapıdan,
Bu dəm arxasınca qızlar gülüşdü.

Məhkəmə zalında onun bir zaman
Təhqir olunduğu yadına düşdü.

Bu gülüş yamanca dəydi hədəfə,
Dala da baxmadı o, hikkəsindən.
Düşündü: "Bununla ikinci dəfə,
Təkəbbür ucundan qovuluram mən".
"Bu nədir?"

Özündən xəlvəti sordu.
"Onda Eyvaz,
İndi həkim qovurdu.
Bu nədir?
Yenə də mən haqsız oldum,
Kimlərin önündə lağa qoyuldum?!

Məni rüsvay etdi gədənin biri.
Heç kişi deyiləm, o Cahangiri
Önümdə qul kimi diz çökdürməsəm,
Ölərəm, bu günü əyər görməsəm..."

Rəqibin gücünə bələd olmamış,
Özü də bəyəndi içdiyi andı.
Birinci qisası hələ almamış,
İkinci qisasla alışdı, yandı.

O günün axşamı xəstə Eyvazın,
Qəfil ürəyinin sancısı tutdu.
Elə güc gəldi ki, ona ağrılar
Gündüzkü dərdini tamam unutdu.
Elə bil qəflətən atdılar oda,

Qıvrıldı yerində o, ilan kimi.
Ürəyindən tutan bu ağrını da
Gündüzkü sarsıntı gətirmədimi?

İynələr vuruldu hər axşam-səhər,
Həkim buraxmadı
Tanış-bilişlər,
Gəlsə də yanına dəstəbədəstə.
Yatdı düz iki ay arxası üstə...

Tərpənə bilmədi Eyvaz yerindən,
Həkimlər dolandı onun başına.
Həyatı yataqda duydu dərindən
Hər şey ayrı cürə göründü ona.

İnsan qəribədir,
Salamat ikən
Qohum da, qardaş da yada düşməyir.
Elə ki, yatağa düşdü qəflətən,
"Filankəs yanıma gəlmədi..." - deyir.
Yataqda ürək də kövrəlir yaman
Hamıdan inciyir, hamıdan umur.
"Zəhrimar" dediyi adamlarından
İndi qayğı umur, indi "can" umur.

Burda yada düşür yaxın, uzaq da,
Hər kiçik nöqtədə bir cahan görür.
Bu niyə belədir?... Adam yataqda
Həyatı, ölümü yaxından görür...
O burda yüz illik bir ömrü keçdi.
Həyat nə? Ölüm nə?

Düşünməmişdi.
O, ömrü boyunca hələ bu haqda.
Dərk etdi:
İnsana, demə, yataqda
Ölüm göz bərəldib yaxından baxır,
Bir canın içindən neçə can baxır.

İttiham nitqini oxuyan anda
Eyvaz da çox "mənəm, mənəm", - demişdi.
Ömürdən illəri kəsib atanda
Bəs niyə bunları düşünməmişdi?
İndi yada düşür yaxın, uzaq da,
O, kiçik damlada bir ümman görür.
Bu niyə belədir?
Adam yataqda.
Həyatı, ölümü, yaxından görür.
Düşünsək, bunun da öz mənası var.
Axırda birləşir qara da, ağ da
Qaydası budur ki:
Axı, adamlar
Doğulur yataqda, ölür yataqda.
Fikrin varaqları açılır qat-qat,
Yuxuda gül açır çox vaxt arzular.
Yataqda birləşir ölümlə həyat,
Yatmağın özü də ölümə oxşar.

Gözlədi Bahadır bir neçə həftə,
İşi dayandırdı,
Çıxmadı Eyvaz.
O yaxşı bilirdi işi bu qədər
Çək-çevirə salıb uzatmaq olmaz.

Əsl müqəssiri bilənlər də var.
Şayiələr gəzirdi:
Guya anbardar
Çoxdan sövdələşib prokurorla.
Belə deyildirsə, bəs niyə zorla
Eyvazın üstünə yıxılır günah,
Bu işə bir dəfə vurulmur kütah!
Şayiələr böyüdü, həddini aşdı,
Ağızda dolaşdı, dildə dolaşdı.
Rayonda söyləndi nələr, ah nələr,
Şayiələr, şayiələr, yalan şayiələr,
Həqiqət gətirdi ağ yalanlara.
Yalan da yalanı çəkirmiş dara.
Bahadır sarsıldı,
Yandı, yaxıldı.
Ədalət naminə işə baxıldı.

Bahadırın əli üzüldü yaman
Almaq istədiyi ilk intiqamdan.
Birinci soyudu, ikinci yandı,
Özünü özünə o borclu sandı.
Elə bil soyundu köhnə libası,
Öldürdü qəlbində qisas qisası.
Gün-gündən qəlbini kin yedi qurdtək,
Eyvaz yalan oldu, Cahangir gerçək.

Əzab çəkdi Cahangir, o sarsıldı büsbütün,
Bahadırı qovan gün...
Yazığı gəldi ona.
O ki razı deyildi onun alçalmasına,
- Mənliyini tanımır "mənəm, mənəm" deyənlər,

Çox uca olduğunu göstərmək istəyənlər
Daim belə alçalır.
Özünü üstün tutan, hamıdan dalda qalır...
O qızdı prokurorun haqsız hücumlarına
İnsana zülm eyləmək
Necə sığışır onun,
Namusuna, arına?
Hayıf alır yoxsa o?..
Xəstə bir qocadanmı?
Axı onda nə qalıb?
İntiqam!.. Yəni insan bu qədərmi alçalıb?
Özgəsinin çəkdiyi əzabdan, iztirabdan
Necə zövq alır insan?
Mənimçün bu dünyada
İnsan əzablarına
Baxmaq qədər əzab yox.
Bahadırın qanı bəs niyə bu qədər soyuq?
Rəyasət uçan quşu göydən yerə endirər...
Rəyasət qəlbi daşa, qanı buza döndərər...
Mənsəb eşqi onun da gözlərini kor etmiş,
Qulağını kar etmiş,
O eşitmir, o görmür,
O, Eyvazın özündən bəs niyə dərs götürmür?
Eyvaz özü də bəzən haqlını incidərdi,
Çox zaman sol gedərdi.
Bir vaxt qanun adına çoxlarını əzdi o,
Həyatın qanununu ancaq düşünməzdi o.
Bəs axırı nə oldu?
Aqibəti budur, bu!
Rəyasət pərdəsini bir an atıb gözündən,
Niyə, niyə Bahadır

Dərs götürə bilməyir
Bu Eyvazın özündən?
Cavandır, çox cavandır,
Hələ hökmü rəvandır.
Qulaq asa bilməyir
O, ürəyin səsinə,
Güvənir rütbəsinə,
İnsanlığa deyil o, vəzifəyə can atmış,
Ancaq...
O bilməyir ki,
Rütbəni də, çini də
İnsan özü yaratmış...”

***

Həmən gün Cahangir xəstəxanadan
Çıxıb düz Əlyarın gəldi evinə.
Xəyalı pərişan, halı pərişan
Söylədi: - Bir yaxşı mahnı çal mənə.

Əlyar skripka müəllimiydi
Keçən il gəlibdir o, bu rayona.
Çox həssas, çox yuxa ürəyi vardı,
Qəlbən bağlanmışdı Cahangir ona.

İyirmi beş yaşlı bu cavan oğlan
Təpədən-dırnağa nəğməydi ancaq.
Elə bil axırdı baxışlarından
Musiqi notları hey varaq-varaq...

Mahnı səsləriylə o ucalırdı,
Nəğməydi dövləti dünya varından.
Onun duyğuları qanad alırdı
Şubertin, Şumanın duyğularından.

O çaldığı zaman yaşayır ancaq,
Sevir bu həyatı, sevir insanı.
Qışda da gül açır bu qara torpaq,
Tapılır hər dərdin ilkin dərmanı.

O, yeddi pərdəyə könlünü verdi,
Yaşatdı səsləri ürəkdə, canda.
Bu sirli həyatı dərk eləyirdi
O, yalnız "Do" ilə "Si" arasında.

Yeddi səs onunçün dünya özüydü,
Onun həm gecəsi, həm gündüzüydü.
Həyatın oduna o yana-yana
Səslərin gözüylə baxır cahana.

Bəli, Əlyar üçün göyü, yeri də
Səslər yaratmışdır, ancaq yeddi səs!
Həyatın qəmi də, fərəhləri də
Səslərdən kənarda yaşaya bilməz.

Təmiz hisslərlə yaşadığından
Ürəkdən sevirdi Cahangir onu.
Bəzən saatlarla ayrılmaz ondan,
Dinlərdi dostunun mahnılarını.

Nəğmə çalındıqca Cahangir susar,
Dalardı səslərin şeriyyətinə.

Heyran kəsilərdi o təkrar-təkrar
İnsan duyğusunun qüdsiyyətinə.

Deyərdi: - Nə deyək sənətkarlara
Nə pak duyğularla yaşamış onlar.
Gör hara qaldırır bizi, gör hara
Tellərdən süzülən ahlar, amanlar.

Əlyar Cahangiri qəmli görüncə
Götürdü əlinə skripkanı.
Tellər inildədi hey incə-incə,
Xəyallar dolaşdı bütün dünyanı.

Sonsuz arzularla yaşayır insan
Hər nəfəs dünyadan bir dünya dilər.
Arzunun zamanla toqquşmasından
Yaranmış simdəki bu iniltilər.

Fikir ver simdəki o nəfəslərə!
Əridər şaxtanı, əridər qarı.
Sənətkar qəlbində dönür səslərə
İnsanın mənəvi iztirabları.

Doğrudan xoşbəxtdir sənətkar olan,
Duyğular selində çağlayır hər an.
Tökür kağızlara dərdini bir-bir,
Qəlbindən keçənlər qəlbini deşmir.

Qəlbə yanğı salan xoş təranələr
Barmağın altında quzu tək mələr.

Bizi yaşamağa çağırır həmən
Hər bəmi, hər zili könül səsidir.
Bu mahnı kimindir, kimindir, görən?
Bəlkə də Əlyarın öz nəğməsiir?!

Mahnı inildəyir, həkim dinləyir,
Bu cansız səslərə könül baş əyir.
Mahnı nurlandırır ömür yolunu,
Həyatın fövqünə qaldırır onu.

Deyir: -Uç, qanadlan, daim qanadlan!
Xoşbəxtdir mahnıyla ömür sürənlər.
Səni qorxutmasın, səni heç zaman
Həyatın dibində bal sümürənlər.
Anlayıb yaşamaq, demə, çətindir!

Xırda duyğulardan uzaq ol, uzaq,
Böyük duyğularla yaşa, kiçilmə.
Hər şeyin sonu var... həyata düz bax,
Gecəni, zülməti əbədi bilmə!

## *IV fəsil*

Bahadırsa o gündən
        İntiqam almaq üçün
        Fürsət, məqam gözlədi.
Hər yerdə Cahangiri
        Kölgə kimi izlədi.
Xəstələri tovlayıb

Rüşvət göndərdi, rüşvət
Cahangirin evinə.
Bir şey çıxmadı yenə.
Rüşvətlər geri döndü,
Prokuror Bahadır
Gecə-gündüz düşündü.
Əl atdı min hiyləyə,
Əl atdı yüz tədbirə.
Əli havada qaldı,
İlişmədi bir yerə.
O, cərrah Cahangirin
Polad iradəsini
Bir an qıra bilmədi.
Dolaşdıra bilmədi,
Dolaşdıra bilmədi.
Dəf olundu...
Canavar qəzəbləndi daha da,
Ov əlinə keçmədi,
Mırıldandı kahada.
Üç ay keçdi...
Nəhayət, fırıldaqlar, hiylələr
Gördü hədərdir, hədər.
Gördü həkim Cahangir
Düzlüyü, paklığıyla
Məğlub edibdir onu.
Əyri məhv edə bilməz
Həqiqəti, doğrunu...
Prokuror özünü
Saldı yaman düyünə,
Qəzəbləndi indi də
Həkimin düzlüyünə.

Rahat ola bilməyir
        O nə gündüz, nə gecə,
Ürəyini qurd yeyir
        Prokurorun gizlicə.
Gündüz tutduğu işlər
        Gecə ilana dönür,
        Yatağında sürünür.
Onu çalır gizlicə
Qan qaralır gizlicə,
Yuma bilmir gözünü
        Yata bilmir gecələr,
Dolaşır bədənində
        Qəribə vicvicələr.
O, yasa, toya getdi,
        Hər yerdə Cahangirin
        Tərifini eşitdi.
Qəzəbləndi
        Həkimin ünvanına deyilən
Şirin-şirin sözlərə
Qəzəbləndi yüz kərə!
Baş tutmadı kələklər
O, ümidsiz qalınca
Nalayiq sözlər dedi
Cahangirin dalınca:
- Tanıyıram, - dedi, - mən
Onu tələbəlikdən.
Yaman sadəlövhsünüz,
Yanır sizə ürəyim.
Quzu cildinə girmiş
Canavardır o həkim,
Onun iblis qanı var.

Yaxşı demiş atalar:
"Bu dünyada adamın
Qorx yerə baxanından,
Suyun lal axanından".
Bu layiqsiz sözlərə
Qəzəbləndi bir nəfər
Dedi: - Öz gözlərində
Tiri seçə bilməyən
Yad gözündə tük seçər.
Səs verdilər bu səsə,
Haray düşdü məclisə.
Bahadır təklənsə də,
Dönmədi inadından.
Ancaq aldığı dərsi
O, çıxara bilmədi
Ömrü boyu yadından.

***

Bir gün toy məclisiydi,
        Çalan kim, çağıran kim,
Xəstəsi olduğundan
        Bir az gec gəldi həkim,
O, içəri girəndə
        Hamı qalxdı bir anda,
Həkimə yer verdilər
        Lap məclisin başında,
Yandı yenə qəzəbdən
        Bahadırın gözləri,
Onu gözləyirdilər
        Demə, bayaqdan bəri.

Bir ağızdan həkimi
Masabəyi seçdilər.
İlk qədəhi qaldırıb
Sağlığına içdilər.
Prokuror tutuldu:
"Yox, bu, daha ağ oldu...
Onlar qəsdən həkimi
Belə əzizləyirlər,
Bəli, bəli, qoy mənə
Acıq olsun deyirlər..."
Deyə məclis qızmamış
Çıxıb getdi,
O, yenə
Bir dünya qəm apardı
Məclisdən evlərinə.
"Axı mənim önümdə
Anlamıram o kimdir?
Mən hökm sahibiyəm,
O, adi bir həkimdir.
İş hörmətə gələndə
Anlamıram, bəs nədən
Yuxarıdır o, məndən?
Nəyə gərək bilmirəm
Bu mənasız suallar?
Mənim də el içində
Axı, öz hörmətim var.
Ancaq... bu hörmət deyil...
Bəs bu nədir, bu nədir?
Hörmət mənə deyil ki,
Mənim vəzifəmədir.
Onunsa... nə hökmü var,

Nə rütbəsi, nə çini...
Sevir bütün camaat
Onun insanlığını,
Onun təmizliyini.
Zəhmətin atəşinə
Ömrü boyu o yanmış,
Hörmət mənə verilmiş,
Osa özü qazanmış...”

***

Əyləşib idarədə...
Fikirlidir Bahadır
Bu gün yenə səhərdən...
Qapı açıldı birdən
Başında şələ papaq,
Əlində uzun çomaq.
Qorxa-qorxa bir qoca
İçəri girdi.
- Salam!
- Nə sözün var, ay atam?
- Tanımırsan məni, bəs?
- Sözünü de, əlqərəz!
- Dedin ki... sabah gəlim,
Budur...
Gəlmişəm, oğul,
Göydə Allah, yerdə də
Balama sən kömək ol.
Ətəyindən tutmuşam,
Qadan alım tək sənin,
Əl mənim, ətək sənin!

- Get, a kişi, sabah gəl.
- Yenə sabah? Ay oğul,
Sənin qurbanın olum.
Bu get-gəldən yoruldum.
- Yoruldun, daha gəlmə...
- Axı...
- Uzatma, qoca
- Oğul, ömrüm boyunca
Sənə duaçı ollam
Çək bu işə bir əncam.
- Sabah gəl.
- Eh!... Eybi yox...
Allahın sabahı çox.
Yapışmışam mən haqdan
Deyə çıxdı otaqdan.

***

Axır vaxtlar Bahadır
        Hər şey üstə hirslənib
        Tez-tez çıxır özündən,
O, haqq-hesab istəyir
Gecələr gündüzündən.
Gündüzkü işlərinə
        İrad tutur gecələr,
        Bəzən sabaha qədər
        Yuma bilmir gözünü.
Cahangirlə o, hər gün
        Tutuşdurur özünü.
Üstün tutur Bahadır
        Gah özünü, gah onu.

Düşündürür gecə də,
Gündüz də cərrah onu.
Oyaq qalıb yenə də,
O, gecəni sübhəcən
İşə gəlib əlacsız,
Bu gün lap səhər erkən.
Öz-özüylə danışıb
Gəzinir otağında
Gələcək arzuları
Səslənir dodağında
Diksinir öz səsindən.
Acıq pəncərəsindən
Baxır yol ötənlərə.
Xəyalı, düşüncəsi
Çəkir onu yüz yerə,
Birdən görür qocanı
Durub yolun sağında
Binanın qabağında.
Süzür bir də qocanı
O, təpədən-dırnağa
Baxır keçə köynəyə,
Baxır şələ papağa.
"Hələ... yamaq-yamaqdır
Əynindəki arxalıq,
Niyə belə geyinib
Bu istidə o yazıq?
Bəs əlinə nə olub,
Niyə sarıyıb, görən?
Bu gün gördüyüm kimi
Niyə görə bilmədim
Bu qocanı mən dünən?.."

Elə bu vaxt Cahangir
Çıxdı tinin ucundan.
Qoca keçib irəli
Kibrit istədi ondan.
- Özün yandır, ay oğul, -
Deyə arxalığından
O çıxartdı kisəni -
- Bağışla səhər-səhər
Yoldan elədim səni.
- Eybi yoxdur ay ata,
Bəs əlinə nə olub?
- Fələklə çarpışıram,
Mən yorulmadım ancaq,
Deyəsən o yorulub.
- Mən həkiməm, qoy baxım,
- Zəhmət çəkmə...
- Nə zəhmət
Borcumuzdur, ay ata.
- Kimdir borcunu verən
Ay bala, bu dünyada?
Bunlar keçər...
Adamın
Üzü qara olmasın!
Əl yarası nədir ki,
Ürək yara olmasın!..
- Bu düzdür... ancaq... gərək
Dərman olan dünyada
Biz dərdə can verməyək...
Gedək həkimxanaya,
Tez sarıyım yaranı,
Deyə qoluna girib

O aparır qocanı.
“Bu həkimə nə düşüb
Çəkir xəstəxanaya
Kim dəyirsə gözünə
Denən, a zalım oğlu,
        Yarası var, sənə nə?!
Gərək elə hamıya
        Canfəşanlıq edəsən?
Mat qalmışam buna mən...
Sənətidir bu onun,
        Ey Bahadır, bir oyan,
Sən yara vuransan, ah!..
        Osa yara bağlayan?
Düşündükcə o, bunu
        Yenə dəyişdi halı...
        Artdı fikri, xəyalı...
Bütün günü Bahadır
        Gah haqq verdi özünə,
        Gah da özünü dandı...
Qayıdınca evinə
Çörək belə yeməmiş
        Çarpayıya uzandı.
“Mən hələ uşaq ikən
        Öz-özümə vuruldum,
Uşaqkən ədəbazdım.
        Böyüdüm, xudbin oldum?..”

***

Ürək tab gətirmədi,
Nəbzi qalxdı, gah endi.

Bir qarlı qış axşamı
Eyvaz kişi keçindi.
Bu qəfləti xəbərdən
Nə qəmləndi Bahadır,
Nə də bir az şad oldu.
Bircə bunu bildi ki,
Eyvazdan alacağı
Qisasdan azad oldu.
Hələ dəfnə də getdi
Eyvazın arvadına
"Başın sağ olsun" - dedi,
Çoxlu səbr dilədi.
Qəbr üstünə gedəndə
Cahangiri gördü o,
Bir dərindən-dərinə
Köksünü ötürdü o,
"Ah, nə haldır bu, məndə?
İtirirəm özümü
Niyə bunu görəndə?
Nə istəyir bu məndən
Yox, o, heç nə istəmir,
Mənəm onu izləyən
Elə bil bu hərifdən
Qorxuram, qorxuram mən...
Qorxuram?
Gülməlidir!
Nəyindən qorxacağam?
Neyləyəcək o, mənə?
Niyə baxa bilmirəm
Bəs onun gözlərinə?
Bir bax... gör necə baxır,

Mənə gizlicə baxır,
Qəzəblə dolu gözlər
Təhdid edir, qorxudur
Yoxsa... məni o gözlər.
Biləydim indi onun
Ürəyindən keçəni.
Yoxsa...
Müqəssir bilir
Bu ölümdə o məni
- Axı, niyə?
- Hələ sən,
Bir "niyə" də deyirsən?
Düzü günahkaram mən.
Xəstə ikən necə də
Hücum çəkdim mən ona.
Oğurluq yıxmadımmı
Zavallının boynuna?
Deyirlər o gün axşam...
Ürəyi getmiş... tamam.
Bütün günü Bahadır
Gah haqq verdi özünə,
Gah da özünü dandı.
Qəbr üstündən dönüncə
Çörək belə yeməmiş
Çarpayıya qapandı:
"Mən niyə birdən-birə
                Öz-özümə vuruldum?
Uşaqkən ədəbazdım,
                Böyüdüm, xudbin oldum..."
Ürəyində iki səs:
                Gah bu, gah o dillənir;

Qorxudub incitdiyi
Bədbəxt "günahkarların"
Gözü ona zillənir.
Gözlər, bu yaşlı gözlər
Min bir təlaşlı gözlər
Oda dönüb yandırır
Gecə onu yataqda
Tökdüyü göz yaşları
Selə dönüb aparır
Necə onu yataqda.
"Mən günaha batmışam
Bir ildə neçə kərə,
Anam qənimmi doğmuş
Məni bu bədbəxtlərə?
Mənə nə olub bu gün?!
Öz oduma yanıram.
Niyə özüm özümdən
Mən bu gün xoflanıram?
Yoxsa... adət etdiyim
Bir vərdişdən usandım,
Özüm özümü dandım?
Görən bu nə fikirdir
Beynimə dolmuş mənim.
Öz fikrim, öz düşüncəm
Düşmənim olmuş mənim!
Bəs Cahangir? O indi
Rahat yatır yerində.
Axı, bir ləkə yoxdur
Onun əməllərində.
Ah!.. Necə xoşbəxtdir o,
Bu dünya nemətləri

Ömrünə yük olmamış
Mən düşdüyüm dərdlərə
O düşüb qovrulmamış.
Bəs mən niyə?
Dünyanı anlayıram belə mən.
Bu beş günlük həyatı
Niyə verim yelə mən?
Axmaqdır, bəli, axmaq,
Ömrü keçirib hədər,
Gələcəyin naminə
Bu günündən keçənlər!
Yaşa, yaşa! Həyatdan
İntiqam al müttəsil.
Gələcək yoxdur,
Niyə?
Çünki o, məlum deyil!
Bir şey ki, nisyədir,
Sən,
Niyə onun dərdini,
Qayğısını çəkəsən?
Axmaqlar nəşələnsin
Dünyanın əzabından,
Qovub atmaq gərəkdir
O gələcək zamanı
Sərf-nəhv kitabından.
Qoy Cahangir kimilər
Qaçsın onun dalınca
Ölüm daha yaxşıdır,
Dünya nemətlərinə
Baxıb həsrət qalınca.
O yatmadı gecəni,

Səhər işə gedəndə
Yenə, yenə Bahadur
Rast gəldi Cahangirə,
Tutuldu birdən-birə.
Salam verdi Cahangir
O, salamı almadı.
Rəqibinin üzünə
Nəzər belə salmadı.
Həsəd dəldi bağrını...
O, bir daha bu gün də
Gördü kiçikliyini
Cahangirin önündə.

### *V fəsil*

Səhər xəstəxanaya
Bir xəstə gətirdilər.
Baş həkimə gizlicə
Tapşırıq da verdilər.
- Sən bunun qulluğunda
Ayrıca durmalısan.
- O niyə?
- Prokurorun
Qardaşıdır bu oğlan!
- Bunu özüm bilərəm
Deyə dərhal Cahangir
Həkimləri çağırır,
Həkimlər diqqət ilə

Baxır xəstəyə bir-bir:
- Bağırsağı kəsməli,
Özü də tələsməli!
Əgər elə bu saat
Bıçaq işə düşməsə,
Xəstə məhv ola bilər.
Qərarı bildirdilər.
Rüstəm zəng çaldı dərhal
Prokuror oğluna
Bahadır bildirdi ki,
"Toxunmasınlar ona
Bakıya zəng çalmışam
Professor gələcək..."
Cahangirin üzünə
Bu söz dəydi sillətək.
Dedi: - Bir də zəng çalın,
Siz onu başa salın,
Gözləyə bilmərik biz,
Ölə bilər xəstəniz.
O, bunu bilməlidir,
İndi kəsilməlidir!
Əsə-əsə əlləri
Ata zəng çaldı bir də,
Cahangiri halından
Çıxartdı bu xəbər də
- Oğlum deyir ki... düzü...
Dilim gəlmir.
- Nə deyir?
- O deyir ki... Cahangir
Yaxşı cərrah olsa da,

İnanmıram ona mən.
Can oğul, birdən... axı...
Balam gedər əlimdən...
O, nə deyir, qoy desin,
Baş qoymayın ona siz,
O qardaşdır, mən ata,
Mənimkidir əsl söz.
- Bəli, ata, Bahadır
Qoy nə deyirsə-desin
Qoy mənimlə açıqca
Düşmənçilik eyləsin
Ədavəti ataydı
Bu ayaqda o, gərək.
Xəstə kim olur-olsun,
Mənim borcumdur ancaq
Onu xilas eyləmək.
Bəlkə də bu dünyada
Çox şeydən keçmək olar,
Sənətin şərəfini
Nəyə dəyişmək olar?
Gözlərim baxa-baxa
Necə atım xəstəni
Ölümün pəncəsinə?..
Ancaq susur həkimlər,
Səs verməyir heç biri
Baş həkimin səsinə.
Onlar deyir: - Atını
Gəl daşlığa sürmə sən
Prokurorla amandır
Tərəziyə girmə sən.

- Axı, ölür...
- Sənə nə!
- Necə, necə mənə nə?
Bəs harda qaldı, harda
Sizin sənət eşqiniz?
İndi ki, belə oldu,
Kənara çəkilin siz.
İndi əlac etməsəm
Mən bu işdə özümü
Bir günahkar sayaram,
Mən işə başlayıram!
Bıçaqlar təraşlanır.
Əməliyyat başlanır.
Həmən günün səhəri
Cərrah gəldi Bakıdan.
Xəstəliyi öyrənib
Fikrə getdi o, bir an
Cahangiri çağırıb
Dedi: - Oğul, afərin,
İzin ver həmkar kimi
Alnından öpüm sənin.
Prokurora çevrilib
Dedi: - Sizin indi ki,
Belə cərrahınız var,
Bakıya zəng çalarlar?
İnanın, əməliyyat
Geciksəydi bir saat,
Xəstə məhv olacaqdı,
Cəsarət böyük işdir.
Yaxşı ki, lap yaxşı ki,

Məni gözləməmişdir.
Prokuror dinmədi,
Yerə dikdi başını.
Əyilib çarpayıya
O öpdü qardaşını.
Gözləri birdən-birə
Sataşdı Cahangirə.
Elə bil Bahadırı
Oynatdılar yerindən.
Axı o yayınırdı
Həkimin gözlərindən.
O bacara bilmədi,
O yayına bilmədi
Yana tutdu üzünü,
O gözlər,
Gözlərindən
Yayınıb çəkilmədi.
Qəlbindəki qüruru
Qırmaq istədi, qırmaq!
Ancaq qıra bilmədi,
Yox!... O bunu özünə
Sığışdıra bilmədi!
Burda dolaşdı yenə
O, nəzakət naminə
Təşəkkür etməliydi
Qardaş xilaskarına.
Sığışmadı bu onun
"Kişilik vüqarına".
Ax, ey yalançı qürur,
Sənsən, sənsən kor edən

İnsanlığın gözünü.
Sən böyüklük naminə
Kiçildirsən özünü!
Xəstə bir səqfə baxdı,
Xəstə bir yerə baxdı.
Bir kinli qardaşına,
Bir Cahangirə baxdı.
Bahadırın başında
Elə bil şimşək çaxır,
Qardaş qarşıdan baxır,
Qonaq arxadan baxır,
Xilaskar yandan baxır.
Elə bil ki, bu gözlər
Onun özündən baxır,
Haqqın gözündən baxır.
Baxışların önündə
Onun başı hərlənir,
Gözün sehri yamandır,
Deyən, o sehrlənir,

O döndü birdən-birə
Əl verdi Cahangirə,
Heç özü də bilmədi
Neçin, necə, nə zaman,
"Sağ ol" sözü bir anda
Çıxdı dodaqlarından.

Qanı qaraldı yenə
Ordan gəldi evinə.
"Düşmənimin önündə

Nə günə qaldım bu gün
Yaman alçaldım bu gün.
Hücum çəkdi baxışlar
Heç özümdə bilmədim
Necə oldu ki, birdən
Mən ona “sağ ol” dedim...”
Heyrət edir, o heyrət
Dönük iradəsinə.
Yox! Könül təslim oldu
Həqiqətin səsinə.
Həqiqət! Səndən böyük
Səndən güclü de, nə var?
Səni oda atdılar
Od yandıra bilmədi,
Riya - haqqın telini
Dartdı, qıra bilmədi.
“- Sözə gəldik onunla..,
İllər keçir o gündən...
Mən... mən onu özündən
Oğurlamaq istədim,
O məni oğurladı.
Ləkə vurmaq istədim
Mən ona...
O, günəştək
Günü-gündən parladı.
O dondurdu ağlımı,
Qamaşdırdı gözümü.
Aldı, mənim əlimdən
Aldı mənim özümü.
İşıq olub, nur olub

Ürəyimə girdi o,
Demək istəmədiyim
O "sağ olu" gör necə
Mənə dedirtdirdi o".

## *VI fəsil*

Gecədən xeyli keçmiş,
  Telefon dindi birdən
Cahangir tez götürdü
  Dəstəyi...
  - Hə... mənəm, mən...
Necə? Əlyar? Qanaxma?
  Dayandırmaq çətindir?
Bu dəqiqə gəlirəm,
  Deyə qalxdı Cahangir
  Görən, nədəndir? - deyə,
O tələsə-tələsə
  Başladı geyinməyə.
O, xəstəymiş?.. Bəs niyə
  Bilməmişəm bunu mən
Axı eşitməmişəm
  Balaca bir şikayət
Hələ onun dilindən?!
Bəs bu nədir? Bu nədir?
Min cür qara fikirlər
  Hücum çəkir beyninə
Taxır köynək yerinə
  Pencəyini əyninə.

Saat vurur divarda.
  Hər çıqqıltı bu saat
  Bir damcı qan deməkdir!
Bəli, qaçmaq! Anları
Qabaqlamaq gərəkdir.

Müayinə başlanır.
  Qızışır həkimlərin
  Məşvərəti, söhbəti.
Aydın olur nəhayət
  Qanaxmanın illəti:
Mədə xorası varmış
  Xəstənin keçən ildən,
  Qan açılıb qəfildən.
  Açıb tikmək gərəkdir,
Bunu kim edəcəkdir?
  "Dost dostu kəsə bilməz
Bu çətindir mənimçün...
Düşün, Cahangir, düşün!
Bəs kim etsin, kim etsin?
Yox, yox, tapşırmaq olmaz
O təzə cərraha da.
Vaxtı itirsək fəsad,
Dərinləşər, daha da.
Bundan çətin, qorxulu
Yaraları kəsən mən,
İndi kömək umuram
Bəs niyə özgəsindən?
Mən neçin iradəmi
Hissə qurban vermişəm?
Niyə, niyə özümü

Bu qədər itirmişəm?
Mən cərraham, ya nəyəm?
Özüm girişməliyəm!...”
Saat vurur çıqhaçıq,
Yarım saat,
  Bir saat...
Bu qapalı otaqda
  Çarpışır ölüm, həyat.
Qalıb arada xəstə,
Cərrahın barmaqları
  Gəzir yaranın üstə.
Cərrah həyəcanlıdır,
Beyni donub elə bil.
Yox, bu o cərrah deyil.
Ona elə gəlir ki,
  Közərmə lampasının
  İşığı da azdır, az!

- İşığı yandan salın,
Belə işləmək olmaz!
Deyə, əmrlər verir
Tez-tez köməkçilərə
Alətləri o, hirslə,
Qəzəblə atır yerə.
- Pinset!*
- Lanset!**
- Piyane!**

**Pinset - tutan alət.*
***Lanset - kəsən alət.*
****Piyane - qan damarını tutan alət.*

Bir az gecikən kimi
İndi deyin mən kimi
Köməyimə çağırım
Axı bu dar macalda?-
Deyə dərhal qışqırır.
İndiyədək bu halda
Baş həkim Cahangiri
Görməmişdi heç biri.
Düşünür xidmətçilər,
“Bu gün buna nə olub?
Deyə, öz-özlərinə.
Piyaneyə əl atır.

Novokain* yerinə.
Toplayıb diqqətini
Bir də baxır yaraya.
Necə kəssin bilməyir,
Kimi, kimi çağırsın
Bu ayaqda haraya?
Dayanmayır qanaxma.
Ancaq özü özünə
Pıçıldayır: “Darıxma:
Diqqətli ol, tələsmə,
Bax belə... Yerindədir.
Unutma ki... Ən əziz
Bir adamın taleyi
Sənin əllərindədir.
Niyə əsir bıçağım
Əllərimdə bəs mənim?

**Novokain - keyləşdirici dərman.*

Bəlkə qorxum, təlaşım
Əbəsdir, əbəs, mənim?
Hər şey yerindədirsə,
Bu təlaşım bəs nədir?"
Bir gözü yaradaysa,
Bir gözü xəstədədir.
Ağrının dəhşətindən
Xəstə fəryad qoparır,
Dodağını çeynəyir.
- Nə oldu?
- Qurtarmadın?
- Axı mən öldüm! - deyir.
- Yox, bir az da səbr elə.
- Axı!... Öldüm...
- Toxta bir az!
Axı, belə yaramaz!
Ağrının dəhşətindən
Xəstə sıxıb dişini,
Dodağını gəmirir.

Cərrah dəqiqə başı
Ona təsəlli verir.
Belə vaxtlarda əsla
Fikir də verməzdi o,
Xəstənin ah-zarına.
İndi dost dözə bilmir
Dostun əzablarına.
İynəni bir nöqtəyə
Dönə-dönə vurur o,
Yox!.. Yaraya vurmayır
Öz köksünə vurur o,

Puçur-puçur tər axır
Üz-gözündən xəstənin.
- İnsafın olsun sənin!
Cahangir!
- Can, can, Əlyar!
- Qurtar, sən Allah, qurtar.
- Qurtarıram bax, - deyə
O başlayır tikməyə
Yenə, yenə bir iynə,
- Koxer hanı, sap hanı?
Açıb, tikib Cahangir
Neçə belə yaranı
Axı on ildən bəri.
Titrəməyib, əsməyib
Heç birində əlləri.
İndi ona nə olub?
Neçin bu adi yara
Gizlənibdir dərində?
Neçin bu əməliyyat
Böyüyüb gözlərində?
Əməliyyat qurtarır
Dan yeri ağaranda.
O uzanır divanda,
Mürgü döyür... "Yox, olmaz".
Yuxusu qaçsın deyə
Qalxıb çıxır eyvana,
Səhəri seyr etməyə.
Görür, artıq ağarır
Qarlı başı dağların,
Çimir nur dənizində
Çatıq daşı dağların

Saçlarına toxunur
Sübhün sərin küləyi,
Yüngülləşir...
Elə bil
Pərvazlanır ürəyi.
Pırıltıyla uçan quş
Diksindirir kolları.
Birdən yana çevrilib
Görür qoca bir qarı
Oturubdur səkidə
Qapını güdə-güdə.
"Əlyarın anasıdır,
O gözləmiş gecədən
Yazıq qarı, bilirəm,
Bir gecənin içində
Nə çəkmisən burda sən..."
O çağırmaq istədi,
Bu zaman gülə-gülə
Xidmətçi çıxdı çölə.
Ana atdı özünü
Üstünə xidmətçinin:
- Qurtardı!
- Qurban olum
Qədəminə mən sənin!
Necədir?
- Lap yaxşıdır.
- Çox şükür... Arxayınam...
Əlyarın taleyi
Gör, kimin əlindədir.
Balam evinə dönsün,
Muştuluğun məndədir.

- Bu nə sözdür, ay ana
Təki bizim üzümüz
Yanınızda ağ olsun,
Təki balan sağ olsun.
- Demək arxayın olum?
- "Arxayın ol", o bunu
Necə ürəkdən dedi,
Bəli, ürəkdən dedi.
Belə də olmalıdır,
Axı, xidmətçi qadın
Ana ürəyindəki
Arzulardan halıdır..."
O, ananı çağırdı,
Ana gəldi içəri.
- Oğlum, burda açmışam
Diri gözlü səhəri.
Əlyar...
- Ana, səbr elə!
- Ana səbirsiz olar,
Ancaq səbirdən özgə
Mənim nə əlacım var,
Sinəm sipər olsa da,
Min bəlanın oxuna...
Deyib nə düşündüsə,
Əl atdı qoltuğuna.
Bir dəstə əzik-üzük
Kağızları çıxarıb
Cahangirə uzatdı.
- Axı Əlyar inişil,
Bir ay Bakıda yatdı.
Həkim kağızlarıdır

Gətirdim ki, baxasan.
- Çox yaxşı, ver baxaram,
Deyə Cahangir haman
Kağızları götürüb
Yan otağa çəkildi.
Gözləri əyri-üyrü
Yazılara dikildi.
Oxuduqca alnında
Dərinləşdi şırımlar
Şaqqıldadı başında
Elə bil ildırımlar...

Dəhşətə gəldi birdən,
Qapadı gözlərini,
Demə, yara ikiymiş,
Osa tikmiş birini.
Neçin, neçin onu mən,
Yoxlamadım dərindən?
Düşündükcə Cahangir
Lərzə düşür canına
Atır özünü dərhal
O, xəstənin yanına.

Çarpayıya əyilir,
Baxan kimi, o bilir
Rəngi tamam saralıb
Nəbzi itib xəstənin.
Axır yenə qan yəqin
Təzədənmi açmalı?
Ürəyi də zəifdir,
O buna dözərmi, bəs?

Mən də dözə bilmərəm,
Xəstə də dözə bilməz!
Neyləmək?
Qan vurmalı!
Qan vurulur Əlyara.
Bir az özünə gəlib
O dirçəlir bu ara,
Cərrah buna sevinib
Əmr eləyir o saat,
- Hazırlaşın, təzədən
Başlanır əməliyyat.

Xidmətçilər cərrahın
Səsinə səs verdilər,
Aparmaqçün xəstəni
Xərəyi gətirdilər.
Ancaq... Halı dəyişdi
Yenə də birdən-birə,
Sual dolu baxışlar
Dikildi Cahangirə.
- Dayanın!
- Bəs neyləmək?
İndi ona nə gərək?
Həkim əlac düşünür,
Ayrı bir əlac yenə.
- İynə vurun, tez iynə!
İndi əməlli-başlı
Düşünməyə yox macal.
Ağ xalatlı bacılar
İynə vurur dalbadal.
O, gah özünə gəlir,

Gah keçinir az qala,
Düşür zavallı xəstə
Bir anda haldan-hala.
“Təzə əməliyyata
Başlamaq olmaz daha...
Xeyir, daha gecdi, gec.
Özgə əlac yoxmu heç?
Axı gec olmasa da,
Bu halımda təzədən
Girişə bilərəmmi
Bu ümidsiz işə mən?
Xidmətçi də anaya
“Arxayın ol sən” - dedi,
“Arxayın ol!” - bu sözü
Necə ürəkdən dedi.

Bəs mən necə?
O yazıq,
Anaya bu sözləri
Deyə bilərəmmi, ah?”-
Çıxdı hədəqəsindən
Cahangirin gözləri.
Dava-dərmanım deyil,
Təbiətin özü də
Əlyara göz olaydı!
Kaş, xidmətçi qadının
Ürəkdən söylədiyi
O sözlər düz olaydı!..

Sağ tərəfdə anası,
Xəstə inildəyəndə,
“Mənə gəlsin, ay bala,
Canındakı dərd-bəla”.
Deyə yorğanın üstdən
Əlyarı qucaqlayır,
Xısın-xısın ağlayır.
(Bala əzablarına
Ana necə dözərmiş...)
Ölüm qanadlarını
Əlyarın üstə gərmiş,
Həkim öz gözləriylə
Görür bu an ölümü
Cavanca bir həyatı
Boğazlayan ölümü.
Ancaq qova bilməyir
Həkim Cahangir onu.
Xilas edə bilməyir
Ölümdən öz dostunu.
Ölüm yaman yapışıb
Boğazından xəstənin
“Ölüm, nə tez gəlmisən
İnsafın olsun sənin.
Onun saçına belə
Düşməyibdir dən hələ”,
Xəstə isə anbaan
Yarpaq kimi saralır.
Həkim çarə düşünür,
Həkim xəyala dalır.

“Bəlkə insafa gəldi
Ölüm çəkildi? Yox, yox!
Ölümün qəlbi soyuq!

Bir ölüm ki, əlinə
Qılıncı mən vermişəm.
Candan əziz sandığım
İnsanın həyatına
Mən özüm gətirmişəm.
Ölümü bu yatağa
Məhəbbətim çağırmış
Bu dərd necə əzablı,
Bu dərd necə ağırmış.
Ölür göüm önündə,
Necə imdada yetim?
Kimdir görən müqəssir,
Mənəm, ya məhəbbətim?”
Ana sonsuz inamla
Baxır, baxır həkimə.
Həkim ümid sözüylə
Kimə baxsın, bəs kimə?
Ana yaxşı bilir ki,
Həkim Əlyardan ötrü
Əsirgəməz canını
Nəinki davasını,
Nəinki dərmanını.
Axı Əlyar həkimin
Ağzındakı dilidir,
Ana nə biləydi ki,
Elə həkimin özü

Əlyarın qatilidir..
Ana baxır həkimə,
Bu baxış nələr deyir,
Oğlunun taleyini
Cahangirin üzündən
O oxumaq istəyir.
Ana baxır... Hey baxır,
Bu baxışın önündə
Daş əriyər, su yanar.
Bu baxışın önündə
İnsan necə dayanar?
Necə təsəlli versin
Sönən şamın yanında
Pərvanəyə o, necə?
Deyə bilmir dərdini
Həkim yanır gizlicə.
Hər dərdə, hər əzaba
Tək dayanmaq çətindir,
Aşkar yanmaq nədir ki,
Gizli yanmaq çətindir.
Cahangir hey düşünür,
Ümid onun gözündə
Gah alışır, gah sönür.
Üzülür əli göydən,
Üzülür əli yerdən,
Yapışır iynələrdən
O əlacsız qalınca.
İynə-iynə dalınca
Hey vurulur xəstəyə.
Bəlkə ayıldı deyə

O, xəstənin nəbzini
Tutub bayaqdan bəri,
Sayır döyüntüləri
Sayır,
            Sayır,
                        Sayır o,
Özünü unudubdur
Bu zavallı xəstənin
Nəbziylə yaşayır o.

İndi, indi onunçün
Dünya özü büsbütün
Nəşəsiylə, qəmiylə,
Öz böyük aləmiylə
Tutduğu bu nəbzdə
Qərar tutubdur ancaq.

Bu an öz dünyasını
O unudubdur ancaq
Özündən ayrılıbdır,
Sayır,
Sayır,
Hey sayır.
Ancaq bu vurğulardan
O heç nə anlamayır.

“Onu xilas eylə” - deyir vurğular,
“Sən, axı, həkimsən, həkimsən, düşün”.
Xilaskar deməkdir, bəli, xilaskar,
Əsl mənası da həkim sözünün.

Barmağı altında hiss edir min-min
Təmiz duyğuların ahu-zarını -
Böyük arzularla yaşayan qəlbin
Hələ yaranmamış mahnılarını.

“Yaratmaq eşqiylə yanırdı Əlyar
Düşünüb dərindən, duyub dərindən.
Hələ... hələ... dünən mənə o ki var,
Danışdı gələcək əsərlərindən.

Üzündə, gözündə həyat oğlunun
Sonsuz arzuları çiçək-çiçəkdi.
Bu gün radioda, deyəsən, onun
Təzə mahnıları veriləcəkdi...”

Bəli... düşündükcə yanır Cahangir,
Çökür gözlərinə birdən qaranlıq.
Sakit vurğuları o saya bilmir,
Sonuncu vurğunu gözləyir artıq.

Düşünür, düşünür həkim anbaan,
Artıq eşitməyir nəbzin səsini.
Qəlbi dilə gəlir: “Bu vurğulardan,
Saxlaya biləydim kaş bircəsini”.

Olsaydı, olsaydı məndə o qüdrət,
Düşməzdi önümdə dostum bu günə.
O lənət yağdırır, min dəfə lənət,
Təbabət elminin gücsüzlüyünə.

“Təbabət neyləsin?... Mənəm günahkar,
Burda təbabətin nə günahı var?!

Hər şeyə qadirdir, hər şeyə insan
İdrak ölümdən də intiqam alır.
Mənim kimilərin naşılığından
Elm gör necə də xəcalət qalır".
Açdı gözlərini yavaşca Əlyar,
Baxdı təəccüblə yan-yörəsinə.
Ananın üzündə qaldı baxışlar.
İnlədi...
- Can bala, qurban səsinə!..
Baxdı matdım-matdım hamıya bir an,
Titrədi astaca gül dodaqları;
Əlini çıxartdı yorğanın altdan,
Uzatdı dinməzcə həkimə sarı.

Bu şümşad barmaqlar, bəli, nə qədər
Həyat nəğmələri bəstələmişdi.
İnsanı həyata səsləyən əllər,
Həyat istəyirdi həkimdən indi.

Bu zaman uzaqdan mahnı səsləri
Açıq pəncərədən axdı içəri:
Radio inlədi... yandı kainat,
Elə bil, göy yerə, yer göyə dəydi.

Nəğmə deyirdi ki: "Şirindir həyat!"
Bu, deyən, Əlyarın son nəğməsiydi:
"Zaman qovur, ömür qaçır, gün qaçır.
Zaman bizə, yaman bizə sirr açır.

Arzu, dilək könlümüzə nur saçır,
Arzu böyük, ömür gödək, gün gödək,

Ötən günü gələn günə bənd edək.
Qədrini bil axıb keçən günlərin,
Həyat şirin, ömür şirin, gün şirin,
Bu dünyanı düşün dərin, duy dərin,
Eşq oduna yana-yana yaşayaq,
Duya-duya, qana-qana yaşayaq.

Hər çəməndə, hər çiçəkdə gözüm var,
Hələ mənim sinəmdə çox sözüm var,
Qoy dayansın, işləməsin saatlar,
Həyat eşqi! Baş əyirik önündə,
İşığısan sən ayın da, günün də..."

Simlər nalə çəkdi, alışdı, yandı,
Ağladı intizar, ağladı hicran,
Yerlərin naləsi ərşə dayandı,
Simlərdə hönkürən qəlb arzusundan.

Bu səslər həyatın, ömrün səsidir
Yaranmış bağrında qeylü-qalların,
Hər ah, hər hıçqırtı - bir pilləsidir
Beşikdən məzara gedən yolların.
Nəğmə deyirdi ki, "O çox cavandır
Ölüm əlimizdən onu almasın.
Həkim, ölümü də başa sal, qandır,
Onun nəğmələri yetim qalmasın..."
Musiqi bitincə qara geydi gün,
Əbədi qapandı onun gözləri.
Demə, bu dünyaya vida deməkçün,
Bunu gözləyirmiş bayaqdan bəri.

Nəğməylə yaşadı iyirmi beş il,
Göz yumdu nəğmədən özgə hər şeyə.
Bəli, öləndə də ölümə deyil,
Nəğməyə can verdi, ancaq nəğməyə...
Duman, sis dağlara kölgə salmamış,
Tapşırdı ömrünü qışa ilk bahar.

Bu şirin həyatdan bir kam almamış,
Əlvida söylədi həyata Əlyar.
Əbədi yuxuya getdi bir anda,
Güllərin üstünə şehlər çiləndi.
Gözü qapananda, sol yanağında
Gördülər bir damla yaş giləndi.

Bir fayda vermədi ona son təlaş.
Qırıldı içində qəlbinin səsi
Son ah, son hıçqırtı, bu bir damla yaş
Ömür kitabının oldu nöqtəsi.

***

Bütün əhvalatı o, dönə-dönə
Götür-qoy eləyir bir də dərindən.
Cürbəcür fikirlər gəlir əqlinə
Diksinir özü də öz fikirindən.

Hey ölçür, hey biçir, bir də hər şeyi,
Fikirlər torunda o sehirlənir.
Dəhşətdən, qorxudan qızır kürəyi,
Gözü dumanlanır, başı hərlənir.

“Hər şey açılacaq bu saat heyhat!..
Alnıma damğa da vurulacaqdır.
Neçə il mahalda qazandığım ad
Bir anın içində yox olacaqdır.
Amansız olurmuş necə də insan,
Cahangir, gör nələr gəlir əqlinə,
O ölüb, sən isə heç utanmadan
Canının hayına qalmısan yenə.
Nələr düşünürəm, sən bir işə bax!
Cəhənnəmə qalsın adım, şöhrətim.
Bəs mənim ailəm? Bəs arvad, uşaq?
Başsız qalacaqdır bədbəxt külfətim...
Odur prokurorun özü də gəldi...
O, belə fürsəti verərmi əldən?
Bəli, ekspert də belə düzəldi,
Hər şey açılacaq bu saat həmən...

Meyiti yarmağa aparan zaman,
Ana hönkürtüylə girdi qapıdan.
- Azmı yarılıbdır?
Yox! Qoymaram mən
Mənim yazıq balam, bir də yarıla!
Kəsdilər qatbaqat səni diriykən
Ölünü qoymaram yaralar, bala!
- Ana, bir düşünün...
Özünüz gərək izin verəsiniz...
Bizə inanın
Çiçəyi burnunda gedən cavanın
Nədən öldüyünü bilməliyik biz.
- Yəni Cahangirdən çox bilirsiniz?

Nədən öldüyünü soruşun ondan!
Cərrahın gözündə qaraldı cahan,
Ay batdı, gün batdı, ulduz da söndü.
Başını aşağı dikib düşündü:
“Balası əlimdə ölübdür... Yenə
Bu bədbəxt pir deyib inanır mənə.
Ondakı ürəyə, nəcibliyə bax.
Mənsə... Gör nə qədər alçağam, alçaq!
Afərin, afərin!
Möhkəm dur, ana!
Mənə bu dərdləri unutdur, ana!
Qoyma yarılmağa, qoyma, amandır!
Sən bu qanmazları yaxşıca qandır!
Prokuror çox deyir, eşitmir ana.
- Çəkilin yana!
Əl çəkin, əl çəkin mənim balamdan!
- Çək-çevir uzanır...
Elə bu zaman
Çatıb Cahangirə köhnə bir tanış
Deyir: - Niyə belə rəngin ağarmış?
Dili topuq çalır, tutulur yaman.
İtirir özünü qəfil sualdan
Dinir asta-asta:
- Dünəndən bəri,
Getmir gözlərimdən onun gözləri.
Heç dözə bilmirəm bu itkiyə mən
Deyə o hönkürüb ağladı birdən.
Səsindən özü də diksindi ancaq
“Belə də ağlamaq olardı? Ax, ax!
Qəribə adamam...

Düzü görəsən,
Ona, ya özümə ağlayıram mən?
Yox! Yox! Doğrudan da yaşarmış gözüm?
Bəs niyə səsimdən diksindim, özüm?
Bəs niyə gözlərim zillənib yerə?
Yox! Kül üfürürəm bəlkə gözlərə?
Bəlkə artist kimi rol oynayıb mən
Dedim ki, "gözləri getmir gözümdən?"
Mən yalan danışdım, bəli, ağ yalan,
Niyə utanmadım bəs vicdanımdan?
Mən hara, qaraya ağ demək hara?
Mən ki, düşmən idim riyakarlara?
Əsl üzüm bu imiş, bu imiş, deyən
İndicə özümü tanıyıram mən.
Nə qədər mürəkkəb olurmuş insan,
Mənim ürəyimdə gör nələr varmış...
Adamın əsl üzü, demə, doğrudan,
Yalnız bərk ayaqda üzə çıxarmış...

Çəkişmə uzandı bir xeyli müddət
Ana dediyini axır yeritdi.
Həkim Cahangirin səhvi, nəhayət,
Əlyarla bərabər torpağa getdi.

## *VIII fəsil*

Bir səfalı təpədə dəfn etdilər Əlyarı,
Axdı, axdı sel kimi ananın göz yaşları.

Onun öz kamanını özüyçün ağlatdılar,
Elə ki, son torpağı qəbrin üstə atdılar,
Həkim sinə dolusu nəfəs aldı dərindən.
Elə bil ki, dağları atdı çiyinlərindən.
O, elə zənn etdi ki, nəhayət xilas oldu,
Onun əzablarına bu andan son qoyuldu,
Ancaq o bilmədi ki,
        Vicdanı baş qaldırıb
        Ona nə hazırlayır.
Sən say öz saydığını,
Gör, bir fələk nə sayır.
Bəli o bilmədi ki,
Ürəyinin başında
        Bir amansız od yanır,
Onun iztirabları bu andan da başlanır.
"Basdırıldı, qurtardı,
        Artıq unutmalıyam".
        Söz verdi öz-özünə
Cahangir evə gəldi
        Gülümsəmək istədi
        Uşaqların üzünə,
        Gülümsəyə bilmədi.
Niyə belədir, niyə?.. Bir şey deyə bilmədi
Axı gülümsəməkçün özünü zorlamışdı.
Ancaq o bilmirdi ki,
        Onun gülüşlərini
        Vicdan oğurlamışdı...
Çay istədi...
Gəldi çay
Qəlbindəki acını bəlkə çay ilə yudu.
Ancaq içə bilmədi, çay qabaqda soyudu.

Xörək gəldi...
Bir tikə alıb yeyə bilmədi.
- Axı, sənə nə olub?
Arvadını süzdü o,
Bir söz deyə bilmədi,
Bilmədi ki, qəlbinin
Ən incə, ən gərəkli
Sapı bu gün qırılmış,
O elə bilmişdi ki,
Əlyar ilə bərabər
Səhvi də basdırılmış
Daha yoxdur bir xətər.
Ancaq o bilmədi ki,
Özü də basdırılmış
Əlyar ilə bərabər.
O gündən günlər keçir,
Yox, dirilmir, Cahangir
Suçlu kimi dolanır,
Uşaqların üzünə
Baxa bilmir Cahangir.
O gülmək istəyəndə
Vicdanı baş qaldırıb
Gülüşünü saxlayır.
Danışmaq istəyəndə, dodağını bağlayır.
O yemək istəyəndə, iştahını öldürür.
O haraya baxırsa, yalnız Əlyarı görür.
Ələ alır pinseti,üstündə Əlyar görür.
O, ayda Əlyar görür, o, gündə Əlyar görür.
Onu qovmaq istəyir
Qova bilmir...
Çəkilib

Xəlvəti bir guşəyə
Ağlayır hönkür-hönkür.
Əlyar çəkilir bir an
Uzun gecələr onun
Yatağının başında.
Kamanını o, bəzən
İnildədir sübhəcən.
Əlyar əl çəkir ondan
Yapışır boğazından
Onu boğmaq istəyir
"Nə günahım vardı ki...
Məni öldürdün" - deyir.
Əlyar deyil, özüdür
Onu boğmaq istəyən,
"Nə günahım vardı ki,
Məni öldürdün" - deyən.
Qaçmaq, qaçmaq istəyir o anbaan özündən
Onun öz varlığında
İkinci bir Cahangir
Baş qaldırır o gündən,
Təqib edir dəmadəm Əlyar öləndən bəri,
Bu birinci Cahangir ikinci Cahangiri.

***

- Cahangir, bu uşağı sən bir kötəkləsənə,
- Nə olub ki?
- Bu gədə, bax, nə sənə, nə mənə
Məhəl qoymur,
Əlinə nə keçirsə, tullayır pəncərədən,
Yamanca mindirmisən boynumuza bunu sən.

Bu gün də gülqabını atıb eyvandan yerə,
Qalmışam yana-yana,
Atasan, bir yaxşıca qulağını bursana,
Cahangir istədi ki, bu dəm qalxa yerindən,
Ancaq... dərhal vicdanı çəkdi ətəklərindən;
"Hara gedirsən, hara?
Neyləyib yazıq uşaq?
Üç manatlıq güldanı qırıb... özünə bir bax,
Bəs sən! Sən neyləmisən" -
deyə dilləndi vicdan
"Bir cavanın əlindən həyatını almısan!
Cahangir: - Düzdür, - deyə başını dikdi yerə,
Çökdü yenə qaranlıq, çökdü yenə gözlərə.
O qalxmadı yerindən
Vicdan yenə dartınıb çəkdi ətəklərindən:
- Dilin yoxdurmu sənin?
Söylə, sənin günahın böyükdür, ya körpənin?
Sualların önündə əriyib döndü muma.
Cavab verə bilmədi...
Arvad keçdi hücuma:
- Sənə nə olub, axı?
Baxan kimi üzünə
Tez başını əyirsən.
Niyə danışmayırsan, niyə dillənməyirsən?
Susdu, susdu yenə də,
Arvad onun dərdini
Nə hiss etdi, nə bildi.
Öz dərdilə Cahangir yan otağa çəkildi.

***

Bir ay keçdi beləcə,
Bir ay gecəbegündüz
O qırpmadı gözünü.
Oyaq qaldı gecələr, danladı öz-özünü,
Əzabları düyülüb ürəyində daş oldu.
Bir ay uzun gecələr həkimə sirdaş oldu,
Bəzən tanış-bilişdən o yaşına-yaşına,
Küçələrdə sübhədək dolaşdı təkbaşına.
Qaçdı özü-özündən,
Qaçdı,
Qaça bilmədi,
Heç olmasa, birinə
Açmaq istədi sirri
Ancaq aça bilmədi.
"Kimə açım bu sirri,
Kim anlayar məni, kim?
Kimə aça bilərdi
Axı, bu sirri həkim?
"Əlyar sağ olaydı kaş...
Əlyar? Yenə də Əlyar?
Niyə yapışıb, axı,
Boğazımdan bu mənim?
Əlyar! Mənim yeganə həm dostum,
həm düşmənim!..
"Məni kənddə-kəsəkdə yenə tərifləyirlər,
Məclislərdə şənimə gözəl sözlər deyirlər.
Heç layiq olmadığım
Bu təriflər, sağlıqlar
Ürəyimi yandırır,
Məni xəcalət edir, necə də utandırır.

Axı yazıq camaat nə bilsin ki, mən kiməm,
Onlar nə bilsin ki, mən cinayətkar həkiməm.
Mən özüm ki, bilirəm...
Bilə-bilə bəs niyə
Alçaqlığa gedirəm?
Bəs niyə bu sirrimi hamıdan gizlədirəm?
Niyə mənim şənimə o tərif deyənlərə
Mən demirəm bir kərə:
- Yetər tərifləriniz, buna layiq deyiləm,
Çünki... mən... mən qatiləm.
Yoxsa... xoşuma gəlir yalan tərifnamələr?
Bəli, xoşuma gəlir, əlbəttə, xoşa gələr.
Bəlkə də qorxuram mən?
O qüdrətim hanı ki..
Zəhmli prokurorun
Qabağında duran mən?
Bəli, bəli, söz budur, hamıdan qorxuram mən.
Özümdən də qorxuram,
Sözümdən də qorxuram.
Güzgüdə gözlərimə sataşanda gözlərim
Gözümdən də qorxuram.
Hamıdan gizlətdiyim bəsdir cinayətimi!
Yaşamaq istəyirəm mən də bir insan kimi,
Yaşamaq istəmirəm min dəfə ölə-ölə,
Ya bir kərə üzülə, ya bir kərə düzülə
Səhvimin cəzasını mən çəkmək istəyirəm.
“Axır özüm-özümdən xilas olum” - deyirəm.
Hey aldadıb özümü kül üfürüb gözümə,
Hələlik bu cəzanı verirəm öz-özümə,
Belə yaşayanda mən
Utanıram özümdən.

Xeyr!
İstəyirəm ki, özgələrdən utanam.
Göydən, yerdən utanam.
"Yaxşı cərraham" - deyə
Mənə bir Allah kimi
Qoy hörmət etməsinlər;
Bu hörmətlə bir daha məni incitməsinlər
Hamı bilsin bir dəfə mən kiməm,
Mən nəçiyəm.
Axı indiki halda
El gözündə mən böyük,
Öz gözümdə kiçiyəm...
Mənsə istəyirəm ki, olmasın əzablarım
Qəlbimdə düyüm-düyüm
El gözündə kiçilim, öz gözümdə böyüyüm.
Bu sirri açaramsa...
Gedər şöhrətim, şanım.
Ancaq, ancaq özümdən razı qalar vicdanım.
Özgələrin gözündə kiçilsəm də mən tamam,
Özüm ki, öz gözümdə böyüyərəm, qalxaram.
Qaçmaq olar özgədən, ancaq özüm-özümdən
Qaça ki, bilmirəm mən.

Niyə məni qorxudur elin mühakiməsi,
Öz içimdə boğulur vicdanımın haqq səsi?
Nəhayət, tapdım! - deyə
O əyləşdi kürsüyə,
Prokurorun adına izahat yazdı həmən,
Razı qaldı özündən...
Yenə daldı xəyala,
Fikri dolandı göyü,

Fikri dolandı yeri.
Bu vaxt qapı açıldı,
Uşaq girdi içəri...
Onu görüb Cahangir silkələndi dağ kimi,
Titrədi yarpaq kimi,
O bir yaxına baxdı, o bir uzağa baxdı,
O bir kağıza baxdı, o bir uşağa baxdı.

Bunun biri gecədir, o birisi səhərdir,
Bunun biri şəkərdir, o birisi zəhərdir.
Hansını götürməli?
Əsir dodağı, dili...
İnsanlıqla atalıq
Ürəyində toqquşub
İndi baş-başa gəldi
Vicdan da atalığa qoşulub qoşa gəldi.
Bir gizilti duydu o, zəif düşmüş canında,
Deyən, yazığı gəldi uşağa vicdanın da.

Qəlbindəki səslərə xeyli qulaq asdı o,
Dərhal qalxıb uşağı sinəsinə basdı o,
Nəfəs aldı dərindən,
Uzun kirpiklərindən,
Göz yaşı sıza-sıza,
Gözlərini zillədi önündəki kağıza.
“Neyləyirəm mən?” - deyə qurcalandı yerində,
Kağızdakı hərflər böyüdü gözlərində,
Qalxdı, endi yazılar.
Axdıqca göz yaşları ləkələndi yazılar.

## *IX fəsil*

Bir il keçdi belə,
Vicdanının ağrısı
Azalmadı, çoxaldı.
Ürəyində iki səs!
Gah, bu qələbə çaldı,
Gah, o qələbə çaldı.
Qıvrıldı qəlbindəki burulğanlar içində,
O, illəri yaşadı bəzən anlar içində.
Əzablar kilidində fərəhlər dustaq oldu,
Bircə ilin içində saçları dümağ oldu.
Tapılmadı dərdinə, tapılmadı bir çara,
Nə bir məclisə getdi, nə bir toya, mağara,
Getdiyi xəstəxana, gəldiyi də ev oldu,
O, nəhayət yoruldu,
Sığındı vicdanına
İşdən çıxıb o bir gün
Gəldi başı alovlu
Prokurorun yanına.
Danışdı əhvalatı, o danışdı büsbütün,
Bircə ilin yüz illik
Sonsuz iztirabını
Təmizlədi bircə gün.
Prokuror dinlədi,
Ancaq heç nə qanmadı.
Düşündü,
Dərk edincə
Eşitdiyi sözlərə

Bir müddət inanmadı.
O düşündü anbaan
Həm də... dəhşətə gəldi bu böyük etirafdan,
Hələ bir az qorxdu da.
Dedi: "Bəlkə dəlidir?
Yox, yox!.. Bu gülməlidir,
Mən görmüşəm, görmüşəm özgəsini satanı.
Ancaq mən görməmişəm
Fəlakətin qoynuna
Öz-özünü atanı...
Nə qəribə adamdır heç qırpmadan gözünü,
Satır özü özünü..."
Prokuror düz üç il
Məgər çalışmamışdı
Onu dolaşdırmağa?
Ov öz ayaqlarıyla
Gəlib indi... işə bax
Özü keçir qarmağa.
Bəs indi o neyləsin?
Nə cavab versin ona,
Bu vicdan ovçusuna?
Yorur, başını yorur
Bizim kinli prokuror,
Nə qədər istəmiş ki,
Həkim onun önündə
Dursun müqəssir kimi.
Budur, gəlib həmən gün.
Təhdid edə bilməyir
Bəs o, neçin həkimi?
"Məndəki bu hal nədir?

İnsan çox qəribədir”.
O, həkimin önündə
Yumaq kimi kiçilir
Bir təqsiri var kimi.
Budur, indi dayanıb
Günahkarın önündə
Özü günahkar kimi.
Prokuror düşünür,
Heyrətinin oduna
O alışır, o yanır.
Ağlı belə işləmir,
Ağlı belə dayanır.
Düşünür yana-yana
“İnsana bax, insana!
Gör nə qədər böyükdür, onun qəlbi, vicdanı;
Bəs mən insan deyiləm?
Bəs məndə vicdan hanı?
Axı... doğrusu... mən də
Eyvazın ölümündə
Günahkaram beləcə
Günahkaram
Bəs necə?!
Əgər günahkaramsa... bəs mən niyə?..
Dayandı...
Fikrinin atəşində sözlər alışdı, yandı.
Dilləndi ürəyində tamam özgə bir ürək,
Yalnız indi özünü o gördü olduğutək.
Cahangirsə danışır
Vicdanının səsindən
Qüvvət alır səsi də.

Deyən, gülür gözləri, açılır çöhrəsi də.
Yüngülləşir elə bil,
Yox, bu o insan deyil.
İşıq gəlmiş gözünə,
Tapıb artıq özünü, o qayıtmış özünə.
Prokuror dillənir:
- Mənəvi iztirablar,
Əziz doktor, mənə də
Bir az tanışdır, tanış,
Əzablardan mənim də canımda hal qalmamış.
Dostum, sən də özünü yaman əldən vermisən,
Ancaq bu əzabları sənə Əlyar veribsə,
Mənə də sən vermisən.
Həkim dedi: - Bilirəm, qəribədir bu insan,
Çəkdiyin əzabları hiss etmişəm uzaqdan.
Mən də düşdüm axırda sənin gününə... bir bax...
Bir fərqimiz var ancaq:
İkimiz də yanırıq zaman-zaman, anbaan,
Sən qürurun ucundan, mən səhvimin ucundan.
Günahkarıq, günahkar biz dünən də, bu gün də.
Sən Eyvazın önündə, mən Əlyarın önündə.
Səni bilmirəm... Ancaq mən cəza istəyirəm,
Müqəddəs qanunların önündə baş əyirəm,
Cəzamı ver amandır,
Belə qalmaq yamandır.
Öldürdü vicdan məni,
Öldürdü ürək məni.
Məhkəməyə çək məni!
Vicdan məhkəməsindən
Azad eylə məni sən!

Prokuror dedi ki, gözləsin bir az,
Bu işdə tələsik söz demək olmaz.
Elə ki, Cahangir çıxdı qapıdan,
Bahadır dərindən bir nəfəs aldı.
Tutub əllərilə başını bir an,
O, qəmlər içində xəyala daldı.
Cahangir dərdini deyəndən bəri
Bahadır köksündə bir ağrı duydu.
O başa düşmürdü,
Eşitdikləri,
Xəyalmı, doğrumu, ya yuxumuydu?

Bir anda kiçildi elə bil otaq.
Divarlar yıxılıb gəldi üstünə,
Dəhşətdən titrədi bədəni zağ-zağ,
Söylədi: - Mən kiməm?
Məndə bu hal nə?

"Mən kiməm?.."
Dərindən bir də çəkdi ah,
Deyən öz-özünü tamam unutdu.
Aynaya çevirib qəlbini cərrah,
Demə, Bahadırın önündə tutdu.

Bahadır düşündü üç gün, üç gecə,
İşə də çıxmadı, "Xəstəyəm" - dedi.
Üz-üzə, göz-gözə durub gizlicə,
Qəlbilə nə qədər söhbət eylədi.

"Yamanca dəyişdi gözümdə aləm,

Elə bil döşəyim tikan-tikandır.
Mən niyə gecələr yata bilmirəm,
Haraya qaçıbdır bu yuxu andır?..

Mən öz düşmənimi gəzdim kənarda,
İntiqam eşqilə yanıb-yaxıldım.
Uduzdum həmişə bu qovğalarda,
Axırda qisası özümdən aldım.

Deyəsən, gözlərim açılır mənim,
Bahadır! Yanılma, həyata düz bax!
Kənarda deyilmiş demə düşmənim,
Mənim özümdəymiş, özümdə ancaq!..”
Uzanıb yatağa, o salır yada
Yüz dəfə, min dəfə bütün hər şeyi,
Düşür xatirinə xəstəxanada
Eyvazın üstünə hücum çəkməyi.
“Yamanca dəyişdi gözündə aləm,
Elə bil döşəyim tikan-tikandır.
Mən niyə, mən niyə yata bilmirəm?
Haraya qaçıbdır bu yuxu andır!..
Döşəyim, balışım yumşaq olsa da,
Niyə yatammıram?
Anladım daha!
Dünyada vicdanın təmizliyindən
Yumşaq bir döşəkcə tanımıram mən...”
Cahangir gözlədi,
Gözlədi hər gün.
Gözlədi bir həftə, hər saat, hər an.
Anlaya bilmədi, axı, bəs neçin

Bir xəbər çıxmasın prokurordan?

Həkim çox düşündü...
Ancaq o gündən
Bir az açılmışdı qaşı-qabağı.
Dərdini Əlyara danışmaq üçün
Gəldi qəbristana bir axşam çağı.
Gəldi...
Bir gizilti duydu canında
O kimdir?
Yerində dayandı birdən.
Diksindi,
Eyvazın qəbri yanında
Qaraltı dəyincə gözünə gendən.

“Bəlkə qara basır məni də?
Olar!
Çıxarıb yaylığı gözünü sildi.
Yox, yox! Yanılmıram özüdür ki, var,
Bu odur!”
Cahangir geri çəkildi.

Durub seyr elədi onu kənardan,
Həkimi köyrəltdi gördüyü səhnə.
Bir səs qanadlandı qəlbində bu an:
“İnsan necə olsa, insandır yenə...
Bahadır, Bahadır, eşq olsun sənə!..”

Döndü qəbristandan
O şad, o xəndan.

Xəyalı ulduzla, ayla öpüşdü.
"Demək etirafım yerinə düşdü,
Etiraf gətirdi özgəsinə də.
Alqış təmizliyə, alqış yenə də!.."
Bir xəbər eşitdi Cahangir səhər
"Bakıya köçübdür Bahadır tamam..."
Yerindən oynatdı onu bu xəbər.
Soruşdu: - "Nə zaman?"
Dedilər: - Axşam!

"Demək dünən axşam, qəbri başında
Bahadır Eyvazla vidalaşırmış...
Vicdanla qürurun son savaşında
Zəfər haqqın oldu, haqqa min alqış!..

Bakıda
O gəldi darülfünuna,
Tapdı öz ağ saçlı müəllimini.
Bütün əhvalatı danışdı ona
Hakimin önündə müqəssir kimi.
Bir şey gizlətmədi Bahadır ondan,
Qəlbini atəşə tutub əritdi.
Dərs alıb cərrahın etirafından,
Bütün işlərini etiraf etdi.
Axırda başını qaldırıb qoca
Süzdü şagirdini, süzdü doyunca.
Dedi: - Bu həyata açıb gözünü
Hər kəs öz-özünü dərk etsin gərək.
İndi ki, sən gördün özün özünü,
İslah yolundasan, oğlum, sən demək.

Etiraf eyləyən hər şeyi anlar,
Ondan da dəhşətli bir cəza hanı?
Hakimin hökmüylə cəza alanlar
Bəzən dərk eləmir öz günahını.
Yəqin çox düşünüb, çox daşınıb sən,
Nəhayət, könlünü büsbütün açdın.
Dövlət xəbərsizkən əməllərindən
Hər şeyi apaçıq sən özün açdın.

Yaxşıca dərs verib sənə o həkim,
Unutma heç zaman bu qəzanı da,
Sən həm hakim olub, həm də müttəhim
Haqq ilə vermisən öz cəzanı da.

Müəllim dedi ki, oğlum, bu gündən
Səni saxlayıram öz yanımda mən.
Tut elmin müqəddəs, o pak yolunu
"Hüquq və etiraf" - işlə sən bunu
Sən halal zəhməti sev indən belə,
Havayı keçirmə bircə anını,
Yalnız zəhmət ilə, alın təriylə
Qurtara bilərsən öz vicdanını...

Nöqtə qoymaq üçün iztirablara
O gündən bağlandı o, kitablara
Elmin yollarında əzmlə durdu,
Oxudu, oxudu...
Oxuduqca o,
Barışa bilmədi əməlləriylə,
Yudu günahını alın təriylə.

Yazdı, yazdığıyla alışdı, yandı,
Qatlaşıb əzaba illərdən bəri.
Yazdıqca önündə gəlib dayandı
Bütün əməlləri, bütün işləri.

Havayı getmədi onun əzabı,
Yazdı.
Varaqlara boşaldı sinə.
O, bir kitab yazdı,
Həmən kitabı,
Həsr etdi öz həyat müəlliminə.

## EPİLOQ

Bu gün könül açan bir təntənə var,
Şəhər klubunda axşamdan bəri.
Yubiley gecəsidir... Sonsuz alqışlar...
Titrəyir salonun pəncərələri.

Axır yubilyara verdilər sözü,
Cərraha zilləndi hamının gözü.
Çəliyini yerə o döyə-döyə
Asta addımlarla qalxdı kürsüyə.
- Qardaşlar, bacılar, sağ olun sizi.
Ürəkdən sıxıram əllərinizi.
Mən, layiq deyiləm bu təriflərə.
Deyirəm, demişəm bunu yüz kərə.
... Bu böyük əzabdan, deyirəm, bəlkə

Qurtaram ömrümün son çağlarında.
Xoşbəxt o kəsdir ki, yoxdur bir ləkə
Ömür kitabının varaqlarında.

...Özgənin danlağı xoşdur min kərə
Vicdan danlağından, öz danlağından.
Xoşbəxtdir uymayıb özgə səslərə
Vicdanın səsini dinləyən insan.

Həkim qurtarınca bu hekayəni
- Qardaşlar, indi də dinləyin məni
Mənim də sizlərə sözüm var - deyə
Bahadır inamla qalxdı kürsüyə.
Danışdı,
Qayıtdı ötən günlərə,
Sözlər inci kimi düzüldü çin-çin.
Ağsaçlı başını əydi yüz kərə
Önündə öz həyat müəlliminin.

Tez qalxdı ayağa bütün salon da,
Bahadır baş əydi salona təkrar;
Sıxıb Cahangirin əlini sonda,
Verdi kitabını ona yadigar.

*1961, Hacıkənd - Bakı*

# AĞLAR-GÜLƏYƏN

## I ÜSYAN

*"Hümmət, a vətəndaşlar!*
*Qeyrət, a vətəndaşlar!"*
**Sabir**

Bahar zər qələmilə
Naxış vurur torpağa.
Qışdakı məşəqqəti
Unutdurur torpağa.

Şamaxıda Sabirin
Balaca bağçasında
Əyləşib iki yoldaş,
İki dost, iki sirdaş.

Səhhət, Sabir... iki qəlb
Səslənir, bir-birinə
Köklənən simlər kimi.
Bir nəğmənin eşqinə
Bir dinən simlər kimi.

**S ə h h ə t**

Bəli, padişahımız
Təzə bir fərman verib.

O, ölüyə azadlıq,
Diriyə zindan verib.

**S a b i r**

Ağız yummaqdır ancaq!
Bu da təzə fırıldaq!..
Çeşmələr təşnəsinə
Bircə udum azadlıq,
Harda, harda qalmısan,
Mənim suyum azadlıq,
Mənim odum azadlıq?!
Sənsiz gülə bilərmi
Üzümüzə səadət?

**S ə h h ə t**

Neyləyək, bir udum da
Udumdur... heçə lənət!...

**S a b i r**

Mir arzu bəsləyirəm,
Mən, axı, hər nəfəsdə,
Qanadım var, göyüm yox,
Necə uçum qəfəsdə?..
Azadlıq - səhərimdir.
Gündüzüm, axşamımdır.
Eşqimdir, ilhamımdır.
O, dənizim, yelkənim,
Əsl haqqımdır mənim!

Neçə ümman yaradar,
Ahımdan göyə qalxan
Yalnız bircə buludum?!
Niyə mənə haqqımı
Versinlər udum-udum?
Xəyalım azad olsun,
Düşüncəm azad olsun.

Ürəyimin sözünü
Mən yazmaq istəyirəm,
Qoy qələm azad olsun.
Mən görmək istəyirəm
Gözlərim azad olsun.
Danışmaq istəyirəm
Sözlərim azad olsun.
Qışqırmaq istəyirəm
Qoy dilim azad olsun,
Dodağım azad olsun.
Eşitmək istəyirəm
Qulağım azad olsun.

Əsarət zəncirini
Mən qırmaq istəyirəm,
Qollarım azad olsun.
Gəzib bütün dünyanı
Arzumu qulaqlara,
Bağırmaq istəyirəm,
Yollarım azad olsun!
Ələmlər bəstəsiyəm!
Min arzunun səsiyəm,
Mənə dərman neyləsin?

Mən arzu xəstəsiyəm?

İçib-içib doyunca
Azadlıq çeşməsindən,
Söndürəydim odumu,
Çeşmələr təşnəsinə,
Özün söylə, neyləyər
Suyun bircə udumu?..

**S ə h h ə t**

Məgər görməmisənmi
Damcı necə daş dəlir?

**S a b i r**

Dəlir, çox yavaş dəlir.

**S ə h h ə t**

Dəqiqələr, saatlar
Axır dönüb il olur.
Dama-dama  göl olur.
“Molla Nəsrəddin”ə bax,
Onu zaman yaratdı.
Mirzə Cəlil damcıdan
Axı, ümman yaratdı.
İndi o böyük ədib
Səni çağırır, səni -
Deyə Səhhət cibindən
Çıxartdı məcmuəni.

Zamanın əsəbləri
İndi çəkilib tarım.
Oxudu ilk səhfəni:
- "Sizi deyib gəlmişəm,
Müsəlman qardaşlarım..."

Sabir yata bilmədi
O gecəni sübhədək.
Açıldı arzuları
Gözündə çiçək-çiçək.
Nədir hələ bilmirəm
Mən o gecənin adı;
Bircə bunu bilirəm
O gecə... ah... o gecə
Tək səhəri doğmadı;
Doğdu göyü, yeri də.
Doğdu bizi təzədən
Mirzə Ələkbəri də.

Dan yeri ağaranda,
O qalxıb yatağından
Açdı pəncərəsini.
Dinləməyə başladı
Bağçada "hop-hop" deyən
Şinəbubun səsini.
Bu səhərə, bu səsə
O niyə səcdə qıldı?
Açdığı o pəncərə
Bağçaya açılmadı,
Şerimizə açıldı.

Qələm nalə qopartdı,
Kağıza dəyən kimi
Bu səs kağız üstünə
Dağ basdı,
od çilədi.
Bu səs əsrlər boyu
Yatan babamı belə
Yuxudan silkələdi:
"Yox, mən çığırmalıyam,
Yox, mən bağırmalıyam!
Köməyimə,
dadıma
Göyü çağırmalıyam,
Yeri çağırmalıyam!
Mən bütün qaydaları
Qanunları,
Sədləri
Dağıdıb qırmalıyam!"
"Hansı qanunda var ki,
Öz elindən olasan,
Hədəf də sən olasan,
Güllə də sən olasan?.."
Vətənin
dərdlərilə
Yandı,
alışdı Sabir
Dərdin dodaqlarıyla
Dindi,
Danışdı Sabir:
"Xalqların cərgəsində
Mən də varam deyirəm.

Mən dünyadan özümə
Həqiqət istəyirəm,
Sədaqət istəyirəm.
Mən "Hümmət istəyirəm,
Mən qeyrət istəyirəm..."

"Min ildir sirdaşımız
Ələm oldu, qəm oldu,
Niyə, niyə bəs bizim
Qeyrətimiz kəm oldu?

Yarım bu tayda qaldı,
Yarım o tayda qaldı.
Toyum burda çalındı,
Yarım o tayda qaldı.
Daha bu əzablara
Canımda bir tabım yox...
Mən təpədən-dırnağa
Sualam,
cavabım yox...
Bilmirəm öz əlimdən
Mən hara, hara qaçım?
Bir əlim qanlım oldu,
Bir əlimsə harayçım!

Bizi xəlbirə qoyub,
Sovurdular havaya,
Biz toz olub ələndik.
Min ildir anamızdan
Süd yerinə qəm əmdik.

İnlədikcə, azalmır
Dərdlərimiz daha da
Ürəkdə köz-köz olur.
Bu haqdır, ağladıqca
Kişi qeyrətsiz olur.

Bizdən sonra oyanan
Ala bildi haqqını,
Biz hələ ağlayırıq,
Tarixin təkərinə
Hey ümid bağlayırıq.
Yox, mən bağırmalıyam,
Yox, mən çığırmalıyam!...

## 2. ÜRƏK VƏ ÇÖRƏK

*"Artdıqca həyasızlıq olur el, mütəhəmmil,*
*Hər zülmə dözən canları neylərdin, ilahi?"*

**Sabir**

Zərrədə küllə bax!... Şirvan dedikcə
İslam aləminə lağ etdi Sabir.
Tiyanda sabunu dağ elədikcə
Fikrində zamanı dağ etdi Sabir.

Qaranlıq daxmada gecə sübhədək
O, işıq naminə yazdı, yaratdı.

Sabirin qəzəbli gülüşlərindən
Vətən göylərində günəş dan atdı.

Bütün sualların cavablarını
Tapdı ilhamında, təbində Sabir.
Böyük bir ölkənin dərdini yazdı
Sabun tiyanının dibində Sabir.

Dünyaya sığmayan fikirlərini
Zaman, bir tiyana bağlamadımı?
O dedi: - Anlamaq istəsən məni,
Düşün ləqəbimi, unut adımı!

Düzü, çox düşündüm... Təxəllüsünü
Niyə Sabir qoydu Mirzə Ələkbər?
Böyük gələcəyə dikib gözünü
Demək istəmiş ki, dözən əzilər!
Demək istəmiş ki, Vətən lalədir,
Bağrının başında qarasıyam mən.
Müsəlman nə demək?
Təşbehi-Sabir,
İslam dünyasının yarasıyam mən!
Demək istəmiş ki, səbr edən insan,
Dünyadan əbədən üzülüşübdür.
“Şükür” - deyə-deyə bədbəxt müsəlman
Səbrin laylasından cəbrə düşübdür.

Demək istəmiş ki, zavallı Şərqin,
O sonsuz səbrinin kasasıyam mən.
Çatıb xirtdəyimə daha qəzəb, kin,
Səbrim tükənibdir, daşasıyam mən.

Deyirəm, anası süd deyil, ona
Atəş içiribdir öz döşlərindən.
Axır göz yaşları hey yana-yana
Sabirin yaralı gülüşlərindən.

Onun gülüşləri səbrdənmi? Yox!..
O, kinin, qəzəbin qəhqəhəsidir.
Onun gülüşləri bir atəş, bir ox!
Səbrə qılınc çəkən üsyan səsidir!
Dərdini xalqıyla bölüb ağladı,
O gülüb ağladı, gülüb ağladı!

Cahilə nə var ki?.. Ürəklər dələn
Dəli qəhqəhəni bir gülüş sanar.
Sabirin şerini oxuyub gülən,
Nə Vətən anlayar, nə millət qanar.

Bir gün fitva verdi axund minbərdən:
- Lənətlə çəkilsin Sabirin adı.
O günün səhəri qəssab Mir Həsən
Şairə bir misqal quyruq satmadı.

Axund tapşırdı ki, Şirvanda heç kəs
Mirzə Ələkbərlə alver etməsin.
Axundun əmrindən o çıxa bilməz
Burada bir sirli illət var yəqin.

Qəssab bilmədi ki, Mirzə Ələkbər,
Neçin onun kimi yanaşmır dinə.
Qəssab bilmədi ki, qara gecələr

O yazıb-yaradır işıq naminə.
Qəssab bilmədi ki, sel tək çağlayır,
Alışıb yaradır o, ac qarına...
Qəssab bilmədi ki, o gün ağlayır
Millətin gələcək övladlarına.

Qəssab bilmədi ki, bu xalqın nədən
Özü ağırlıqda qəm yükü vardır.
"Təvəkkül" deməkdən, "şükür" deməkdən,
Ağzında dili də cadar-cadardır.

Çağırdı elləri o, haqq yoluna,
Məslək yolçusuna el "yolsuz" dedi.
O, böyük insanı qəssab bir yana,
Ömür yoldaşı da başa düşmədi.

Qəlbi qəlbimizdə daim döyündü,
Yumulu gözlərə göz verdi Sabir
Yazdı... Qarşımızda güzgüyə döndü,
Bizi özümüzə göstərdi Sabir.

Saldı ürəyinə Sabir hər şeyi,
Min ilin dərdini çəkdi bir anda.
Yolunda canını qurban verdiyi
Bədbəxtlər də onu anlamayanda.

Sözüylə, şerilə o, zaman-zaman
Donuq şüurlara min toxum əkdi.
Dəmir çəkic altda fəryad qoparan
Dəmir parçası tək o, nalə çəkdi.

Qızılı döydülər... Haray-həşirsiz
Yapıxıb mum kimi eləcə qaldı.
Dəmiri döydülər... Qışqırığından
Qulaqlar tutuldu, gözlər qaraldı.

Qızıl dedi: - Dəmir, söylə nədir bu?
Məni də döydülər, axı, sənin tək.
Səsimdən bir adam xəbər tutdumu?
Dəmirsən, əzaba dözəsən gərək.

Dəmir söylədi ki: - O zərbələrdən,
Ahu-nalə çəkib ağlamadım mən.
Bədbəxt yaranmışam mən, a bəxtəvər,
Səni dəmir döydü - özgəsi döydü.
Ona ağladım ki, məni döyənlər
Özgəsi deyildi, özümünküydü.
Bir gün fitva verdi axund minbərdən,
- Lənətlə çəkilsin Sabirin adı.
O günün səhəri qəssab Mir Həsən,
Şairə bir misqal quyruq satmadı.

Sabun bişirməkçün ona yağ gərək,
Bəs indi neyləsin? O, çox düşündü.
Neyləyə bilərdi? O yalqız, o tək.
Dükan da bağlandı, ocaq da söndü.

O, qaralan ocağa
Baxa-baxa düşünür.
"Yoxsa arzularım da
Bu qaralan köz kimi,
Ocaq kimi tez sönür?..

Yox, yox! Bu mümkün deyil,
Sönən ocaqdır ancaq.
Qəlbimdəki ocaqsa,
Daha betər yanacaq.
Yazıram zəmanədən
Atəş, od uda-uda.
Könlümdəki ocağı
Heç söndürə bilərmi
Dəryaların suyu da?

Bəs bir bölük külfətim?..
Onların hər arzusu
Bu ocağa bağlıdır,
Axı külfətim üçün,
Könlümdəki ocaqdan
Bu ocaq maraqlıdır.
Bu ocaqla yaşayır
Evdəki lüt balalar,
Sinəmdəki ocaqdan
Onlara nə fayda var..."

Milyonları düşünən
Böyük bir qəlb sahibi.
Közərən köz önündə
Alışır ocaq kimi...
Milyonları düşünən,
Milyonların yolunda
Əriyib muma dönən
Milyon-milyon insanın
Azadlıq yollarında
Çıraq olan, nur olan,

Milyonlarçın doğulan,
Balaca bir külfətin
Çörəyidir, suyudur.
Milyonların yolunda
Atəş udan, od udan
Külfətinin yolunda
Zəhər udur, qan udur.

Milyonlara dərs deyən
Mis tiyana baş əyir
Bir balaca külfəti
Dolandıra bilməyir.
"Yox, yox! Bu mümkün deyil,
Sönən ocaqdır, ancaq.
Könlümdəki ocaqsa,
Daha betər yanacaq..."

Ona yağ satmadılar
Sabun bişirmək üçün.
Ürəyinin yağını
Əridərək günbəgün
Şair yazdı... Şerlə
Haqqını anlamayan
Nadanları bizlədi.
Ürəklərin min illik
Pasını təmizlədi.
Sabun!
Şer!
İşə bax!
Təsadüfmü bu ancaq?

Hər ikisi təmizlik!..
Sən bu təsadüfdəki
Ahəngə bax, məğzi gör.
Sabun zahir üçünsə,
Şer batin üçündür...
Sabundan əl çəkməli!
"Bəs mən necə dolanım?"
Deyə o, fikrə dalır...
Əməllər, arzularla
Yaşayanda ucalan,
Çörək dərdi çəkəndə
Görün, necə alçalır...

## 3. İMTAHAN

*"Zahida! Gəl soyunaq bir kərə paltarlarımızı!*
*Çıxaraq zahirə batindəki əfkarımızı.*
*Hər kəsin ağı qara isə utansın, a balam!"*

**Sabir**

O, həqiqət naminə
Qələm çaldı... həqiqət!
Sabun bişirmək - peşə,
Şer yaratmaq - sənət.
Sabun - çörək üçündür.

Şer - ürək üçündür.
O, könlünü, eşqini

Vətənə, xalqa verdi,
Çörəyi də ürəklə
Qazanmaq istəyirdi.
- Necə?..
- Müəllim olmaq!
Körpəcə ürəkləri
Pərvazlayıb uçurmaq!

Onların nəzərində
Arzular dünyasından
Minbir kaşanə qurmaq!
Balalara hər şeyin
Öz yerini tanıtmaq!

Ah!.. Onlara... onlara,
Özlərini tanıtmaq!
Həm bu günü tanıtmaq,
İndidən, lap indidən
O körpə balalara
Dost, düşməni tanıtmaq!

Şairim, düz deyirsən.
Mən səni anlayıram.
Düzü, müəllimliyi
Mən bütün peşələrin
Ən ucası sayıram.
O, elə ulduzdu ki,
Bu gün yanır... İşığı
Bizə sabah görünür.
Özü batsa da ancaq
Vətənin göylərində

Min-min ulduza dönür.

O bilmir ilk mənzili
Son mənzili haradır;
Bu günkü əməliylə
O, sabahı yaradır.
Omrü bir nur parçası
O, sabahın carçısı!..

Bəli, müəllim olmaq!
Bunun üçün nə gərək?
Ona bildirdilər ki,
Rəsmi vəsiqə gərək.
Vəsiqə!
- Kimdən?
- Hardan?
Dedilər:
- Mollalardan.
Yox, yox! O uda bilməz
Bu təhqiri, bu dərdi.
O ki, ana dilindən
Dərs demək istəyirdi.
İstəyir ki, balalar
Bizim ana dilinin
O büllur çeşməsindən
Nur içib feyz alalar...
Bəs bunun mollalara,
Bilmirdi nə dəxli var?
- Dərs demək istəyirəm
Şəriətdən, cənablar,
İmtahan edin məni.

Dayanıb heykəl kimi,
Cahillərin önündə
Cahillərin düşməni.

Taleyə bax, günə bax,
Zamanın hökmünə bax!
Zaman öz loğmanını
Pəncəsində inlədir.
Əsrin nəbzi, nəbzində
Döyünən bir arifi
Cahil imtahan edir.
Zaman - onun ustadı,
O, zamanın həkimi.

Zamanın qarşısında
Dayanıb xəstə kimi...
Yağır bir-bir suallar:
- De görək cəhənnəmin
Neçə yüz qapısı var?

Əsrin hər cəfasına
Dözüb dayanan insan, -
Əsrin cəhənnəmində
Alışıb-yanan insan
Sayır qapılarını
Xəyali cəhənnəmin...
Dözür, buna da dözür,
Ona vəsiqə gərək.
Özü bilir dalını...
Min cənnətə dəyişməz
O ki, öz amalını.

Mənasız suallara
Cavab verir
Birbəbir
O, bığaltı gülərək.
İyirmicə uşağa
Müəllim olmaq üçün
Ona vəsiqə gərək...

Axund nə biləydi ki,
Qarşısında dayanan
Milyonların ən böyük
Dahi müəllimidir.
Əsrin ağız dolusu
Həqiqət mahnısını
Ötən sarı simidir...
Böyük müəllim idi
O ki, vəsiqəsiz də.
O, əzilən xalqının
Üsyan deyən səsiydi.

Vətən üçün od tutub
Alovlanan ürəyi,
Onun vəsiqəsiydi.
O ürəyin başında
Qaysaqlanan yaralar,
Daim yanan yaralar,
Ən gözəl möhürüydü
Onun vəsiqəsinin...

Axundda ağıl hanı?
Düşünə dərin-dərin,

Axund nə biləydi ki,
Dayandığı minbərin
Kökünə balta vuran
Elə bunun özüdür.

Bu buxara papaqlı,
Bəstə boylu müəllim,
Xalqın görən gözüdür.
Axund nə biləydi ki,
Ona imtahan verən,
Bu məğmun, miskin insan -
Şerilə çoxdan çıxıb
Əsrin imtahanından.
Axund nə biləydi ki,
Millətin qulağına
Haqq sözü deyən budur -
Gündə min yol adını
Lənətlə yad etdiyi
"Ağlar- güləyən" - budur.

## 4. ÜMİD MƏKTƏBİ

*"Yaşasın şəhriyari-hürriyyət"*
**Sabir**

Onunçun həyat - ümid.
Onunçun zaman - ümid,
Onu ucaldan - amal,
Onu yaşadan - ümid.
Onun ümid günəşi
Aləmə şölə saçdı.
Dükanını bağlayıb
“Ümid” məktəbi açdı.
Elə bil ki, bununla
O çatdı bəslədiyi
Hər arzuya, mətləbə.
Ümidini bağladı,
Bu ikicə sinifli
Balaca bir məktəbə.

O unutdu elə bil
Dərdini də büsbütün.
Dərs verdiyi hər uşaq
Bir ümid çırağıydı,
Bu böyük insan üçün...
“Mənim bağım, baharım,
Fikri işıqlı oğlum,
Məktəb zamanı gəldi,
Dur, yaraşıqlı oğlum”.
Açdı şerlərilə
O, yumulu gözləri,
Tanıtdı körpələrə -
Şanlı sabaha gedən
Cığırları, izləri...

Uşaqların gözündə
Nuh əyyamından qalan
Vərdişləri qırdı o.
Onların ürəyində
Çilçıraq yandırdı o.
Qanmaq öyrətdi Sabir,
Qandırdıqca onlara
Yanmaq öyrətdi Sabir.
Hər şeyin öz adını
Başa saldı birəbir
Görməyi bacarmayan
İşıqsız baxışlara
Görmək öyrətdi Sabir
Nifrət öyrətdi Sabir
“Dağ qəlbli insanlara”
Özünə yad, özgəyə
Dost olan nadanlara...
Şaxtaya da bərabər
Üşütmək öyrətdi O
Tək O özünə deyil,
Hamıya bir mətləbi
Düşünmək öyrətdi O

Vecsiz cəmiyyətdəki
Kolluğu, qanqallığı
Yox etməkdən ötəri
Qalanan tonqallara
Qızınmaq öyrətdi O.
O öyrətdi Nobellər
Öz yurdundan baş alıb

Bura niyə gəlibdir?
Çaqqal dağdan arana
Hansı iyə gəlibdir?
O öyrətdi niyə biz
Yadlar üçün bu qədər
Cazibədar olmuşuq
Bu günkü gerçəkliyə
Biz neçin kar olmuşuq?
O, öyrətdi Vətənə,
Doğma xalqa Səadət
O söylədi: “Yaşasın
Şəhriyari-hürriyyət”.

O öyrətdi niyə biz
Cazibədar olmuşuq.
Niyə yadı bəzəyib
Özümüz xar olmuşuq.
O bircə il dərs dedi
Bu ümid məktəbində
O. şerilə beşcə il
Bütün şərqə dərs deyib
Başqa məktəb yaratdı.
O, gülüş arxasından
Parıldayan göz yaşı.
O bizim şerimizin
Ən böyük Vətəndaşı!

**5. AMAL**

*"Seyli-tən oylə təməvvücə alıb dövrü bərim -*
*Bənzərəm bir qocaman dağa ki, dəryadə durar".*
**Sabir**

Deyirlər, naşiri şerləriçün,
Ona pul ayırdı on manat ayda.
Ancaq qəzəblənib nəyəsə bir gün,
Bu az məbləği də göndərmir daha.

Axır ümidi də kəsilir tamam
Dayanmır, o yanır,
Yaradır yenə,
Coşur, əzildikcə daha da ilham,
Həqiqət naminə, millət naminə!

Şerinin, sözünün müqabilində,
Onun mükafatı hücumlar oldu.
Yalan danışmadı, onun dilində
Həqiqət əbədi bir şüar oldu.

Təhqirdən, təhdiddən hər saat, hər gün
Onun sinəsində neçə ox yanıb.
Sənət yollarında bir amal üçün
Bizmi çox yanırıq, omu çox yanıb?
Biz hara gedirik, gül, çiçək, alqış,
O, hara gedibsə, min təhdid, hədə.
Bizimtək hörmətlə qarşılamamış,
Qəlbini gizlədib onu sevən də.

Özünü hörmətə layiq sanmadı,
Böyük qəlb xidmətə əvəz istəməz.
Hörmətlə, izzətlə qarşılanmadı,
Ən böyük hörmətə layiq olan kəs.

O, amal yolunda mücahid oldu.
O, nə pul tanıdı, nə alqış bildi.
Əzəldən ürəyin alovu, odu,
Hansı məbləğ ilə qiyas edildi?..

Amal! Həqiqətin səsidir ancaq,
Boğsan da! Sinədə dayana bilməz.
Haqqı, ədaləti ayaqlayaraq,
Oda da atsalar o, yana bilməz!

İlham da amalın, məsləkin oğlu,
Amalın var isə, ilhamın da var.
Hünərlə açılar sənətin yolu!
Amalsız ürəkdən ilham da qaçar!

Sənət fədakarlıq, sənət cəsarət,
Sabir möhkəm durdu amal atında.
Nə pul, nə mükafat, nə şan, nə şöhrət!
Ölçüsü amaldır istedadın da...

Bir amal eşqinə yaratdığından,
Dalğalar içində o, dağa döndü.
Elə ucaldı ki, o böyük insan,

Şərqin hər yerində yandı göründü!

## 6. DƏRMAN

*"Arizi qəmlər əlindən ürəyim şişmiş idi..."*
**Sabir**

Sabirin "arizi qəmlər əlindən"
Ciyəri dağlandı, ürəyi şişdi.
O ürək dünyanı dərk edən gündən
Nə qədər cəfaya tab eləmişdi.

Kiçik dərdləri də azı min kərə,
Saldı ürəyinə hər saat, hər gün.
Qəlbində boy atan sonsuz dərdlərə
Daş dözə bilməzdi, o necə dözsün?..

Tiflisi dolandı, Bakıya gəldi,
Özünü göstərdi çox həkimlərə.
Hamısı toplandı, məclis düzəldi,
Yozdu xəstəliyi hərə bir yerə.

Həkimlər düşündü hey dərin-dərin,
Davalar, dərmanlar vermədi fayda.
Həkimlər bilmədi, dərdli şairin
Dərmanı tapılmaz əczaxanada.

Həkimlər bilmədi, bir xəstəliyin
Səbəbi həmişə eyni deyildir.

Həkimlər bilmədi, dərdli şairin
Dərmanı - azadlıq, loğmanı - eldir.

Həkimlər, həkimlər, sizdən əlhəzər!
Dərmanınız eyni, nüsxəniz eyni.
Yüz nədir, min nədir, neçə min yaşar,
İnsana versələr qəlbindəkini!

Getdi həkimlərə O, dönə-dönə
Əlac tapılmadı onun dərdinə
Sabir tək başına arzularından
Yazdı milyonların dərdinə dərman!

*Yanvar-fevral 1962, Bakı*

# YOLLAR - OĞULLAR

*İnsan azadlığı ilk arzu sanmış,*
*Bu söz bir işıqdır çətində, darda.*
*Azadlıq, azadlıq!.. Tarix yaranmış*
*Bu amal uğrunda vuruşmalarda.*

## PROLOQ

Beş iyul! Ucalan milli bayrağın
Rəngindən göylərə şəfəq çiləndi.
Elə bil illərlə axan al qanın
Bayrağın dibində gölməçələndi.

Yüz otuz iki il çəkildin dara,
Öz hakim atandan sən qul doğuldun.
Vuruldu köksünə gündə min yara,
Yurdunda, yuvanda bir qərib oldun,

Axdı yüz otuz il sənin gözündən,
Axdı qanlı sular... Dərin soyuldu.
"Sahibin" ayırdı səni özündən,
Göz-gözə, söz dilə həsrət qoyuldu.
Vuruşdun gecəni gündüzə qatıb,
Alıb öz haqqını, şərəfə çatdın!
Yüz otuz iki il qılınc oynadıb,
Bu bayraq yolunda sən qan axıtdın.

Bu qan yurdunuza yaz gətirdi, yaz,
Analar, bacılar batmasın yasa.
Məhkum bir məmləkət gülüstan olmaz;
O, şəhid qanıyla suvarılmasa.

Bu bayraq dibində məclis düzəlsin,
Zənciri qolundan atdı bu torpaq.
Qoy bütün insanlıq səcdənə gəlsin,
Ey, şəhid qanından qızaran bayraq!

Xalqın tarixini bu qan əks edir,
Onun hər damcısı - nifrət, qəzəb, kin!
Bayrağın altında ruhu rəqs edir
Bu bayraq uğrunda can verənlərin.

Hər biri şir gücü duydu qolunda,
Onların müqəddəs ruhuna alqış!
Onlar dedilər ki, Vətən yolunda
Canım çıxmayaydı, qanım çıxmamış.

Onlar dedilər ki, yetər bunca qəm!
Niyə şərəfimiz lağa qoyulsun?..
Onların hər biri dedi: - İstərəm,
Mənim də öz gerbim, bayrağım olsun.

Arzu könüllərdən qalxıb ucaldı,
Onlar bu niyyətlə girişdi hərbə,
Qan verib, can verib, onlar şan aldı,
Alqış bu bayrağa, alqış bu gerbə!

## *I fəsil*

Milyonçu Ben-Osman çoxdan əl çəkib
Vətəndən, millətdən, məzhəbdən, dindən.
Qırx ildir gözünü Parisə dikib,
Təkcə adı qalıb ərəbliyindən.

Arvadı Zəhradan çəkdi əlaman,
Xoşuna gəlmədi sözü, söhbəti.
Üç il yaşamamış ayrıldı ondan,
Dedi: - Çatışmayır mədəniyyəti.

Parisi, Marseli gəzdi neçə il,
Axtardı özünə "mədəni canan".
Arvad axtarmırdı, o, axmaq deyil,
Arxa axtarırdı əslinə baxsan.

Axır, sərvətilə Əlcəzairin,
Evinə yol açdı, o, bir nazirin.
Onunla "dost" oldu... rənginə görə
O, təhqir olundu... "Dostluğa" yozdu.
Bilyard oynadılar gündə on kərə,
Ben-Osman hər dəfə qəsdən uduzdu.

Güldülər üzünə hey şirin-şirin,
Uduzduğu pulu o, nəqd verdi.
Nəhayət, Ben-Osman "şanlı" nazirin
Kiçik bacısını aldı, gətirdi.

Nananın yolunda çəkdi min əzab,
“Malım da, canım da sənindir” - dedi.
Zəhraya bir frank qıymayan cənab,
Nananın yolunda milyon xərclədi.

Birinci arvaddan bir oğlu vardı -
adı Mustafa.
Onu da özüylə Zəhra apardı,
çəkdi min cəfa.
Ehtiyac içində böyütdü onu -
Böyütdü atalı, yetim oğlunu.
Bir il kefə baxdı otellərdə o,
Firəng həyat tərzi keçdi qanına.
Dandı öz-özünü yad ellərdə o,
Nana rəqs öyrətdi Ben-Osmanına.

Dözdü işvələrə, dözdü nazlara,
Atdı namusunu, atdı arını.
Fırlana-fırlana rokn-rollara,
Havaya fırlatdı milyonlarını.

Vətənə dönüncə Nana, bəyənmir,
Ərinin yeknəsəq güzəranını.
Ərəb qaydaları canına sinmir,
O, “Simon” çağırır Ben-Osmanını.

Bəzənir otaqlar firəng dəbilə,
O, belə ayırır “yaxşını” “pisdən”
Xanımın təkidi öz tələbilə,
Aşpaz da çağrılır hələ Parisdən.

Döndü Ben-Osmanın üzüm bağları
Şampan şəhərində al şərablara.
Deyən də olmadı bunu bir barı
Axı, şərab hara, müsəlman hara?!

Üzüm əvəzinə ərəb bir zaman,
Taxıl becərərdi batıb qan-tərə.
Həmən bu torpaqda indi müsəlman
Şərab hazırlayır firəngilərə.

Şərab şənləndirir Firəngistanı,
Şərab könüllərdə tonqal yandırır;
Ərəbin zəhməti, ərəbin qanı
Parisdə başları dumanlandırır.

Bu gün restoranda bir təmtəraq var,
Rəqs edir ortada cüt-cüt cavanlar.
Burdadır Simonun bu gün ən yaxın
Tanışı, bilişi, yarı, yoldaşı.
Zarafat deyil ki, axı, Nananın
Bu gün tamam olur iyirmi beş yaşı!

Səhrayi-Kəbirin neft çeşməsindən
Milyonlar qazanan o firəngə bax!
Od-alov tökülür hər kəlməsindən,
Özü də özünə inanmır ancaq!..
Danışır, danışır, o, hayla-küylə.
Deyir: "Paytaxtıdır Paris cahanın".
Ərəb şərabını ərəb puluyla
İçir sağlığına Firəngistanın.

Baxır göz ucuyla o, Ben-Osmana,
Deyir: - Ərəblər də qardaşdır bizə.
Sadiq qalarıqsa, biz bu peymana
Dağlar da baş əyər qüdrətimizə.

Danışır, özünə inanmasa da,
O, qurdla quzunun qardaşlığından.
Qədəh də, şərab da, hətta masa da,
Elə bil qışqırır: "Yalandır, yalan!"

Yalnız bircə nəfər, tək bircə nəfər,
İnanır, inanır bu yalanlara:
Ben-Osman!
Dilində ütülü sözlər,
Qalxıb gövdəsini əyir onlara.

Əyilir, əyilmiş daim bu gövdə,
Adəti tərgitmək çətindir, çətin.
Bəzən o, əyilmək istəməsə də,
Gövdəsi əyilir, yazıq neyləsin!

Axı, əyilməsə, yaşaya bilməz,
Paris əyilməyə öyrətmiş onu.
Axı, nazir qaynı bununçun onun
Döşünə taxıbdır "Şərəf legionu".*
O, elə bilir ki, yandıqca par-par;
Şərəf, şan gətirir bu orden ona.
Anlaya bilmir ki, min bir ləkə var
Bu saxta ordenin parıltısında.

**Fransız hökumətinin təsis etdiyi ən hörmətli ordenlərdəndir.*

Anlaya bilmir ki, şərəf bildiyi
Ordenə satılıb şərəf, namus, ar.
Anlaya bilmir ki, şərəfsizliyi
Altun dünyasında şərəf sayırlar.

Anlaya bilmir ki, bu qızıl orden
Adi oyuncaqdır, aldadıb onu.
Anlaya bilmir ki, Əlcəzairin
Gedən sərvətinin bahasıdır bu.

Döşdəki ordenin ağırlığından
Bəlkə də əyilir daim Ben-Osman:
- Ağalar, xanımlar, minnətdarıq biz
Dostumuz, arxamız siz firənglərə.
Həmişə bir olsun qoy əllərimiz! -
Deyirəm, demişəm bunu min kərə!

O, hey danışdıqca, baxıb kənardan
Sinəsi od tutur Əlcəzairin.
Elə bil, elə bil qalxıb məzardan,

Ruhu qan ağlayır Əbdülqadirin.*
Ruhu dilə gəlir: "Nə danışır bu?
Niyə qara yaxır bu satqın bizə?
Ərəbmi firəngə minnətdar oldu,
Məgər bələd deyil tariximizə?!
Niyə təhqir edir mənim ruhumu?

---

**İşğaldan bir az sonra fransızlara qarşı döyüşən Əlcəzairin milli qəhrəmanı.*

Vətənə xidmətin əvəzidir bu?
Zamanmı, insanmı dəyişdi yoxsa?
Əgər firənglərə minnətdarıqsa,
Nahaqmı döyüşdüm onlarla bəs mən?
Qanlar axıtmışam, demə, əbəs, mən!"
Ben-Osman eşitmir Əbdülqadiri,
Ürəyi satılıb, eşidə bilməz.
Danışır: "Firənglər gələndən bəri
Elm-idrak sahibi olmadıqmı biz?
Biz sizdən almışıq mədəniyyəti,
Dəyişib xalqımın fikri, niyyəti..."

Bəsdir, ey Ben-Osman,
burda gəl, dayan!...
Gör bir kim danışır xalqın adından?!
Əyilib alçalmaq olarmı bunca?
Anan daş doğaydı səni doğunca!
Kimi aldadırsan, axı, sən kimi?
Xalqın təqvim açdı, zaman yaratdı
Cəbri, həndəsəni, elmi-nücumu,
Rübabı, damanı baban yaratdı.
Ey nadan, bunları niyə danırsan?
Özgə qapısında nə yalmanırsan?
Əyil, özün əyil, xalqı əymə sən,
Bu haqqı heç kəsə verməyib vətən!

Sığın, ömrün boyu qoltuğa sığın!
Lənət bu halına, min dəfə lənət!
Xalqını satmaqla o qazandığın,
Sərvətə,
"şöhrətə",

“şərəfə”
lənət!
Səni qınamıram, sən öz elində,
Aldın təhsilini firəng dilində.
Firəng tarixini sənə keçdilər,
Özünə yad oldun, yada vuruldun.
Firəng tarixini sən bildin əzbər,
Babandan, atandan xəbərsiz oldun!

Unutdun, ay yazıq, öz adını da
Yaman oxladılar gözündən səni.
Tanıya bilmədin əcdadını da
Gör necə aldılar özündən səni!

Gözəl Nananın,
O şux cananın.
Nazı, qəmzəsi,
İncə, xoş səsi
Əlindən aldı
İxtiyarını.
Şirin sözlərlə
Oxşadı hər gün
O, nigarını.
Nanada tapdı
Hər səfanı da.
İlki, əzizi
Mustafanı da
Çıxartdı yaddan.
Təzə arvaddan
Bir oğlu oldu;
Etyen qoyuldu

Adı körpənin.
O, şirin-şirin
Layla da çaldı
Bu körpəsinə.
O bilmədi ki,
Onun öz ilki
Həsrətdir ancaq
Ata səsinə.
Demə, bala da
Unudulurmuş.
Demə, anası
Boyat olanda,
Övlad özü də
Boyat olurmuş.
Etyen doğuldu,
Simon şad oldu.
Dünya verildi
Elə bil ona.
Qurban da kəsdi
Firəng qızından
Olan oğluna.

Zəhra boşanan kimi,
Səlim səs verdi, dərhal
Bacısının səsinə.
Həm onu, həm oğlunu
Aldı himayəsinə.
O sevdi Mustafanı
Dözdü hər cəfasına.

Ərəb əlifbasını

Özü öyrətdi ona.
Bəs demədi o, yenə
Mustafanı göndərdi
Fransız kollecinə.

Uşaq əzbərləmədi,
Oxuduğu hər şeyi
Dərk etdi dərin-dərin.
Oldu ən sevimlisi
Bütün müəllimlərin.

Ancaq Anri müəllim -
Bu tarix müəllimi,
Sevdi ərəb oğlunu
Doğma balası kimi.

Fürsət tapıb o, hərdən
Danışır uşaqlara
Qoca Əlcəzairdən;
Onun var-dövlətindən,
Hər cürə sərvətindən.
O gah Robespyer olur,
Gah Janna-D’Ark, gah Marat.
Onun səsində arzu,
Onun səsində inad.

Anri meydan oxuyur
Hər zülmə, hər zillətə.
Anri lənət yağdırır
Rəzil mütləqiyyətə!

Anrinin babası Mişel-de-Valjan,
Olmuş kommunanın qurbanlarından.
Atası təqibdən yayınmaq üçün
Gəzmiş çox elləri illərdən bəri.
Nəhayət, bir gün
Gəlib məskən etmiş Əlcəzairi.

Burda ərəblərlə qardaş oldu o,
Gərdi sinəsini hər dərdə, qəmə.
Bu sadə firəngin yeganə oğlu -
Anri də doğuldu Əlcəzairdə.
Gözünü dünyaya açandan bəri
Anri ərəblərlə oturdu, durdu.
Bu gözəl ölkəni - Əlcəzairi
Əzəldən o, sandı öz ana yurdu.

Ərəb məhləsində böyüdü Anri,
Səlim də, Qadir də dost oldu ona.
Axdı ərəblərin şən mahnıları
Hələ körpə ikən onun ruhuna.

Mahnıyla titrədi qəlbinin simi,
Onun çox yanıqlı səsi də vardı.
"Gözümün nuru"nu* bir ərəb kimi
Məktəbdə, küçədə hey oxuyardı...
Səlimi Anridən, onu Səlimdən
Ayıra bilmədi millət də, din də.
Onlar dost oldular... Evdə də bəzən
Anri danışardı ərəb dilində.

---

*Məhşur ərəb mahnısı*

Yoxsul atasının yoxsul evində
O seçib ayırdı qaranı ağdan.
- Haqqın yolçusuyam! - söylədi mən də,
O, hələ kolleci bitirən zaman.

Gördü tərsinədir işi dünyanın;
Kimi ağadırsa, kimi nökərdir.
Nə ərəb, nə firəng? yoxsul olanın
Gördü sevinci də, qəmi də birdir.

Qopdu yer üzündə yenə vəlvələ,
Başlandı ikinci cahan savaşı.
Fransız xalqıyla verib əl-ələ,
Durdu ərəblər də faşizmə qarşı.

Hitler Avropaya qırğın salanda,
Səlim ayrılmadı Anridən yenə.
Kassino altında, Rimdə, Milanda,
Üç il döyüşdülər çiyin-çiyinə.

Anri düşündü ki, bəşəriyyəti
Xilas etməliyik bu təhlükədən.
Səlim düşündü ki, dostun niyyəti
Gözəldir, onunla getməliyəm mən.

De Qoll ordusuna yazıldı bir gün,
Anri də, Səlim də inandı ona.
Qoşuldu dünyanın gələcəyiçün,
Onlar "Müqavimət hərəkatı"na.

Səlim, nə biləydi o zaman,
Sabah
Yurdunun başına nə gələcəkdir.
Əlində tutduğu bu qanlı silah,
Sabah öz xalqına çevriləcəkdir.

Onlar ucaltdılar dostluq səsini,
Göylərdən, yerlərdən od yağa-yağa.
Bu böyük dostluğun vəsiqəsini
Onlar qanlarıyla yazdı torpağa.

Qanlı vuruşlarda neçə yol onlar,
Ölümdən qurtardı biri-birini.
(Döyüşdə bərkimiş əhdi-peymanlar
Daha möhkəm olur əzəldən bəri).

### *II fəsil*

Yaman həyəcanla danışır bu gün,
Anri, Janna D'Arkın igidliyindən.
O deyir: - Dünyada hər insan üçün
Ən böyük amaldır xalq, bir də vətən!

O deyir: - Vətənin şərəfi, şanı;
Şərəfi, şanıdır hər vətəndaşın.
Bu böyük amalla yaşamayanı
Düşmən bil, olsa da doğma qardaşın.

Danışır, danışır o, şirin-şirin
Güllətək səslənir onun hər sözü.
Danışdığı böyük hadisələrin
Dalında əriyib yox olur özü.

O deyir: - Bu gözəl ölkənizdə də
Yaşamış igidlər Janna, Marattək.
Bunu unutmayın, bu gün sizdə də
Onların amalı yaşasın gərək!

Kimdir o igidlər, bir-bir sayın siz:
- Əbdülqadir!
- Şeyx Həddad!*
- Şeyx Ben-Badis!**
- Sizə tanıtmışam Əbdülqadiri.
Gəlin, Ben-Badisdən danışaq bu gün.
Onun öz yeri var, bunun öz yeri,
Hamısı vuruşmuş bir amal üçün.
Müəllim Ben-Badis illərdən bəri
Gəzmiş şəhərləri, gəzmiş kəndləri;
İanə toplamış,
həmin pullara
Məktəblər açdırmış o, yoxsullara.

O öz vətənində, yadlar əlində
Əsir olduğunu yaxşı bilirdi.

---

**1871-ci ildə fransız işğalçılarına qarşı mübarizə bayrağı qaldırmış Əlcəzairli milli qəhrəman.*
***1931-ci ildə "Müsəlman alimləri ittifaqı"nı təşkil etmiş Əlcəzair alimi.*

Həmən məktəblərdə ana dilində
Ərəbin tarixi öyrədilirdi...

Gözləri önündə o, cavan nəslin
Köhnə qəlibləri dağıtdı, qırdı.
O öz təlimilə böyük bir elin
Özünü özünə tanıtdırırdı...

Anri danışdıqca hərdən oğlutək,
Baxır Mustafaya, baxır Qadirə...
Düşünür: bax bunlar nicat verəcək
Qolları zəncirli Əlcəzairə.

Uşaqlar havatək udmaq istəyir
Hər şirin cümləni, hər şirin sözü.
Onların önündə yox olur Anri,
Elə bil danışır Ben-Badis özü!

Anri tez-tez çağırır
Evinə Mustafanı.
O danışır, danışır,
Danışdıqca alışır,
Coşur qəzəbdən qanı.
Yuxusundan oyadır
Balaca Mustafanı.

İllər keçir... Direktor
Bu işdən xəbər tutur.
O saat çıxarırlar
Vəzifədən Anrini,
Dərhal özgə müəllim

Tutur onun yerini.
Anri işdən qovulur,
İndi mühərrir olur.

Dəlib daşın bağrını
O fışqıran suya bax,
Ağzına daş da bassan
Özünə yol tapacaq.
Sözünü bir sinifə
Qoymadılar o, deyə
Yayır fikirlərini
Qəzet sütunlarında
İndi bütün ölkəyə.

***

Gözdə rəngli eynək, damaqda siqar,
Ben-Osman əyləşib şevralesində*
Balaca, bəzəkli brotinalar**
Yellənir maşının pəncərəsində.

Şevrale şütüyür... Birdən Ben-Osman
Çıxarıb eynəyi baxır soluna.
Şoferə əmr edir: - Asta sür, dayan!
Nə gördü? Görəsən, nə oldu ona?

- Uşaqlı qadının arxasınca sür!
- Baş üstə!

**Amerika minik maşını.*
***Kukla, qolçaq.*

Ben-Osman maşından düşür.
O, gah dala keçir, gah da qabağa,
Gah qadına baxır, gah da uşağa.
Zəhra! Nə qədər də qocalıb fağır,

Üzündən, gözündən kasıblıq yağır.
Yəqin ki, yazığın pis keçir halı.
Neçin üzüm döndü bunlardan tamam?
O nimdaş pencəkli, cırıq çantalı
Uşaq da mənimdir, mənim Mustafam...
Taqsır məndə deyil, özlərindədir.
Bilmirəm kasıbda bu qürur nədir?
Axı, göndərdiyim hədiyyələri
Qaytardı bu kafir neçə yol geri.
Sındırmaq istəmir öz qürurunu,
Əyilməz yaradıb yaradan onu.

Yolun kənarında körpə bir uşaq
Dayanıb dilənir... Taleyə bir bax.
Ana da, bala da dayanır bir an,
Mustafa əl atıb tez çantasından
Nə isə çıxarır... verir uşağa.
Bu vaxt yaxınlaşıb Ben-Osman ağa,
Baxır Mustafanın hədiyyəsinə.
- Nə deyim, ay oğul, nə deyim sənə!
Bir tikə çörəyə gəldi gümanın...
Saf kübar qanıdır doğrudan qanın...
Özün ac olsan da, "mən toxam" - deyə
Verdin qismətini sən dilənçiyə.

Dərs alıb balaca Mustafasından,

Əlini cibinə saldı Ben-Osman.
Pul verdi... "Mənim də rəhmim var", - deyə,
Ömründə ilk dəfə o, dilənçiyə.
Baxdı yan-yörəyə... görən oldumu
Onun dilənçiyə pul verdiyini?
Gördülər, gördülər... fərəhləndi o,
Açıldı sifəti, açıldı eyni.
"Doğrudan, gözəldir təkəbbür" - dedi.
Minib maşınına "oğul, sür!" - dedi...

## *III fəsil*

Oğullar böyüdü, ərsəyə çatdı,
İki çıraq yandı iki sinədə.
Oğullar, oğullar qılınc oynatdı,
Hərəsi bir yolda, bir əqidədə.

Paris havasıyla yaşadı biri,
O biri düşündü Əlcəzairi.
Biri bu torpaqdan dövlət istədi,
Biri "Bu torpağa can qurban" - dedi.

Etyen - südə çəkdi, sümüyü dandı,
Bir müddət Parisdə gəzdi, dolandı.
Oxuyub kollecdə o, xeyli zaman
Aldı təlimini dayılarından.

Mustafa: "Mənimdir bu ana torpaq" -
Deyə, - Gəlmələrə oxudu meydan.

Silib, təmizləmək istədi, ancaq,
Vətəni Etyenin dayılarından.
Bir gün təzə müəllim
Danışır qürur ilə.
(Həvəs ilə, şur ilə)
Böyük Firəngistana
Calanan ölkələrdən:
- Baxın Əlcəzairə
Dəyişib nə qədər də.
O əvvəlki ölkədən
Qalmayıb heç əsər də.
Gözəl evlər tikilib,
Dəmir yollar çəkilib.
- Müəllim, bir söz olar?
- Mustafa, nə sözün var?
- O evlər ki, tikilib;
Mədəni firənglərin
Yaşaması üçündür.
O yollar ki, çəkilib
Firənglərin rahatca
Bu yurdun sərvətini
Daşıması üçündür.
- Kəs səsini, yapalaq,
Bundakı cürətə bax!
- Cənab müəllim, axı,
Şagird yalan danışsa
Müəllim qəzəblənər.
Ədalətlə deyin, mən,
Yalan danışdım məgər?
- Kəs səsini!
- Baş üstə.

Zəng olur, çölə çıxır
Uşaqlar dəstə-dəstə.
Tarix müəlliminin
Yaman qaraldı qanı.
Səhəri Mustafanı
Çağırtdırdı, o, birbaş
Direktorun yanına.
Əsdi, coşdu direktor
Yaman təpindi ona.
- Günahını anladın?
Üzr istə müəllimindən.
- Bir günahım yox ikən
Niyə üzr istəyim mən?
- Çox bil, az danış, oğlan!
Tanıyıram atanı...
Sən Simonun oğlusan,
Simon! Başqa məsləkin
Sahibidir o tamam.
- Simonun yox, müəllim,
Ben-Osmanın oğluyam.
- Bəli, aydındır, bala,
Ancaq dediklərinin
Mənasını sən anla!
İndi get, mən yaxşıca
Danışaram atanla!

Keçdi bir neçə gün bu əhvalatdan,
Ata, Mustafanı evə çağırdı.
Bir xeyli oğlunu süzdü Ben-Osman,
Bu görüş: ilk görüş, necə ağırdı!

Ben Osman gördü ki, böyüyüb oğlu
Boyu da, deyəsən, lap ona çatır.
Ben-Osman gördü ki, Etyen deyil bu,
Ürəyində gizli bir aləm yatır.

“Dibçək çiçəyinə bənzəyir Etyen,
Busa dağda bitən palıda bənzər.

Bədəni gör necə bərkiyib onun,
Əsdikcə başından qarlı küləklər.
Həyatın tumarı incəldib onu,
Yumruğu bərkidib ərəb oğlunu...

Atam da beləydi... özüdür ki, var...”
Deyə, - qarşıdakı divara baxdı.
Dəydi gözlərinə ağappaq divar,
Elə bil başında ildırım çaxdı.

“Atamın şəklini götürüb Nana,
O, məni bu evdə qulmu sanıbdır?” -
Ben-Osman bilmədi, şəkil bir yana,
Onun familyası oğurlanıbdır...
O, bir söz demədi... Uddu sözünü,
Güzgünün önündə gəlib dayandı.
Təpədən dırnağa süzdü özünü,
Görən nə düşündü, görən nə andı?
Gözündə təəccüb, ürəyində qəm,
Gah özünə baxdı, gah da güzgüyə.
“Necə dəyişmişəm...”
Elə bil bu dəm,
O, özünə baxmır, baxır özgəyə.

“Necə incəlmişəm... Ben-Osman deyil,
Ayrı bir adamdır gördüyüm tamam...
Hanı o bədənim?
Vallah elə bil,
Mən şərqli deyiləm, avropalıyam...”
Bu güzgü önündə tumarlananda
Zahirinə baxmış o, zaman-zaman.
Bu günsə ilk dəfə oğul yanında,
Güzgüdə qəlbin gördü Ben-Osman.

O döndü, bir daha baxdı oğluna,
Oğlu da diqqətlə baxırdı ona.
“Yaşına uymayan qürur var onda...”
Ben-Osman baxdıqca köks ötürürdü.
Oğlunun mənalı baxışlarında
O, nələr görürdü, nələr görürdü.
Bir həsrət,
          Bir hörmət,
                    Bir də... məzəmmət.
“Direktor, direktor, atana rəhmət!..
Sən doğma balamı qaytardın mənə...
                    Qaytardı?
Bəlkə də, səhvim var yenə?
Mustafa danışır... Susur Ben-Osman,
Baş açmır oğlunun danışığından.
Baxdıqca üzünə doğma oğlunun
Qəribə duyğular oyanır onda.
“İlahi, xalı da var imiş bunun
Eynən mənimkitək sol yanağında...”
Bu zaman Etyen də girdi qapıdan,

Bir ona, bir buna baxdı Ben-Osman.
Bayaqdan ərəbcə danışırdılar.
Söhbəti kəsdilər, sözü qırdılar.
Ben-Osman bir anda Simona döndü,
Gah ona çevrildi, gah buna döndü.
Firəngcə Etyenə dedi, - Yaxın gəl,
Tanış ol, ay oğul, sən əvvəl-əvvəl,-
Qardaşın Mustafa!
Etyen dinmədi,
Bu "qardaş" sözünə heç sevinmədi,
Dərhal ürəyindən keçdi bir fikir:
"Yoxsa... milyonlara bu da göz dikir?.."
Onlar yaxınlaşıb əl verən zaman,
Ata, oğulları süzdü yaxından:
Baxdı neçə dəfə o, dönə-dönə
"Bir bax ədasına, sir-sifətinə,
Rəngi ağ, gözü göy,
saçı sapsarı.
Heç mənə yox imiş bunun oxşarı...
Eynən dayısıdır... Bəs bu? Yaxşı bax,
Atama bənzəyir, atama ancaq!..
Dəhşətdir!..." od qalxır sanki başından.
O, gah Simon olur, gah da Ben-Osman.
Etyen siqarını tüstüləndirir...
Sanki Mustafaya o, acıq verir.
Ben-Osman gözucu baxıb Etyenə,
Düşünür, düşünür, düşünür yenə:
"Görən Mustafa da çəkirmi siqar?
Barmağı saralıb özüdür ki, var.
Çəkəndir, bəlkə də bayaqdan bəri,
Yanır, siqar üçün yanır ciyəri.

Çəkməyir, çəkməyir yanımda ancaq,
Bizim qoca Şərqin adətinə bax!
Pismidir? Bir pislik görməyirəm mən,
Əgər pis deyilsə, bəs onda nədən,
Bu gözəl adətlər tez unudulsun?
Böyüyə ehtiram nəyə pis olsun?
Atam da beləydi... O günlər hanı?
Sınamaq qəsdilə o, Mustafanı
Siqar qutusunu çıxartdı bu dəm:
- Yəqin ki, çəkirsən?
- Xeyr, çəkmirəm.
Etyen siqarını tüstüləndirir...
Elə bil bu tüstü ona can verir.
Aşırıb qıçını qıçının üstə,
O, fıştırıq çalır rokn-rol üstə.
Çoxdan öyrənmişdi Ben-Osman buna,
Bəs niyə hirsləndi bu gün oğluna?
- De bəsdir!
- Nə olub?
- Dedim ki, bəsdir!
- Axı, bu nə qəzəb, nə kəshakəsdir? -
Deyə, - atasına qəzəblə baxdı.
Getdi, arxasınca qapını çaxdı.
Ben-Osman tutuldu,
Dinmədi, ancaq
Hirsindən sifəti oldu ağappaq.
Çay gəldi, bir qurtum götürüb içdi,
Sonra yavaş-yavaş mətləbə keçdi:
- Niyə dalaşmısan müəllimlə sən?
Şagirdçin qanundur müəllim deyən.
- Ancaq qanunlar da dəyişir tez-tez.

- Anla ki, borcludur bizim ölkəmiz
O böyük, mədəni Firəngistana*,
Parisdən yayılır işıq hər yana.
- Köhnə bayatıdır, yoxmu təzəsi?!
Qırıldı içində Simonun səsi.
Nə desin?
- Tarixi, gəl, varaqlayaq.
Dünya heyran olmuş bir vaxt ölkəmə.
Olub, keçənləri gəl bir-bir sayaq,
Kim kimə borcludur, görək, kim kimə?!
Bir zaman Avropa məmləkətləri
Yamanca təklədi Firəngistanı,
O düşdü həlqəyə... illərdən bəri,
Axdı sellər kimi firəngin qanı.

Asmaq istədilər bir xalqı dardan,
Günahsız körpələr qırıldı min-min.
Yalnız mənim xalqım uzaq diyardan
Gəldi köməyinə o vaxt firəngin.

Ona çörək verdi, ona pul verdi,
Axırı nə oldu?
Keçdi bir qədər,
Fransa silahı bizə çevirdi,
Xeyirxah yurdumu əsir etdilər.

İnsanlıq, ədalət bəs harda qaldı?
Mənim yaxşılığım unuduldumu?

**1797-ci ildə fransız inqilabı zamanı bütün Avropa Fransa əleyhinə müharibə aparırdı, o zaman yalnız Əlcəzair fransızların köməyinə gəlmiş, onları çörək və pulla təmin etmişdir.*

Zəngin torpağımı çənginə saldı,
Verdiyim çörəyin əvəzi bumu?

Dəmir zindanlara saldılar bizi,
Parisə daşıyıb sərvətimizi,
Bizə qucaq-qucaq söz gətirdilər;
Koka-kol, rokn-rol, caz gətirdilər.
Getdi əlimizdən namus, ar, ismət,
Bunamı deyirsən sən mədəniyyət?!

Gəlib evimizdə bizi soydular;
Ancaq adımızı vəhşi qoydular;
Bir soruşan yoxdur bu gəlmələrdən,
Bu vəhşi dediyin sənsən, yoxsa mən?
Adət, ənənə də məhv olur artıq,
Biz talan olmuşuq öz evimizdə.
Bu mahir oğurluq,
bu talançılıq
Bəlkə mədəniyyət sayılır sizdə?

Dağ olub, üstümə qat-qat qalınca,
Məndən uca dağlar kölgə salınca,
Daş olub dağlardan uzaq olaydım,
Ay olub, nurumu gündən alınca,
Bir evi nurladan çıraq olaydım.
Təməldən uçula evi zalımın
Qurula binası istiqlalımın.
- Kəs, yetər!

Dəhşətə gəldi Ben-Osman,
Qalxıb tez qapadı pəncərələri.

- Mustafa, Mustafa, nə danışırsan,
Sənəmi qalıbdır elin dərdləri?
Ağlama, sızlama, gəl, için-için,
El üçün ağlayan kor olur əbəs.
- Bir göz ki, ağlamır bədbəxt el üçün
O, elə əvvəldən kor deyilmi bəs?
Görsəydi ağlardı o da mənimtək,
Görən göz, duyan qəlb ağlasın gərək.
Ben-Osman çox dedi,
O eşitmədi.
- Bizim yollarımız ayrıdır - dedi.
Elə ki, Mustafa çıxdı qapıdan,
Dərin xəyallara getdi Ben-Osman:
- "Görən, kim haqlıdır? Balammı, mənmi?
Özünü sevənmi, xalqı sevənmi?
Yox? O nə anlayır, hələ uşaqdır,
Həyatı sonralar anlayacaqdır.
Nə Vətən, nə millət? Deynən, insana
Bu boş fikirlərdən varmı bir xeyir?
Qarın ac olanda millət bir yana,
Heç doğma bala da yada düşməyir.
Yox! Onu bu yoldan döndərim gərək,
Bu il də kolleci qurtarır demək.
Gələn il Parisə göndərsəm onu,
Paris adam eylər ərəb oğlunu..."

## *IV fəsil*

Mustafa kolleci bitirən təki,
Dərhal əl-ayağa düşdü Ben-Osman.

Dedi: - Hər xərcini çəkərəm, təki
Gedib sən Parisdə təhsil alasan.
Mustafa təklifi qəbul etmədi,
Ata çox yalvardı, o eşitmədi.
Ancaq arzusuydu oxumaq onun,
Tarix şöbəsində darülfünunun.
O dedi: - Vətənim təhlükədəykən,
Onu tərk eləyib gedərəmmi mən?

Üsyan bayrağını qaldırdı bir gün,
Vətən övladları atıldı oda.
Yurdun azadlığı, səadətiyçün
Silaha sarıldı bir səhər o da.

Qaldı gözlərində, qaldı oxumaq -
Tarix şöbəsini bitirmək onun.
Tutduğu silahla o yazdı ancaq,
Yeni tarixini ana yurdunun.

Qızdı, qəzəbləndi Ben-Osman yenə,
Oğlunun silaha sarıldığına.
"Gəlsin bir görüşək, danışaq", - deyə
Xəbər də göndərdi dalbadal ona.

Çatdı Mustafaya, çatdı xəbərlər,
Ötüşdü gecələr, doğdu səhərlər.
Oğul tərk etmədi bir an cəbhəni,
Alışan cəbhəni, yanan cəbhəni!..

Gözünün içinə baxdı ölümün,
Neçə yol torpağa çiləndi qanı.

Qızıl lalələrlə bəzəndi hər gün
Haqq ilə nahaqqın döyüş meydanı.

***

Cəmiləni tutdular,
Camalı öldürdülər.
Neçə-neçə ərəbi
Uzaqlara sürdülər.
İngilislər bir zaman
Fransaya dolanda,
Yadların pəncəsində
Vətən əsir olanda,
Haray salıb Janna-D'Ark,
Dedi: - Şərəfimizdir
Yurdun şərəfi, şanı.
O qaldırdı ayağa
Vətəni - Fransanı.
Hamı ona mərd dedi,
Hamı ona Cəmilə!
(Ancaq "düşmən" dedilər
Neçin sənə, Cəmilə?!)
Sən də, Janna D'Ark kimi
Gəlmələrə "get" dedin.
Sən də öz Vətənini
Azad görmək istədin.
Vətənini, elini
Azad görmək istəyən,
Bəs niyə düşmən olsun?
Onun ayaqlarına
Niyə qandal vurulsun?..

Beləmi düşmən oldun
Yurduna sən, Cəmilə?
Bumu sənin günahın,
Bumu, görən, Cəmilə?
Xalqa düşmən olmadın,
Vətəninə, elinə
Sən vuruldun, Cəmilə,
Yurdunun düşməninə
Düşmən oldun, Cəmilə!

***

Vurdular Mustafanı,
yoldaşları birtəhər,
qılığına girdilər,
Səhərisi xərəkdə evinə gətirdilər.
Ağlamadı anası, ağlamaz, yox, ağlamaz
İgid doğan analar.
Şir anası şir olar!
Ana əyilib öpdü balasının alnından.
Dedi: - Şərəfsiz atan
Satıb ana yurdunu,
Medal taxdı döşünə,
Lənət olsun o günə!
Sənsə Vətən yolunda yaralandın döşündən.
Qurban olum yarana,
Əmdiyin süd, ay oğul,
Halal olsun qoy sana!

***

Bu xəbəri eşidib Ben-Osman bərk tutuldu,
Kişi lap dilxor oldu;
“Yenə baladır”, - deyə.
Durub gəldi bir axşam
Oğluna baş çəkməyə.
Gileyləndi Ben-Osman:
- Ağlı olan bir insan,
Bu mənasız işlərə baş qoşub uyarmı heç?
Adam da təhsilini yarımçıq qoyarmı heç?
Əgər mənə zərrəcə, məhəbbətin var isə,
Gedək, gedək, Parisə!
- Ata, səni sevirəm,
Ancaq özümdən də çox bu vətəni sevirəm.
- Vətən! Vətən! Nə verib, axı, bu vətən sənə?-
- Vətən borclu deyildir, biz borcluyuq vətənə.
- Yaxşı - deyə Ben-Osman kəsdi mübahisəni -
    Ancaq bil ki, ay oğul, mən bunları deməzdim,
    İstəməsəydim səni.

***

Qalxan kimi yataqdan,
Mustafanın yadına
Düşdü qoca Ben-Osman.
Gəldi atasıgilə,
Gördü ki, yır-yığışdır.
Bilmədi bu nə işdir?..
Mustafanı görüncə
Qanadlandı Ben-Osman:
- Gedək bizimlə sən də,
- Hara?

- Parisə.
- Yox, yox!
- Ara sakitləşəndə
Qayıdarıq... Arada
Qoy itməsin, ay oğul,
Olan-qalan sərvətimiz, pulumuz.
Yoxdur ayrı yolumuz!
- Ata, məgər bu yolmu?
Ananı darda qoyub
Qaçan oğul, oğulmu?
Mustafa göz ucuyla
Baxdı yerə tökülmüş
Qiymətli parçalara,
Al-əlvan xalçalara.
Yığılıbdır yan-yana
Çamadanlar, çantalar.
Ah, onların içində
Allah bilir nələr var.
"Gedək, gedək Parisə..."
Gör bu mənə nə deyir,
Biz bu Vətəndən ötrü
Canımızdan keçirik,
Bu, varından keçməyir.
Özü gedir... özüylə
Aparır bu torpağın
Qızılını, zərini -
Xalqın alın tərini.
Gedir... Gedir onunla
Ərəbin ürək qanı,
Yoxmu bunun bir zərrəcə vicdanı.
Yox, yox! Bu mümkün deyil,

Buna dözmək çətindir;
Apardığı bu şeylər
Axı, bu millətindir!
Yox, onun topladığı
Frankların hər biri
Bir qurşuna dönməli!
Məni məhkum eyləyən
Ağaların sinəsində sönməli!
- Yaxşı, nə vaxt gedirsən?
- Bu axşam.
- Get, yaxşı yol!
- Bəs sən getmirsən, oğul?
- Ata, məndən sən əl çək!
- Sən də tərssən anantək.
- Bəli, yalnız siçanlar
Gəmini tərk eyləyər
Fırtına  başlanantək.
Sənə uğurlar - deyə,
Çıxıb atasıgildən
Gəldi birbaş cəbhəyə.
Həmin günün axşamı
Yollandı mahattaya*.
Azadlıq ordusundan,
Bir dəstə gənc qəhrəman
Bağladılar hər yanı,
Soydular Ben-Osmanı.
Nana qışqırdı: - Simon!
Nana qışqırdı, - Etyen!
Etyen hücuma keçdi,

---

*Vağzal.*

Qollarını qırdılar,
İyirmi altı bağlama,
Otuz yeddi çamadan
Yükləndi maşınlara,
Cəbhəyə apardılar.

Yolçular mahattadan
Kor-peşman geri döndü.
Onların gözlərində
Dünya, işıqlı dünya
Bir zülmətə büründü.
Əlini bu dünyadan
Üzdü qoca Ben-Osman.
Min fikir, min düşüncə
Hey dolandı başında.
Fikirlər savaşında
Çaşdı, dolaşdı ağlı;
“Kim haqlıdır, kim haqlı?”

### *V fəsil*

Etyen əli qoynunda,
Gedən varın, dövlətin
Arxasınca baxdı hey!..
Bu dəm onun gözündə
Bir heçə döndü hər şey.
Getdi varı-dövləti,
Getdi sözü-söhbəti.
Getdi eyşi-işrəti,

Getdi gedər-gəlməzə
Paris şantanlarında
Deyəcəyi tostları.
Getdi... Onun yolunu
Dörd göz ilə gözləyən
Şərab, qumar dostları...
Getdi onun nəşəsi,
Rahatlığı, dincliyi,
Getdi bütün hər şeyi.
“Onlar getdi...
onlarsız
Bəs mən hara gedirəm?
Bəs mən niyə gedirəm?
Başqasının çəkdiyi
Keyfi, eyşi, işrəti
İyləməyə gedirəm?
Kim apardı, kim mənim dövlətimi, varımı?
Kim dağıtdı başımdan şirin xəyallarımı,
gözəl arzularımı?
Mustafa!.. Ax, Mustafa! Dövlətimin ortağı,
sevincimin düşməni,
nə hala saldı məni.
Bir saatın içində ağa ikən qul oldum,
Hamıdan varlı ikən, hamıdan yoxsul oldum.
Halalca dövlətimi haram etdi o, haram,
İndi ki, belə oldu, öz əqidəm yolunda
Mən də qılınc çalaram!
Qoşulmaq istəmirdim mən bu çəkişmələrə
Ancaq çox nahaq yerə!
Ya o, ya da mən! - deyə
Həmən günün səhəri, Etyen getdi cəbhəyə.

Gecə əlində şimşək, qılınc çəkdi gündüzə
İki qardaş, iki yol o gün durdu üz-üzə.

Bəs ata?
Bəs Ben-Osman?
Gələcəyi düşündü, keçmişləri çox andı,
O gəlib iki yolun ayrıcında dayandı.
"Hansı yolu tutmalı,
Hansı yolu getməli?
Birində qəlbim durur, birində canım durur;
İki yol ayrıcında səhvim, nöqsanım durur.

Canım könlümə düşmən, könlüm canıma düşmən.
Çarpazlaşıb qılınclar,
            onların arasında
Dayanmışam indi mən.
O yol, bu yolu vurur,
Bu yol o yolu vurur;
Oğul, oğulu vurur.
Ayılmıram mən yenə
Axı, ikisinin də zərbəsi dəyir mənə.

Həm o tərəfdə oğul,
Həm bu tərəfdə oğul.
Axı, güllə də oğul.
Axı, hədəf də oğul;
Bəs mən neyləməliyəm?
O oğulu tutmalı, bu oğulu tutmalı?
Ya bu yolu tutmalı, ya o yolu tutmalı!
Biri vətən, namus, ar,
O birində rahatlıq, səadət və həyat var.

Məsləkini istəyən öz canından keçməli,
Öz canını istəyən vicdanından keçməli.
Yox, yox, həyat şirindir,
İki canım olsaydı, mən keçərdim birindən.
Tək bir canım var ikən, ömrün nəşələrindən
Necə keçim, necə mən?
Bəs Mustafa? O necə keçir öz həyatından?
O ki, cavandır, cavan!
Ömrün bir nəşəsini, axı, dadmamış hələ.
Necə verir ömrünü, necə verir o yelə?
Bəli, dadmadığıyçün həyatın nəşəsini,
O dinləyir qəlbinin, məsləkinin səsini.
Axı, o, nə görüb ki, nə anlasın həyatdan,
Hələ o, duza gedir, hələ cavandır, cavan!
Nəşəni, dadan bilər,
Can qədrini, can bilər.
Həyatın  da qədrini həyatda insan kimi
Yalnız yaşayan bilər.
Kənarda durmaq olmaz,
İki yoldan birini tutmalıyam indi mən.
Həyatın nəşəsindən
Keçmək mənə çətindir, bilməliyəm bir dəfə!..”
Deyə, - keçdi Ben-Osman o gün Etyen tərəfə.

***

Gəzdi o gün cəbhəni, fransız əsgərləri
Salam verib baş əydi,
Döşündəki legion onun vəsiqəsiydi.

Bu hörmət, bu ehtiram
Qanad verdi qürura, yaraladı vicdanı,
Simona xoş gəldisə, incitdi Ben-Osmanı.
Baxdı, o xeyli baxdı dağ gövdəli tanklara,
Uzaq vuran toplara.
Bir həzin duyğu ötdü ürəyindən bu ara -
Yoxdur bizimkilərin
"Belə silahı yəqin...
Necə? Necə? İşə bax! Gör nə çıxdı dilimdən?
Yoxsa onlar tərəfə bizimkilər dedim mən?
Bəs necə? Gecə ayrı, günəşli gündüz ayrı,
Ürək ayrı, söz ayrı,
Sözə yox, ürəyə bax.
Bu qaydadır, dil çaşar, düzünü deyər ancaq.
Toplara bax, toplara, tanklara bax, tanklara!

Od saçan lülələri çevrilibdir gör hara?!
Bu qanlı silahların məqsədi, qəsdi nədir?
Onlar ərəb qanına neçə ildir təşnədir.
Bax, bu tankın lüləsi, görən neçə ərəbi
Qəltan etmiş qanına?
Bunlar necə sığışır bəs sənin vicdanına?
Axı, sən də ərəbsən, axı, sən də Ben-Osman.
Babanın çalmasını atdınsa da başından
Qanı ki, qanındadır?..
Niyə, niyə bu qana xilaf çıxdın, Ben-Osman?
Niyə ömrün yolunda sən dolaşdın, Ben-Osman?
Sən karıxdın, Ben-Osman!"
O axtardı Etyeni
Dedilər ki, dünəndən yoxa çıxıbdır Etyen,

Dünənki vurhavurda əsir düşübdür yəqin.
Kiridi... Bir anlığa... Susdu, susdu, dinmədi.
Onun ata ürəyi, bəs niyə diksinmədi?
Bayaqkı duyğulardan onun ata qəlbinə
Yoxsa, bir xal düşdümü?
Yoxsa, o, Etyen ilə özü arasındakı
Uçrumu  görmüşdümü?!.

## *VI fəsil*

Bir həftə ötdü belə,
Üzə durdu, dalaşdı Nana hər gün ərilə,
Hər gün onu danladı:
- Batsın oğlunun adı!
Sənə düşmən olubdur bu günündə öz oğlun,
Oğlumu əsir alıb sənin dələduz oğlun.
Simon, necə gözünə yuxu gedir bəs sənin?
Öz belindən gələn də dönüb oldu düşmənin...

Ben-Osmana göz verdi, Nana işıq vermədi,
Hələ xidmətçilər də kişini dindirmədi.
Qulların sahibkarı öz evində qul oldu,
Axır kişi yoruldu.
Haray verən olmadı bu bədbəxtin səsinə,
Durub gəldi o bir gün azadlıq cəbhəsinə.
Onu bura gətirən qəlbin özgə səsiydi.
Burdasa ərəbliyi onun vəsiqəsiydi...

***

Bir-birinə söykənib yastı, çılpaq təpələr,
Ətəyi kollu-koslu, zirvəsi ağ təpələr.
Ahıl-cahıl cunudlar* uzanıb səngər boyu,
Kimisi siqar çəkir, kimisi də maraqla
“Mücahidi”** oxuyur.
Kimisi səngər qazır,
Kimisi məktub yazır.
İgid övladlarından istədi imdad vətən,
Səngərlərdə doğulur gələcək, azad vətən.
O açmağa başlayıb bu dünyaya gözünü,
Bu səngərlər içində millət kimi tanıyır
artıq bu xalq özünü.
Bu səngərlər içində əsarətin, zillətin
kökü alışıb yanır,
Qolu bağlı bir elin öz dövləti yaranır.
Yanında da bələdçi, gəzir, gəzir Ben-Osman.
Mustafanı soruşur rast gəldiyi cunuddan.
Hey baxdıqca Ben-Osman,
Gözlərindən qan daman
Bu əlləri silahlı adamların üzünə,
O utanır, bilməyir özünün bu həyata
sualı nə, sözü nə?
O çatdı Mustafanın döyüşdüyü səngərə,
Dərhal qalxdı Mustafa.
- Bu səngərin içində sən onsuz da min kərə
Öz atandan ucasan.

**Əsgər.*
***Milli azadlıq cəbhəsinin orqanı.*

Bu hörmətə çox sağ ol.
Sən tək atandan deyil, öz taleyindən belə
ucadasan, ay oğul!
Görüşüb əyləşdilər,
Bir xeyli dərdləşdilər.
Birdən hava qaraldı,
Göyü duman, çən aldı.

- Hücum gözləyirik biz - dedi - ata, bir azdan
Dur, get evə!
Tutuldu hava kimi Ben-Osman.
Dedi: - Gedim? Bəs Etyen? Tap, onu tap, can oğul,
O sənin qardaşındır.
- Yaxşı, yaxşı, sakit ol!
- Bir görəydin anası, nə gündədir, nə gündə?
Axı, gözü üstündə
Saxlayardı Etyeni.
- Ata, ata, bəs məni
Ana doğmayıb məgər?!
- Nəyə gərək bu sözlər?!
Sən də elə, ay oğul...
Gedək, dedim, sənə də,
Ah, gec deyil yenə də!
Deyə, diz çökdü Simon Mustafanın önündə:
- İmdad elə, kömək ol, atana bu günündə.
Dərdimi soranım yox;
Vallah, evdə-eşikdə günüm-güzəranım yox.
Oğul, gəlmişəm cana,
Onu qaytar atana,
Burdan çıxıb gedək biz.

Vallah, yenə verərəm nə qədər istəsəniz.
- Ata, sən nə deyirsən?
Yoxsa, almaqçün bu gün bir oğlunun qanını,
Satmaqmı istəyirsən
Sən o biri oğlunun ləkəsiz vicdanını?
Elə bu vaxt qəflətən,
Yağdı güllə yağmuru qarşıdakı təpədən.
Uğuldadı dağ, dərə,
Tez çökdülər səngərə.
Güllə ara verməmiş,
Yağdı, yağdı gur yağış.
Göyün səsi qarışdı bu dəm yerin səsinə,
Yağış səsi qarışdı güllələrin səsinə.
Donquldandı Ben-Osman: - Görən, bu nə oyundu
Gəldi mənim başıma?
Plaşını soyundu,
Mustafa atdı dərhal atasının çiyninə.
- Bəs sən?
- Mənə eybi yox, soyuq dəyməsin sənə.
- Atəş!..
Cavab atəşi başlandı bircə anda,
Nifrətlər dilə gəldi güllə vıyıltısında.
Mustafanın özü də yaslanıb müsəlsələ*,
Atır beledən-belə:
Tökülür düşmən qanı.
Mustafa göz ucuyla süzürdü Ben-Osmanı;
- Biz ki, qul olmaq  üçün gəlməmişik həyata,
Eşit, eşit, ay ata,
Bax, bu güllə səsləri

*Pulemyot.

“Mən də bir xalqam” deyən xalqımın öz səsidir,
Azadlıq nəğməsidir.

Bu atəş,
arzuların
Tüfəng lülələrində alışan məşəlidir,
Bax, bu atəş,
xalqımın
Fransız dövlətilə hesab çəkən dilidir.
Bax, bu atəş,
zillətin
Ocağını söndürən nəfəsidir, xalqımın,
BMT məclisində öz səsidir xalqımın!
Bax, bu atəş, bu atəş, haqqın qəhqəhəsidir!
Bax, bu güllə səsləri,
Qolumuzdan qırılan zəncirlərin səsidir.
O atdıqca, Ben-Osman

Mustafanı seyr edir gizli-gizli kənardan;
Gizli bir qürur ilə göz yetirir oğluna,
Bu hünər, bu igidlik, nələr danışmır ona!
Düşünür: “Mənim oğlum indi yurdun gözüdür,
Çatılmış qaşlarından, iti baxışlarından
Lap atamın özüdür”.
Utanır, bir az əvvəl dediyi sözlərindən,
O, tez qalxır yerindən
Görüncə kol dibindən Mustafaya tuşlanan
Tüfəngin lüləsini:
- Oğul, yerə yat!  - deyə, o qışqırdı,
Qayalar,

əks elədi səsini;
Tarak! Tarak! Açıldı güllələr kol dibindən.

Koltunu* döş cibindən
Nə vaxt çıxartdığını heç bilmədi Ben-Osman,
Ata bilmədi, tətik sürüşdü barmağından.
Səlim bunu görüncə,
Tüfəngini tuşlayıb atdı, atdı dalbadal,
Susdu kol dibi dərhal.

Bu an kolonel** Səlim yaralandı qolundan,
Tez yaranı bağladı yaylığıyla Ben-Osman.
Səlim yaylığın üstə qızaran qana baxdı,
Bir də düşmən tərəfdən üstünə yağdırılan
gülləbarana baxdı.

Düşündü: "Bu yaralar sarsıda bilməz məni,
Ancaq... dərd ondadır ki, bəlkə də bu gülləni
Bir vaxt mənimlə birgə bir düşməni əyləyən,
Bir səngərdə döyüşüb, bir qabdan xörək yeyən
Dostumun özü atdı, dost hara, düşmən hara?
Həmişə dost olmuşuq, axı, biz ki, onlara..."

## *VII fəsil*

Etyen əsir düşübmüş azadlıq ordusuna,
İkinci zərbə oldu həyatında bu ona.

**Tapança.*
***Polkovnik.*

O götürər dünyada hər acını, hər dağı,
Ancaq dərk edə bilmir Mustafanın önündə
qul kimi dayanmağı.
“Yox, yox, dözə bilmərəm bu təhqirə?” -
deyir o,
Bir gün gözdən yayınıb əkilmək istəyir o.
Onun bu niyyətindən Anri xəbər tutunca,
Kəsir dərhal yolunu,
Geri qaytarır onu.
- Məni buraxın - deyə,
O, yalvarır Anriyə.

Anri buraxmır onu,
Dərk edincə bunun da faydasız olduğunu,
Deyir: - Mən anlamıram ərəb hara, sən hara?
Axı, sənə nə düşüb qoşulmusan bunlara?
Sən ki, firəng oğlusan.
- Utan sözündən, utan!
Mənim eşqim azadlıq, mənim millətim insan,
Ərəbə də qardaşa, firəngə də qardaşam,
Axı, o kim, bu kimdir?
İnsan azadlığına kəc baxan, düşmən olan
Mənim də düşmənimdir!
- Bəs Fransa? Bəs onun şərəfini qorumaq?
- Fransanın şərəfi burda tapdanır ancaq.
Firəng, Əlcəzairdən söylə nə istəyir, nə?
Neçin göz dikməliyik özgənin qismətinə?
- Ay çox gözəldir, o da deyil ancaq ləkəsiz,
Böyük Firəngistanın yaşaması çətindir,
Axı, müstəmləkəsiz!
- Özgənin hesabına, yaşamaqdan ölüm xoş,

Bu çürük fəlsəfəni, biz çox gözəl bilirik,
kimlər, neçin uydurmuş!

***

Çəkişmə uzandı bir xeyli müddət,
Gəldi Mustafa da...
Etyen tutuldu.
Susdular...
Mustafa dindi, nəhayət:
- Niyə susursunuz, sizə nə oldu?
Etyen qara bulud, göy şüyüd oldu:
- İzn versəydiniz əgər, müəllim,
Bir siqar çəkərdik.
- Buyurun, çəkin.
Mustafa çıxarıb qutunu dərhal;
Uzatdı Etyenə,
Götürdü Etyen.
Bir xeyli siqarı tüstülətdilər,
Ancaq nə o dindi, nə də bu dindi;
Çox dərin, çox sirli fikrə getdilər,
Bu uzun sükuta Etyen sevindi,
- Eşitdim, qaçarkən tutublar sizi;
Bilsəydim sonrakı məqsədinizi,
İnanın, mən sizə kömək edərdim.
- Ah, qaça bilsəydim, mənim nə dərdim!
- Qaçıb neylərdiniz? Bir düşmən kimi
Yenə üstümüzə gələrdinizmi?
Yoxsa...
- Sorğu-sual nəyə gərəkdir?

Hər kəs bildiyini eləyəcəkdir.
- Yolunu gözləyir dayın Parisdə,
Yaxşısı budur ki, sən aman istə.
Biz səni buraxaq... Evə get birbaş,
Bu cəncəl işlərə qoşulma, qardaş!
Bu da sənədlərin...
- Bu sizə hardan!
Vağzaldan qaytarıb gətirdiyimiz
O çantalardan.
Özünə qayıtdı xalqın öz varı,
Açdıq çantaları, çamadanları;
Sənin sənədlərin çıxdı içindən,
Götürdüm, özünə vermək üçün mən.
Unut birdəfəlik, unut cəbhəni,
Axı, çox istəyir atamız səni.
Görəsən, görəsən, başa düşdümü,
Etyen şax deyilən bu kinayəni?
- And iç ki, cəbhəyə dönməyəcəksən.
Buraxım evinə səni indi, mən.
- Mustafa!
- Müəllim!
- Oğul, bir düşün!
O, nəyə and içsin? Axı, onunçün
Müqəddəs şey yoxdur!.. Soruş özündən,
- Anamın canına and içirəm mən.
- Buyur, bu da onun müqəddəs andı,
Fransa sənəmi, de, arxalandı?
Mustafa: - Bu and da bəs eylər - deyə,
Mənalı-mənalı baxdı Anriyə.
- Azadsan!

Deyincə Etyen işardı,
Sevinc dalğaları üzünü sardı.
Getməkçin arxaya çevrilən zaman -
Mustafa səsləndi: - Sözüm var, dayan!
Sorğuma cavab ver getməzdən əvvəl.
Azadlıq gözəlmi?
- Ondan da gözəl.
Nə ola bilər ki, qoca dünyada?
Üç gün əsirlikdə nə çəkmədim mən!
Üç gün əsirliyə dözə bilməyən,
Ey mənim həmişə azad qardaşım,
Bəs mən, insafla de, necə qatlaşım
Yurdumun ömürlük əsarətinə?
İndi aydındırmı niyyətim sənə?
Bəs sənin, bəs sənin niyyətin nədir?
Ədalət səndədir, yoxsa məndədir?
Etyen susub durdu, dinə bilmədi,
Mustafa astadan - Azadsan, - dedi.

***

Cəbhədən evinə gəldi Ben-Osman,
Yata da bilmədi səhərə qədər.
Getmədi, getmədi qulaqlarından
Oğlunun dediyi o haqlı sözlər:
"Mustafa, ay oğul, doğru deyirsən.
Səni də onuntək bir ana doğmuş.
Atalıq haqqımı istəsəm də mən,
Mənim ixtiyarım bu haqqa yoxmuş.

Gah ora, gah bura döndüm... axırda

Yenə baş açmadım bu kəşməkəşdən
İşə bax... İstədim bu vurhavurda
Oğlumu, oğlumu satın alım mən!..”
Üç gün belə keçdi.
O gündən bəri
Qəlbinin başında bir ağrı duydu.
Anlaya bilmirdi, o gördükləri
Nağıldı, doğruydu, yoxsa yuxuydu?..
O, bu fikirlərlə çırpınan zaman,
Etyen gülə-gülə girdi qapıdan.
Baxışlar toqquşdu,
Ata dinmədi.
Duruxdu... Nə oldu, görəsən, ona?
Bala gəlişinə o sevinmədi,
Sevindi sözünün tutulduğuna.

Ben-Osman sevindi...
Dedi - Nə deyim
Bu ərəb oğlunun dəyanətinə.
Atalıq haqqından üz döndərdiyim
Oğulluq haqqını unutmur yenə.
Gör necə əhdinə o, qıldı vəfa,
O, dosta dost olub, düşmənə düşmən.
Əlinə düşsəydi əgər Mustafa,
Vallah, bacarmazdın bu mərdliyi sən!
- Bu mərdlik deyildir, düzünü bilsən.
- Bəs nədir?
- Qorxaqlıq!
- Adam deyilsən!..
Dünyada qanmaza yaxşılıqmı var?

- Bəd günçün o məni bir arxa sayır...
O, yaxşı bilir ki, basılacaqlar,
İndidən özünə bir gün ağlayır.
- Utanmaz!
- Həddini bil, qoca kaftar!
Çox da xoruzlanma!
- Necə?!
- Hə, nə var?
Nə yaman çıxmısan özündən yenə?
Bəlkə... açıq danış, borcum var sənə?
- Bəs borclu deyilsən?
- Nə aldım ki, mən,
Sənə borclu qalım!
- Rədd ol evimdən!
Nana yan otaqdan çıxdı səs-küyə,
Etyeni görüncə
- Ah, gəldin! - deyə -
Atıldı boynuna əziz oğlunun,
Üzünü, gözünü yaladı onun.
Ben-Osman qışqırdı: - Rədd ol evimdən!

- Bu evin sahibi mənəm, Simon, mən -
Deyə itələdi ərini Nana:
- Burdan getməyəcək balam heç yana!
- Bəs məni evimdə təhqir edəcək?
- Ağızdan yamanca yavasan, Simon,
Hə¬lə ölməmişəm, balamı qultək
Sən mənim evimdən qovasan, Simon.
- Bu evin sahibi mənəm, ya sənsən?
- Burda sahib mənəm!

- Bəs nəçiyəm mən!
Yoxsa hambalınız, bəlkə, qul, nökər?
- Bunu bilməmisən bu vaxta qədər?
- Demək, minmisiniz çiynimə siz də,
Rədd olun evimdən tez ikiniz də?!
- Simon, yol açıqdır, gedə bilərsən!
- Demək, öz evimən qovuluram mən?
Bala da ataya düşmən olarmış,
Allah, görəcəkli günlərim varmış!..
Simon çox əlləşdi, hay-haray saldı,
Davası, dalaşı özünə qaldı.
Ana ilə bala verib əl-ələ
Simonu evindən atdılar çölə.
Birdən geri döndü, nə düşündüsə,
Dedi: - Bu dünyada, axı, hər kəsə,
Bir şey əziz olur.
                    Bu boyda evdən
Atamın şəklini istəyirəm mən.
Oldu mən bədbəxtə öz köküm qənim,
İndi bu günümdə tək odur mənim
Yaralı könlümün duyub andığı.
Nana açıb tökdü köhnə sandığı,
Çıxarıb tulladı şəkli bir yana,
Dedi: - Bu da atan, de, bas bağrına!..

Əyilib götürdü şəkli Ben-Osman
Süzdü atasını özgə cür indi.
Kişinin qəzəbli baxışlarından
Qəlbinə ox batdı... O silkələndi;
Ağaçlı, nurani qocaya bax, bir!

Çiynində tüfəng var, başında çalma.
Kişinin duruşu elə bil deyir:
“Yetər, alçaldığın, oğul, alçalma!”
Nana şəkli süzüb dedi: - Yaxşı bax,
Bu sən, o da atan, heç utanırsan?
Adam eləmişdim mən səni, bədbəxt,
Ancaq adamlığı sən nə qanırsan?

Yeri, çalma bağla başına sən də,
Vəhşiydin, yenə qal vəhşiliyində.
Ot kökü üstündə bitəcək yenə,
Yamaqdan nə çıxar? O söküləcək.
Axı, mədəniyyət yaraşmır sənə,
Sən də öz tayını tapaydın gərək.

Cavab qaytarmadı bədbəxt Ben-Osman,
Tez şəkli götürüb çıxdı otaqdan.
Fikirli-fikirli düzəldi yola,
Bu an həyatına bir təkan oldu.
Daha dəyişmədi, bu andan belə
Simon ömrü boyu Ben-Osman oldu.

### *VIII fəsil*

Ötüb keçdi dalbadal qanlı-qadalı illər,
səsli, sədalı illər.
Vıyıl-vıyıl güllələr yerdə, göydə süzdülər,
Xurma budaqlarında həlqələndi tüstülər.
Barıt tüstülərindən yerin bağrı qaraldı.

Gah zor qələbə çaldı, gah haqq qələbə çaldı.

***

Əlcəzair şəhəri,
Artıq bir aydan bəri,
Səngərdir başdan-başa,
hər küçəsi, hər tini.
Bu gün yeni Mədinə* tutmuş gülləbarana
müsəlman məhləsini.
Mustafa tək qalıbdır Əl-Muxtar küçəsində,
bir səngərin içində;
meyitdir sağı, solu.
Dostlar yenə döşənib yan-yana, üzüqoylu.
Dörd dövrəsi ölüm, qan.
Bugünkü beş saatlıq, aramsız atışmadan
sarsıldı
Mustafanın dəstəsi.
O, çağıra bilmədi köməyinə bir kəsi,
Anri ilə bərabər Səlim dünəndən bəri
Düşmənin arxasında bağlayıb keçidləri
Hazırlaşır hücuma...
Bir alayın önündə dayanıb təkbaşına
Mustafasa bayaqdan;
Qorxu bilməzmiş insan!
Haqsızlıq dünyasına sinəsini o gərmiş,
İnam olan ürəkdən qorxu qaçaq düşərmiş.

---

**Mədinə - şəhər deməkdir. Afrika ölkələrində şəhərlər köhnə-yeni Mədinə deyə iki yerə bölünür. Köhnə Mədinədə əsasən yerlilər, yeni Mədinədə isə avropalılar yaşayır.*

***

Hardan gəldi bu güllə, ah, bir çoyutma güllə
Mustafanı haqladı?
Bir ürəyi soyudub, min ürəyi dağladı,
Yumuldu ana yurdun bu gününü görməyən
sabahına dikələn
o nurlu gözlər.
Səadət qapısını açmaq üçün qapanan
uğurlu gözlər.
Əyilib yerə düşdü
Əsarət qandalını sındıran, əyən əllər.
Əl çəkdi bu dünyadan.
Yurdunda yeni dünya qurmaq istəyən əllər.
Düşmən hücuma keçdi,
Çatdılar Mustafanın döyüşdüyü səngərə,
haray düşdü şəhərə:
- Mustafanı vurdular!..
Dar ağacı quruldu,
Küçə adamla doldu.
OAS-çılar şəst ilə dardan asdı meyidi,
(Bu vətən övladının bəs günahı nə idi?!)
OAS-çılar meydana ananı gətirdilər.
- Bax, bu da oğlun! - deyə ona acıq verdilər.
Ana dinməz, ana lal,
Baxışında min sual:
Baxdı, baxdı, meyidin döşündəki yaraya...
Sükut çökdü araya.
- Ölər, kişitək ölər, ələ düşməz o, yalnız.

Özünü yox, siz onun meyidini asdınız.
Siz onu,
şir oğlunu
Alçatmaq istədiniz, osa yenə ucaldı,
O, öz ölümüylə də sizdən intiqam aldı.
Siz sağ olsanız belə, o öz əqidəsilə
çoxdan sizi öldürüb.
Sizin məsləkinizi, dininizi öldürüb.
Ana sındırmasa da bu məqamda özünü
Çəkə bilmir meyiddən, çəkə bilmir gözünü.
O, gözlərilə öpür
Balasının o qanlı, pərişan saçlarından.
Bu vaxt qoca Ben-Osman
Nalə çəkdi arxadan:
- Aman oğul, can oğul!
Ölüm hara, sən hara?!
Meyidi qucaqlayıb
İstədi ki, apara.
Sinəsindən yapışıb
Yerə yıxdılar onu.
Qırılıb düşdü yerə
Döşdən "Şərəf legionu".
Əyilib götürmədi
Ordenini o, yerdən.
Gəlmələr gülüşdülər
Bu hala yerbəyerdən.
O, polisə əl açdı:
- Beş min frank verirəm
Mənə verin siz onu -
Bu elin mərd oğlunu!

Ana keçdi irəli:
- Onlar təhqir etmədi,
Sən təhqir etdin onu...
Ben-Osman, lənət olsun namusuna, arına,
O, özünü satmadı fransız pullarına,
Meyiti satılarmı?
Vətənə səcdə qılan, pula səcdə qılarmı?
Sızıldama, ağlama, bizim adətimiz var;
Şəhidə ağlamazlar!
Sən qaytarmaq istəsən namusunu, arını,
Unut milyonlarını!
Canını ver, canını,
Qanını ver, qanını!
Buyur, bu silah, bu sən!
Deyə, - o, müsəddəsi* çıxartdı döşlüyündən:
- Kişiliyin çatırsa, tök bunların qanını;
Bu qan ilə təmizlə ləkəli vicdanını.
Ben-Osman heykəl kimi quruyub öz yerində,
Tapançanın lüləsi böyüdü gözlərində,
Böyüdü xəndək oldu, böyüdü uçrum oldu.
Bu dəm onun başına sanki göylər uçuldu.
Ona elə gəldi ki, ayaqları sürüşdü,
Üzüstə yerə düşdü.
Dikəldi...
        O yıxıldı,
                        qalxammadı ayağa,
Boylandı sola, sağa,
Əllərini qaldırıb üzünü cırmaqladı.
Birdən fəryad qoparıb hönkür-hönkür ağladı.

*Tapança.

Kiridi...
Yumruqları düyüldü birdən-birə.
Sonra qəhqəhə çəkib, o güldü birdən-birə.
Göz yaşının içində gülüş bəs necə gəldi?
O qalxdı, o dikəldi,
Baxdı,
baxdı hamıya,
gözlərindən həm qəzəb,
həm qeyrət yağa-yağa.

Bu dəm nə düşündüsə,
Arxasına baxmadan o başladı qaçmağa.
O qaçdı birdən-birə

Üz tutdu bir zamanlar
Məcnunun sığındığı
O Səhrayi-Kəbirə.
Artıq saxlaya bilməz
Onu yolundan heç kəs,
O qaçdı təngənəfəs!
Qaça bildikcə qaçdı, tər tökə-tökə,
Qaçdı o, qorxa-qorxa, o, döyükə-döyükə.
Axır tamam yoruldu,
Basdı qədəmlərini qum üstə xırda-xırda.
Böyük qum səhrasına gəlib çatdı axırda:
Uzanır dalğa-dalğa qarşıda boz təpələr,
Külək qalxdı astaca...
Ah!.. Əgər o, qalxdısa,
Göyü tutar çən kimi,
Yerlərə toz səpələr.

Örtüb ayaq izini külək onu izləyir,
Onun ləpirlərindən qumu da təmizləyir.
O gedir... Səmum yeli anbaan şiddətlənir,
Yoxsa, onun üstünə külək də hiddətlənir?!
Gedir... Gedir Ben-Osman,
Xəbəri yoxdur onun nə candan, nə cahandan.
Göy üzündə get-gedə toz dumanı sıxlaşır,
Günün üzü tutulur, dünya qaranlıqlaşır.
Külək vurub arxada yıxır onu üzüstə,
Qum gəlir dalğa-dalğa, qum gəlir dəstə-dəstə.
İlan kimi burulur,
Qum altında o itir, qum altında yox olur.
Ağırlıq hiss edincə Ben-Osman kürəyində,
Elə bil yüngülləşir...
                                        Sevinir ürəyində;
Ancaq bir az keçincə yazıq qalxmaq istədi.
"Əzabı çox olsa da, həyat şirindir" - dedi.
Qalxa bilmədi...
                          yenə,
O sevindi,
                          qumların altında itdiyinə.
Bir az da keçdi...
Yatdı yel,
Yatdı dəli burulğan.
Səmum burulğanında itdi, batdı Ben-Osman.
Qumların üstündəsə izi belə qalmadı.
"O hara getdi?" - deyə
                                        axtaran da olmadı,
                                        soruşan da olmadı...
Xəbər çatdı Səlimə, xəbər çatdı Anriyə,

“Bir qana min qan” - deyə,
Atıldılar meydana.
Qarşıda məğrur ana,
Tərəflər dalğalandı,
Qarşı-qarşıya gəldi,
Tez səngərlər düzəldi.
Hay verdi şəhər əhli bir-birinin səsinə,
Yaxşıca vay verdilər işğalçı dəstəsinə.
Hey atılır güllələr, atılır taraq-taraq;
Artıq yer kürəsində
Əsarətin tarixi
qapanır varaq-varaq...

***

Torpağa dəfn etidilər,
Torpaq üçün canını
Qurban verən şəhidi.
(Elə Mustafanın da istədiyi bu idi).
Məzarın baş ucunda
Gəldi, Səlim dayandı.
Əlindəki bayraqdan məzar nura boyandı.
O, başdaşı yerinə
Əlindəki bayrağı asdı qəbrin başına.
Dedi: - Dostlar, şəhidin
ehtiyacı varmıdır
soyuq məzar daşına?!
Torpaq bir ana kimi açdı ona qoynunu,
Torpağa yox, tarixə dəfn elədik biz onu!..

## EPİLOQ

Səkkiz il qan axdı Əlcəzairdə,
Səkkiz il yuxular çəkildi dara.
Yerin naləsinə ağladı yer də,
İnsan tab gətirdi bu əzablara.

Səkkiz il al qana bulandı sular,
Fikirlər, duyğular coşdu, qaynadı.
Səkkiz il baş-başa gəldi ordular,
Tarix bir millətlə oyun oynadı!

Tarixin ən böyük bir amalı var;
Azadlıq! Bu sözə tapınmış insan.
Azadlıq - səadət, azadlıq - bahar,
Yaranmış insanın arzularından!

İnsan azadlığı ilk arzu sanmış,
Bu söz bir işıqdır insana darda.
Azadlıq! Azadlıq! Tarix yaranmış
Bu amal uğrunda vuruşmalarda.

***

Bayraq qalxdı...
Bulanıq sular axdı, duruldu.
Öz evində qul olan evinə sahib oldu.
Bayraq qalxdı... Parisdən bu ölkəyə uzanan
Əllər kəsildi həmən.

Bayraq qalxdı... Dərindən nəfəs aldı bu torpaq,
Bayraq qalxdı... Atıldı
Toplar da taraq-taraq.
On milyonun adından
Toplar danışıb dedi:
“Məni tanısın cahan!”
Əks-səda ucaldı: “Hardaydın bu vaxtacan?!”
Əsr yarım mən qəfəsdə inlədim.
Cavab gəldi:
Mən var ikən, yox idim!

İndi varam, mən varam,
Bir də əsir olmaram!
Məhbuslar sağ olsa da, sağ yerinə qoyulmur,
Məhbus vətəndaş olmur!
Öz yurdumda qul olub əsr yarım əyildim,
Mən vətəndaş deyildim!
Vuruşdum gecə-gündüz, vuruşdum səhər-axşam
Bayraq qalxdı... mən indi
Vətəndaşlıq almışam!”

*1962-1963*

# HƏR BAHARIN ÖZ QARANQUŞU

## I

Dostu Zülfüqarın yas məclisindən
Həsrət, bulud kimi tutuldu gəldi.
Axdı yanağına göz yaşı dən-dən,
Ancaq boşalmadı, o, doldu gəldi.

Kədər süzülürdü qaş-qabağından
Dostun matəmindən çox qəmli döndü.
Neçə ildən qalmış tut arağından
Üç qədəh dalbadal içdi, düşündü.

İçib fikrə getdi o, ağır-ağır,
Həsrət içmədi ki, qəm unudulsun.
İçib keflənənə içki haramdır,
İçib düşünənə qoy halal olsun!

O içib ağladı
Baxdı illərə.
O daldı ömrünün ilk çağlarına.
Bir saat içində baxdı yüz kərə
Ömür kitabının varaqlarına.
Təzədən ağlamaq istədi, ancaq
Dayandı...
Bu dəfə gəldi arına,
Dişini dişinin üstə sıxaraq,
Güldü bu dünyanın "etibarına..."

Sədəfli tarıyla qırx il Zülfüqar
Həsrətin səsinə səs verib ancaq.
Bəs bu gün?
Bu gündən ayrıldı yollar,
Dolandı başına elə bil otaq.

“Zülfüqar bilərdi bir işarədən;
Tar, hansı muğama köklənməlidir.
Bilərdi zil üstə gəzişəndə mən,
Hansı haldan sonra səs enməlidir.

Zülfüqar sənətə qılardı səcdə,
Heç vaxt olmamışdı ona vəfasız.
Təkcə tarını yox, ürəyini də
O, mənim qəlbimə köklərdi yalnız.

Bu necə dünyadır, zövqü, nəşəsi
O qədər xoşdur ki, aldanır insan.
Sən dünən bağrına basdığın kəsi
Bu gün torpağamı tapşırmalısan?..

Dünyanın gecəsi, gündüzü məlum,
Tutmuşuq zamanın yolunu ancaq.
Həyat da bir yoldur... Yol özü məlum,
Nə ilki məlumdur, nə sonu ancaq...”
Dostu Zülfüqarın yas məclisindən
Həsrət, bulud kimi tutuldu gəl¬di.
Axdı yanağına göz yaşı dən-dən,
Ancaq boşalmadı, o doldu gəldi.

Evə girən kimi nəvəsi Eldar
Atılıb çiyninə mindi Həsrətin.
Onlar öpüşdülər, qucaqlaşdılar,
Alqış qüdrətinə bu məhəbbətin!

Balaca Eldarın çiyninə düşdü
Babanın dağınıq, dümağ saçları.
Elə bil yaz başı dağda görüşdü
Güneyin çiçəyi, quzeyin qarı:

- Bəs bunu, ay baba, görmürsən? - deyə,
Təzə radionu göstərdi Eldar.
Kişi maraq ilə döndü geriyə:
- Mübarək, mübarək!... Radiolu da var.

- Atam mənim üçün alıbdır bunu...
Həsrət gizli-gizli süzdü oğlunu:
- Bəs köhnəsi hanı?
- Atdıq çardağa.
Qəribə bir sükut çökdü otağa.

Gecdən-gec: - Çox nahaq! -
deyərək kişi,
Əlini Eldarın başına çəkdi.
- O ki köhnəlmişdi... Nəyə gərəkdi.
- Hər gərəksiz şeyi atarlarmı bəs?
Səhvini anladı, deyəsən, Əvəz.
Bu “köhnə” sözünə kişi tutuldu.
Əvəz dediyinə peşiman oldu.
O, sözü döndərmək istədi, ancaq,
Gördŕ qaş düzəltsə, göz çıxardacaq...

Arvada göz vurdu:
- Vaxtdır biz gedək.
- Hara gedirsiniz?
- Ata, biz gərək,
Bir hədiyyə alaq,
- Hədiyyə? Neçin?
- Ən yaxın dostumun toyudur bu gün.
Həsrət danışmadı,
susdu,
kiridi...
Elə bil üstünə dağlar yeridi.
"Mən yasdan gəlirəm, o, toya gedir,
Fələyin gərdişi çox qəribədir;
Min oyun çıxarır bəzən bir gündə,
Ataya hörməti bəs budur onun?..
Ən yaxın dostumun matəm günndə
Ən yaxın dostunun toyudur onun...

Heç yasdan bir kəlmə soruşmadı o,
Demədi: "Bu kişi nədən öldü bəs?"
Unutdun, unutdun nə tez borcunu,
Qayda belə deyil, Əvəz, ay Əvəz!

Biz də atamıza oğul olmuşuq,
Oğul yox, önündə bir qul olmuşuq...
Girir arvadının qoluna bir bax,
O mənim yanımda, axı, nə haqla?
Biz ata yanında susmuşuq ancaq,
Kəlmə kəsməmişik arvad-uşaqla.

Bax... mənə tapşırıb ye¬nə Eldarı,

Getdilər... qalmazlar öz keflərindən.
Bilirlər, uşağa baxmaqdan ayrı
Nəyə yarayıram, axı, indi mən!
Çalıb-çağırdığım o günlər hanı?
Doğrudan hər dövrün öz hökmü varmış.
Arvad qocalanda kişi misallı,
Kişi qocalanda arvad olarmış...”
- Baba, gəl, ev tikək! -
Qımışır Eldar.
- Gəl, bala! -
Kişinin dəyişir halı.
Kibrit çöplərindən ev tikir onlar,
Dağılır Həsrətin fikri, xəyalı.
Qoca bu anlarda uşağa bənzər,
Bütün qayğılardan sanki uzaqdır.
Elə danışırlar, elə gülürlər,
Elə bil oynayan iki uşaqdır.
O gülür,
Bu gülür,
yorulmur Həsrət,
Yaman ləzzət verir uşaqlıq ona.
(İnsan qocalanda dəyişir xislət,
Təzədən qayıdar uşaqlığına.)

Nəhayət... yorulur balaca Eldar:
- Baba, yatdır məni, baba, yuxum var.
- Yaxşı, ömrüm-günüm.
- Oxu, ay baba!
De, laylay, baba!

Gümüş çarpayıya əyilib Həsrət,

Deyir muğam üstə ürək sözünü.
Mahnıda səslənən məhəbbət, şəfqət,
Balaca Eldarın yumur gözünü.
“Ay həzrat, bir zamana gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz...”

Həsrət susan kimi ayılır Eldar:
- Baba, oxu...
Qoca oxuyur yenə,
Yuxuya çevrilib həzin mahnılar
Qonur körpəciyin kirpiklərinə.

“Təkcə Eldarımdır məni dinləyən,
Bu gŕn nəvəm üçün xanəndəyəm mən.
Hey - “oxu” deyərdi kim olsa əgər,
Mənə bircə kərə qulaq asdımı -
Dinləmək istəmir indi bir nəfər,
Mənim segahımı, mənim rastımı...”
Uşağı yatırıb qalxdı ayağa,
Düşdü həyətdəki balaca bağa.
Bağçaya girincə çəpərin üstdə,
Birinci gördüyü qaranquş oldu.
Əsdi dağ sarıdan meh asta-asta,
Bədmüşkün ətrilə o, bihuş oldu.
Baxdı qaranquşa...
                    “Keçən ilkimi?
Yox! Keçən ilkinin balasıdır bu.
Bu da uçub gedər anası kimi,
Axı, hər baharın öz qaranquşu...”

Yoxladı bağçada bir-bir ləkləri,
Əyri budaqlara söykədi dəstək.
Almanın, alçanın ağ çiçəkləri
Səpildi başına toy noğulutək.

Çiynində ağaran çiçəyə baxdı -
Gördü saçı kimi o da dümağdı.
Başını yellətdi düşünüb həmən:
"O ağlıq nədəndir, bu ağlıq nədən?..

Baharda uzadır ömrünü gün də...
Çiçək təzələnir, gül təzələnir.
Yalnız təbiətmi?
Yox!.. Yer üzündə
Həyat təzələnir, il təzələnir.

Təzədən yazılsın təqvimlər gərək,
İli qışdan deyil, yazdan başlayaq.
Məclisə həmişə gəlsin gül-çiçək,
Yazda təzə ili biz alqışlayaq!..."

Baxdı yerə-göyə, baxdı doyunca,
Həsrət nəfəs aldı sinədolusu.
Dolandı bağçanı o, arx boyunca,
Fikrinə dəm tutdu şaqqıldayan su.
Bağın ayağında qollu-budaqlı
Bir çinar ağacı ucalır göyə.
"Yerin arzusunu yerli-yataqlı,
Göylərə qaldıran mənəm, mən!" - deyə.

Ağacın altında həsrət dayandı.
Bir özünə baxdı, bir də çinara.
Bu günü düşündü. Keçmişi andı,
Dilləndi: "Mən hara, bu çinar hara?.."

Həmən bu çinarı mən doğulan gün
Atam öz əlilə əkib mənimçün,
İlləri bir yerdə vurmuşuq başa,
Mənimlə yaşıddır bu gün bu çinar.
Qoca təbiətə, torpağa, daşa
Cavanlıq gətirir gələn bir bahar.

Kim deyir göylərdən hey narın-narın
Yağan qar bir daha göyə qayıtmır?
Qayıdır gəncliyi yazda çinarın,
Bəs mənim gəncliyim niyə qayıtmır?

Qəribə qurulub doğrusu aləm -
Yaz həyat gətirir quru çöllərə.
Bəs insan ömrünə neçin, bilmirəm,
Bir kərə verilir bahar, bir kərə?

Ağaca verilən ömür, səadət
Neçin yazılmadı qismətimizə?
Neçin səxavətli ana təbiət
Bu gözəl payını çox gördü bizə?..
Bir ağac qədər də deyilmiş insan,
Baxanda hökmünə qoca dövranın.
Dünyanın yaşıyla tutuşdururkən;
Bir şimşək ömrüdür ömrü insanın.

Özü də şimşəkdir, ömrü də şimşək,
Əməli göylərdə alışır köz-köz.
Ölümün önündə baş əyir qultək
Həm elə gücülüdür, həm belə gücsüz!

Qəribə sirdir...
                                        Yazda, baharda
Necə birdən-birə dəyişir aləm!
Cavandır çiçək də, ot da, çinar da,
Bir bax! Bu bağçada qoca tək mənəm!

Bütün dostlarımı yola salmışam,
Yaşıdlarım gedib...
                                        Mən tək qalmışam...
Dönüb mən təzədən uşaq olmuşam,
Uşaqlıq qayıtdı... şənliyim, qayıt!

Demə, qocalığın min qəmi varmış,
Dolaşıq fikirlər beynimi sarmış,
Qocadan yuxu da qorxub qaçarmış.
Qayıt, yuxum, qayıt, dincliyim, qayıt,
Cavanlığım qayıt, gəncliyim qayıt.

Könlümü gəmirən hansı duyğudu?
Hanı, hara getdi könlümün odu?
Bədənim soyudu, qəlbim soyudu,
Qayıt, odum qayıt,atəşim, qayıt!
Baharım, gülşənim, günəşim qayıt!
Hanı cıdırlarda mindiyim atlar?
Hanı keçirdiyim toylar, büsatlar?
Hanı səsimdəki o qaynatmalar?

Güldən ləçək salan gur səsim, qayıt,
Suları yandıran nəfəsim, qayıt!

Hanı dilimdəki o şirin sözlər?
Hanı gülüşlərim, hanı qəhqəhəm?
Yuvası dağılmış quşlara bənzər
Mənim nəğmələrim, mənim cəh-cəhim.

Cavanlıq min sözlü, min səsli quşdur,
Əlindən çıxdısa, tuta bilməzsən.
Qocalıq qiymətli bir zər qumaşdır,
Bahadır, müftə də sata bilməzsən!..

**II**

Həsrət asta-asta çıxdı çardağa,
Sınıq çarpayıya söykəndi, durdu.
Çevrildi gah sola, baxdı gah sağa,
Sandığın üstündə keçib oturdu.

O süzdü çardağı...
                    Çardaq bir muzey!
Naftalin qoxusu dəydi burnuna.
Bu qəribə yerdə gördüyü hər şey
Ötən bir tarixdən söz açdı ona.
Köhnə sandıq, səbət, yamaqlı xurcun,
Köhnə paltar, palaz, köhnə qramofon.
Əvəzin beşiyi, oyuncaqları,
Atı, arabası, balaca tarı -
Hərəsi bir yanda saralıb solur.
Dünən, bu gün üçün bir tarix olur.

İlki fərəhlidir, dünyada ancaq
Nədən kədərlidir sonu hər şeyin?..
Bunların üstünü basan toz-torpaq
Elə bil qəmidir gərəksizliyin...

“Çardağa atılan bu köhnə şeylər,
Lap mənə bənzər.
Gərək olmasa da, burda saxlanır,
Atılmır yenə.
Burda özüm kimi hər şey köhnədir,
Bəlkə də bununçün doğmadır mənə?..
Buna da min şükür...”
Həsrət sevindi...
Sirli səslər gəldi qulaqlarına:
Bu köhnə şeylərin hər biri indi
Bir tarix danışır astadan ona.
Bu köhnə şeylərin üstündə heç kəs
Onun gördüyünü nə görə bilməz,
Nə duya bilməz.
Oxuya bilməz
Onların üstündə yazılanları.
Həsrətsə oxuyur, görür onları.
Bu beşik...
Onun da öz dövrü vardı,
Bir vaxt bu beşikdə Əvəz yatardı...
Nəğmələr, laylalar deyilən beşik,
Üstünə analar əyilən beşik,
Bu gün gör necə də əyilib özü;
Şirin laylalarçün yol çəkir gözü.

Bir zaman balamı yatıran beşik
Bu gün özü yatır səssiz-səmirsiz.
Zamanın hökmünə sinə gərmişik,
Zaman dəyişdikcə, dəyişirik biz.

Həmişə zamanla verdik səs-səsə,
Dünya bir məclisdir, zaman sərpayı.
Balamın yatağı beşik idisə,
Nəvəmin yatağı gümüş çarpayı.

Zaman öz sözünü deyir, deyibdir,
Qılıncdan itidir onun hər sözü.
Beşiyin taxtası köhnəlməyibdir,
Köhnələn beşiyin özüdür, özü!

Döndükcə zəmanə, ötdükcə illər
Həyata sualım bəs nədir mənim?
Təkcə mən,
Mən özüm köhnəyəm məgər?
Fikrim də, ruhum da köhnədir mənim!

Mən ki, bir tutmadım qəmi, sevinci,
Çox yaxşı bilirəm günahım nədir.
Kimsədən incimə, özündən inci,
Köhnəlik başdadır, yaş bəhanədir!
Özüm də köhnəyəm, sözüm də köhnə,
Bəs bu incikliyim, gileyim nədir?
Əynimə geydiyim paltarlarım da
Mənim özüm kimi, axı, köhnədir.
Bu pencək, bu şalvar oğlumunkudur.

Köhnəlib,
İndi də mən geyməliyəm.
Belə də olmalı!
                    Qayda da budur!
Yerlər dəyişməli, dönəndə aləm.

Nə deyə bilərəm, axı, mən ona?
Bu bir qanunudur həyatın...
                              Nə qəm!
Mən öz konstyumumu uşaqkən ona,
Azmı çevirtdirib geyindirmişəm?
Atamın, anamın verdiyi ad da
Çoxdan unudulub...
Nə qalıb məndə?
Biri "ata" deyir, biri "qaynata",
Biri "əmi" deyir, biri "xanəndə!"

Qırıldı qəlbində bu zaman nəsə,
O, küncə atılmış radioya baxdı.
O, elə bildi ki, dindirilməsə,
Radio hönkürüb ağlayacaqdı...

Radionun önündə gəlib əyildi,
Əlinin dalıyla tozunu sildi,
Düyməsini basdı...
                              O oyanmadı.
Onun mavi gözü niyə yanmadı?..
"Mən bunu alanda... Yeganəm Əvəz
Hələ tələbəydi darülfünunda.
Yaşardı könlümdə min arzu, həvəs

Vəfalı qarım da sağ idi onda...

Təzəydi...
Hamıya necə əzizdi.
Evin başındaydı yeri bir zaman.
Köhnəldi...
Hamı da gör necə bezdi,
Çardağa atdılar evin başından.

Deyən də olmadı, axı, bir zaman
Onu gecə-gündüz dinləmişik biz.
Çox da ki, yaramır bu gün, a nadan,
Ona borclu deyil bəs dünənimiz?

Bunu düşünüdükcə qəlbimin sözü
Dinir qulağımda: - Bu günə alqış!
Elə bil dillənir zamanın özü:
"Dünəninə sağ ol, bu gündən danış!.."

Alıb qucağına köhnə radionu,
Endi pillələri o yavaş-yavaş.
Dedi: - Bu məqamda atmaram onu,
Küncdəki otağa çəkildi birbaş.
Qurdu radionu...
Yandı göy işıq.
Durdu iki qoca üz-üzə indi.
Səslər xırıltılı, səslər qarışıq,
Həsrət öz-özünə yenə deyindi:
"Nahaq qınayıram, onları, nahaq,
Bu ki, lap qocalıb, səsinə bir bax!
Görüb öz işini, qoca dünyadan,

Gərək üzüsulu əl çəkə insan!...”

Əl çəkib mənasız bu iztirabdan,
O qovmaq istədi dərdi, məlalı,
Sonsuz bir həvəslə qalxıb, dolabdan
Götürdü toz basmış köhnə bir valı.

İlk gənclik çağında yazılan bu val
Həsrətə nə qədər əzizdir bu gün.
Hərlənib dönəndə hər zaman bu val,
Hərlənib qayıdır ilk çağı ömrün.

Val yenə hərlənir...
Ağlayır segah,
Ucalır, alçalır səs pərdə-pərdə.
Hər guşədə bir xal,
                    hər xalda bir ah,
Könüllər alışır bu nalələrdə.

Səslər, bu dünyanı duyan insanın
Həyata cavabsız min sualıdır.
Hər sözü, hər xalı nə qədər aydın,
Həm də ki, nə qədər müəmmalıdır.

Bu səsdə yaşayır min sirr, min əfsun;
Bir də könüllərin minbir niyyəti.
Oxuyan val deyil, oxuyur onun
Gəncliyi, arzusu, ilk məhəbbəti...
Oxuyan Həsrətmi?
Onun dilindən
Neçin bu cəh-cəhlər çıxmayır yenə?

Elə bil ömrümün bu sahilindən;
Dayanıb boylanır o sahilinə.

İllər bir çay olub durur ortada,
Bu sahil xəzandır, o sahil bahar.
Var səsin gəlincə çığır!
Nə fayda!
Aranı kəsibdir dəli dalğalar.

Val da sona çatdı onun ömrütək,
Qalxıb yenə qoydu təzədən onu.
Val yenə əridi...
Qəzəblənərək,
Dedi, - Lap min dəfə qoysam mən onu,
Bitəcək!..
                    Günahkar bilmə gəl, valı!
Başlanan, bir yerdə sona çatmalı!
Bu eyni səslərdən bezdi, nəhayət.
Qalxıb çarpayıda uzandı Həsrət;
"Səsim xoş gəlsə də nə qədər mənə,
Ancaq usandırır adamı təkrar,
Yəqin bununçun da insan ömrünə
Yalnız bircə dəfə verilir bahar.
Bilinməz, görünməz
                    insan ömründə,
Qəm-qüssə fərəhsiz, qara da ağsız.
Təkrar olunsaydı ömür də, gün də,
Həyat olmazdımı məgər maraqsız?.."
Keçib yan otağa Həsrət bu ara,
Təzə radionu yavaşca açdı.
Evi səs götürdü: "Qurbanam yara!"

Özü də bilmədən dodağı qaçdı...

Oxuyan özünün tələbəsiydi...
Yox, yox!
Bu, Həsrətin lap öz səsiydi...
O, bir də gördü ki, çarpayısından
Qalxıb ona sarı boylanır Eldar.
Pozulmaz qanundur:
                                        ötdükcə zaman
Qışın arxasınca gəlir ilk bahar!..

*Bakı, 1963*

# HƏYAT - ÖLÜM

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli.*
**H.Cavid**

## PROLOQ

Ölümlərdən yazıram,
Ölümlər də cürbəcür:
Kimi yaşamaq üçün,
Kimi ölməkçün ölür.

Ölümün də həyattək
Yaxşısı var,
Pisi var,
Ölümün şərəfsizi,
Həm də şərəflisi var.

Ölüm heçlikdir!
Ancaq
Elə heçlik də var ki,
Varlıq küsənir ona.
Varlıq, inana bilmir
Yoxluğun yoxluğuna...
Bəzən elə olur ki,
Dünya qalxır ayağa

Bir ölünün səsinə.
Milyon diri sığınır
Bir ölü kölgəsinə...

Bu qəribə deyilmi?
Min dirinin səsi yox,
Bir dirinin
              dünyaya
Lərzə salan səsi var.
Gəzənin kölgəsi yox,
Yatanın kölgəsi var.

Ölümlərdən yazıram,
Ölümlər də cürbəcür:
Kimi yaşamaq üçün,
Kimi ölməkçŕn ölür.

Ölümlərdən yazarkən
"Ölülər" düşdü yada.
Bütün bu ölüləri
İsgəndər qarşılayır
Bəlkə də o dünyada.

Arasında dayanıb
Cəhənnəmlə cənnətin
İki yerə ayırır
Ölüləri o, yəqin.
Diri ölü - cənnətə,
Demək - əbədiyyətə.
Ölü diri - cəhənnəmə,
Demək - puç bir aləmə.

Budu cənnət, cəhənnəm!
Budu Mirzə Clilin,
Həm də haqqın bölgüsü
Təmizlik və ucalıq
Bu bölgünün ölçüsü...
Mirzə Cəlil,
Sən "Ölülərdən" yazıb,
Ölüləri
  diriltməyə can atdın.
Bunun üçün
İsgəndəri yaratdın!..
Min ölünü içindən
Bir diri tapdın ancaq,
Cəhalət yuxusundan
İstədi ki, oyada
Min yatmışı bir oyaq.

Sən yetişdin arzuna,
Dad çəkdiyin cəhalət
Getdi,
  dərbədər oldu.
Sənin bir İsgəndərin
Min-min İsgəndər oldu.

Yazmağa səslər bu gün,
Günəşi batmayacaq
Axşamsız səhər məni -
Sonsuz əbədiyyəti
Ömrünə calaq edən
Diri-ölülər məni.
- Məgər ölü yoxmudur

Hacı Həsəndən bəri?
Sualından, səsindən
Tanıdım İsgəndəri.
Dedim: - Var, ancaq onlar
Dəyişib öz donunu.
- Sən də necə var isə
Eləcə göstər onu.
- Mən burda neçə-neçə
Dirilərdən yazacaq,
Onları...
  - Bəs ölülər?
- Danışmaq istəyirəm
Bircə ölüdən ancaq...

Mən hər şeyi
              dünyada
İlki kimi tərtəmiz
Saf görmək istəyirəm.
O bir ölünü belə
Dirildib, insan kimi
Öldürmək istəyirəm.

## EŞQ-SƏTƏLCƏM

Vüsal nəsib olmadı
Bu dünyada onlara.
Könüllər baş əymədi
Eşqə qənim kəsilən
Amansız qanunlara...

Nəhayət...
gəldi bir gün.
İki qütbə ayrıldı
Həyat da onları üçün.
Bir tərəfdə məhəbbət,
Bir yanda vaxtsız ölüm.
Məhəbbətsiz yaşamaq
Onlara dəhşət... Zülüm...

“Məhəbbətdən yarandıq,
Məhəbbətin yolunda,
Ölmək də xoşdur!...” - deyə
Onlar verib əl-ələ,
Qalxdılar bir təpəyə.

Onlar bu ucalıqda
Həyatdan uzaqdılar.
Onlar indi həyata
Bu zirvədən baxdılar.

Onların gözlərində
Yerdəkilər bu anda
Nə qədər kiçildilər.
Bu zirvənin başında
Həyatı yox,
ölümü
Onlar zirvə bildilər.
“Əhdə vəfa qılmalı” -
Deyə yumub gözünü,
Qayanın zirvəsindən
Oğlan atdı özünü.

Endimi?
  Yox! Enmədi!
O daha da ucaldı.
Ölümün  pəncəsindən
Ölümsüz həyat aldı.

İndi növbə qızındır,
Yerə baxdı, -
Duruxdu...
Oğlan quştək uçdumu?

Ətraf bomboş...
              O yoxdu...
Qızın gözü qaraldı,
Qəlbini dəhşət aldı.
Yerə baxa bilmədi,
“Yox-yox! Çətindir” - dedi.
Qız qorxdu,
  Qız çəkildi.
Məhəbbətsiz həyatı
Ölümdən uca bildi.

Çox ucaydı o bayaq;
Başını dik tutaraq,
Qayanın zirvəsində
Dayanmışdı qayatək.
Başını endirərək
İndi qaya başında
Bir milçəyə döndü o.
Oğlan kimi qayadan

Atılıb ucalmadı,
Yavaş-yavaş endi o.

Hələ ərə də getdi
Sevmədiyi birinə.
O gündən bir daş asdı
Ürəyinin yerinə.

O yaşadı sevgisiz,
Yaşamadı, süründü.
Ölüm ona min kərə
Həyatdan xoş göründü.

O, ölümdən qorxaraq
Həyatını, eşqini
Çox ucuz satmış, demə.
Eşqin yolunda ölmək
Başqa həyatmış demə.

Yalnız indi bildi ki,
Məhəbbətsiz yaşamaq
Ölümdür insan üçün.
O ölübmüş
  ölümdən
Həyata qayıdan gün.

Qız həyata qayıdıb
Özü-özünü dandı,
Lənət, nifrət qazandı.
Oğlan həyatdan gedib
Əbədiyyət qazandı.

Axır... soyuqdəymədən
Qız da getdi dünyadan.
Sətəlcəmə verildi
Eşqə verilməli can.

Onun həyatı kimi
Ölümü də ürəksiz,
Səssiz,
  xəbərsiz oldu.
Öldü iyirmi beşində
Ancaq heç kəs demədi
Bu ölüm nə tez oldu.
Oğlan da öldü, qız da,
Ölüm ölümdür...
  Nə qəm.
Ancaq düşün!
  Dünyadan
Birini eşq apardı,
O birini sətəlcəm!

Ölüm ölümmü?
  Yox, yox!
Ölüm var ki, yolunda
Azdır min can da versən.
Ölüm də var ki, ona
Adi qarışqanın da
Ömrünü qıymaram mən!

Qız həyata qayıdıb,
Lənət, nifrət qazandı.

Oğlan həyatdan gedib
Əbədiyyət qazandı...

## ŞƏRƏFSİZ ÖMÜR

O, hamını aldadıb
Əlaltdan oğurladı.
- Gərək kommunist... -
deyə
Xitabət kürsüsündən
Haray çəkdi, gurladı...

Qorxub vicdan səsindən
Titrəmədi səsi də,
Özündən üstün oldu
Sonradan qazandığı
Müdir vəzifəsi də...

Yalan sözlər içində
Tək-tük doğru sözü də
Əridi, talan oldu.
Onun atası hiylə,
Anası yalan oldu.

Satdı vəzifələri,
Stolunun gücüylə
Hamını qorxutdu o.
Bizim aylığımızı
Bircə gündə uddu o.

Burda “qazandığını”
Kurortlarda üyütdü.
Fikrət rüşvət puluyla
Neçə bala böyütdü...

Bilmədi, qanqal əkən,
Qanqal da dərər ancaq,
Haram pulla törəyən,
Bu haram balalardan
Hiylə göyərər ancaq.

Özgənin qazancını
Oğurlayıb o, min-min,
Şaraq-şaraq sayaraq
Düzdü dolaba çin-çin.

O pulların səsində
Neçə körpə balanın
Eşitmədi səsini.
Düşündü sabahını,
Bu günsə gözgörəti
Ac qoydu özgəsini...

O pulların üstündə
Neçə-neçə balanın
Göz yaşını görmədi.
Aldığı göz yaşları
Onun həris qəlbinin
Odunu söndürmədi.
Ancaq o bilmədi ki,

Güvənirkən puluna,
Dövlətinə, varına
Çörək, xörək yerinə
Göz yaşları yedirdir
Doğma balalarına.

Özü ləkəli oldu,
Ləkələdi dostu da,
Ləkələdi yadı da.
Cibindəki biletdən
O, heç utanmadı da.

Cibindəki biletin
Mənasını, bilmədi.
Ona ikicə sözlə:
"Çörək ağacım" -dedi.

O sökdü, o taladı,
Düşünməyib dünyanı
Özünü gördü ancaq.
Üzvülük haqqınısa
Maaşdan verdi ancaq.

Söküb talayan zaman
Ancaq o bilmədi ki,
Öz ömrünü uçurur.
Sabahına pul yığıb,
Sabaha balta vurur.

Minib göy yüzlüklərə
Atını səyirtdi o

“Neftçi”nin arxasınca
Moskvaya, Kiyevə,
Aşqabada getdi o.

O,”Neftçi”nin naminə
Badə də qaldırırdı.
“Neftçi” uduzandasa,
Restoranda keflənib,
Qədəhləri qırırdı...
On qədəhin pulunu
Verirdi uf demədən;
Bir qədəhin yerinə.
-Niyə uduzduq?-deyə,
Çırpırdı dizlərinə.
Vətənin qeyrətini
Çəkən oğlana bir bax.
Bir vətən övladına
Bir manat qıymaz ancaq.

Belə “vətənpərvərin”
Kəsib uzun dilini
Qeyrətinə calasaq;
Əməli dağlar aşar,
Dili lal olar ancaq.

Bakı dərzilərini
Bəyənməzdi...
  kişinin
“Çox incə zövqü vardı”.
Paltar tikdirmək üçün
Moskvaya uçardı...

Hırıltılar içində
Ömrü-günü ötüşdü.
Dövran yaman dolandı,
Bir gün tələyə düşdü.

Fikrət vaxtı iylədi,
Siyasəti dəyişib
Girdi özgə bir dona;
Yıxdı günahlarını
Mühasibin boynuna.
Saxta sənədləri töküb önünə,
Düşünür Kərəm:
"Fikrət saldı məni yaman düyünə!"

Gah alışır Kərəm,
gah sönür Kərəm:
"Günahkar Fikrətmi?...
Mənəm günahkar.
Çox da o deyildi, öz ağlım hanı?
Uşaqdım məgər?
Yox, yox! Bərk ayaqda öz günahını
Özgənin boynuna yıxar zəiflər.

Aldandım həmişə şirin bir sözə,
Durmuşam özümlə indi üz-üzə.
Bilmirəm özümə bu gün nə deyim?
Həmişə başıma bəla açıbdır
Mənim fərsizliyim, mülayimliyim.

Yoxdur lüğətimdə mənim "yox" sözü,
Dilim yorulmadı "bəli" deməkdən.

Söndü öz könlümün alovu, közü
Özgə ocağından od aldıqca mən.

Sandım, “bəlilər”lə dost qazanıram,
“Bəlilər” axırda oldu düşmənim.
Bir zaman gördüm ki, əriyib tamam,
“Bəlilər” içində mənliyim mənim.
İstədim
          ucalam,
                    qalxam, yüksələm,
Tutub ətəklərdən yerdə süründüm.
İstədim hamının xoşuna gələm,
Hamının yanında bir qula döndüm...

Mətanət, iradə olmadı məndə,
Özgənin əmrilə durub oturdum.
Əlacı, çarəni, dara düşəndə
Özümdən sormadım, özgədən sordum.

İndi neyləməli?
          Bu alver üçün,
Əvvəldən verilən girov, beh mənəm,
O, quru çıxacaq bu sudan yenə.
Eh!... Ona nə var ki... cavabdeh mənəm...”

Saxta kağızlara o, bir də baxır,
Rəqəmlər od olur, yandırır, yaxır;
Daş olub qəlbindən asılır onun,
Hökm olub alnına yazılır onun.
Çoxalan rəqəmlər gəlməyir saya,
On-on artırılan azalır min-min.

O saxta sıfırlar dönüb halqaya,
Keçir boğazına yazıq Kərəmin.
“İtirdim hər şeyi...
        İnam, etibar
        Uçdu,
                gözgörəti getdi əlimdən.
Mənə deyən gərək bir tək canın var,
Aylıqla dolana bilmirdinmi sən?...”

“Dünya malından
Mənim nə sərvətim, nə dövlətim var.
Özümtək yalqız
        Bircə itim var” -
Deyə sığal çəkdi o, yavaş-yavaş
Yanında çömələn itin başına.
“Bilmirəm... bəs niyə mən uydum ona?”

Kərəm bu fikirlə alışan zaman,
Fikrət gülə-gülə girdi qapıdan:
- Doğrusu, mən səni kişi bilirdim,
İnanıb mən sənə hər sirri verdim.
Qorxudan yumağa dönmüsən, Kərəm,
Kişini, mən kişi görmək istərəm!
- Kişilik meydanı deyil, a Fikrət,
Qapımın ağzını alıb fəlakət.
- Ə... hansı fəlakət?..
Lap qəribəsən.
- Üç gündür xəstəyəm, çıxmıram evdən.
- Qorxursan...
- Qorxuram, qorxuram, bəli.
- Kərəm, gülməlisən, vallah, gülməli!

- Köks inağı var bilirsən məndə,
Bir dara düşəndə, ya hirslənəndə,
Pozulur, daha da pis olur halım.
- Özünü ələ al, ay qadan alım,
Qorxulu nə var ki, burda, sən belə
Özündən çıxmısan, bir az səbr elə.
Biz də bir kişiyik...

Pul ki var, Kərəm,
Mollanı məsciddən didərgin salar,
Pulun bir giminə göylər alçalar.
- Elə pul deməkdən yorulmadın sən.
Axı, istintaqa gedib-gəlməkdən,
Məndə hal qalmadı...
Bəs tərpənsənə!
- Hər şeyin vaxtı var.
- Mətələm sənə.
Mən burda ölürəm, deyirsən ki, öl,
Dərmanın gələcək.
- Ey dili-qafil.
Sən mənə qulaq as, möhkəm ol, bərk dur.

Qorxmaz adamlardan ölǵm də qorxur.
Gərək itirməyə özünü insan,
Yüz dəfə çıxmışıq belə sulardan -
Bu da yüz birinci
Qulaq as, Kərəm,
Məbada məni də salasan dilə.
Mən bayırda qalsam, adam görərəm.,
Qoymaram başından bir tük əksilə,
Mümkünat olmasa... götür boynuna.

Eh!.. Sənə nə var ki, subay oğlansan,
Təki qurtarmaq da asandır, asan.
- Yəni mən bu qədər axmağam məgər?
Keçəl suya getməz, getdiyim yetər.

Gecə yarısına uzandı söhbət,
Döndü kor-peşiman evinə Fikrət.

O, yata bilmədi... xeyli düşündü.
Gah sağa çevrildi, gah sola döndü.
“Mən düzmü yoldayam?..”
Bu sual onun
Ömür yolunun,
Durdu önündə
Bu dar günündə.
“Mənmi günahkaram?”
“Axı, mən niyə?
Zaman saldı məni bu həngaməyə...
Alimlik eşqinə düşdüm bir zaman.
Tarix şöbəsini əla bitirdim.
Mən səadət umub daş yazılardan,
Tarix muzeyində işə də girdim.

Öyrəndim hər kiçik, hər böyük dini,
Öyrəndim Babəki, Şəhabəddini.
Öyrənib bilməyə hey o zamanlar
Həvəsim var idi nə qədər mənim.
Böyük təbiətlər, mərd qəhrəmanlar
Sirdaşım olardı gecələr mənim.
Duyardım özümdə bir sonsuz qürur,
Hər gecə oxuyub öyrəndikcə mən.

Fəzlullah, Nəsimi, Cavidan, Mənsur;
Düşməzdi o vaxtlar bir an dilimdən.
Onların misilsiz fədakarlığı,
Mənə əfsanətək gələrdi bəzən.
Onların tarixə məlum varlığı
Mənə gülümsərdi duman içindən.

Onlar aldanmadı şöhrətə, ada,
Yaşarkən haqq dedi, haqdan dönmədi.
Nəsimi dərisi soyulanda da
Qanı axa-axa "ənəlhəq" dedi.

Nədənsə... indi də bu əfsanəyə,
İnana bilmirəm, şəkk edirəm mən.
Necə keçmək olar, "ənəlhəq" - deyə
Bir dəfə verilən bu az ömürdən?..

Yaşadım tarixlə, keçmişlə ancaq,
Bəs bu gün?
Bu günü unutdum tamam.
Bir zaman gördüm ki, araşdırdığım
Qədim tarix kimi unudulmuşam...

Məni əsir edib, gördüm, uzaqlar,
Qaynar arzularım gözümdə qalmış.
Qədim abidələr, sarı varaqlar,
Gördüm ki, qəlbimə bir kölgə salmış.

Gördüm ki, dolanmır arzumca gərdiş,
Min-min istəyi var, axı, hər kəsin.
Dedim ki, "özünə, axı, bu keçmiş

Nə gün ağladı ki... Mənə neyləsin?!"
Dəftər-kitabımı qapayıb bir gün,
Dedim ki, yaşamaq istəyirəm mən.
Mən ki, doğulmuşam afişalarçün,
Nə çıxar cünglərdən, təzkirələrdən?
Hay-hayım gedibdir, qalıb vay-vaylıq
Gözümdəmi qalsın arzum bəs mənim?
Yaşamaq istəsəm, aldığım aylıq
Beşgünlük xərcimi ödəməz mənim.

Bəs onda neyləmək?
        Tez çıxdım işdən,
Düşdüm o gündən də ayrı yola mən.
İndi peşmanammı?
Yox!
        Bəs səksəkə?
Bəs nadan töhməti, bəs cahil sözü?
Yaşaya-yaşaya, kef çəkə-çəkə,
Gündə neçə dəfə ölürəm düzü.

Qorxuram,
        qorxular öldürür məni.
Nadanlar dünyaya çox görür məni.
Yox! Məni satacaq, deyəsən, Kərəm,
        Neyləmək?
Yox!..
Buna mən yol verməreəm.
Qoymaram əclafın dili tərpənə,
Onun bircə sözü ölümdür mənə.
Neyləmək?
İşini bitirməkmi?

Yox!..
Bəs vicdan?
Biz, axı, yoldaş olmuşuq...

Vicdanın səsinə qulaq asan kəs,
Dünyada insantək yaşaya bilməz!
Bəs birdən bilinsə...
Onda neyləmək?
Düşünmək!
Yüz ölçüb bir biçmək gərək!”

Fikrət Kərəmgilə gəldi bir axşam,
Gördü Kərəm yatır əməlli-başlı.
Dedi: - Hə, necəsən?
Dedi: - Yanıram,
Qızdırma içində mən başıdaşlı,
Başım gicəllənir, gözüm qaralır.
Ölçdü qızdırmanı...
Qırxa az qalır.
- Doğrusu, hamıdan utanıram mən.
Düşdüm xəstəliyə xəcalətimdən
Adım ləkələndi bir oğru kimi,
Mən belə bilmirdim aqibətimi.
Qalxmaq istəmirəm heç bu yataqdan,
Ölüm istəyirəm, bir ölüm, haqdan.
- Bu işlər əvvəldən olmayaydı kaş,
Sənə haqq verirəm, doğrusu, qardaş,
Müstəntiq dünən də çağırdı səni.
Mən ona dedim ki, axı, xəstəni
İncitmək yaramaz...
Dedi: “Bilirəm

Çox təmiz adamdır mühasib Kərəm.
Yazıq xəstə düşüb xəcalətindən".
Onunla əməlli danışdım dünən.
Əlqərəz... köməyi qoydum boynuna.
Əlimdən gələni, dedi, mən ona
Mütləq edəcəyəm...
          Yazsın xəstəyəm.
- Bununla günahım azalır bəyəm?
- Axı, yubadırıq işi bir qədər,
İş də yubandımı, xətm olub gedər.
- Yox, yox! İnanmıram, inanmıram mən! -
Kərəm birdən-birə çıxdı özündən,
Vurdu yumruğunu mizin üstünə.
Çilik-çilik oldu dərman şüşəsi:
- Sən məni, sən məni saldın bu günə! -
Quyudan çıxırdı elə bil səsi...

Tutdu yaxasından Fikrətin Kərəm.
- Vallah, daha səndən mən əl çəkmərəm,
Qarşında gördüyün o Kərəm deyil,
O sadədillikdən artıq uzağam.
Haraya çəksələr məni, özün bil,
Səni də özümlə aparacağam.
Məni bu bəlaya sən sürüklədin,
Bu zəif çiynimə tonlar yüklədin! -
Deyə, - çarpayıya qapandı birdən.
Hönkürüb ağladı Kərəm qəhərdən.
- Ə... bəsdir, kişi ol!
- Fikrət, gəl gedək,
Bütün günahları etiraf edək.
Susursan...

Özün bil, gedəcəyəm mən.
- Ə... nə danışırsan? Dəlisən-nəsən?
- Dəli mən deyiləm, sənsən, sən özün;
Bu dünya malından doymadı gözün!
Nökərçilik olub əzəldən peşəm,
Sənin bir sözünə yox deməmişəm,
Yanında lal-dinməz qul olmuşam mən.
Yetər, daha bəsdir, yorulmuşam mən.
          Di, rədd ol!
Gözlərim görməsin səni,
Uçundu, yarpaqtək əsdi bədəni...
O birdən-birə,
Qopub çarpayıdan yıxıldı yerə.
Bir anın içində yumağa döndü.
Qıvrılıb ilantək yerdə süründü.
          Ağardı rəngi də...
"Deyən, qurtardım!..
Ölürəm... ölürəm... təcili... yardım!"
Fikrət telefonun üstə yüyürdü...
Həzin bir səs ilə çöldə it hürdü...
Bir mənamı duydu bu səsdə Fikrət?
Dayandı...
          qəlbini çulğadı dəhşət...
"Bu ölür?.. Bəs onda...
Neyləyirəm mən?"
"Onu diriltməkmi?.."
Dəstəyi qoydu...
Ancaq ürəyində bir ağrı duydu...
"Bu ki, özü ölür... Mənə nə?
                    Ölsün!
Onunla birlikdə mənim sirlərim,

Mənim günahlarım yerə gömülsün...
Bəs vicdan?
Bəs insaf?
Ah, bəs insanlıq?
Gör necə, gör necə qıvrılır yazıq...
Yalvarır...
axı, bu kişilik deyil,
Dəstəyi götürür...
“Ey dili-qafil!
Dayan! Neyləyirsən? Onu bəs dünən
Öldürmək fikrinə düşmədinmi sən?
İndi özü ölür əlin dəyməmiş...
Bəlkə də... Allahın işidir bu iş...
Qoy ölsün!..”
Dəstəyi qoydu yerinə...
Hürdü həzin-həzin çöldə it yenə.
Baxdı gözucuyla Kərəmə bir də...
Gördŕ ki, can verir o, quru yerdə...
Yazığı gəldi,
Yaxına gəldi...
Onun baş altına mütəkkə qoydu,
Yenə bu qayğıya inandı, uydu.
Başını yellədib soruşdu Kərəm:
- Zəng çaldınmı?
- Bəli.
- Sağ ol!
- Sən sağ ol!..
- Sən sağ ol, Kərəm,
Mən sənə canımı qurban eylərəm...
(Ax, sözlər! Ax, sözlər!.. deyirəm: görən,
Niyə utanmayır sözlər, əməldən?

Gözümü açalı bu dünyaya mən,
Söz ilə əməli cidalda gördüm.
Sözü son nöqtədə, mənzil başında,
Kiminin də sözü özündən qabaq.
Əməli həmişə mən yolda gördüm.
Kiminin əməli sözündən qabaq,
Əməl olan yerdə söz unudulmuş,
Gözəl əməllərin dili də laldır.
Alçaqlar əlində söz boyaq olmuş;
Qaranı ağardır, ağı qaraldır).

"Mənə sağ ol" dedi, mən neylədim bəs?
Onun "sağ oluna layiqəmmi mən?
Fikrət! Bu fikirlər əbəsdir, əbəs!
Yoxsa, peşimansan bu əməlindən?
Nahaq... çox nahaq!
Yaşamaq lazımdır, bəli, yaşamaq!
Mən yaşayım deyə... yoxsa, büsbütün
Vicdanı... boğmalı?.. O ki, oyaqdır!
Mənim kimilərin yaşamasıyçün
Bəlkə... beləsinin ölməsi haqdır?
Bəlkə doğrudan da mən pozulmuşam?"
Gözünün önündə durdu min sual,
Gördü o keçinib qurtarır tamam,
"Təcili yardıma zəng çaldı dərhal...
Gəldilər, baxdılar, dedilər: "Artıq,
keçinib yazıq..."
Fikrət nalə çəkib birdən hönkürdü,
İndisə çöldə yox, evdə it hürdü...
Baxdı gah meyidə, gah gələnlərə
Qapının yanında çöməlib yerə,

Uladı... elə bil o ağlayırdı,
Kərəmin halına yas saxlayırdı.
Hər şeyi yerində yoxlamaq üçün,
Gəldi Kərəmgilə prokuror bir gün.
Bütün siyirtmələr, bütün dolablar,
Məktublar,  dəftərlər, cild-cild kitablar
Açıldı, töküldü birbəbir yerə.
Bütün yazılara, bütün xətlərə.
Neçə yol baxdılar...
          Bir qara dəftər
                    Tapıldı...
Açınca alışdı gözlər.
Gündəlik... gündəlik.. könül sözləri,
Bir bədbəxt insanın ayaq izləri
Burdadır tamam
          Qədəmbəqədəm...
                    Prokuror dedi:
- İzə düşmüşəm!

Fikrətin kələkləri
Yaman yerdə açıldı,
O, "dəmir"kən mum oldu.
Dünənə hakim olan,
Bu günə məhkum oldu.

Bu gün tutdu qəm-kədər
Dünənki nəşələrin,
Fərəhlərin yerini,
        O elə bilirdi ki,
        Pul həmişə örtəcək
        Onun eyiblərini.

Elə pul deyilmidir
Hər şeyi satan, alan? -
Könüllərdən ən gözəl
Duyğuları, hissləri
Qovub didərgin salan?

Dünya yaman dünyadı,
Gələni yola salıb,
Özü qalan dünyadı.
Dünən verdiklərini
Bu gün alan dünyadı...

Hakim hökmü oxudu:
- Fikrət Alı oğluna
Güllələnmə!..
- Bu nədir?
Bəlkə bizim bu hakim
Dəlidir, divanədir?!

Əvvəlcə inanmadı,
O, bir özünə baxdı,
Bir də salona baxdı.
Gördü yatan özüdür,
Bütün salon oyaqdı...
Gördü yolub saçını
Ana "vay balam" deyir.
İndi səni, can oğul,
Ölümün pəncəsindən
Mən necə alım?... - deyir.
Əlacın puldadırsa,
Sataram daş-qaşımı...

Səni od yandırırsa,
Sel eləyim, axıdım
Üstünə göz yaşımı...

Xəstəsənsə, davançın
Dırmaşaram dağlara,
Çıxaram  yaylaqlara.
Hər dərədən bir çiçək,
Hər çiçəkdən bir ləçək
Dərim, gətirim, bala!
Sənə yetirim, bala!

Bu dərdə ki, dözürəm,
Nər balası, nərəm mən.
Səndən ötrü, ay oğul,
Dünyanın o başına
Piyada gedərəm mən.
Təki cavan yaşında
Səni öldürməsinlər,
Bu ağsaçlı anana
Səni çox görməsinlər.

İşıqdırsa dərmanın -
Gözlərimdən nur verim.
Ömrümdən kəsib, sənə
Təzə bir ömür verim.
De, əlacın hardadır,
De, dərmanın kimdədir?
Səndə deyil,
  bəlkə də
Günah öz bəxtimdədir.

Məni qoyub gedirsən?
Əzəllər bilməzdim heç
Bu qədər namərd səni!
Hardan tapdı, ay oğul,
Bu dərmansız dərd səni?

Niyə soyuq su qatdın
Sən isticə aşına?
İndi anan neyləsin,
Nə kül töksün başına?

Apardılar Fikrəti,
Bayaq durduğu yerdə
Bir vahimə qaraldı.
Ana açdı əlini,
Əli havada qaldı:

- Sənin hər ad gününçün
Mən, axı, qurban dedim...
Mən səni otuz beş il
Bu günçünmü böyütdüm,
Bu günçünmü bəslədim?
Mən, axı, qurban dedim
Sənin hər adgününçün,
İndi qurbanlıq qoça
Oxşayırsan sən özün.

Ölüm kamerasına
Saldılar o gün onu.
Bu otaqda o gördü
Otuz beş illik ömrün

Nöqtəsini, sonunu.
“Bura nədir?..”
O baxdı,
Biz-biz oldu tükləri:
“Onun bu dünyadakı
Son mənzili, son yeri!...”

Baxdı qarşı divara,
Baxdı arxa divara.
Burdan gedən yol ancaq
Bir yerədir: məzara!

Bir saatın içində
Onun qara saçları
Ağardı qorxusundan.
Nə qəribə təzaddır:
Ağ saçlar,
  Qara zindan...

“Axı, niyə, niyə mən
Ölməliyəm?..
  A dünya,
Vəfana nə deyim mən? -
Olmazmı sağ qalım mən,
Olmazmı əilməyim mən?
Dövranın hökmünə bax,
Gərək mənəmi qıya?
Ax!... Bu boyda dünyada
Məgər hava qurtarıb
Çatmayırmı hamıya?..”

Bu müdhiş fikirlərin
Pəncəsində bir həftə
Üzüqoylu yatdı o,
Ölümün dəhşətilə
Ağlını, idrakını
Yuxudan oyatdı o.

Ölüm qəlbə soyuqluq,
Əqlə qol-qanad verir.
Ömründə düşünməyən,
Ən nadan insanı da
Filosofa döndərir.

O düşünür, düşünür:
"Ölüm hökmündən bəri,
Bir həftənin içində
Yaşamışam illəri.
Ah!.. O gündən bu yerə
Mənim ixtiyarımı
Qorxu əlimdən almış.
Mənimlə bu dünyanın,
Aləmin arasında
Dəmir hasar ucalmış.

İxtiyarım varmı ki,
Öz yaşamaq haqqımı
Özgəsindən umam mən?
Məndə bircə fikir var:
- Ölümə məhkumam mən,
Ölümə məhkumam mən!

Ayaq üstə sürünən
Bir kölgəyəm mən bu gün,
Hər şey öz mənasını
Dəyişibdir mənimçün.

Ev - ah!.. İndi mənimçün
Ev yox, yalnız məzar var;
Harda qaldı, bəs harda
Şirin-şirin arzular,
Dadlı-dadlı xəyallar?..

Günəş, bulud, yol, cığır,
Kol, ağac, eniş, yoxuş.
Hər şey, hər şey mənimçün
Bu gün artıq yox olmuş.

Nə mənası mənimçün
Hava gözəl, ya sərin,
Ya istidir, ya soyuq.
Ölümün kandarında
İnsan üçün soyuqla
İstinin bir fərqi yox...
Mənimçün hər şey bitib,
Axır anlar, saatlar.
İndi mənimçün ancaq
Məni ölümə doğru
Aparan bir zaman var.

Mən amansız ölümə
Məhkum olandan bəri,
Sayıram, hey sayıram

Hər an məni ölümə,
Çəkib yaxınlaşdıran
Ağır dəqiqələri...

Çöldəki ayaq səsi,
Hər tıqqıltı, lap məni
Cin atına mindirir.
“Gələn ölümdür”-deyə
Könlümü diksindirir.
Ax!.. Bütün bəşəriyyət
Ölümə məhkum ikən,
Bu gün məhkum olduğum
Bu ölümdən, gedimdən
Bəs niyə qorxuram mən?..

Hamı bilir, bilir ki,
Öləcəkdir tez, ya gec
Ölümünün vaxtını
Bilməyən bəxtəvərlər
Ölümdən qorxarmı heç?

İndi yəqin hardasa
Bir, ya iki saatdan
Öləcəkdir bir nəfər.
Bunu bilmədiyindən
Ölümdən qorxmur ancaq
Zərrəcə o bəxtəvər...

Özüm ölsəm də, artıq
Fikrim, hissim, düşüncəm
Hələ oyaqdır, oyaq.

Ölüm qorxulu deyil,
Qorxuludur,
  ölmədən
Ölümü bilmək ancaq.

Bəlkə mənim ömrümə
Hələlik bir ay da var.
Ancaq mənsə qorxuram,
Neçindir bu qorxular?

Çünki "ömür atından
Dedilər tez düş" - mənə.
O gündən, ax, o gündən,
Sonum görünmüş mənə...
Mənim gözətçilərim,
Nə qədər xoşbəxtsiniz
Mən bilirəm, siz o gün
Mənə necə baxdınız...

Yazığınız gəldimi?
Yoxsa, haqq verirsiniz
Bu dəhşətli hökmə siz?
Bəlkə... "Öz cəzasıdır
Gərək çəkə" - dediniz.
Mən hər şeyi görürəm
İndi dərindən-dərin...

Bilirəm mənasını
O soyuq nəzərlərin;
Otuz beş illik ömrü
Yaşadım bir an kimi,

Siz mənə baxırsınız
Cansız daşa, divara,
Kötüyə baxan kimi.

Mən saymadım heç kəsi,
Mən özümü həmişə
Hamıdan uca tutdum.
Dünyanı unudarkən
Mən özümü unutdum...

Mən pula səcdə qıldım,
Pul kimi xırdalandım.
Mən başa düşmədim ki,
Dövləti talayırkən,
Özüm qəlbən talandım...

Özüm üçün yaşadım,
Özüm üçün hər zaman.
Mən ancaq bilmədim ki,
Ölüm üçün yaşayır
Özü üçün yaşayan.

Yaşamaq istəyirəm
Mən də başqalarıtək...
Axı, mən də insanam,
Niyə mən ölüm gərək?..

Vicdan, insaf bəs hanı,
İnsan da heç insanı
Öldürərmi?..
Bu nədir?

Niyə insan insanın
Dərdinə biganədir?

Əgər mən xəstəyəmsə,
Əgər mən qocayamsa,
Ölümüm haqdır mənim.
Axı, qəlbim, istəyim
O haqq olan ölümdən
Hələ uzaqdır mənim.

Gözgörəti oxunur
Fatihəsi ömrümün.
Niyə mənə heç kəsin
Yazığı gəlmir bu gün?

Ay adamlar, amandır
Siz buna yol verməyin.
Ay adamlar, adamı
Diri gözlü qərarla
Ölümə göndərməyin!
Ax, ey hakim, ey hakim,
Yoxmudur heç vicdanın -
İnsan da qol çəkərmi
Ölümünə insanın?..
Necə? Bəs sən? Bəs özün
Bir qatil deyilmisən,
Fikrət, axı, özün de.
Özgəsindən umduğun
O insaf, o mərhəmət
Varmı sənin özündə?

Bəs Kərəmin ölümü
Nə tez çıxdı yadından?
Cəbhə dostum Gəraysa
Bizim həyatımızçün
Keçdi öz həyatından:

**GƏRAY**

Yağır güllə yağmuru
Düşmən pulemyotundan,
Dəstə yatıb səngərə;
Qarşı ölüm, arxa qan.

Komandanın əmri var:
Aşıb o qarşı dağı,
Öndə vağzal binası
Mütləq tutulmalıdır-
Bir saata uzağı...

Yağır güllə yağışı,
Göz açmağa macal yox.
Dəstə yerə sinibdir,
Tərpənməyə bir hal yox.

Neyləmək?
Serjant Gəray
Çox düşündü gizlicə;
Od saçan pulemyotu
Necə susdursun, necə?

Ax, necə? Necə?
Birdən
Matrosovun kölgəsi
Göz önündə dayandı.
Elə bil ki, yatırdı,
O, yuxudan oyandı.

Qərarını neçə yol
Ölçdü, biçdi Gərayım;
Fikrində alqışladı.
Sonra o, üzü üstə
Sürünməyə başladı.
Gah süründü, dayandı,
Gah dayandı, süründü,
Yorulmadı o, yenə;
Süründü milyonların
Ayaq üstə durması,
Yeriməsi naminə.

Gəlib çatdı binaya
Gəray arxa tərəfdən,
O, tez qalxdı bu ara
Atdı binaya sarı
Bir, iki, üç qumbara.

Bina başdan-ayağa
Toz-dumana büründü.
O, fürsəti verməyib,
Ön tərəfə süründü.
Toz-duman çəkilincə,

Yağdı güllə yağışı
Yenə həmin binadan.
Gəray indi neyləsin?
O düşündü bircə an.

Dərhal qalxdı ayağa,
Vəcd içində yeridi.
Dayadı sinəsini
O, mazqalın ağzına.

Pulemyotla birlikdə
Sanki dünya kiridi.
Göydə bulud dayandı,
Kiridi axar sular,
Kiridi qəlblərdəki
Şirin sözlər, arzular.

Pulemyotun ağzına
Dayanan o köks ilə,
Sanki düşmən üstünə
Bütün dünya yeridi.
Milyon ürəklərdəki
Arzu, sevda yeridi.
Min bir dilək yeridi.

Düşmən üstə həm bu gün,
Həm gələcək yeridi.
Qanda çimən dünyanı
Gələcəyə səsləyən
O sükutun səsinə
Bütün dünya kiridi.

Sinəsini qırmızı
Güllələrə gərdi o.
Şimşək kimi, özünü
Sönəndə göstərdi o,
Sönməyilə yandı o,
Sönüb cilalandı o.

Bir an əvvəl heç kəsə
Görünməyən o atəş
Eşqiylə yanıb söndü,
Bu yanğında görsndü.

O yaşadı dünəndə,
O yaşadı bu gündə,
O yaşadı, yaşadı
Uğrunda can verdiyi
Dostlarının ömründə.

Anası həyat üçün
Doğdu həyat oğlunu.
Ölümü doğdu ancaq
Ölməzlik üçün onu.

O, məni də yaşatdı
Niyə utanmadım mən,
O ölümdən aldığım
Ömrü yelə verərkən?

Yadımdadır, dostlarım
Məni xilas eylədi
Neçə vaxtsız ölümdən.

Öləydim, kaş öləydim,
Ax, nolaydı onda mən!..

Öldürməzdi o zaman,
Ölümdən yaman olan
Bugünkü bu dağ məni.
Anam kimi çəkərdi
Qoynuna torpaq məni.
İndidən yox,mən heçəm
Əyri yola düşəndən.
Qorxub çiyrənəcəkdir
Yəqin torpaq da məndən.
Mən o zaman, o zaman
Dəhşətli ölümlərin
Önündə göz qırpmayan,
Karbışevə, Gəraya
Necə heyrət edərdim...
"İnsan ölməyə deyil
Yaşamağa gəlibdir
Bu dünyaya"- deyərdim...
Yaşamaq?!
Ancaq necə?
Bunu anlamayırdım.
Yaşamağın özünü
Mən bir amal sayırdım...
Demə, amalsız ömür
Quru bir xəyal imiş.
Demə, yaşamaq deyil,
Onu duymaq, anlamaq
Ən böyük amal imiş.

Mənə elə gəlirdi,
Həyatı sevdiyimdən
Ölümdən qaçıram mən...
Demə, demə, o zaman
Mən sevsəm də həyatı,
Özüm sevilmirəmmiş.
Həyatın qiymətini,
Qədrini bilmirəmmiş!..
General Karbışevi
Faşistlər bir qış günü
Tamam soyundurdular,
Onu buzun üstündə
Buz kimi dondurdular:

**KARBİŞEV**

Şaxtalı bir gündə,
          Qış səhərində
Özütək bir neçə igidlə birgə,
Qoca generalı soyundurdular.
İnsan əzabından oyun qurdular.
Bu necə zövqdür?
          Şlanqla birdən
Çılpaq bədənlərə bir neçə yerdən
Su vurur... Gör necə gülüşür onlar,
Yağır piltə-piltə, yağır asta qar.

Şaxta bir tərəfdən, su bir tərəfdən
Vurduqca, buz tutur tunc bədənləri.

Ancaq üşümürlər, isidir Vətən
Onların qəlbini bayaqdan bəri.

Vətən sevgisilə yanan bir ürək
Buz nədir, daşı da əridər yəqin.
Onlar bu inamla gülümsəyərək,
Durublar dağ kimi əyilməz, mətin.

İlk bahar onların gülür gözündə,
Buza dönsələr də, bir xəyal kimi.
Dayanıb Karbışev hamıdan öndə
Ölür, öləndə də general kimi:

-Qardaşlar, Vətəni düşünün yalnız,
Onda bu əzabı unudarsınız...
Onun sözündəki mənaya bir bax,
Ona bu inamı verən bəs nədir?
Özü buz içində, Vətənin ancaq
Gələcək baharı ürəyindədir...
Bu əzab düşmənçün uğursuz olur,
Onlar buz içində dönür heykələ.
Bu mərdlik önündə donur, buz olur
Bu mərd insanları donduran belə.

Bir böyük sözə də inanıram mən:
Ölmək çox asandır, yaşamaq çətin.
Məsləklə yaşayıb, inamla ölən
Qızıl taxtındadır əbədiyyətin.

Karbışev ölmədi!
Eşqi, niyyəti

Bizim könlümüzə bu gün nur çilər.
Faşistlər dondurub, əbədiyyəti
Onun bir ömrünə calaq etdilər.

Həmişə məsləklə vurdu o ürək,
Onun uğrunda da susdu o ürək,
Durdu o ürək...
Məsləkə qıymadı, canını verdi
Bir ömrü əlindən alan o məslək,
Ona yüz-yüz belə ömŕr gətirdi...

## DÜŞÜNCƏLƏR

Demə, amalsız ömür
Quru bir xəyal imiş
Demə, yaşamaq deyil
Onu duymaq, anlamaq
Ən böyük amal imiş...

Dedilər: - Qardaşınla
Oğlun gəlib görüşə.
Dedi: - İstəmirəm mən,
Deyin ki, bərk xəstəyəm.
Qalxammıram yerimdən...
Yox idimi deməyə
Onun sözü, arzusu
Məgər əzizlərinə?..
Fikrət çıxa bilmirdi
Onların üzlərinə...

Onların üzlərinə...

Gözətçisi bir azdan
Bir bağlama gətirdi:
- Götür, evdəndir! - dedi.
O qaytarmaq istədi
O qışqırmaq istədi:
“Kəsilmiş bir ağaca
Su nə gərək!..”
Dayandı,
Dəm verdi göz yaşına.
Dedi: - Başa düşürəm:
Kəsiləcək ağacın
Dolanarlar başına.
O baxdı bağlamaya
Gözucu oğrun-oğrun;
Onun ən çox sevdiyi
Ət qutabı, göy xiyar,
Yanında təzə tərxun.
Ancaq nəfsi çəkmədi,
İtələdi kənara
Yemək dolu nimçəni:
- Anamın bişirdiyi,
Çox sevdiyim yeməklər,
İndi yeyin siz məni...

Hönkürdü birdən-birə,
Divarlar da titrədi
Onun bu fəryadına;
Xoşbəxt, gözəl günləri
Gəlib düşdü yadına.

Ey səadət, səadət,
Əlimizdə olarkən
Görə bilmirik səni.
Elə ki, qanad açıb
Bizdən uzaqlaşırsan,
İzləyirik kölgəni.
Bir ulduza dönürsən,
Nədən gözlərimizə
Uzaqdan görünürsən?!

Bir neçə gün yaşamaq
Olar susuz, çörəksiz;
Əgər hava olmasa,
Yaşaya bilmərik biz
Bircə dəqiqə, şəksiz...
Özünü oda-közə
Atır çörəkçün insan.
Heç havanı düşünmür
Hava bol olduğundan...

Biz sevirik, sevgimiz
Əlimizdən gedərkən.
Biz sevmirik, sevərkən.
Bəxtəvər olduğunu
Heç kəs, heç kəs bilməyir,
Xoşbəxtkən, bəxtəvərkən.

Süzüldü bulaq kimi
Üzündən göz yaşları.
Yağdı, yağdı sübhəcən
Gur payız yağışları.

Çıraq kimi alışan
Sapsarı bir almaya
Qapqara bir xal düşür.
Birdən-birə düşmür o,
Yavaşca, ehmal düşür.

Gur payız yağışları
Yağır, bir an kəsilmir;
Almanı salır yerə,
Ancaq qara xalını
Yuyub apara bilmir.

Ağlayırsan, görürəm,
Ancaq əbəsdir, əbəs.
Sənin o göz yaşların
Sonsuz günahlarını
Yuyub apara bilməz,
Yuyub apara bilməz.

Səhər də bağlamaya
Toxunmadı o yenə.
Gözətçinin verdiyi
Bir parçacıq çörəyi
Alıb çəkdi dişinə.

- Qardaş, yeyə bilmirəm
Bunu sən apar - deyə,
Bağlamanı götürüb
O verdi gözətçiyə.
- Sağ ol! - deyə gözətçi
Bağlamanı götürdü.

- Sağ oluna, sən sağ ol, -
Deyə sinə dolusu
O, köksünü ötürdü.
“Necə də gülməlidir,
“Sağ ol” hara, mən hara?
“Sağ ol” heç yaraşarmı
Ölümə məhkumlara?

Mən necə sağ olum ki,
Ölüm öz kölgəsini
Üstümə salmış artıq.
Mən bədbəxtin sağlığı
Dünəndə qalmış artıq”.

Ötən xoşbəxt günləri
Fikrinin aynasından
Bir-bir ötüşdü onun
Evində keçirdiyi,
Yüz məclisdən bircəsi
Yadına düşdü onun:

...Oğlunun ad günüydü,
Yığılmışdı dost-tanış.
Məşhur xanəndələri
O, məclisə çağırmış.

Klarnet bir tərəfdə,
Tar-kaman bir tərəfdə.
Bütün dostlar-tanışlar
Bu gün bir özgə kefdə.

Dostlar içir, keflənir,
Yeyir, içir şadlanır.
Sağlığına deyilən,
Qanadlı sözlərlə bir
Fikrət də qanadlanır.
“Gözəl insan”, “gözəl dost”,
“Arxamız”, “qardaşımız” -
Ayaqların biləni,
Bilmir bizim başımız”.

- Bir atam sənə qurban,
Beş balam sənə qurban,
Sənin bircə himinlə
Keçərik canımızdan.

- Elə demə, mən ölŕm,
- Sən ölüncə, biz ölək.
- Sizsiz mən nə karəyəm?
Bir sevinək, bir gülək.

Qanad açır yalanlar,
Həddi-hüdudu aşır.
Sözlər, utandığından
Ağızlarda ilişib,
Dodaqlarda dolaşır.

Arağın atəşindən
Qızışıbdır gözləri.
Sözləri utansa da,
Utanmayır özləri.

Bir nəfərsə... əyləşib
Lap aşağı tərəfdə,
Nə danışır, nə dinir.
“Natiqlər”in yerinə
O utanır, ərinir.

O, nə isə düşünür
Dikib yerə başını,
Seyr eləyir gözucu
Fikrəti - qardaşını.

Fikrət öz aləmində,
Fikrət öz kefindədir.
O bilmək istəmir ki,
Qardaşının üzünü
Saran bulud, çən nədir?

Sərxoşlarsa lağ edir,
Sataşır ona hərdən:
- Müəllim heç danışmır,
Elə susub səhərdən.
- Müəllim bir tost desin,
Bəzəsin bu məclisi.
Qoy dağıtsın üzündən
O dumanı, o sisi.
- Əşşi, nə olub sənə?
Bir danışıb gülsənə!
Cavab vermir müəllim,
Susur, danışmır yenə;
Ayıq gözlə o baxır
Sərxoşların qəlbinə.

Məclis dağılan kimi
Bəxşişlər, hədiyyələr
Ortalığa tökülür;
Daş-qaşların içində
Fikrət gülür, ev gülür.

Biri saat gətirib,
Biri İran xalçası,
Biri daş-qaşlı qolbağ,
Pay-pürüşlər içində
Bir kitab da var ancaq.

Oxudu: "Tufanlara
Tapşırılmış bir ürək".
Qanı qaraldı bütün:
- Buyur, payına bir bax,
Sən bu lüt oğlu lütün...
Bu da əmi payıdır,
Namərdin bəxşişilə
Yüz kasa dolmaz, oğlum.
Onun qanacağı da
Bundan çox olmaz, oğlum.

Uşaq bir söz demədi,
Ancaq bu sözlərdəsə
Bir haqsızlıq duydu o;
Tez kitabı götürüb
Çantasına qoydu o.
Üç gün keçdi...
Bir axşam
Əmi gəldi onlara.

İçəridə qəzəb, kin,
Üzdə salam, ehtiram...

Dedi: - Gizli sözüm var
Mənim səninlə, qardaş;
Mən ki, səndən böyüyəm,
Gəl, məni dinlə, qardaş!

Gəl, haramdan əl götür,
Gəl, düz işlə, düz dolan.
Heç vaxt əyilə bilməz
Bu dünyada düz olan...

İndi, indi Fikrətin
Bunlar düşür yadına.
Ancaq... bilir ki, gecdir,
Qardaşı da bu yerdə
Çatammaz imdadına.

- Demə, sən haqlısanmış,
Haqlısanmış, a qardaş;
Verdiyin öyüdləri
Anlayaydım onda, kaş!

Çox dedin,
  Az eşitdim.
Mən özüməm düşmənim.
Onda elə bilirdim
Yaxşı güzəranıma
Həsəd çəkirsən mənim.

O vaxt mən başıdaşlı
Səni qovdum evimdən,
Bizdən o gedən oldun.
Yenə bu məqamımda
Mənə yanan sən oldun.

Hanı, bəs harda qaldı
Canbir araq dostlarım.
Bütün cinayətlərə
Mənlə ortaq dostlarım?

Niyə o vaxt biri də
Mənim sözümü kəsib,
Üzümə ağ olmadı?
Pula ortaq olanlar,
Bəs aldığım cəzaya
Niyə ortaq olmadı?

Bölüb-bölüşdürməyə
Həmişə tələsdilər.
Pul sayan əllərini
Niyə məndən kəsdilər?
Fikrət indi anlayır
Qardaşı düz deyirmiş...
Ruzbehin kitabıyla
Nə demək istəyirmiş...

Məhkəmə iclasında
Ruzbehin son nitqini
Mən o zaman oxudum.
Oxudum udum-udum.

Ancaq indiki qədər
Dərk etmədim onu mən.
Heç həzz ala bilərmi,
Dedim, insan ölümdən?

Ömrünü bilə-bilə
Necə verdi o yelə?!
Anlamadan, duymadan
Yaşayıb elə ömrü, -
Demə, mən verirəmmiş
O zaman yelə ömrü...

“Ruzbeh! Səndən bəxtəvər
Varmıdır yer üzündə? -
Mənimtək alçalmadın,
Sən göylərə ucaldın
Müttəhim kürsüsündə...

Sözlərə bax!..
  Nitqə bax!..
    Ürəyə bax,
      Eşqə bax!..
Ucaltdın əməlinlə;
Alçaqların durduğu
Alçaq kürsünü belə!

Sən də ölümə getdin,
Mən də gedirəm...
Ancaq,
Sən nədən ötrü getdin,
Mən nədən ötrü?..

Ax, ax!
Bu ahlar, bu nalələr
Əməlimin töhfəsi.

Onun nitqi, üsyanı
Ədalətin gur səsi.
O, dünyanın əşrəfi,
Mən dünyanın ləkəsi...

Mən də adamam,
o da.
O da yaşadı, mən də,
Mən yaşarkən ölüyəm,
O yaşar öləndə də..."
Ah!... Etiraf! Etiraf!

Etiraf başlananda,
Könlüm göyə ucalır;
Bütün yamanlıqların
Üstünə kölgə salır.
Günah çıxır yadımdan,
Etiraf nəğməsindən
Qəlbimdə xallar qalır.

Ay bədbəxt, yazıq insan,
Mən dözə bilməsəm də
Amanına, ahına,
Neyləyək ki, keçmişin
Zamin dura bilməyir
Sənin yox sabahına.

Elə bunun üçün də
Gələcəyin yox sənin.
Günahın etirafdan
Ağırdır çox-çox sənin.
Bu gününə keçmişin,
Gör, necə kölgə salmış.
Dünənin sabahına
Özünü borclu qalmış.

Ruzbehsə... dünənində
Bu gününü yaşadı,
Hey andı sabahını
Dünənini beh verib,
Qazandı sabahını.

İki ölüm! İki son!
Buna şer dililə
Gərək məna verəm mən;
Ruzbehdən danışmamış,
Fikrətin taleyini
Bitirə bilmərəm mən:

**MƏRD ÖLÜM**

Yox!
O qorxmur ölümdən,
O qorxmamış heç zaman.
Yox! O qorxmur ölümdən,
Qorxur yalnız qorxudan.

O qorxur ki, ölümün
Önündə qorxa bilər,
O sınar, o əyilər...
Yox!..
O, ölüm istəyir -
İstəyir azad olsun
Çəkdiyi ağrılardan,
  qəmdən,
zülümdən bu gün.
Həyatda nə tapdı ki,
Qorxsun ölümdən bu gün?!
Yox!..
O qorxmur ölümdən,
Axı, o, gözəl bilir,
Ölüm nə, həyat nədir.
O ki öz məsləkilə
Həyatın fövqündədir.

O, bu odun içinə
Atıldı birdən-birə,
Düşünüb-daşınmadı.
Dost-düşmənin yanında
Məsləkini danmadı.
Yüz ölçüb bir biçmədi,
O çaxdı ildırımtək.
Hələ çaxmazdan əvvəl
İldırıma, şimşəyə
Yaraşarmı düşünmək?
Fikirləşmir heç zaman,
Əqidəsi yolunda

Öz canından keçən də
(Mən kişilik görmədim
Yüz ölçüb bir biçəndə)
İldırımdır...
Dağların
Zirvəsində çaxır o.
Həyata da ucadan,
Həm də... öz işığında
  baxır o...
Onun səsi... nərəsi -
Göyün gurultusunu,
Əməli - yanıb sönən
Şimşəkləri andırır.
O, göylərdə gurlayıb,
Yeri işıqlandırır.

Arzusunun gözüylə
Baxanda, bu dünyanı
O, özünə yad görür.
Əməlinin gözüylə
Baxanda, o, həyatda
Təzə bir həyat görür.

O həyatın naminə
Bu həyatdan keçənlər
Həyatına "uf" deməz,
Arzusunu puç edən
Bir həyatın içində
O, yaşamaq istəməz.
Ruzbeh! Sənin həyatın

Ölümünə bac oldu.
Şərafətli ölümün
Həyatına tac oldu.
Sən “işıq-işıq” - deyə
Bağırdın, səsə düşdün.
Vətəninə, elinə
Sən azadlıq istədin -
Özün məhbəsə düşdün.
Xalqın səadətiyçin
Keçdin səadətindən.
Günahkar olduğunu
Hələ də bilmədin sən.
Sən sevdin tarixini,
Sən sevdin əcdadını, olarmı?
Sən sevdin şərəfini,
Namusunu, adını, olarmı?
Sən sevdin öz obanı,
Ulusunu, elini, olarmı?
Sən sevdin öz ananı,
Öz nəğməni, dilini, olarmı?
Sən istədin fikirlə,
Başla dil əlbir ola, olarmı?
Sən açar axtarırdın
Dillərdəki qıfıla, olarmı?
Sən yoxsula ac dedin,
Sən varlıya tox dedin, olarmı?
Sən yaya isti dedin,
Sən qışa soyuq dedin, olarmı?
Elə bunun üçün də,
Müttəhim kürsüsünə

Əyləşmisən
Bu gün sən!
Haqqı bayraq elədin,
Tutdun başın üstündə
Daim bu bayrağı sən.

Haqqı sevmək haqqını
Kimdən aldın, axı, sən?
Milyonların səsi var
Sənin o gur səsində.
Sən ittiham edirsən
Müttəhim kürsüsündə.

Sənin hər cümlən, sözün
Zülmü, mütləqiyyəti
İttiham kürsüsündə
Əyləşdirir, bax, bu gün!..

Sənin bu cəsarətin,
Tarixini bir daha
Yer üzünə tanıdır.
Nitqin başdan-ayağa
Arzular nəğməsidir,
Azadlıq dastanıdır.

Sənin nitqin bir dəniz,
Hər cümlən, azadlığın
Bir dəli dalğasıdır.
Hər sorğun, hər sualın
Zülmün boynuna keçən

Bir zəncir halqasıdır.
Yekun vurub sözünə,
Axırda dönə-dönə;
Ruzbeh ölüm istədi
Məhkəmədən özünə.
O, edam kəndirini
Özü saldı boynuna:
- Bu nə deməkdir? - deyə
Sual verdilər ona,
Dedi: - Arzularımca
Yaşaya bilmədim mən.
Barı öz ölümümlə
Bu dünyadan gedim mən.

Axund yanaşdı ona,
Dedi: "Peşmansan, deyən?!"
- Peşmanam - dedi, - peşman;
Vətənimə verməyə
Bir canım olduğumdan.

"Oğul, ölüm qabağı
Dua edib allaha,
Bəlkə təmizlənəsən.
- Təmiz yaşamışam mən.
- Dinə şəkkinmi vardır?
- Mənim ən böyük dinim,
Vətənüçün bəslədiyim
Müqəddəs arzulardır.

Siz məndə tükənməyən

Bir qüvvət görürsünüz.
Məndən qorxduğunuzçün,
Məni öldürürsünüz.

Siz çoxsunuz, mənsə
            tək
Min nəfər bir nəfəri
Öldürürsə...
            de görək,
Qalib kimdir? Çox,
            ya tək?
Öldü...
Dodaqlarında
Təbəssüm işarırdı.
Bu təbəssüm
            bu günn
Zülmətini yarırdı.
Qəhrəmanın ruhunu
Sabaha aparırdı.

Onun təbəssümündən
Dan yerinin ilk nuru
Süzülür,
Süzülürdü...
Bu gülüşlə o, yəqin.
Diriykən çoxdan ölmüş
Ölülərə gülürdü.

Qoy deyim bir-bir sənə:
Kimdir, kim bu ölülər?..

Gülür,
Ancaq özgənin
Gülüşüylə gülənlər.
Bilir.
Ancaq özgənin
Dediyini bilənlər!
Ruzbeh!
Sən öldünmü?
Yox!
Sən ölürkən doğuldun!
Bu şərəfli ölümdən
Əbədi həyat alıb,
Ölüykən, ölməz oldun!
Gələcəyə dikildi
Çünki hər zaman gözün.
Çox qapalı gözləri
Açdı yumulan gözün.
Sən gələcək günlərin,
Sabahın dan yerisən,
Sən diridən dirisən!
Sənin ölümün belə
Neçə-neçə dirinin
Əməlindən, işindən,
Çox iş gördü, a qardaş.
Bu şərəfli ölümdən
Dost da,
Düşmən özü də
Dərs götürdü, a qardaş!

Bu ölümlə ölməyə

Əqidə anasından
Doğulan oğul gərək,
Bu ölümə çatmağa
Şərəfli bir yol gərək.

Bəli!
Belə ölümün
Sükut ilə çığırıb,
"Həyat!" deyən səsi var.
Bəli!
Belə ölümə
Həyatın qibtəsi var.

Demə, amalsız ömür
Quru bir xəyal imiş;
Demə, yaşamaq deyil,
Onu duymaq, anlamaq
Ən böyük amal imiş!

## ŞƏRƏFSİZ AQİBƏT

O can atır zindanın
Dəmir barmaqlığından
Düşən işığa hər an.
"İşıq - həyat, azadlıq,
İşıq - sevinc, arzu-kam.

Niyə əlimdə ikən,

Mən sizi görməmişəm?
Gör necə də kormuşam,
Kor deyil, nankormuşam!

Mən elə bilmişəm ki,
Həyat bircə rəngdədir,
Keçəcək ruzgar belə.
Nə biləydim, həyatın
Qarası da var hələ.

Nə biləydim, oyaqkən
Yuxudayam, yuxuda,
Ancaq tale oyaqdır.
Məni güldürən həyat
Bir gün ağladacaqdır.
Nə biləydim, tamahım
Ağlımı da başımdan
Alıb aparmış mənim.
Qarşıda görəcəkli
Günlərim varmış mənim...
İndi, indi bilirəm
Həyat nədir, ölüm nə?
Ax!...
Yaşamaq haqqımı
Əgər qaytarsaydılar
Bu gün təzədən mənə,
Yaşardım...
Mən bilirəm
Necə yaşardım ancaq.
Nə fayda! Axar sular

Geri qayıtmayacaq...

İndi başa düşürəm:
Niyə o vaxt mən elmin
Arxasınca getmədim.
Böyük şəxsiyyətlərin
Amalını öyrənib,
Qəlbimi incitmədim.
Bu dünyanın dərdini,
Dedim, qoy çəksin onlar.
Mən ki, kiçik adamam,
Onlardan mənə nə var.

Haqqı özündə tapıb,
"Mənəm allah!" söyləyən,
Paklığa "allah" deyən,
Nəsimini, Mənsuru,
Mən dərk edə bilmədim;
Dünya nemətlərinə
"Haqq dedim", "allah" dedim!

Bəs Mənsur? Bəs Nəsimi?
Dünya nemətlərinə
Onlar məhəl qoymayıb,
Dünyadan kam aldılar.
Gözəl əməlləriylə
Bu aləmin, həyatın
Fövqünə ucaldılar.

Onunçün də qorxmadı

Onlar ölümdən belə.
Ölümdən ucaydılar
Onlar könül saflığı,
Vicdan gözəlliyilə!..
Anlamadım dünyanı,
Ömrüm bir vəhşət oldu.
Ölüm mənə bir ləkə,
Onlara zinət oldu.
Bu neçə gündə mənə,
Yüz yerdən göz bərəldən
Ölümə borcluyam mən.

Ölümün qarşısında
Həyatı düşünməyən
Kim oldu?
Bu zindanda mənimçün
Ölüm müəllim oldu.
Bir gündə min-min kərə
Ölüm əl etdi mənə,
Həyatın hikmətini
Ölüm öyrətdi mənə.
Ölüm ilə həyatın
Əzəli vəhdətini
Mən bu zindanda bildim,
Ölümün kandarında
Haqqı tapıb dirildim".
İnsan qalxır həyatın
Ən uca zirvəsinə -
Kandarında ölümün.
Bu dağdan, bu zirvədən

O, hər iki  tərəfi
Aydın görür büsbütün.

Bir tərəfi ölümdür,
Bir tərəfi həyatdır
Bu dağın, bu zirvənin.
Zirvədə zirvə kimi
İtiləşir, incəlir
Hissin, duyğun da sənin.

Sən zirvədə dayanıb
Baxırsan o tərəfə,
Baxırsan bu tərəfə.
Həyat ilə ölümü
Sən yanaşı görürsən,
Yan-yanaşı, ilk dəfə!..

Anlaşılmaz görünür
Gözlərinə zirvə də.
Sən həyatı ilk dəfə
Lap yaxından görürsən,
Ölüm sənə özünü
Göstərdiyi zirvədə.

Zindanın qapısını
Açdılar səhər-səhər
"Vaxtın bitib" dedilər.
Dik atıldı yerindən,
Od çıxdı gözlərindən.
"İniltilər hədərmiş,

Mənimki bu qədərmiş" -
Deyə, - çıxdı qapıdan,
Ancaq...
Dayandı bir an.
Çevrildi birdən-birə
Baxdı soyuq kamerə.
Ölümün kandarında,
İnan yenə qanrılıb
Baxır həyat tərəfə.
Nə qədər çətin, ağır,
Əzablı olsa belə,
Gözəlləşir bu həyat
Olduğundan min dəfə.
- Kaş, bir gün də qalaydım
Burda...
deyə dindi o.
Xoşbəxtlik sandı bir vaxt
Soyuq məzar sandığı
Kameranı indi o.
Mən onun ölümünü
Yazmadım!
Yalan dedim!
Düzü, yaza bilmədim.
Bacarmadım,
acıdım
Onun cavan yaşına
Dedim, yazıq tez öldü.
Rəzalətlə yaşadı,
Öləndə təmiz öldü...

## EPİLOQ

Ölüm - dəhşətdir!
Ancaq,
Şərəfli ölüm qədər
Səadət yox dünyada.

Biz hər ölümdən deyil,
Biz şərəfsiz ölümdən
Çox qorxuruq dünyada.
Həyat başdan-ayağa
Ölümlərlə doludur.
Ölüm qorxulu deyil,
Yaşamamaq ölümdən
Min kərə qorxuludur.

Adam var, bircə günlük
Ömrüyçün milyonların
Ölümünə qol çəkər,
Adam var, bir nəfərin
Bir günlük ömrü üçün
Sinəsindən yol keçər.

O da adamdır, bu da,
O da öləcək, bu da.
Bir yaxşı bax buluda,
Onda od da var, su da...

Ölüm - ömrün nöqtəsi!
Sən həyatda həyatın
Mənasına var, ancaq.
Ölümün qiymətini
Həyatda axtar ancaq!

Həyat ölümə deyil,
Qoy ölümün özü də
Həyata şöhrət olsun.
Nola... belə bir ölüm
Mənə də qismət olsun!

*1964-1965*

# UÇUN, NƏĞMƏLƏRİM

(Faşist zindanında öldürülmüş qəhrəman
tatar şairi Musa Cəlilin xatirəsinə)

*Füzuli, dəhrdən kam almaq olmaz*
*olmadan giryan.*
*Sədəf su almayınca*
*əbri insandan göhər verməz.*
**Füzuli**

Önümdə "Moabit dəftəri",
Zindanda böyüyən şairin
Əzablı günləri.
Hər günü - bir şer, bir inci,
Ürəyin əzabı -
İlhamın gülüşü, sevinci...
Hər şer - əbədi həyata bir qədəm,
Kitabın sonunda
Bu mərhum şairin
Ölümü öldürən
Qəlbini görürəm...
İpəkdən zərifdi o ürək.
Əzaba dözərək
Əzabdan güc aldı.
Əzildi,
Bərkidi,
böyüdü,
ucaldı...

Əzablar
    ürəkdə min arzu bəsləmiş,
        ilhamı səsləmiş,
            çağırmış,
Əzablı günlərin çəkisi,
Bəxtəvər illərin
Yüzündən ağırmış!..
Kitabı qapayıb
Siqarı siqara caladım,
O qəlbin oduna
Qəlbimi qaladım:

**1**

Əyləşib rahatca mənzilimizdə
        Yazırıq biz də...
Bəzən həftələrlə dinməyir ürək,
„Güvənir dünənki əməllərinə.
Dalğasız ötüşən günlərimiztək
Şerimiz bənzəyir biri-birinə.
Beləcə ötüşür qayğısız həyat
Mənzilimiz rahat,
Qəlbimiz rahat.
Əsən küləklərdən xəbərimiz yox,
Ev isti,
can isti, qəlbimiz soyuq.
Yazmaq xatirinə yazırıq çox vaxt.
Deyirik, qayğısız bu çağlar bizim...
Sinəmiz masaya dirənir, ancaq
Durur üzümüzə varaqlar bizim.
Qələm sətirbaşı ilişib qalır,

Doğulan anda da "şer" qocalır,
Nə ağlı tərpədir, nə künülləri.
Zor ilə, güc ilə yaranan şeri
Qışqıra-qışqıra oxusaq da biz,
Çatmır bir qulağa sətirlərimiz.
Zindanın üstündə dəmir əzilməz
Alışıb ocaqda o qovrulmasa.
Şeri bir ürəyi isidə bilməz
Şairin ürəyi köz-köz olmasa.
Lampa işığında yaranmır,
xeyr,
Qəlbin işığında yaranır şer.
Yaratmaq eşqinə yaşayan oğlan,
Demə, yaratmağa qəsr gərəkdir,
Ürək dolu olsa, dayanmaz bir an
Zindana salsan da dillənəcəkdir.
Doldur ürəyini dolmuş göy təkin,
Sükansız gəmidir məsləksiz insan.
Müqəddəs əqidən, böyük məsləkin
Keçirər ömrünü fırtınalardan.
Ağlayan ağladar,
Yaxılan, yaxar.
Yerdən soruşurmu gün doğulanda?
Daşın dibindən də göyərib çıxar
Çiçəyin toxumu dolu olanda...

Ürək göylər kimi dolubsa, nə qəm
Yayda da,
Qışda da
boşalacaqdır.
Boş isə əlinə götürmə qələm,

Varaqlar qəlbintək boş qalacaqdır.
Dol ki, boşalasan!
Belədir, bəli!
„üz yaşı yaranır qəlb atəşindən.
Dünyanın ən gözəl söz inciləri
Qaranlıq zindanda yaranır, bəzən!

**2**

Əsir düşdüsə də, namusu, arı
Cəlil itirmədi darda, çətində.
Qul oldu azadlıq nəğməkarla-
Hötenın, heynenin məmləkətində...
Ölüm cəzasına məhkum etdilər,
Ölümü öldürən ölməz insanı.
Zindanda özüylə birgə sərasər
O tutub saxladı vaxtı, zamanı.
O qanlı, qadalı illərdən qabaq
Yazdı... seçilmədi başqalarından,
Cəllad baltasının altında ancaq
Yazdığı zamana oxudu meydan.
Dünəndən boylandı bu günə şair,
Ucaldı zamanın füvqünə şair,

Eşitdi şerini
„Gündə min kərə
Dostların atdığı top səsində o,
Anların ömrünü verdi illərə
Yazdığı hər təzə nəğməsində o.
Deyirlər, düşünüb öz həyatını
Ölüm qarşısında qəhərlənmədi.

„Özlərkən zindanda son saatını
Bircə yol qəmlənib kədərlənmədi.
O, yaxşı bilirdi, onun gur səsi
haqqın səsiydi.
Zindanda yazdığı hər bir nəğməsi
Ölümə vurduğu bir zərbəsiydi.
Dedi: - Səadətim azadlığımdır,
„Cedəri həyatdan demə çox mənə.
Azadlıq əlimdən alınıb...
Demək
Varlıqla yoxluğun fərqi yox mənə.
Ona vəd etdiər azadlıq, xoş gün,
Dedi: - İstəmirəm,
Dedilər: - Düşün!
- Mənə əl çalmasın, - dedi, - düşmənim,
Şərəflə ölməyim səadətimdir.
Bəxşiş alacağım azadlıq mənim
Səadətim deyil, əsarətimdir.
On iki silahdaş - on iki dustaq

**3**

Alışdı bir gündə, söndü bir gündə.
On iki silahdaş Vətəndən uzaq,
Yaşatdı Vətəni ürəklərində.
Sən bu dostlardakı birliyə bir bax,
Könüllər bir yolda, bir zamandadır.
Dostluq bərk ayaqda bərkiyər ancaq,
Ən böyük yoldaşlıq çətin yoldadır.
Toya getmək üçün vədələşsə də,
İki dost gedəmmir bir yerdə, bəzən.

On iki yoldaşsa ölümə getdi,
Bir yerdə, bir gündə vədələşmədən!

O yazdı zindanda bir ildən bəri,
Düşünüb sabahı dərindən-dərin.
Çöldə gözətçinin ayaq səsləri
Vəzni, ahəngidir onun şerinin.
"Məhbus öz-özünə nə danışır, nə?
Deyə, - gözətçi də hər gün deyindi.
......................................................
Cəlilin şerini oxuyur bəlkə
Həmən bu gözətçi hardasa indi...
Qan ilə yazılmış canlı sətirlər,
Onu ötənlərə aparır...
ancaq,
„Gözətçi bilmir ki, həmən şerlər,
Onun yanındaca yaranmış bir vaxt.

„Gözətçi əlində zağlı avtomat
Cəlili güdürdü, qaça bilməsin...
„Gözətçi bilmədi, çətindir, heyhat,
Fikrinə sədd çəkmək düşünən kəsin.
„Gözətçi bilmədi, cəhdi əbəsdir,
Burda keşik çəkir o, nahaq yerə.
Onun qoruduğu bir quru səsdir
Cəlil çoxdan qaçıb uzaq ellərə.
O, xilas olmağı heç düşünmədi,
"Şerim xilas olsun zindandan", - dedi.
- Üzümə gülərmi məgər taleyim?
Mən də yaşayaram, - əgər taleyim
Şerimə zindandan bir nicat versə...

Mən də öləcəyəm, şerim ölərsə...
Uçun, nəğmələrim, tez atlanın siz,
Yeldən qanad taxıb qanadlanın siz.
„Gəzin ana yurdu, gəzin Vətəni.
Uçun, nəğmələrim, yaşadın məni!
Üstümə gülməsin çox da düşmənim,
Ax, sizin ömrünüz ömrümdür mənim!
Nəğmələr dolaşdı bütün dünyanı,
Nəğmələr düşmənin bağrını dəldi.
Nəğmələr göylərin ulduz karvanı
Qatara düzüldü, Vətənə gəldi.

Cəlil, qarşıdakı min səhər kimi
Doğulur bizimçün hər təzə gündə.
Döyüşə yollandı bir əsgər kimi,
Düyüşdən qayıtdı nəğmələrində.
Öldü...
Ölümüylə qoca dünyaya
Əlvida demədi,
                O, salam, - dedi.
- Dönərəm ulduza, dönərəm aya
Dönərəm yurduma hər axşam, - dedi.

*Fevral 1966*

# QƏM İÇİNDƏ SEVİNC

**1**

Atam çay içirdi,
O, birdən-birə
Qopub kürsüdən, yıxıldı yerə.
Pəncərələri, qapını açdım.
Tez qonşu həkimin üstünə qaçdım.
Həkim çeşməyini gözünə taxdı,
Səbirlə, diqqətlə atama baxdı.
Başını yellətdi,
“Ümid yox!” dedi.
“Ümid yox!” - O, bunu nə soyuq dedi?..
- Ay həkim, dolanım, dönüm başına,
Axı, birdən-birə nə oldu buna?
- Beyninə qan sızıb, sağalmaz, - dedi,
Bəlkə sabaha da heç qalmaz, - dedi.

O getdi.
Başıma uçuldu dünya, -
Bir anın içində heç oldu dünya.

Gözümün önündə atam ölürdü,
Ona dar gəlirdi sanki çarpayı.
Atam bu dünyada, axı, nə gördü
Qayğıdan savayı, qəmdən savayı?
Ömrünü, gününü o, mənə verdi,
Mənimçün yaşadı,

Çatdı son nəfəs.
Atam ağac əkdi, meyvə yetirdi,
Barından yeməmiş hara gedir bəs?

Çəkdiyi əzablar, qəmlər yandırıb
Zərrəcə gəlməzdi onun eyninə.
Məni həyat üçün qanadlandırıb
Ölüm qanadını taxdı çiyninə.

Əzabla, zülümlə can verir ata,
Boğuq xırıltılar kəsir səsini.
Oğulsa əlacsız, əli qoynunda,
„Gözləyir atanın son nəfəsini...

Aya, ulduzlara yerdən tor atan,
İnsan beynindəki təzada bir bax.
Ona bircə damcı qan sızan zaman
Cansız daşa dönüb heç olur ancaq.

„Göylərin sirrini dərk edir, yenə
İdrakı önündə bir an əyilmir.
Bu boyda kainat sığışan beynə
Niyə bircə qətrə qan sığa bilmir?

Zərrədən göylərə pəncərə açdıq.
Yeri öyrənməmiş göylərə qaçdıq.
İnsan, zəkasıyla ucaldı ilkin.
Bildikcə biliyə az dedik ancaq.
„Göyləri dərk edən bir parça beynin
Özünü dərk edə bilmədik ancaq.

Hansı düşüncədən, hansı qayğıdan
Beyninə sıçradı o bir damcı qan?
Dünyanın özündən ağır dərdini
Məgər çəkmək üçün doğulur insan?
Onun qan təzyiqi həddini aşdı,
Həmişə fikri də, hissi də gərgin.
Fələklə əlləşib çox davalaşdı
Təzyiqi altında min düşüncənin.

Daşa sıçrasaydı, o bir qətrə qan
Daşı yeyərdi...
Danışa bilsəydi, qoca dünyadan
Nələr danışardı, nələr deyərdi.
Birdən keçən ili xatırladım mən,
Onda da yıxıldı atam qəflətən.
"Təcili yardım"dan həkimlər gəldi,
Məclis düzəldi.
"Oksigen balışı" verdilər ona.
Bilmirəm, bu tədbir qonşu həkimin

Bəs neçin gəlmədi, neçin ağlına?
Düz qonşu həkimin üstünə qaçdım.
Qapını açdım,
Yerimdə dondum.
Gəlməyimə də
Peşiman oldum.
Əyləşib oğluyla həkim üzbəüz
Səbrlə, təmkinlə şahmat oynayır.
Ölümlə oynayıb o, gecə-gündüz
Yoxsa, ölümü də bir oyun sayır?
Neçin özgəsinin dərdinə insan

Yad olur?
Bu qansız soyuqluq nədir?
O evdə bir nəfər köçür dünyadan,
Bu evdə bir külfət öz kefindədir...
„Özünü şahmatdan çəkməyib həkim,
Astaca dindi:
Hə, oğul, necədir?..
Yoxsa... keçindi?
- Yox, həkim, keçən il...
bəli... o zaman
“Oksigen balışı”...
- Oğul, onlardan...
Keçib atanınkı... qurtarıb daha,
Çıxmaz sabaha.
Deyə o, filini qabağa çəkdi.
Elə bil dünyanı tərpədəcəkdi...
Oğluna “Şah” - dedi,
Yaman tutuldum.
Oğlu mat olmadı, mən lap mat oldum.

Dedim ürəyimdə,
Nə qədər varam,
Mən bu insafsızı danışdırmaram”.
Atam can verirdi,
Atam ölürdü.
Çöldə yavaş-yavaş dan sökülürdü.
Üfüqdən boylanıb doğulanda gün,
Qaraldı, günəşi batdı bir ömrün...

**2**

Dəfn mərasimi...

Böyük izdiham.
Evdən qəbristana
Baş alıb gedir.
Toxtaya bilmirəm
Yox, bacarmıram,
Dolan gözlərimi
Yaş alıb gedir.

Mərhuma hörmətlə hamı birbəbir,
Onun tabutuna girmək istəyir.

Növbələr dəyişir,
                Dəyişirəm mən.
                Aparmalıyam
                Son mənziləcən.
Dostlar yaxınlaşır,
- Bəsdir yoruldun.
- Atam məni yormaz, mən yordum onu.
Həyatın cövrüylə doyurdum onu.
Düzü, dönməsəm də öz dediyimdən
Tabutun altında büzüşmüşəm mən.
Yumağa dönmüşəm.
Ağırmış atam.
Düzü, tövşüyürəm,
                Təngiyib nəfəs.
Onun tabutunu çəkə bilmirəm,
O mənim qayğımı necə çəkib bəs?
Sağımda, solumda gedən adamlar
Danışır astadan,
Eşidirəm mən.
Hərənin min sözü, min söhbəti var.

Çoxları matəmdə görüşür hərdən:

**Birinci söhbət**

- Bu həftə toyudur bizim oğlanın,
İndidən deyirəm, Əli, sən canın,
Toyun toybəyisi olasan gərək.
Bu axşam bizə gəl, məsləhətləşək.
- Yaxşı, qoy olsun
Təki, toy olsun.

**İkinci söhbət**

- Yenə deyinirdi dalınca Orxan,
Dil də verən çoxdur zalım oğluna.
- Eybi yox, eybi yox, gələr bir zaman
Mən də kimliyimi bildirrəm ona.

**Üçüncü söhbət**

- Salam!
Salam, qardaş! Şəhərdəsən sən?
Çoxdandır görmürəm.
- Vallahi, işdən
„Göz açmaq olmayır... Vaxt ötür belə,
Beş aydır getmirəm heç anamgilə.
Yada da düşməyir qohum, dost, tanış.
Səhər olmamış
Bir də görürsən ki, gün axşam oldu,
Ömür tamam oldu, vaxt tamam oldu.

## Dördüncü söhbət

- Təzə vəzifəniz mübarək, təbrik.
- Bala, nə mübarək, biz kiçilmişik.
Əvvəlki vəzifəm hara, bu hara?
-İndi yaxın olun siz adamlara.

## Beşinci söhbət

- Birtəhər dəyirsən gözümə çoxdan
Xəstə deyilsən ki?
- Xəstəyəm yaman.
Məni dildən salıb daha bu ürək
Müdafiəm qurtarsın, dincəlim gərək.
Çalışır, çarpışır lap son anda da -
Əl çəkmək istəmir heç kəs arzudan.
Birini torpağa aparanda da
Sabahkı döyüşü düşünür insan.
Məndə də, səndə də bu hərislik var,
Daimi vuruşda insan yüksəlir.
Hər gün eşitdiyim bu danışıqlar
Mənə bu məqamda qəribə gəlir.

„Gedir qəbristana, gedir izdiham,
Tabutun altında lap yorulmuşam.
Yolun sol əlinə baxınca birdən,
Dəydi gözlərimə sevgilim mənim.
Əvvəl inanmadım, inanmadım mən
Dolaşdı ayağım, əsdi bədənim.
„Gör nə halda görür məni sevgilim,
Yaxşı, neyləyim?

Yaman gülməlidir görkəmim indi.
Bəs dostlar, tanışlar hara gizləndi,
„Gəlib alaydılar tabutu məndən.
Biri də gözümə dəyməyir nədən?
Nahaq, çox nahaq,
Elə dediyimdən dönmədim bayaq.
Sağıma boylandım, soluma baxdım.
„Gözümə dəyənə yalvaracaqdım.
Qonşumuz həkimi gördüm sağımda,
Baxdım üzünə
Mən yazıq-yazıq.
Qəlbimi oxudu qaş-qabağımda.
„Girdi tabuta
Mənim yerimə.
Bir hava gəldi,
Təzə bir hava
Hisslərimə...
Dərindən-dərin
Bir nəfəs aldım
Əynimi, başımı sahmana saldım,
Şirin xəyalların girdim qoynuna
„Gözümün ucuyla baxırdım ona.

*Mart 1966*

# VAXT, SÜRƏT, FİKİR

***(Fikir haqqında fikirlər)***

**1**

Zərrələrin ən kiçiyi atomdur -
Parçaladı əsrimiz.
Çəkilərin ən kiçiyi qramdır
Parçaladıq onu biz,
Elədik para-para,
Ayırdıq misqallara.
Qədim zaman ölçüsünün
Ən kiçiyi andır, an! -
Daha kiçik ölçülərə
Bölünəcək nə zaman?
Raketlərin sürətindən
          Geri qaldıq yoxsa biz?
An - qocalıb,
An - köhnəlib.
"Anın ömrü uzundur"-
          Qışqırır sürətimiz.
İndi isə kosmonavtlar
Hava gəmilərində
Yüz-yüz illik yolu gedir
Anın yüzdə birində...

Saat qədər uzun gəlir
İndi artıq an bizə.
Bir vaxt ona biz deyərdik:
"Dayan!"
İndi əksinə.
An deyir:
"Dayan!" - bizə.
Biz dayana bilmərik,
Dayansaq,
Vaxtın özü
Əl çalıb gülər bizə.
Bir gərəksiz yük olmuşdur
Köhnə ölçülər bizə!
Bizə təzə ölçü gərək!
Sürətimiz dağıtdı
Qalıbları,
hədləri.
Bir saatda qoca ərzin başına
Dövrə vuran kosmonavtçın
Məgər varmı
Dövlət sərhədləri?..
Sürət - bütün hicranlara,
Sürət - bütün firqətlərə,
həsrətlərə
Son qoyacaq:
Bu haqdır!
Demə o gün uzaqdır!
Bizə - bütün ulduzları
Birləşdirən
İti sürət gərəkdir
Sürət - birlik deməkdir,

Sürət - vüsal deməkdir!

**2**

Bəşəriyyət ta qədimdən
Zaman-zaman,
Haray çəkib ayrılıqdan.
Nəğmə yazdı,
Şer yazdı,
Kitab yazdı yığın-yığın.
Bu nalələr, bu fəğanlar,
Yumşaltmadı
Fərmanını ayrılığın.
İnsan oğlu çıxdı yola
Yollar saldı
Bu oymaqdan - o oymağa.
Bu auldan - o aula.
İdrakımız
Çaylar üstə körpü saldı,
Çapar oldu,
„Gəmi oldu,
Qatar oldu,
Qanad açdı,
„Göyə uçdu,
Birləşdirdi
Şəhərləri, qitələri,
Birləşdirdi göyü, yeri.
Ancaq yenə,
Ayrılığın göz yaşını
Silmədi o.
Bir-birinə həsrət qalan ürəkləri

Birləşdirə bilmədi o.
„Gəlin, baxaq
Biz göylərin o alışan gözlərinə.
Ulduzlar da göstərməkçün
Özlərini bir-birinə -
Yanır,
Yanır.
Ayrılığın zülmətini
Yarmaq üçün işıqlanır.
Əsrin oğlu
Bu işıqdan ibrət aldı.
„Gecələrlə gündüzlərin arasına
Körpü saldı.
Aya dəydi arzuların od nəfəsi,
Boşluqlarda insan səsi
„Gurlar,
„Gurlar.
Kainatı birləşdirdi
Teleqraflar,
Telefonlar,
Televizorlar...

**3**

Vətənimdən çox uzaq,
Uzaq bir şəhərdəyəm.
Həsrətdən pəjmürdəyəm...
Uzanmışam yerimdə,
Vətənimi gəzirəm
Səyyar fikirlərimdə.

Telefonun səsinə
Dərhal qalxdım yerimdən.
Xəttin bir başında o,
Xəttin bir başında mən.
Danışdım sevgilimlə
Qürbətdə olduğumu
Mən unutdum bir anlıq.
Bu sürətin önündə
Nə uzaqlıq, yaxınlıq!..
Həsrətim an içində
Mənimlə bir otaqda
Dönüb üzbəüz oldu
Sürət - körpümüz oldu.
Otağıma qayıtdım,
“Saat neçədir, görən?”
Yox!
Ölçmək istəmirəm
Sevincimi indi mən.
Bunu bilirəm yəqin,
Bakı vaxtı bir saat
İrəlidir... Vaxtından
Mən olduğum şəhərin.
Ancaq... biz danışanda
Bizim üçn bir idi
Vaxt da özümüz kimi...
Mən anlaya bilmirəm,
Vaxt öz ölçülərilə
Kimi aldadır, kimi.
Bəli!
Biz danışanda
Vaxt bizə işləyirdi.

Düşünmürdük onu biz.
Zaman, məkan içində
Bəs niyə məhdud olsun
Fikrimiz düşüncəmiz?
Siz mənə sürət verin!
Sürətimin boyunca
Ucalım, ucalım mən.
Ulduzlar arasında
Anı körpü salım mən.
Siz mənə sürət verin,
Çıxım çərçivələrdən,
Siz mənə sürət verin,
Vaxtı
          doğulmamışkən
Ölən, əriyib gedən
Hissələrə bölüm mən!

**4**

„Göylər - geniş,
„Göylər - dərin.
Düzmü dedim?
Həddi var hər genişliyin!
„Göylərinsə bir həddi yox
Sərhəddi yox!
Uzaqdan da çox uzaqdır
          göylər bizə.
Bu sonsuzluq, bu dibsizlik
Necə sığır beynimizə?
Qatarlar, təyyarələr,
Yel qanadlı gəmilər

Bəs hardaydı yüz il əvvəl?
Xəyallarda, arzularda
                    Fikirdə!..
Arzu dedin, xəyal dedin,
Fikir dedin, ey qələm,
Sən dayanma bu yerdə!
Fikir, səndən yazarkən
Səndən geri qalıram.
Mən səndən yazanda da
Məndən qabaqdasan sən!
Mən olanı yazıram,
Olan durub yerində.
Ancaq elə bu anda da
Şimşək çaxır
Fikrin üfüqlərində.
Fikir qaçır,
                    Fikir ötür
Nələr yatır fikirdə.
O, zamanla yarışır
Zamanın özü kimi
Dayanmayır fikir də.
Fikirdə nələr,
                    nələr:
Zöhrədə gəzintilər,
Planetlər arasında
                    Uçuşlar,
Məchullarla vuruşlar,
Kainatın
Zaman, məkan vəhdəti,

*Heminquey.*

„Gəmilərin məsafəsiz sürəti,
Sel-suların
Aşağıdan yuxarı axarı...
Nələr, nələr...
Sabahkı möcüzələr...
Fikir,
Sən vaxtdan qoca
Sən həm də mən yaşdasan,
Arzu, duyğu ürəkdə,
Sən beyində, başdasan!
Ürək,
„Gecələr belə
Yatmayıb işləyirkən
Bilməsin yatmış səni.
Bizim ana təbiət
Ürəkdən də ucada -
Başda yaratmış səni...

*Aprel 1966, Yalta*

# TƏZADLAR
*(Poema)*

\

*Həkim dostum Cavanşir!*
*Bəşərin cismani ağrıları siz həkimlərin,*
*mənəvi ağrıları isə qələm sahiblərinin*
*ürəyindən keçir.*

**PROLOQ**

Dodağımda:
        "Beynəlmiləl" nəğməsi,
Qulağımda: hələ də
        Əzilən millətlərin
        Zəncir səsi,
        ah səsi...
Qarşımda:
        qoca Hemin*
        Dünyadan "Şikayəti".
        Başımda:
        Əsrimizin
        ağırlığı,
        siqləti...
Başımın üstündəsə:
        Allahlara kar olub,
        İnsanları eşidən,

İldırımdan od alıb
İnsanlığa bəxş edən,
Qartalın pəncəsində
Köksü qanlı Prometey.
(Nə üzündə əzab var,
Nə dilində bir giley).
Xəyalımda,
Əhrimənlə Hürmüzün
Əbədi mübarizəsi...
Bir də...
bu qayğılardan
Ayrılmaqçün,
Xəyyamın
Şərab dolu kuzəsi...
Düşünürəm...
Nə olsun,
Məndən dərin düşünmüş
Məndən ağıllı başlar.
Bir fayda verməmişdir
Düşüncələr,
qorxular,
həyəcanlar,
təlaşlar...
Dünya nemətlərindən
İlham düşdü payıma.
Yenə az-çox dünyanı
Dərindən
görmək üçün
İlham çatdı hayıma.
Bu ilham,
bu xəyalla

Dolandım
          səhər-axşam
Başına dünyamızın.
„Gördüm:
          Günün,
Zamanın
Əməlləri
          Yaraşmır
Yaşına dünyamızın.
Çox qocadır ərzimiz
Ancaq,
Başqadır bizim
Ərzimizə ərzimiz.
Tarixdən də qocadır,
Zamandan da qocadır,
Ancaq qocaman deyil,
Onu belə qocaldan
Vaxt deyil,
Zaman deyil.
Bir kainat əks olur
Bəzən bircə qətrədə.
Bir damlada,
          gilədə.
O, necə qocadır ki,
Dərk edə bilməmişdir
Öz-özünü
          hələ də.
Tələ quran dünyanın
Özü bu gün tələdə!..
İndi...
Sonsuzluqlara

Dikib
„Gözünü dünya.
Boşluqlarda axtarır
Bəlkə
özünü dünya?..
Radiolar bu gün verir
Bizə dünya xəbərləri -
Təzə dünya xəbərləri.
Açır bizim önümüzdə
kitab kimi
Qitələri,
Şəhərləri..
Yəqin sabah verəcəkdir
O, kainat xəbərləri:
Ulduzlardan danışacaq
Ora uçaq,
bura uçaq!
Ulduzların arasında çəkiləcək
Körpülərdən danışacaq.
Radiolar bu gün verir
Bizə dünya xəbərləri-
Təzə dünya xəbərləri:

***Birinci xəbər***

„Günün günorta çağı
Prezidenti vurdular.
R ü c u :

Qəzetləri

gümanla,
şübhəylə
doldurdular.
Ayaq açıb şübhələr
Adamların dalınca
İlan kimi süründü.
Amerika
Başdan-başa
Qara şübhəyə döndü.
Bürüdü
ştatları
şəhərləri
Həyəcan.
Cinayət axtaranlar.
Əsl canidən özgə
Şübhələndi hamıdan.
Yazdı hüquqşünaslar.
Hərə öz gümanıı
Yazdı,
bildi həqiqət.
Şübhə qaranlığında
İtirildi həqiqət.
Neçə dəfə,
Yalançı
Məhkəmələr quruldu.
Cani,
Yerlərin deyil,
Göylərin sirri oldu.
Aya,
Ulduza gedən
Sirli yollar tapıldı,

caniyə tapılmadı.
„Gördüm" deyən olmadı.
Oğul istər,
Bu sirrin
dənizinə baş vurub
qəvvas kimi üzəsi!
Bu da
əsrin,
zamanın
Bir özgə möcüzəsi!..
Uydurmanın,
Riyanın
Gah əskilən,
gah artan
Hüdudsuz arşınıyla
Həqiqət ölçülərmiş...
Bir nadanın əlində
Prezident də ölərmiş!..

**İkinci xəbər**

Yenə Çində "inqilab".
Bəli,
böyük bir ölkə
Düşübdür böyrü üstə.
Əqidələr cürbəcür,
Adamlar dəstə-dəstə.
Çıxıblar yollar üstə...

R ü c u :

Qəfləti qasırğadan
Sınmış şüşələr kimi,
Könüllər - çilik-çilik.
Mədəniyyət adına
Hərc-mərclik,
vəhşilik!..
Mao deyir “allaham,
„Gərək bu yer kürrəsi,
Mənim rəyimcə dönsün.
Mən nə düşünürəmsə,
Hamı elə düşünsün...”
Deyir, sənin yerinə,
Görürlər,
düşünürlər.
Yeddi yüz milyon cana
İki göz,
bir baş
yetər!..
Sən düşünüb
boş yerə,
Ağlına güc vermə, gəl!
Ən ağır yükdür ağıl.
Sən onu gəzdirmə, gəl.
Zamana bax,
Dərdə bax!
Ağır silahlar susub
Ağıllar döyüşəndə.
Yeddi yüz milyon ağlı
Bir ağıl salmaq istər
Bu gün,

qıfıla,
bəndə!..
Mümkünmü?
Yox!
Yaxşı bax!
Yaman yetişib zaman.
Döndərmək çox çətindir
Onu öz axarından.
Axar su kir götürmür.
Düşüncələr, ürəklər
Daha zəncir götürmür.
Mao,
Dünən sən özün,
İnqilab etmədinmi?
Azadlıq şüarıyla
Çini tərpətmədinmi?
Vətən sənin şəninə
Qoşduğu nəğmələrdə
Dedi: - Sən inqilabçın,
Azadlıqçın doğuldun,
Bəs bu gün azadlığa
Sən niyə qənim oldun?
Məni yaradıb
özün,
Mənim düşmənim oldun.
Nə qəribə zamandır
İnsan,
„Gül də verirmiş
Dünən daş atdığına.
Bir gün,
düşmən olurmuş

Özü yaratdığına!..

**Yazıçı Lao-Şenin son sözü**

- Yatdıq boz səhrada, quru yerdə biz,
İllərlə yaşadıq səngərlərdə biz
Bilmədik rahatlıq, dinclik bircə gün.
Vuruşduq,
Qan tökdük bu günlər üçün.
Xalqın cəsarəti,
kini,
nifrəti.
Od oldu,
Yel oldu,
Tüğyana gəldi.
Özümüz yaratdıq bu cəmiyyəti,
Bu gün özümüzə düşmən kəsildi.
Haqsızlıq önündə səf çəkib durduq,
Məgər bu günçünmü biz vuruşurduq?
Çətməyə saldılar eşqi, ilhamı,
Bir cürə düşünsün dedilər, hamı.

R ü c u :

Baxa da bilmirəm,
lap zəhləm gedir,
Mənim inkubator cücələrindən.
Hamısı bir rəngdə, bir biçimdədir
Seçə də bilmirsən biri-birindən.
Hamının əynində toxunma paltar,
Şişburun çəkmələr ayağımızda.

Ucalır yol boyu eyni binalar
Kibrit qutusutək sol-sağımızda...
Qəzet, kitabdan da gəlmişik cana,
Eynidir cümlə də, eynidir söz də.
Eyniyyət içində ürək bir yana,
Vallahı, yoruldu gözlərimiz də.
48
Fəlakət, bədbəxtlik, dərd ondadır ki,
Yaşadıq beləcə can güdə-güdə.
Fikri də,
          hissi də,
                    biz paltar kimi
Dükandan alırıq eyni ölçüdə.
Azadlıq naminə qan tökən də biz,
Bu gün azadlığa sədd çəkən də biz.
Belə yaşamaqdan axı nə məna?
Deyə tapançanı sıxdı alnına...

***Üçüncü xəbər***

## VYETNAMDA MÜHARİBƏ

R ü c u :

Vyetnam, bu əzmi sən hardan aldın?
Bu əzmə, qüdrətə heyrandır cahan,
Dünyaya səs salan bir əjdahanın
Önündə dağ kimi necə durmusan?
Pentaqon düşündü,
          Vuruşdan əvvəl

Yüz ölçdü, bir biçdi hər şeyi təkrar.
Sənin qüdrətini, sənin əzmini
Dəqiq maşınlarla hesabladılar.

Pentaqon düşündü düyüşdən qabaq:
On min neyləyəcək neçə yüz minə?
Maşın ömür kəsdi altı ay ancaq
Sənin iradənə, sənin əzminə.
Ağaar, maşına qəzəblənməyin,
Cansız rəqəmlərin nə günahı var;
Əzmi, iradəni özünüz deyin,
Necə hesablasın cansız maşınlar?

Maşın vara bilməz bu incəliyə,
Maşın zoru ölçər,
„Gücü hesablar.
Maşın nə bilsin ki, "mən haqqam" - deyə,
Coşan ürəklərdə nə boyda güc var...

Deməyin günahkar maşınlar oldu,
Artıq sizin üçün işləmir zaman.
Maşın nə bilsin ki, bir ürək odu
Min qat qorxuludur yüz-yüz bombadan.
Haqqını dərk edən özünü anlar,
Bunu məndən yaxşı Pentaqon bilir.
Haqqın gözlərilə güllə atanlar
Nə qüvvət tanıyır, nə qanun bilir.

Dananq cəngəlliyi,
„Gecə tən yarı...
Qoca bir qarı

Hərbi bazalara gedən yolları
Dolanır birbəbir, gəzir birbəbir.
Cızıb sinəsini xəritə çəkir...
Köksə köçürülür cığırlar, yollar.
(Burda yada düşür qədim nağıllar).
Özünü yetirir o, cəngəlliyə.
Mən də bu cığazı bacardım! - deyə
Bir xəritə kimi açır köksünü.
Qoca bir qarıda bu qədər belə,
Şücaət, iradə bəs hardan oldu?
Deyərdim, ən aciz adamlar belə
İnamın gücünə qəhrəman oldu.

Vyetnam təpədir, düşməniysə dağ.
Deməyin bu qüdrət ona bəs hardan?
İnamdır,
            inamdır,
                        inamdır ancaq.
Onu döyüşlərdən qalib çıxardan.

Vyetnam, qüvvət də, haq da səndədir,
Sənin bütün gücün əqidəndədir.
„Güclüsən min dəfə öz düşmənindən,
Çünki o haqsızdır, haqsan amma sən.
Korun duyğusu da ona göz olar,
Əgər eşqi varsa, inamı varsa.
„Gücsüzün bir gücü dönüb yüz olar
Özünə, haqqına o inanırsa.
Səhhətin qədrini yataqda bimar
                        qalandan soruş.
Azad yaşamağın qədrini ancaq,

zindanda dustaq
olandan soruş.

Azadlıq!
Azadlıq əldən getdimi,
Dünya da xəyala darısqal gələr.
İnsan azadlığı itirən kimi,
Bütün fəlakətlər dalbadal gələr.

„Gedər ağızlardan dad da, ləzzət də,
Ağıl da, ürək də gülər arzuya.
Azadlıq olmayan bir məmləkətdə
Həqiqət riyadır,ədalət boya!

İnsan ürəyində kin də, nifrət də
Əbədi köz bağlar, bir anlıq olmaz.
Azadlıq olmayan bir məmləkətdə
Adamlar yaşayar, insanlıq olmaz.

Düşünən beyinlər sönər zülmətdə -
Yalanla həqiqət üzbəüz olar.
Azadlıq olmayan bir məmləkətdə
Düz əyri adlanar, əyri düz olar.

İdrak da boğular, söz də, sənət də,
Ağıl kilidlənər dildə, dodaqda:
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzər, aqil ayaqda.
Bunları apaçıq sən bildiyindən,
Azadlıq yolunda döyüşə girdin.
Axı, azadlığın ləzzətini sən

Qədim tarixindən yaxşı bilirdin.

R ü c u :

Filin ayağına hələ körpəykən
Zəncirli, qıfıllı qandal vurdular.
Niyə?
Çünki filin gələcəyindən,
Ağır zərbəsindən çox qorxurdular.
Günlər aya döndü,
                    aylar il oldu.
Böyüdü,
                    bala fil, yekə fil oldu.
O, elə bildi ki, elə sandı ki,
Bəzəkdir, ziynətdir qandallar filə.
Fil elə bildi ki, elə qandı ki,
Dədə, babası da yaşamış belə.

Onu incitmədi bu dustaq halı,
"Yəqin ki, bu mənim haqqımdır" - dedi.
Fil öz ayağında gördü qandalı,
Məhbus olduğunu qana bilmədi...

Zərərsiz heyvandır gördülər bu fil,
Azad elədilər onu zəncirdən.
Ancaq... elə bil ki, o, heç fil deyil,
Bir addım atmadı durduğu yerdən.
"Yeri! Yeri!" - deyə vurdular onu.
Qalxmadı,
Qamçıya başını əydi.
Axı, azadlığın nə olduğunu

Fil hardan biləydi, fil nə biləydi.

Vyetnam, sökülür üfüqlərdə dan,
Sənə arxa durur solun, sağın da.
Həmişə sən azad yaşadığından,
Bilirsən qədrini azadlığın da.

İşığın qədrini sinəsi dağ-dağ,
„Gözləri sonradan tutulan bilər.
Azad yaşamağın qədrini ancaq
Həbsdə sinəsi köz olan bilər.

Baş açıq,
Əl yalın,
Ayaqlar yalın,
Amerika əsgəri qaçdı cəbhədən.
Dedi: - Vətənini qoruyanların
Qanını tökməkdə haqlıyammı mən?

Dedi: - Vyetnama gəldiyim ilk gün
Vicdanım təmizdi,
Alnım açıqdı.
Demə, aldadıblar bizi büsbütün,
Həqiqət burada qarşıma çıxdı.

Belə anlatmışdı zabitlərimiz:
Ədalət, azadlıq əsgəriyik biz.
Qədim Vyetnama gedirik bu gün
Onların haqqını qorumaq üçün.

Kimdən?

Çox düşündüm bu sualı mən.
Sonra başa düşdüm:
Öz-özlərindən!..
Millət bir,
Vətən bir,
hava bir,
su bir.
Yol iki,
söz iki,
təriqət iki.
Qardaşı qardaşa düşmən edibdir
Bir ana torpağın iki məsləki,
Bir böyük məmləkət, qanammıram mən,
Saxta kağızlara necə büküldü?
Qara siyasəti Ağ evin, dünən
Bir xalqı, bir yurdu ikiyə böldü.

İnsan bəd ayaqda hər şeyi anlar,
Qılınc kəsə bilir bəzən qında da.
Mən burda ilk dəfə gördüm,
yalanlar
Olurmuş həqiqət paltarında da.
Ax, rəngli cümlələr, boyalı sözlər,
Abırlı
ismətli,
həyalı sözlər.
Mən görə bilmədim o zaman neçin,
Arxanızda duran o haqsızlığı?
Bircə mənası var dedim hər sözün
Mən seçə bilmədim qaradan ağı.
Mən indi bilirəm, bilirəm artıq

Nədir əsl həyat,
Əsl azadlıq!
Biz ağ yalanlara çox uymuşuq, çox,
Deməyin dərisi qalına vay, vay!

Deyin, həqiqətin paltarını yox,
Özünü görənin halına vay, vay!

Sözün bəzəyini, saxta zərini
Mən indi görürəm, təcrübəm ki, var.
Böyük cənabların dediklərini
Tərsinə çevirsən həqiqət olar.

Onlar "silahları ləğv edək!" - deyir
Onlar silahlanır gizlində ancaq.
Heç kəs bir-birinə könül verməyir.
Söz alıb söz verir hey qucaq-qucaq.

İnamlar naminə söz yığın-yığın,
Bağlanır birbəbir müqavilələr.
Deyirəm, əslində inamsızlığın
Ən böyük rəmzidir müqavilələr...
Cənablar "silahlar məhv olsun" deyə,
Bir-bir imza atır müqaviləyə.
Danışıb gülürlər lap şirin-şirin,
„Gülüşlər dalında işlər gizlənib.
Qalxıb görüşürlər...
bu görüşlərin
Dalında qıcanan dişlər gizlənib.
Ax, niyə, ax, niyə bunları bildim?
Mən diri ölüydüm,

bilib dirildim.
Bildim...
Ax, bu yükü götürmür ürək.
Bildim...
Nədən ötrü?
De, kimdən ötrü?
Əgər bilməsəydim...
başqalarıtək,
Mən də yaşayardım bir insan ömrü...

Yalana, böhtana biz çox uymuşuq,
Deməyin dərisi qalına vay, vay!
Deyin, həqiqətin paltarını yox,
Özünü görənin halına vay, vay!

Hər gün bir ölkədə qopur vəlvələ,
Zalimlər, zülümlər gəldi-gedərdir,
Bəşərin tarixi - qədimdən hələ
Azadlıq yolunda çəkişmələrdir.

Azadlıq alınar, yaddan umulmaz,
Azadlıq verilməz ərməğan təkin.
Verilən azadlıq azadlıq olmaz,
Başqa bir rəngidir o, əsarətin.
Şərəfdir ölmək də azadlıq üçün,
Bu məslək dəyməzmi bütün dinlərə?
Deyirəm, eşq olsun dünən və bu gün
Azadlıq yolunda can verənlərə!

Azadlıq - həyatın ən parlaq gözü,
Azadlıq - ən uca, ən şanlı bayraq.

Azadlıq arzusu, azadlıq sözü
Dünyanın ən böyük dinidir ancaq.

Azadlıq - cəsarət, azadlıq - hünər.
Azadlıq əsgəri heç əyilərmi?!
Bütün xalqlar üçün azadlıq qədər
Böyük bir səadət ola bilərmi?

Məzlumun yurdunda bostan əkibdir,
Zülmü öz içində qocaldan ölkə.
Bu gün azadlığa qılınc çəkibdir,
Azadlıq heykəli ucaldan ölkə.

Bəs o, necə danır axan qanları?
Bu saxta rənglərdən, de, nə götürdük?
Daim həqiqətdən dəm vuranları
Həmişə biz belə yalançı gördük.

Mən "hayıf" demərəm tutub əlini
Azadlıq yolunda axan qanlara.
Alqış! Azadlığın tunc heykəlini,
Qəlbində yaşadan mərd insanlara!

**Dördüncü xəbər**

Cənab Conson narahat,
Ledi Conson narahat -
Amerikada oğurluq,
Artır,
Artır

hər saat.

R ü c u :

Xırda oğurluqların
Törətdiyi cinayət,
Böyük oğurluqların
Dəhşətindən ağırmış...
Xanım Conson
            Ölkənin
Kübar xanımlarını
Məşvərətə çağırmış:
- Kimdir burda günahkar?
- Neyləmək?
- Bir-bir deyin,
Kimin nə təklifi var?
- Qaranlıqdır küçələr,
İşıqları çoxaltmaq!
- Bəlkə... valideynlər...
- Yox-yox! Nə danışısan
„Günahkar əsrimizdir,
Qızışıbdır beyinlər...
Söz verilir Ertaya -
Zənci müğənnisinə:
- „Gərək bütün ürəklər
Vicdan, insaf odunun
Atəşinə isinə.
Varmı bizdə bu vicdan?
- Erta, nə danışırsan?
- Mən nə danışdığımı

Bilirəm...
            qulaq asın.
Kim istər,
            öz ölkəsi
Yad əllərdə talansın?
Ölkəmizin içində
Oğurluğa dözməyib,
Qanunu bərkitmişik.
Ancaq yad ölkələrə
Oğurluğa getmişik!

**Beşinci xəbər**

Cənab Conson
            Görk üçün
Əmr edir qəzetlərə:
"- Bildirsinlər Ağ evin
Növbəti xəbərini:
Prezident çəkinmədən
Vyetnama göndərir
Öz qızının ərini"

R ü c u :

Tez yayır bu xəbəri
"Amerikanın səsi" də:
"Ədalətin naminə"
Vyetnamda döyüşr
Consonun yeznəsi də.

Yazdı başqa qəzetlər:
“Bu da prezidentin
Əzmidir,
Hünəridir...”
Ancaq... heç yazmadılar
Vyetnamda döyüşən
Consonun tək qızının
Səkkizinci əridir...

Çox da ata göndərir,
Bu gedər gəlməz yola
Razılaşdı nədən qız?
Doqquzuncu,
Onuncu
Ərlərə getməzmi bəs
Səkkizinə gedən qız?..

## EFİRDƏ DÖYÜŞ

Düyməni burursan,
Efirdə səslər...
Qarışıb dolaşır biri-birinə
Bir ölkə havadan hey axşam-səhər
Böhtanlar yağdırır özgələrinə.

Əvvəllər beləydi:
durub döş-döşə
Çıxardı düşmənlər açıq döyüşə...

Qılıncda parlardı qəzəb, ədavət,
Bu açıq döyüşdə sözə nə hacət?
Arxadan vurmazdı düşməni düşmən,
Həm ölən kişiydi, həm də öldürən...

Dəyişdi dünyanın köhnə əhvalı,
Artıq bu adətlər qocaldı, getdi;
Koroğlu demişkən: "Tüfəng çıxalı,
Mərdlik də dünyadan baş aldı getdi..."

Bu gün, bu əsrdə biz nahaq yerə
Vəhşilik demirik bu adətlərə.
Deyirik, məhv olsun ədavət gərək,
Qardaş olmalıdır bütn adamlar.
Böyük duyğularla yaşasın ürək,
Axı, qan tökməkdə nə yaxşılıq var?

Ancaq dərd odur ki,
                    ədavətin də
Özü məhv olmadı, sözü dəyişdi;
Xain ürəklərdə,
                    qəzəb də,
                              kin də,
Astarı saxladı üzü dəyişdi.
Qan tökmək qanunla yasaq olandan,
Qanları qaraltmaq dəb olub yaman!..

İnqilab elədik, zülmü devirdik,
Uymadıq zamanın min qəzasına.
Biz mərdü mərdanə döyüşə girdik,

Haqsızı çatdırdıq öz cəzasına.

- Bəs onda?..
Bilirəm, nə soracaqsan,
Nədir bu yaltaqlıq, ikiüzlülük?
Əfsus! Öz yoluyla gedirkən zaman,
On safı korlayır bəzən bir çürük...

Dəyişir sonunu hər şey, diqqət et
Dəyişir adətlər, qanun-qaydalar.
İndi ədavətin başında beret,
Üzündə təbəssüm, əlində gül var.

Baxırıq keçmişə indi uzaqdan,
Araya illərdən dağ endirmişik.
Kinin, ədavətin əyninə çoxdan
Mədəniyyət donu geyindirmişik.

Təhsillə, sənədlə sanırıq ki, biz
Çatmışıq ən ali mədəniyyətə.
Ancaq qıcqıranda əsəblərimiz,
Məhəbbət bir anda dönür nifrətə.
Qəzəbli anlarda
İnsan büsbütün
Dəyişir, alçalır,
(gözlərdən iraq...)
O, öz mənliyini böyütmək üçün
Dediyi "mən"lərlə kiçilir ancaq.
Arxada "filankəs alçaqdır" deyən,
"Alçağın" üzünə irişir indi.

Açıqca döyüşə girə bilməyən,
İmzasız məktuba girişir indi.

Yazır ki: "Oğrudur filan, filankəs",
Yazır ki: "Onların gözü tox deyil".
Hamıdan yayınıb gizli-gizli bəs
Özgəyə gor qazmaq oğurluq deyil?

Özgəyə xəlvəti quyu qazanda,
Söylə, öz-özündən utanmadınmı?
Öz dəsti-xəttində sən "K" yazanda
Kişilik sözündən utanmadınmı?

Qələm gələcəyə yol göstərəndir,
O ki, yaranmayıb böhtanlar üçün.
Qələm könüllərdən çiçək dərəndir,
Ona yaraşarmı gor qazmaq bu gün?

Düşün babaları:
Müdrik sözləri
Yurdun dövlətidir, elin varıdır.
Qobustan dağında qılınc izləri
Düşmənə imzalı məktublarıdır.

Düyməni burursan,
Efirdə səslər...
Qarışıb dolaşır biri-birinə;
Bir ölkə havadan hey axşam-səhər
Böhtanlar yağdırır özgələrinə.
Amerikanın səsi,

Bi-bi-si,
Pekin...
Dinməmiş bilirsən nə deyəcəkdir.
Dolub qulaqları bəşəriyyətin -
Axı, bu yalanlar kimə gərəkdir?

Biri digərinə "zülümkar" deyir,
Özü də bilir ki, yalan danışır.
Zalım öz gözündə tiri seçməyir,
Özgə gözündəki qıldan danışır.

Efirdə qarışıb səslər səslərə,
Yalanlar titrəyir,
Əsir havada.
Bir mətləb səslənir gündə min kərə,
Sözlər bir-birini kəsir havada.

Susun, ey bayquşlar, yazıqdır insan,
Sizdə bir azacıq insaf varmıdır?
Bu bəşər övladı eşq ucbatından
Dünyaya gəlməkdə günahkarmıdır?

İnsanın qayğısı, dərdi cürbəcür,
Ona aman vermir həyəcanları.
Onsuz da qəlbləri təlatümlüdür,
Qoyun qulaqları dincəlsin barı.
Efirdə dəhşətli bir çarpışma var,
Səslər bir-birindən qeylü-qal edir;
Yalan fabrikləri - teletayplar
Hər saat min yalan istehsal edir.

Ölkələr qışqırıb, deyir: “Mənəm, mən!”
Eşidə bilmirik “O da var!” - deyən.

Nigar Koroğludan sordu: - Heç səni
Bir yıxan olubmu, biləydim bunu?
Koroğlu dedi ki: “„izir Mustafa
Bu gün çaya basdı qoç Koroğlunu”.

Daladı qurd kimi bəşəriyyəti,
“Mən!”, “Mən!” - deyə-deyə Hitler də bir vaxt.
Özgə hesabına, o, bir milləti
Böyütmək istədi, kiçildi ancaq.
İndi silahları əvəz edib söz,
Boyunlar söz ilə düşür qarmağa.
Böhtanlar yağdırır Bonn, gecə-gündüz
Çalışır haqsızı haqlandırmağa.
Hakim masasında zor aldı qanun
İttiham eləyir vicdanı, arı,
Dünya təmtəraqlı səhnədir,
onun
Yalandır, böhtandır rejissorları.

Namərdlər ağzında haqq çilik-çilik
Doğranıb səpildi efirə yerdən...
Böhtanlar yurdunda mərdlik, kişilik;
Baxır adamlara abidələrdən...

## BEYİN AXINI

Amerikanın qızılı var,
Dolları var.
Bu dolların gücünə də
Uzaq, yaxın ölkələrə
„izli-gizli yolları var.
Ölkələri deyil yalnız
„Gözəl-gözəl duyğuları,
Dərin-dərin fikirləri,
Zəncirlərə sala bilən
„güclü-güclü qolları var.
Alır, satır o, hər şeyi -
Şirin-şirin diləkləri,
Beyinləri,
Ürəkləri...
O, suları bulandırır
Qızılların şəfəqilə.
O, gözləri qamaşdırır
Ağızları sulandırır.
Tələsinin qırmağına
Quyruq taxıb
Asiyanı dolandırır,
Afrikanı dolandırır...
Bəzək vurub
O, “azadlıq heykəlinə”.
İngilisin barmağını
Çoxdan kəsib,
Calaq edib öz əlinə.
Xırda-xırda ölkələrə
Layla çalır.
Siyasəti hamarlayıb,
Xəyalları tumarlayıb

Fikirləri tora salır...
Afrikadan,
Asiyadan,
Avropadan
Amerikaya ağıl axır, beyin axır.
Yüz-yüz axır,
Min-min axır...
Beyinləri xammal kimi daşıyırlar
Qalaq-qalaq.
Onu sataq,
Bunu alaq!..
Dili bağlı,
Qolu bağlı,
Köksü dağlı millətlərin,
Təkcə varı, sərvəti yox,
                    hissi,
                    fikri,
Düşüncəsi talan olur.
Həqiqətin doğru, düzgün tərcüməsi
Yalan olur.
Neçə-neçə ildən bəri
                    beyinləri
Bir dollara dəyməyənlər,
Alır, satır
Fikir dolu,
Əməl dolu,
İşıq dolu
beyinləri.
Söz qudurub haqqı danır,
“Həqiqəti” təmsil edən,
Qanun saplı baltalarla

Haqqın başı parçalanır.
Bu qanunlar layla çalır
Millətlərə bələyində,
Yalanların başı durur bir ölkədə,
Əlləriysə gəzir başqa bir ölkənin
ürəyində...
Millətlərə xeyirini, zərərini
O göstərir,
Qanun əkib,
Qızıl dərir.
Amerikaya beyin axır,
                    əməl axır,
                    işıq axır.
Bu əməllə, bu işığa
Afrikalı gendən baxır,
Asiyalı gendən baxır.

## ÜSYAN

*Amerikanın Vyetnamdakı müha-ribəsinə etiraz etdiyinə görə həkim B.Spok məhkəməyə verilmişdir.*

- Neçin axmalıdır uzaq diyarda
Amerika gəncinin günahsız qanı?
Bu qəsdli, qərəzli vuruşmalarda,
Sizdən soruşuram,
                    ədalət hanı?
Bayquş əməllidir əməlləriniz,

Buna biganədir qanun da, din də.
Neçin xoşbəxtliyi tapmalıyıq biz
Başqa ölkələrin bədbəxtliyində?

Neçin sahibini evdən qovlayaq,
Neçin şəhərlərə od ələyək biz?
Neçin ürəklərə dərd, ələm qoyaq,
Neçin yanaqlara yaş çiləyək biz?

Qorxub cəmiyyətin xəstəliyindən,
Artıq təbabətdən əl çəkirəm mən.
Tək-tək xəstələri sağaltmaq hələ
Deyil əlimizdə o qədər çətin.

Ey həkim dostlarım, verək əl-ələ
Dərdini düşünək bu cəmiyyətin.
Üzüldük,
        düşündük,
                bilmədik ancaq
Nədir dərmanımız, çaramız bizim.
Biz burda xəstəyik,
                bilmədik ancaq,
Vyetnamda açıldı yaramız bizim.
Bu sözlər üstündə tutdular onu,
Çəkdi məhkəməyə oğru doğrunu.
Dedilər: - Vətəndaş deyilmisən sən?
Bəs sənin qeyrətin, namusun hanı?
Bizi imdadına səslərkən Vətən,
Güldürdün Vətənə bütün cahanı.
Dedi: - Günahkarı məgər dünyamı?
Kəsir kökümüzü öz əllərimiz.

Billah, gülməlidir,
Vyetnamdamı
Vətən qeyrətini çəkməliyik biz?

Bəs onda... hər yerdə deyirik nədən,
Zülmün zəncirini çoxdan qırmışıq,
Biz ki, yurdumuzu dövri-qədimdən
Azadlıq ölkəsi adlandırmışıq.
- Azadlıq! Hər şeyin, axı, həddi var.
- Bizi məhv elədi hədlər, hüdudlar.
- Demək hüdudlara nöqtə qoyulsun?
Həkim, çox böyükmüş sənin niyyətin.
- Yarımçıq azadlıq qoy sənin olsun.
Bütövü gözəldir hər səadətin.
- Həkim, zamana bax, özünü danla,
„Görmüşük döşünə çox döyənləri.
Zaman özü udur vaxtla, zamanla
Fikrini kökləyə bilməyənləri.

- Həqiqət boyanın dalında yatır,
Utanmaz-utanmaz böhtan da atır,
Zamana boyalar, vaxta boyalar,
Min dilli boyalar, saxta boyalar,

Gün dedim günəşə, ay dedim aya,
Öyündüm xəyali gündüzlərimlə.
Baxmaq istəyirəm, axı, dünyaya
Mən öz gözlərimlə, öz gözlərimlə.
Bir eşqim, min arzum, min diləyim var,
Çalma min ürəyi tək bircə simlə.
Mənə ürək vermə, öz ürəyim var,

Duymaq istəyirəm öz ürəyimlə.

Qoy özünə qalsın bu səfsəfələr,
Mən seçə bilirəm düzü əyridən.
Mənə ağıl vermə, öz ağlım yetər,
Qanmaq istəyirəm öz ağlımla mən.

Vətəni hamıdan çox sevdiyindən
Vətənin düşməni - dedilər ona.
Həmişə... Zindana dönübdür Vətən
Vətənin ən böyük oğullarına.

Gəlin, varaqlayaq keçmiş illəri,
Düşünən başlara qılınc çaldılar.
Danteni,
        Puşkini,
                Feyxtvangeri,
Hadini Vətəndən qaçaq saldılar.
Haqqı bayraq edən,
                qədimdən bəri
Batıb iynə kimi gözünə əsrin.
Böyük ürəklərin böyük sözləri
Dəyib sillə kimi üzünə əsrin.

Böhtanlar atıldı, damğa vuruldu
Andı Vətən olan vətəndaşlara.
Bu nədən belədir?
Bir hakim oldu
Həmişə boş başlar dolu başlara.
Nədən qarşı qoydu “mənəm” deyənlər,
Cılız mənliyini yüz-yüz minlərə?

Bu nədən belədir
                    düşünməyənlər
Bir düşmən kəsildi düşünənlərə?..
Sual yerindədir.
                    Cavabı: Qorxu!
Boş başlar şübhəylə, qorxuyla dolu!

Zoru bu dünyada haqq sayanların
Ən böyük silahı iftira, böhtan.
Öz nahaq işini anlayanların
Həmişə üşümüş canı qorxudan.

Vuruşmuş, döyüşmüş onlar müttəsil,
Zülmü hədələyən haqqın səsiylə,
Zora güvənənlər, ağılla deyil,
Düşünmüş həmişə əzələsiylə.

Haqqa deyiniblər: - Deyəsən, sənin
Yemin bir balaca artıq olubdur.
Doğru danışanın, doğri deyənin
Papağı həmişə yırtıq olubdur.

Vətəni hamıdan çox sevdiyindən
Vətənin düşməni dedilər ona.
Vətən zindan olub dövrü-qədimdən
Vətənin ən böyük oğullarına.

**QARA – AĞ**

*Cərrah Kr. Bernard ikinci ürəkköçürmə əməliyyatını diş həkimi Blayberqin üzərində aparmışdır. Blayberq indi bir zəncinin ürəyi ilə yaşayır.*

İndi deyirsən ki, insandır hamı,
Bəs onda?..
Blayberq, de, yadındamı;
- Dişimi çək! - deyə sənə yalvaran,
Zəncini evindən qovdun o zaman.
Dedin:
- Çəkilməsə dişi zəncinin
„Günəşmi sönəcək, aymı batacaq?
Ayrıdır millətin, ayrıdır dinin,
Mənim pasientim ağlardır ancaq.
O sənə yalvardı,
Rədd elədin sən.
Dedin: - Zəhləm gedir dilənçilərdən.
O getdi...
Sübhədək çəkib əl-aman,
Gözünü qırpmadı diş ağrısından...

Ağlını itirir insan az qala
Zamanın dolaşıq keşməkeşində.
Ağrıyan zəncinin dişiymi?..
Əsla!
Zaman ağrıyırdı onun dişində.
Ancaq... heç bilmədin, heç bilmədin sən
Dünyada çox böyük bəlalar da var.
Çoxları azlara məhkum eyləyən
Zamanın da yaman oyunları var.

İllər düyün-düyün ötüşdü...
Bir gün,
Ürək ağrısından yatağa düşdün.
Sən onda umdun ki, yer üzündəki
Həkimlər tək səni düşünüb ansın.
Yalvardın hamıya əl açıb,
təki
Bir az da, bir az da ömrün uzansın.

Bir günlük ömürçün kim bilir, bəlkə
Sən qurban verərdin ciyərparanı.
Qarşına çıxartdı taleyin yenə
Qapından qovduğun həmən qaranı.

Qapından qovduğun həmən zəncinin
Ürəyi döyündü köksündə sənin...
Zəncinin əməyi,
Duzu, çörəyi,
Böyük duyğularla vuran ürəyi
Sizə gərəkmiş!
Hamının ürəyi, demə, ürəkmiş!..
İndi deyirsən ki, insandır hamı,
Blayberq, Blayberq, bəs yadındamı,
Qapından qovduğun o qara zənci?..

İndi özün de,
Sənmi dilənçisən, omu dilənçi?
Zəncinin ürəyi sənin sinəndə
Vurandan bəri,
Sevməyə başladın, de, bəlkə sən də,

O böyük ürəkli qara üzləri?..

**DƏBLƏR**

Restorana gəlmişəm,
Yeyəm,
İçəm,
Həzz alam.
İtmi boğuşdururlar,
Bu nə səsdir, ay balam?..
Orkestr haray salıb,
Yöndəmsiz gurultular
Bir-birindən seçilmir.
Vallah, ağız deyəni
Qulaq eşidə bilmir.
Bəlkə...
          Geri qalmışam -
Əsr çox qabaqdadır,
Mənə uzaqdan baxır?..
Neyləyim ki, bu yönsüz,
          eybəcər gurultular
Beynimə mismar çaxır.
Biz bu kəlmə səslərə -
Bu uydurma,
Bu saxta,
Bu düzəlmə səslərə
Əsrin səsimi deyək?
Mən bilmirəm,
          özgənin

Qabağından qalanı,
Axı, niyə gövşəyək?
Məgər yenilikmidir,
Özünü bəyənməyib,
Özgəni doğma tutmaq?
„Geyib özgə çəkməsi,
Yerişini unutmaq?
Başa salın bir məni,
„Gözəl nəğmələrimiz
var ikən
nədən ötrü
Yamsılayaq özgəni!..
Yenilikmi?
Bağışla!
Yamsılamaq - ən böyük
Köhnəlikdir, köhnəlik!
Bizi hara aparır
Bu "yenilik" ədası?
Həndbolun,
Futbolun
Hakimlik iddiası?

Hara olur qoy olsun,
Çörək çıxartdığım yer
Vətənimdir - deyənlər -
Vətənin qeyrətini
Ömründə çəkməyənlər,
Futbol oyunlarında
Dönür vətənpərvərə.
Öyünür əbəs yerə!..

Onun Vətən qeyrəti
Özü kimi saxtadır
Qeyrətinin siqləti
Ayaqlarda sürünən
Futbol ağırlıqdadır.

Nədir bu əyləncələr? -
Dərk edə bilmirəm mən.
Adamlar usanıbmı
Dərin düşüncələrdən?..
Deyirlər, Amerikada
Alimlər baş sındırıb
İnsan üçün
cürbəcür
Kokainlər,
Tiryəklər,
Əyləncələr
düşünür.
Neçin?
İnsan fikirdən.
Qayğıdan,
Düşüncədən
Bir az ayrılsın deyə.
Bu dünyadan üzülüb
Özünə dalsın deyə...
LSD - təzə tiryək.
Nəşələnməkçün
insan
Ağlın itirsin gərək.
Bircə günlük kef üçün,

Bəzən insan
əl çəkir
Ağlından da büsbütün.
Dərdə bax!
Əl götürür
Düşüncədən, ağıldan,
Ağıl əsrində insan!..
Nəyə gərək düşünmək?
Gül,
Hırılda, nəşələn!
Özünü dərdə salır
Çox düşünən,
Çox bilən!
Əsr buramı gəlmiş?..
. . . . . . . . . . . . . . . . . .
İnanmıram buna mən!
Bu gün bu dəb, sabah o dəb.
Bu dəb gedir,
          o dəb gəlir.
Paltarımız köhnəlməmiş
          dəb köhnəlir.
Dəb dəyişir, biz açmamış gözümüzü
Bu dəblərə
Uyğunlaşa-uyğunlaşa
İtiririk özümüzü.

Nəğmədə də,
          şerdə də təzə dəblər...
Dəyişdikcə
          bu qaydalar,

bu ölçülər,
bu ədəblər,
İnam itir
Təqlid gəlir,
zövq alçalır.
Özümüzdən bəs nə qalır?
Axı, neçin özümüzü
Qurban verək dəblərə biz?
„Gəlin, tapaq özümüzü
bir kərə biz!
Hər yetənə baş əyməyək;
Adamda bir sifət gərək,
inam gərək!

Yazıq söyüd!
Nə meyvəsi, nə barı var,
Onunçun da
Nə qeyrəti, nə arı var.
Vüqar ki, yox, "bəli" deyir,
Gah bu yelə,
Gah o yelə!
Ey dəblərə uyan oğlan,
sən də belə!

Öz barın ki, yoxdu sənin,
Vüqarın ki, yoxdu sənin,
Gərək ağzın tez sulana
Özgələrin meyvəsinə,
Öz səsin ki, yoxdu sənin,
Elə dəm tut yad səsinə!...

## SUALLAR

Nəsimi söylədi: - Allahdır insan,
Onun qüdrətilə dünya bir zaman
„Gülüstan olacaq,
Cənnət olacaq!..
İnsanın gücünə inandı...
ancaq,
Bu günsə...
başqadır hökmü zamanın,
Cahanı qorxudur insan fitnəsi,
Atom bombaları - köhnə dünyanın
Başının üstündə barmaq hədəsi.

Elə bil Nəsimi qalxıb məzardan,
Deyir: - Mən güvəndim sənə, ey insan.
Sənin əməlinlə indi söylə bir,
Bu qoca dünyamız bəs hara gedir?

Tolstoy dedi ki: - Bəşər ucalsın,
İnsan öz nəfsinə qələbə çalsın.
Vicdan nəğməsilə boy atsın bəşər,
Yaratsın,
Yaşatsın,
yaşatsın bəşər!
İnsan təmizlikdə bənzəsin suya,
Ağıl yoldaş olsun eşqə, duyğuya.

---

** Maksim Qorki.*

Vicdanın səsinə dəm tutsun əməl,
Dünyanın dərdini ovutsun əməl
Bəşərdən həmişə yaxşılıq uman
O böyük peyğəmbər, o böyük insan,
Yaşayıb görsəydi bu dəhşətləri, -
Yeraltı, yerüstü müsibətləri
Deyərdi: - İnsana dünya dar olmuş,
Əməli başına bir çidar olmuş.
Nədir insandakı
                    bu tamah,
                    bu nəfs,
Dünya bu minvalla hara gedir bəs?
"Qğrurla səslənir insanın adı!"*
Deyən
        əsrimizin böyük ustadı,
Güclülər önündə alçalanları,
Yalana, böhtana əl çalanları
„Görsəydi, deyərdi: - Bu nə kəshakəs?
Bu qoca dünyamız hara gedir bəs?
Hadi də,
        London da,
                    Sveyk də,
                                Hem də,
Həyata necə də qəlbən vuruldu.
Elə ki, tapdılar nəşəni qəmdə,
Hər biri özünə bir qatil oldu.
Onlar dedilər ki, - əsəblərimiz
Daha dözə bilmir, gərilib simtək.
Könüllü gəlmədik bu dünyaya biz,
Nə olar, dünyadan könüllü getsək?..

Onlar dedilər ki, - bəzən bir günü
İnsan neçə-neçə ömrə dəyişməz.
Daşıya-daşıya ağır yükünü,
Bu qoca dünyamız hara gedir bəs?

İnsana xidmətdə gördü Şveyser
Bütün mənasını, dadını ömrün.
„Gəzdi ölkələri, gəzdi birbəbir,
Yaşatdı, yaratdı başqalarıyçün...
Deyir insanlara Şveyser bu gün:
- Özünü düşünür, özünü hər kəs,
Bu qoca dünyamız hara gedir bəs?
Nələrə qadirmiş insan hünəri!..
Səsiylə yarışan təyyarələrin
                    Gurultusunda
Elə bil düşünür Sent-Ekzuperi:
- Ağıldan, əməldən geri qaldı səs.
Bu qoca dünyamız hara gedir bəs?

Gözəgörünməzdən ummadıq kömək,
İnsanın özüdür - dedik - pənahı.
Yerdə axtarmadıq biz Arşimettək,
Fikrimizdə tapdıq istinadgahı.

Ucaldıq göylərə, baş vurduq yerə,
Güldü üzümüzə göyün qatları,
Mindik maşınlara, təyyarələrə,
Verdik kolbasaya biz Qıratları...
Həmişə irəli!
                    Geri dönmədik.

Duyduq qəlbimizdə günün səsini,
Ancaq...
        düşünmədik,
                heç düşünmədik
Qıratın, Bozatın faciəsini...

Nə olar... bir baxsaq keçmişə hərdən,
Düşünək dünyanın qəmini bir-bir.
O qədim, möhtəşəm abidələrdən
Düşən kərpiclərin dərdi kimindir?

Nə qədər güclüsən, ey qadir insan,
Özün bir yanasan, əzmin bir yana.
Nə qədər acizsən, əsir olursan
Özün öz əlinlə yaratdığına...

Nə qədər güclüsən,
                öləcəyini
Bilsən də
                işdədir yenə əllərin.
Nə qədər acizsən,
                qorxudur səni
Öz fikrin,
Öz hissin,
Öz əməllərin!
„Gözlə görünməyən bir zərrəylə sən
Bu boyda dünyanı hədələyirsən.
Güclüsən, ən uzaq ulduzun belə
Sirrinə, sözünə vaqifəm - dedin...
Acizsən, ən yaxın dostunun hələ

Qəlbindən keçəni duya bilmədin.
Həm elə güclüsən, həm belə gücsüz,
Ağılda güclüsən, ürəkdə aciz.

## GƏL, ANA TƏBİƏT

Yorulduq,
        bir dayan,
                maşını saxla!
Nə qədər yol gedək rezin "ayaqla"?
Səhərdən bu yerə səfərdəyik biz.
Maşın da adamtək yorulur yəqin.
Deyirəm, nə olar ayaqlarımız
Bir az da bu qara torpağa dəysin!

Təkərlər fırlanır.
Yol gedirik biz,
Dikib uzaqlara gözlərimizi.
Təkərlər fırlanır,
                addımsız, izsiz
Bu eldən o elə aparır bizi...

Ağappaq yollardan elə bil bu an
Ağ mərcan taxıbdır dağlar boynuna.
Çıxmışıq şəhərin dar qucağından,
Ana təbiətin geniş qoynuna...
Görürsən, ürəyə söz dəyəndə də
Tutulur,

kövrəlir,
küsür hamıdan.
Bəzən adamlardan inciyəndə də
Dağlara, daşlara üz tutur insan.

Söz də xəncər kimi işləyir cana,
Qanı laxtaladır əzab, iztirab.
Şəhərin sözünə, suallarına
Ana təbiətdən umuruq cavab.

Güllərin şəbnəmi, otların şehi
"Gəl, məni duy!..." - deyə bizə göz dikir.
Dağların küləyi, bağların mehi
İncik ruhumuza bir sığal çəkir.

Çalışır, vuruşur nə qədər insan
Adamlar içində yer tutmaq üçün
Nərgizə baxıram,
Mənə kəm baxan
Nadürüst gözləri unutmaq üçün...
Haçalı dağlara baxıram,
mənə
Qıcanan dişləri unutmaq üçün.
Baxıram üfüqün genişliyinə
Soyuq baxışları unutmaq üçün.
Baxıram sıldırım, daş qayalara,
Yolum üstünə
Atılan daşları unutmaq üçün.
Baxıram dağların dik vüqarına,
Əyilən başları unutmaq üçün.

Gəl, ana təbiət, qovuşum sənə,
Sənin bir parçandır, axı, ilkimiz.
Nolar, əslimizə qayıdaq yenə,
Axı, bu torpaqla bir vəhdətik biz.

Mayam da, südüm də səndədir mənim,
Bu yorğun ruhumu, gəl, dindir mənim...
İlkimiz təmizdir təbiət qədər,
Əmdiyi süd kimi safdır körpələr.

Güllərin şəbnəmi, otların şehi,
“Gəl, məni duy!...” - deyə bizə göz dikir;
Dağların küləyi, bağların mehi
İncik ruhumuza bir sığal çəkir.

Keçidlər adlayıb, dağlar aşdıqca,
Böyüyür anbaan ürəklərimiz.
Ana təbiətə yaxınlaşdıqca,
Dönüb özümüzə qayıdırıq biz.

Yəqin ki, oxuyur quşlar dərədə,
Eşidə bilmirik motor səsindən.
Laləli, nərgizli çəmənlərə də
Baxırıq maşının pəncərəsindən.

Olsaq da torpağa bu qədər yaxın,
Hələ yol gedirik öz yerimizdə.
“Qutular” içində olur,
bir baxın,
Ana təbiətə səfərimiz də...

“Qutular” kiçiltdi ürəyimizi,
Sıxdı bədəni də,
Sıxdı canı da...
Yağışdan, yağmurdan qoruyub bizi,
Aldı əlimizdən bol havanı da...

Hərdən həkimlərin məsləhətilə
Çıxırıq bulvara bir tələb kimi.
Uduruq havanı biz gilə-gilə
Aptekdən verilən sarı həb kimi.

De, düşək,
Qurtaraq benzin iyindən.
Nola bir yel əsib tufan qoparsın.
Dərək bu döşlərin gül-çiçəyindən
Validol iyini bizdən aparsın.

Kiçik otaqlara çəkilib qış, yaz,
Gəzdik dahilərin söz bağlarını
Dedik kitabları qapayıb bir az,
Çevirək çöllərin varaqlarını...

Enişdə, yoxuşda əldən salıbdır
Bizi, bir-birinə calanan yollar.
Elə bil dağları əsir alıbdır
Dağların belinə dolanan yollar.
Yolların önündə baş əyir dağlar,
Dağların qoynunda obalar yeni,
Əyləşib gedirik...

indi ayaqlar
Təkərlərə verib vəzifəsini.

Əyləşib gedirik göydə, yerdə biz,
Uzanıb üzürük gəmilərdə biz.
Fikrimiz öndədir həmişə bizdən,
Səyyahıq...
Xəyal ki, görünmür gözə
Alıb hərəkəti bədənimizdən
Verdik beynimizə, ürəyimizə.

Beynin haqq-hesabı candan sorulmur
Fikirlər qoynunda yol gedirik biz.
Odur, bədənimiz çox da yorulmur,
Yorulur beynimiz, ürəklərimiz.

Min arzu,
Min qayğı,
hələ üstəlik,
Dava təhlükəsi,
Atom hədəsi,
İnfarkt, qan təzyiqi!..
İki xəstəlik -
Əsrin gərginliyi, əsrin zədəsi!
Düşürük maşından biz gülə-gülə,
Dəyir nəm torpağa ayaqlarımız.
Sükut layla çalır çəmənə, çölə,
Sükut!..
Cingildəyir qulaqlarımız.

Oxqay!
Havaya bax, necə təmizdir.
Burdan qaçaq düşər azar, bezar da.
Bakı canımızdır, ciyərimizdir,
Ancaq... bu havaya həsrətik orda...

Elə bil nur yağır havadan yerə,
Xoşbəxtlik gölündə üzür bu çöllər.
Deyirəm, yəqin ki, burda bir qətrə
Radyaktiv zəhərdən tapılmaz əsər.

Radyaktiv sözündən gözüm qaraldı
Bu söz ağlımı da başımdan aldı
Qopdu ürəyimdən bir yanıqlı səs:
- Qrenlandiyada, deyirəm, görən,
İtən bombaları tapdılarmı bəs?

Sual hamımızı çaşdırdı bir dəm,
Bu təmiz hava da zəhərə döndü.
Dönüb gözümüzdə qaraldı aləm,
Laləli yamaclar oda büründü.

Elə dil dəyişdi hamının rəngi,
Aldı çöhrələri narın bir kədər.
Hava da gözəldir,
                    neyləyəsən ki,
Könül havamızı zəhərləyiblər...

**EPİLOQ**

Təzadlar!
Təzadlar artır ilbəil.
Zaman öz-özünü necə danır hey.
Gedirik...
Getdikcə qısalmır bu yol,
Çəkirik... Çəkdikcə dərd uzanır hey...

Bu qədər yazmışam, hələ azdır, az.
Ən böyük, ən dərin söz içimdədir.
Haqq-nahaq,
düz-əyri,
qəm-sevinc,
qış-yaz
Mənim öz içimdə, öz içimdədir.

Mənim ürəyimdə baş-başa durur,
Qorxuyla cəsarət,
Şübhəylə inam.
Biri o birinə min cür tor qurur,
Onlar vuruşurlar...
Mən harayçıyam!
Cəsarət - vüqarım, əzmim, hünərim,
Qorxu - mütiliyim, itaətimdir
Özümə düşməndir öz fikirlərim,
Bunlar barışmasa... fəlakətimdir.
Cəsarət qorxunu üstələyəndə,
“Beş adam içində, deyirəm, mən də
Adamam...
Öz yolum, öz əməlim var,
Axı, niyə qorxum?

düz əməlim var..."

Bunu öz-özümə söyləsəm də mən,
Qorxu baş qaldırıb sinəmdə hərdən
Bir ilan kimi
İzləyir hər yerdə cəsarətimi...

Bilmirəm, içimdə baş-başa duran,
Məni gah dindirən, gah da donduran
Bu müdhiş xəyallar,
Bu hallar nədir?
Cəsarət gələndə rahatlıq gedir...
Qorxu hökm edəndə...
kiçilirəm mən...
Vicdanım gizlənir xəcalətindən.

Bir də görürsən ki, oyanır vicdan,
Deyir: - Həyatmıdır səni qorxudan?
Axı, neyləyirsən bu çürük ömrü?
Kişi kimi yaşa beş günlük ömrü.

Qorxuyla cəsarət durub döş-döşə
Təzə bir inamla girir döyüşə!
Neçə "mən" yaşayır tək bircə "məndə",
Öldürən də mənəm, axı, ölən də.
Su da özümdədir, od da özümdə.
Dost da özümdədir, yad da özümdə.
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də məndə...

İnsanlar döyüşür biri-birilə,
İnsanlar döyüşür öz-özlərilə.
Yaman döyüş gedir göydə, yerdə də,
Döyüşlər hər zaman girir bir dona.
Utanmaz-utanmaz hər dövrdə də
Yıxırıq günahı əsrin boynuna.

De, kimdir yaradan bu fəsadları?
Döyüşdə yaranır ən böyük söz də.
Əsrin nə günahı?
                Bu təzadları
Gəlin, biz axtaraq öz içimizdə.
Sonsuz döyüşlərdə həyat yüksəlir,
Bütün yüksəlişlər qovğadan gəlir.

Bəzən bir saatda, bir neçə gündə,
Daşıyır illərin yükünü insan.
Bəzən özümüzü tapmaq üçün də,
Biz keçə bilirik varlığımızdan.

Sükunət...
        Dayanır dilsiz məzarda,
Qəbrin başdaşına ilişib zaman.
Vuruşa-vuruşa
                bu vuruşlarda
Özünü axtarır həmişə insan...
- Məzarda tapırmı?
- Nə deyim sənə!
Başqa cür yaşamaq son təsəllimiz.
Axı, əslimizə dönürük yenə,

İlkimiz torpağa qarışanda biz...

*1966-1967*

# DÖRD YÜZ ON ALTI

***(Diviziyanın döyüş yollarından fraqmentlər)***

*Qardaşım İsfəndiyarın xatirəsinə.*

**PROLOQ**

Dörd il müharibə!
Dörd il ölüm, qan,
Bir qənim kəsildi insana insan.
Döyüş meydanına döndü ərzimiz,
Xəbərlər yoğruldu qəzəbdən, kindən.
Torpaq yaralandı,
gecəbəgündüz
Əsgər çəkməsinin silləlırindən.
İnsan nalələri,
amanlar,
ahlar,
Min-min faciələr,
min-min günahlar,
Viranə şəhərlər,
Viranə damlar,
Çığıran ürəklər,
Səssiz qiyamlar,
Dünyanın
Özündən ağır dərdləri,
Hər saat dəyişən sərhəd xətləri,

Evlərin qaralan od-ocaqları,
Yanan qitələrin sinə dağları,
Milyon ürəklərin eyni dərd-səri,
Rəzalət və ölüm düşərgələri,
Qırılan könüllər, sönən ümidlər,
İnsan fəryadilə açılan səhər,
İnsan qanı ilə qızaran gecə
Anlaya bilmirəm,
Necə, ah, necə
Dörd ilin qoynuna sığışa bildi?
Bu indi sualdı, o vaxt deyildi...

İyirmi bir iyun...
O gündən bəri
Fərqini bilmədik fəsillərin də,
Dörd ilin bu qədər fəlakətləri
Bir əsrə yetərdi sülh illərində.

Mənim yaşıdlarım
　　　　　　ömrünü verdi
İlləri yaşayıb tək bircə gündə.
Bir əsrə yetəcək bəlanı, dərdi
Dörd ildə daşıdı çiyinlərində.

Mənim yaşıdlarım -
Neçə dost, tanış
Alovlar içində yaşa doldular,
Hələ budaqlardan pərvazlanmamış
Torpağa qarışıb həşəm oldular.

## MƏKTƏBDƏ GÖRÜŞ

Məktəbdə görüşdür...
Görüş,
Təmtəraq...
Həmən bu məktəbi otuz il qabaq
              bitirənlərin
Görüşü...
Bu görüş nə qədər gözəl,
              nə qədər şirin...
              Mən də bu axşam
Köhnə dostlarımın arasındayam.
Uçrumtək aranı kəsib otuz il.
İnsan öz-özündən ayrılır müdam,
Dəyişən fikirlər, duyğular deyil,
Üzlər də, gözlər də dəyişib tamam.

İllər saçımıza qar ələyibdir,
Gözləri kədərdən sürmələyibdir.
Hanı o qayğısız, fərəhli günlər?
Dünən gülən dodaq bu gün lal olmuş.
Dünən atasıyla dərsə gələnlər
Bu günsə... özləri ağsaqqal olmuş.
Doğma məktəbimin dəhlizlərindən
İtən gəncliyimi axtarıram mən...
Bax, bu bizim sinif... qara sobalı,
Bu həkim otağı,
Bu idman zalı,
Bu da...

Hər şey, hər şey öz yerindədir.

Bilmirəm, bəs məni çaşdıran nədir?
Fikrim cövlan edir min bir budaqda
Fikrimin sapında sıralanmışam.
Mənə elə gəlir, zal da, otaq da,
Məktəb də,
Dəhliz də
kiçilib tamam.
Fikrim dünəndədir,
Özüm bu gündə...
Axı, kim deyir ki, indi mən, mənəm,
Hər şey olduğutək durub yerində,
Başa düşmürəm ki, dəyişən mənəm.
- Salam...
- Dayan, dayan... sən...
- Hə... Tap görək.
- Adın... yox... bilirəm... bu saat, Mələk!
- Tapmadın, Məleykə!..
- Özüdür ki, var.
- Bax, sən, yadımdadır, burda oturar,
Yavaşca gizlənib dala yatardın.
Milçəyə damardan sapand atardın.
- Oğuldan, uşaqdan nəyin var?
- Artıq
Anayam, nənəyəm, biz qocalmışıq.
- Bəli, qocalmışıq, keçdi ömür-gün,
İndi yaşayırıq balalar üçün.
- Yadına gəlirmi, bir gün mən sənin...
Deyə, varaqlanır ötən zamanlar
- Bu yer "bic Vəlinin", bu yer Həsənin,

Bu da “qız İlqarın” yeri...
Bəs onlar...
Hanı?
- Qayıtmadı onlar cəbhədən...
Qayıda bilməzdi ora hər gedən...
Onlar qayıtmadı...
                Qırx birinci il.
“Tarix səhifəsindən silinən deyil”.

***I fəsil***

## DÜNƏN - BU GÜN

Ürəklər yaralı,
Cəbhədən gələn
Ağır xəbərlərlə yaşayır Vətən.
Vətən silkələndi,
                səfərbər oldu.
Böyük bir məmləkət bir nəfər oldu.
Bir məqsəd,
     bir amal,
                bir məslək üçün...
Dünənsə...
Orduya getməmək üçün
Soldat pulu verdi atalarımız.

---

**C.Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” əsərinə işarədir.*

Hər vaxtın öz hökmü!
Belədir yalnız!..
Bir yarpaq
Qoparaq
tarixdən yenə:
Gözü bərk qorxmuşdu Şamildən, çarın.
İnana bilmirdi sədaqətinə
Böyük imperator müsəlmanların.
Məndən qorxurdumu?
Buna şəkkim var!
Mən ki, xumar idim din laylasında.
Xeyrilə şərini motal papaqlar
Ayıra bilmirdi öz tarlasında.

Unuda-unuda əcdadımızı
Axır özümüz də lap unudulduq.
Soldat getməməkçün övladımızı
Gərmə qalağında gizlədən olduq.
\
Yadlar allah dedi zağlı silaha,
Allah kölgəsinə sığınanda biz.
Çox baha oturdu bizə, çox baha
Soldat çəkməsini geyməməyimiz.

Top-tüfəng əsrində qovdan od aldıq,
Bizim silahımız yenə daş oldu.
Yerimizdə sayıb dünəndə qaldıq,
Çənlibel çevrilib Danabaş* oldu.
Əsrin havasını duyduqmu? Çətin!
Bəmində axtardıq onun zilini.
Yarada bilmədik hər qərinənin

Özünə münasib Çənlibelini.
Səsimiz olmadı, səsdən səs aldıq,
Dünənki havayla biz nəfəs aldıq.

İnqilab! İnqilab! Qopdu bir anda.
Könüllər çırpınıb çıxdı çətirdən.
Babam təsbehini şıqqıldadanda
Atam güllə atdı keçmişə birdən.
Atam babam ilə durdu üz-üzə -
Ömrünü tapşırdı gecə-gündüzə.

Susdu təsbeh səsi güllə səsindən.
O böyük inqilab zəlzələsindən
Ayrı bir don biçdi əyninə illər,
Yarandı Almazlar, güldü Sevillər,
Dirildi təzədən Babəklərimiz,
Təzədən doğulduq bu dünyada biz.

Tarixlər calandı tariximizə,
Arzular bəzədi eli, oymağı.
İnqilab öyrətdi, inqilab bizə
Əsrin silahına sahib olmağı.

Oyandı yuxudan çöllər, örüşlər,
Güneyin günəşi axdı qüzeyə
Köhnə əqidələr, köhnə görüşlər
Qış sarayı kimi döndü muzeyə.

...Vətən dara düşdü, o ağır günə
Qurbanlar verməyə darılmadıq biz.
Vətənin ömrünə, xalqın ömrünə

Ömrünü caladı igidlərimiz.
O ağır illərin dolaylarında
Büdrədim, yenə də
Mərdanə durdum.
Qırx ikinci ilin yaz aylarında
Dörd yüz on altını yaratdı yurdum.

Yazmaq istədiyim bu təzə dastan,
Nədənsə, yamanca qorxudur məni.
Misranı könlümdə qızdırmamışdan
Hər sətrin başında söz udur məni.

Çətindir - əsgərin üç ildən bəri
Keçdiyi yolların cəbrinə dözmək,
On-on şəhərləri, yüz-yüz kəndləri
Sözlərə döndərib misraya düzmək.

Çətindir - əsgərin ayaq səsində
Şerin ahəngini, vəznini tapmaq,
Qızıl güllələrin zümzüməsində
Sözün çəkisini, vəznini tapmaq,
Burda söz də gərək snayperlərin
Sərrast gülləsitək hədəfə dəysin.

Burda əməl aydın, ürəklər dolu,
Əməllər torpağı, daşı əridir.
Burda hər əsgərin öz döyüş yolu
Böyük bir romanın sətirləridir.
Gərək top səsilə qafiyələnsin
Sözlərim... sözlərim sətir başında.
İtiləşmək üçün söz tiyələnsin,

Qəzəb bülövündə, nifrət daşında.

Mən necə qorxmayım?
Çətindir, çətin
Şəhidlər ruhuna matəm saxlamaq.
Yetim anaların, qız-gəlinlərin
Sönən ümidindən dastan bağlamaq.
Bu yerdə qələmim yenə ilişdi,
Sözlər tikan olub könlümü deşdi.
Yetər, bu gecəlik bəsimdir dedim,
Girdim yatağıma,
Yata bilmədim.
Gəldi göz önümə şəhid qardaşım,
Axdı dönə-dönə, axdı göz yaşım.
Osa gülümsündü,
Dedi: - Nədir bu?
Yox, yox! Şer deyil,
Mərsiyədir bu!..
Dayan! İndi məni, sən məni dinlə!..
Ağlar sətirlərlə hara gedirsən?
Unutma, qardaşım, bu mərsiyənlə
Şəhidlər ruhunu sən incidirsən...

Elə yaz, şerindən gəlsin top səsi,
Sözün ahəng tutsun əqidəmizə.
Bizə gərək deyil matəm nəğməsi,
Gəl həyat nəğməsi oxu sən bizə.
Ölürkən, təzədən biz doğulmuşuq,
Nədir gözlərində giləlnən yaş?
Biz ölüm naminə ölməmişik, yox,
Biz həyat naminə ölmüşük, qardaş!

## İLK SINAQ

Aşıb dərələri, dar dolayları
Diviziya Çir-Yurdda toplandı yüz-yüz,
Qırx ikinci ilin payız ayları,
Təlimlər başlandı gecəbəgündüz.
Təlimlər, təlimlər qədərsiz qədər.
Bölüklər sürünür,
Gah dikəlirdi.
Hücum həsrətini çəkən igidlər
Yalançı döyüşdən cana gəlirdi.

Doğrunu yalandan öyrənir bəşər,
Saxta oyunlardan dərs alır hər kəs.
Qarğıdan, qamışdan at minməyənlər
Köhlənin üstündə bərk dura bilməz.

Təlimlər qurtardı
Baş qərargahdan
Dörd yüz on altımız əmr aldı bir gün:
Diviziya döyüşə girir sabahdan
Lednevi düşməndən təmizləməkçün.

Elə ki, səsləndi ilk döyüş əmri,
Elə bil tərpəndi dağlar yerindən.
Bizim diviziyanın ilk döyüşləri
Başlandı Qafqazın ətəklərindən.

Azca boylananda üfüqdən səhər
Səhərin bağrını yardı güllələr,
Qızardı üfüq də,
Qızardı yer də.
Elə bil yarılır göyün qübbəsi,
İlkin səsimizdi təzə əsrdə
Bizim diviziyanın ilk atəş səsi.

Güllələr mələyir,
Sovurur yeri
Göy yerə,
Yer göyə qarışır bu gün;
Səhərin qoynunda güllə səsləri
Bir xalqın adından danışır bu gün:

Bu səslər deyir ki, dünya hər anda
Gülsün...
Könüllərə günəş doğulsun,
Bəşərin gələcək xoşbəxtliyində
Mənim də öz payım,
Öz haqqım olsun!

O səslər deyir ki, səadətimi
Qanımla qazanmaq istəyirəm mən.
Onu töhfə kimi, hədiyyə kimi
Almaq istəmirəm özgələrindən,
O səslər deyir ki, səslər içində
Mənim də öz səsim, arzum, kamım var!
Qoca tarixlərin keşməkeşində
Mənim də şərəfim, ehtişamım var!

O səslər deyir ki, bilək bir kərə
Birdir yer üzündə bütün bu xalqlar.
Başqa millətlərə lağ edənlərə
Mənim də öz sözüm, öz cavabım var.

O səslər deyir ki, bəşəriyyətin
Əvvəli bir kökdə, bir zəmindədir.
Böyüyü, kiçiyi yoxdur millətin.
Kiçiklik var isə... məndə, səndədir.

Alçaq bir niyyətlə axan qanların
Ləkəsi imanla, haqla yuyuldu.
Hakimlik eşqilə çarpışanların
Qisməti həmişə alçaqlıq oldu.

O güllə səsləri: tarak,
tak,
tarak!
Haqqın, həqiqətin səsiydi ancaq.
Səngərlər qızındı nəfəsimizdən.

... Şəhərə od vurub çəkildi düşmən.
Yanır...
Seyr edirik yanan şəhəri.
Tüklərim ürpəşir, gözüm qaralır,
Hər addım başında döyüş izləri,
Uca binalardan dörd divar qalır.
Üstünə çevrilib torpağın altı,
İlk imtahandan
Şərəflə çıxdı
Dörd yüz on altı!

Mozdok civarında vuruşuruq biz,
İrəli!
İrəli!
İrəli!
Yenə!
Can atır diviziya gecəbəgündüz
Baksanın, Terekin sahillərinə.

Hər qarış yer üstə min qan, min qada,
Əlbəyaxadadır dəmirlə insan.
Tanklar, minamyotlar yollar açsa da –
Ürəkdir,
Sinədir cəbhələr yaran!

Bir iman,
Bir inam,
Verin siz mənə,
Min şərin toyunu döndərim yasa.
Bu ağır silahlar neylər düşmənə
İnamla döyünən ürək olmasa.
Eşqin, əqidənin, həmişə, hər vaxt
Hər şeydən şirindir dadı dünyada.
İmandır,
İnamdır,
Məsləkdir ancaq
Bütün zəfərlərin adı dünyada!

Haqqın əsgərləri elə bununçün
Həmişə özünü yenməz sanırdı.
Əmrah da, İdris də

Hər saat, hər gün
Həmən bu inamla qanadlanırdı.
Ölümlə çarpışan bu qəhrəmanlar
Zülmətin bağrını söküb əridir.
Məsləkin yolunda tökülən qanlar
Qan yox,
Dan yerinin şəfəqləridir.
Küçənin sağında alman əsgəri
sərilib yerə.
Küçənin solunda şəhid eloğlum
Canını tapşırıb ulu göylərə.
Bunlar bir-birini öldürüb yəqin.
Neçin?
Eh, neçin?

Ey alman əsgəri, ey yazıq insan,
Bu əsrə düşməyin sənin suçunmu?
Səni Kensberqdə doğubdur anan
Rusiya torpağında ölmək üçünmü?

Boy atdın,
Boyunun hər qarışında
Atanın, ananın min diləyi var.
Beyninin, alnının hər qırışında
Neçə müəllimin neçə səyi var.

Bütün bu qayğılar hədərmiş, hədər,
Bir ömür bir ana qurban verildi.
Səninçün çəkilən bu əziyyətlər
Bir qızıl qurşuna dəyişdirildi.

Analar bu dərdə, de, necə tablar?
Min-min arzusunun çırağı sönmüş.
Yolunda çəkdiyi bütün əzablar,
Ümidlər, inamlar bunun üçünmüş?!

Sənə dedilər ki, damarlarından
axan qızıl qan
Bütün millətlərin qanından üstün.
Ari irq dünyanın tacıdır bu gün.
Sən də, yazıq cavan, buna inandın,
"Hayl Hitler!" oldu ən böyük andın!

Hayla başlayanlar qurtardı vayla,
Gör, harda ölümlə gəlib görüşdün.
Dünyaya baş olmaq iddiasıyla
Sən silah götürün,
Ayağa düşdün!..
Dünyada olmamış "pis millət" sözü,
Bu sözü lüğətdə siz yaratdınız.

Alilik eşqilə siz özünüzü
Tarixdə neçə yol oda atdınız.
Adamına baxır "saflıq" da, "qan" da,
Mən gözə dürtmədim şan-şöhrətimi.
Höten Nizamimə səcdə qılanda,
Bodenştedt oğrutək qarət elədi
Mirzə Şəfimi.

## AZƏRİN
## BİRİNCİ HEKAYƏSİ

Uçqun qayalardan, şiş təpələrdən
Keçib at sürürdüm sursat dalınca.
Yaman tələsirdim,
                    necə olsa mən
Geri dönməliydim qaş qaralınca.

Çayın sahilinə endiyim zaman
Uzanıb su içir gördüm bir alman.
Tüfəngi qaldırıb tuşladım ona,
Ancaq əl saxladım, zalım oğluna
Qıymadım,
Dedim ki, hələ vaxtım var,
Qoy içsin, tapılmaz bu su qəbirdə.
İlan ilandır ki, bizim babalar
Ona da qıymayıb su içən yerdə.
Döşündən vuraram o qalxan kimi...
Bir xeyli gözlədim,
            gözlədim,
            o da,
Qalxmaq bilirmi ki?
            Demə, əksimi
Bu nadürüst oğlu görürmüş suda.
Heç demə, dişinə tutub canını
Astaca çıxarır o naqğanını...
Bir güllə!
Tüfəngim düşdü əlimdən,
Mərdlikdən qul oldum bu namərdə mən.
Ovçunu gör necə ov qabaqladı,

Qaçmaq istəyirdim, məni haqladı.

Mən alman dilini bilirəm bir az,
Dedim: - Axı, belə bir kişilik olmaz.
Dedi: - Kişiliklə, de, kim ucaldı?
Mərdlik, cəngavərlik dünəndə qaldı.

Əlimi, qolumu bağlayıb alman
Apardı özüylə...
Mən əsir oldum.
Vətənçün canımdan keçdiyim zaman
Vətənin önündə müqəssir oldum.

Bizi sürüdülər belədən-belə,
Gündə neçə dəfə öldük, dirildik.
Bir cavan rus ilə verib əl-ələ
Ölüm yuvasından biz qaça bildik.

Çatdıq bir meşəyə...
Meşə kimsəsiz,
Qaldıq iki gecə kahalarda biz...
Ağaclar meşədə qan ağlayır, qan,
Payız küləyinin vıyıltısından...

Açılıb göylərə sapsarı əllər,
Meşə quşlarının kəsilib səsi.
Ayaqlar altında sarı xəzəllər
Elə bil oxuyur payız nəğməsi...
Neyləmək? Payızın quru sazağı
Bizi əldən saldı,

Bir axşamçağı
Gördük quzeydəki taladan bəri
Ərşə bülənd olur güllə səsləri...

Heyrətdən donmuşduq...
Keçdi bir qədər,
Sükuta qərq oldu yenə də çöllər.
Gəldik yavaş-yavaş talaya sarı
Ürəkdə həyəcan,
Qorxu və təşviş.
Demə, düşmən burda bayaqdan bəri
Bizim əsgərləri güllələyirmiş.

Yatır qan içində qırx iki əsgər,
Yermi silkələndi,
Günəşmi batdı?
Qırx iki qurşunla bu qan içənlər
Qırx iki ev yıxd, ocaq qaraltdı.

Qurşunun hökmünə dondu zaman da,
Bir yerə atıldı, min yerə dəydi.
Bu qızıl güllələr Azərbaycanda
Yollara dikilən gözlərə dəydi.

İgid basdığını kəsməmiş qultək,
Əsiri öldürmək?
                "Mərdliyə" bir bax.
Namərddən kişilik, mərdlik gözləmək
Mərdin özünü də alçaldar ancaq.
Kişilik hər kəsə deyil müyəssər,

Xoşbəxtsən, düşmənin kişisə əgər!

Hərbin qaydasını babalar nədən
Hər zaman, hər yerdə müqəddəs sayıb.
Əsl cəngavərlər, dövri-qədimdən
Silahsız düşmənə əl qaldırmayıb.

Babalar mərdliklə cəbhələr yarıb,
Məğluba rəhm edib ancaq həmişə.
Silahsız düşməni silahlandırıb
Sonra da... onunla gəlib döş-döşə,
Mərdlik, cəngavərlik deyil oyuncaq
O damar yaşayır qanda, ilikdə.
Düşməni düşməntək danışdır, ancaq
Mərdanə olmalı düşmənçilik də.

R ü c u :

Kərəmin dəstəsi dağlardan endi,
Düşərgə salındı təpələr üstə.
İsrafil ağayla Kərəm düşməndi
Özgənin atdığı nahaq şər üstə.

Hər yanda, hər yerdə bu iki düşmən
Hər gün izləyirdi biri-birini.
Dağlardı qoruyan hər fəlakətdən
Qaçaq Kərəm kimi cəngavərini.

Bütün külfətilə İsrafil ağa
Köçürdü yazbaşı aradan dağa.

İsrafil qorxsa da qəfil hücumdan
- Qurun çadırları, - dedi - o, burda.
Qəlbində şübhələr, başında duman,
Könül sirdaşıyla yatdı çadırda.
Səhəri... çadırın girəcəyində
O, bir patron tapdı...
Qanı qaraldı.
- Kimin bir patronu çatışmır? - deyə
Bütün dostlarından o, xəbər aldı.

Heç kəs dillənmədi, tutuldu bu dəm.
Dedi: - Bu böyüklük mənə tanışdır.
Gecə burda olub düşmənim Kərəm,
Məni arvadıma bağışlamışdır.

... Qanun-qaydası var igidliyin də...
Kişilik sayılmır, axı, hər zəfər.
Düşmən, düşmənini yatdığı yerdə
Və... arvad yanında vurmaz demişlər.

Ölçülüb, biçilib qəzəb də, kin də,
Bəli, bu kökü üstə boy atmışıq biz.
Tarixin amansız keçidlərində
Böyük bir ənənə yaratmışıq biz.

Hitler kül üfürüb gözlərimizə,
Hücum etmədimi qəfildən bizə?

**SÜKUT**

Qırx üçüncü ilin fevral ayından
Başlandı Sambekdə qanlı döyüşlər.
Lalətək açıldı sinələrdə qan,
Qızardı örüşlər
Qızardı döşlər...

Öndə sıralanan Sambek dağları
Yaxşı qoruyurdu yalquzaqları.
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Dörd yüz on altının zərbələrindən
Geriyə oturan düşmən karıxdı,
Sonrasa ən güclü dəstələrindən
"CC" qoşunları qarşıya çıxdı.
"CC" də gəlmədi deyəsən kara
Əmrahın topları gəlirkən dilə.
Toplar yol açırdı piyadalara
Çox sərrast, tutarlı zərbələrilə.

Göydə də, yerdə də gurultu səsi,
Elə bil sinəsi dağılır yerin.
Ötür üstümüzdən qara kölgəsi
Tez-tez xaç nişanlı təyyarələrin.

Yağır üstümüzə, yağır bombalar,
Hava tutumundan ağır bombalar.
Minamyot yağmuru, pulemyot səsi,
"Pələng" tanklarının ağır zərbəsi.
Torpağın bağrını sökdükcə şan-şan,
Yer niyə yarılmır bu yaralardan?
İnsanıq, dözürük,

Məsləkimiz var,
Bilmirəm ancaq,
Buna necə dözür öz sinəsində
Gül-çiçək bitirən bu qara torpaq?
Axı, necə dözür bu zərbələrə
Havada fırlanan balaca kürə?

İlin siqləti var hər anımızda,
Biz ki, bu silqətə öyrəşdik artıq.
Güllələr fit çalır dörd yanımızda,
Ölümlə həyatın arasındayıq.

Bir anın içində
Hər axşam, səhər
Cansız daşa dönür nə qədər insan,
Sovuşur ölümlər, ötür ölümlər
Mənim gah sağımdan, gah da solumdan.

Susdu atəş səsi, dayandı bir an.
Dincəldi bir qədər çöllər, yamaclar.
Ağır qəlpələrin tozanağından
Gör necə qaralıb otlar, ağaclar.

Sükut... Eşidilir uzaqdan belə
Hisli yarpaqların xışıltıları.
Sükut, səadətin şirin dililə
Qoy nəğmə oxusun yarpaqlar barı.
Sükutdan həzz alır həsrət könüllər,
Sükut...
Hər tərəfdə sükut büsbütün.

Fəxri qarovulda dayanır çöllər
Sonuncu döyüşdə ölənlər üçün.

## MEYDAN VER!

İrəli!
İrəli! Təzə biçilmiş
Zəmidən keçirik, sünbülü dən-dən,
Yan-yana düzülən tayalar diş-diş.
Ruhum təzələndi kövşən iyindən.

Qəlbimdə səslədim keçən günləri
Dünyada sülh də var, zəhmət də varmış.
Bir sünbül dənəsi, bir saman ətri,
Bəzən bir dünyanı yada salarmış...
... Çatılır üfüqdə göylərin qaşı,
Zəmidə hərblə sülh durub yanaşı.

İrəli!
Qarşıda min-min hücum var.
Taqanroq uğrunda irəli, dostlar,
                        yalnız irəli!
Çexovun yurdunu azad etməli!..
Qovuldu şəhərdən düşmən büsbütün.
Yuxulu çöllərə can gətirildi -
Bizim diviziyaya bu qələbəyçün
Qoca Taqanroqun adı verildi.

Keçir diviziyamız fırtınalardan
Arzular, ümidlər səpilir yola.
Sözün sürətilə gör necə asan,
Gör necə tez çatdıq Melitopola.

R ü c u :

Mən ki, vuruşmadım...
Bura bir səhər
Bəlkə paraşütlə atıblar məni.
Yerində demişlər, doğru demişlər,
Axı, yeyin olur sözün köhləni.

Yan-yana düzürəm mən ki, sözləri,
Mən ki, tüfəngimi daraqlamadım.
O döyüşlər gedən qanlı düzləri,
Mən ki, kitab kimi varaqlamadım.

İllər qədər çəkən ağır anların
Xəbərim olmadı bir dənəsindən.
Aylarla səngərdə atışanların
Nələr çəkdiyini hardan bilim mən?

Bircə gün səngərdə yatmadımsa da,
Barıt qoxusunu dadmadımsa da,
Qəlbimin gözüylə gördüm cəbhəni.
Əsgərdi mənim də eşqim, niyyətim
Səngərdən-səngərə apardı məni
Sonsuz məhəbbətim, sonsuz nifrətim.

O vaxt bu dünyanın dərdi-sərini
Anlaya bilmədim, düzü, əsla mən.
Ancaq guruldayan top səslərini
Eşitdim qəlbimin qulağıyla mən.

Yox-yox! Bu nəğməni yazan mənəmmi?
Keçmədim cəbhənin dəhşətlərindən.
Mozdokdan Berlinə yol gedənlərin
Ayaq izlərini sətirlər kimi
Bu gün kağızlara köçürürəm mən.

Keçir diviziyamız fırtınalardan,
Arzular, ümidlər səpilir yola.
Sözün sürətilə gör necə asan
Gör necə tez çatdıq Melitopola.

Diviziya bu yolu keçdi bir ilə,
Nə qədər obalar çıxdı qəfəsdən.
Bu, çox asanmıdır?
Biz bu mənzilə
Çatmışıq adlayıb ömürlər üstdən.
Keçdik min əzabla biz oymaq-oymaq
Bu çətin, bu ağır döyüş yolunu.
Bizi ağlatmadı,
Ağrıtdı ancaq
Hər mənzil başında yüz ömrün sonu.
Qaraldı meyitlər qar üzərində
Böyük arzuların nöqtəsi kimi.
Məşəqqət üzdədir,
                Yara dərində,

Sızladıq çırağın piltəsi kimi.

Adlayıb keçirik biz meyitləri,
Addım səsimizdən titrəyir göy, yer.
Min-min ölüm gördük bir ildən bəri,
Ölüm də bizimçün adiləşibdir.

Ölümdən doğulan qəhrəmanların
Adını çəkmədim mən burda bir-bir.
Ədalət yolunda axan qanların
Sorağı həmişə tarixdən gəlib.

Bu yolda nə qədər yeniyetmələr
Kişilik qazandı, həm yaşa doldu.
Necə adsız-sansız adicə əsgər
Ad aldı, san aldı,
Qəhrəman oldu.

Əsgər var, sədası hər yandan gəlir,
Zabit var, tanınır tək rütbəsilə,
Əsgərlər paqonla tanınmır, xeyir,
Tanınır çaldığı qələbəsiylə.

İdris, Ağaşirin, Məmməd, Müzəffər
Düşmən gülləsinə hədəf oldular.
Döyüşə girəndə adi bir əsgər,
Döyüşdən çıxanda şərəf oldular.
Onlar göy üzündə bir şırım kimi
Axdılar,
Bu hünər nələr yaratdı;

Döyüşdə çaxdılar ildırım kimi,
Sonra... gurultular Vətənə çatdı.

Məqamda seçirik qaradan ağı,
Məqamdır yetirən qəhrəmanlığı.
Müqəddəs duyğular, fikirlər mənə
Həyatı, dünyanı öyrədir müdam.

Meydan ver, imkan ver, məqam ver mənə
Bir nədir, yüz dəfə qəhrəman ollam.
Hökmü olmasaydı hər vaxtın əgər,
Bəlkə də... bir gündə il qocalardı;
Məqam çatmasaydı Qoçaq Nəbilər
Qoçaq yox, adicə qaçaq olardı.

Ölümdən doğulan qəhrəmanların
Adını çəkmədim mən burda bir-bir,
Ədalət yolunda axan qanların
Sorağı həmişə tarixdən gəlib.

Biz nə mənzil bildik, nə də düşərgə
Qorunur bu yolda şərəfim, şanım;
Hücum!
    Hücum!
            Hücum!
                    Bizimlə birgə
Keçir ölkələri Azərbaycanın!

**KONSERT**

Gecə sakit keçdi, biz səhər erkən
Bir xəbər eşitdik, gözəl bir xəbər:
Dedilər, cəbhəyə gəlib Vətəndən
Bizi təbrik üçün nümayəndələr.

Gələnlər içində artistlər də var,
Çoxdan mahnı səsi eşitmirik biz.
Çalıb-çağırsınlar, şer oxusunlar,
Açılsın bir qədər ürəklərimiz.

Pulemyot dalında uzanıb əsgər,
İzləyir gecədən susan düşməni.
Bu zaman yetişdi nümayəndələr,
Komandir arxadan səslədi məni.

Mən qalxdım, bir anda yana çəkildim,
Ah, kimi görürəm, xəyaldır, nədir?
Bu, Vurğun deyilmi?
Mən elə bildim
Bütün Azərbaycan bu səngərdədir.
Hamıya bir-bir
Gəlib əl verir
Ağsaçlı şair.

Sonra bir kənarda gəlib o durdu,
Elə bil astaca şer oxuyurdu...
Onun dağlar kimi dik qamətindən,
Qartal baxışından, əzəmətindən,
Şer səpələndi ürəyimizə,
arxası bizə
Pulemyot dalında yatan Pərvizə

bir xeyli baxdı,
Pərviz bunu duyub ayağa qalxdı.
Dedi: - Qalxma, oğul, bu səngərdə sən
Ucasan, böyüksən min dəfə məndən...

Axşamı yığıldıq bir çəmənliyə,
Artistlər bir gözəl dəstgah başladı;
Nə qədər nəğmələr eşitdik, ancaq
Ayrıydı burdakı nəğmənin dadı.
Boğuq top səsləri gəlir uzaqdan,
Bizsə dinləyirik xoş nəfəsləri.
Batıra bilməmiş, demə, heç zaman
Nəğmə səslərini güllə səsləri.

Şövkətin segahı, Hacının tarı
Boğdu uzaqdakı gurultuları...
Söküldü sinəsi çənin, dumanın,
Bizim könlümüzə işıq çiləndi.
Hər pərdə üsütündə Azərbaycanın
Bir dağı səsləndi, dərəsi dindi.

Könüllər təslimdir bu ülviyyətə,
Nəğmələr qoynunda insan ucalır.
Güllə atan əllər, şerə, sənətə,
Həzin pərdələrə indi əl çalır.

Nəğmə, tilsiminə, sehrinə qurban!
Zalım da özünü sənə dost saydı.
Şirin nəğmələrə nola hər zaman
İnsan əməlləri ahəng tutaydı.

Əyilir hökmünə Allah da, din də,
Susan könülləri dindirən oldun;
Ən zalım, müstəbid qaniçənin də
Əlindən bıçağı salan sən oldun.

Torpağın hər daşı, hər zərrəsi də
Nəğmənin odunda qövr eləyəydi...
Nolaydı, anamız yer kürəsi də
Laylalar qoynunda dövr eləyəydi...

## AZƏRİN
## İKİNCİ HEKAYƏSİ

Təzə "dil" gətirdik, cavan bir alman,
Nə qədər dindirdik, cavab vermədi.
Bərk durdu, dönmədi öz inadından,
Bir cümlə: "Mən heç nə bilmirəm", - dedi.

Əsir yaralıydı tutulan zaman,
Onu bizimkilər yaralamışdı.
Heyrət saçılırdı qaş-qabağından
Onun bu halı da mənə tanışdı.

Hədə-qorxudan da bir şey çıxmadı,
O, elə susurdu, susurdu ancaq.
Komandir təpindi, o karıxmadı,
                    Bərk durdu ancaq...
Əsiri saldılar torpaq qazmaya,

Mən də qapısında gözətçi durdum.
Arabir əsirə göz qoya-qoya,
Xəyallar əlində mən qovrulurdum.

İnanıb, bu yazıq inanıb yaman.
Özü də baş açmır inandığından.
O, sirri vermədi, o susdu nədən?
Bu təlim kitabdan keçibdir qana.
Bədbəxt o kəsdir ki, başa düşmədən,
Cövhəri bilmədən rəngə aldana.

R ü c u :

Sevir Vətənini... buna mən varam!
Bu sevgi önündə dünya baş əysin.
Özgə inamları danan bir inam,
İnam sahibinin başına dəysin!

Sevdin Vətənini...
Öz Vətənimi,
Lap sənin kimi,
Mənim də sevməyə haqqım yox məgər?
Biz Vətən hissindən məhrumuq məgər?

Yalan danışanı dilindən asın,
Bilmədən inandın yalanlara sən.
Deyirəm, adamı Allah saxlasın,
Əsrin öz bəlası fanatizmdən.
Qırmızı-qırmızı yalanlar deyən,
Gözlərin qaralar, al günə baxma!

Ey rəngə inanan, bəs demədin sən
Turpun içinə bax, çölünə baxma!

Rəngin dalındakı həqiqətə bax!
Həqiqət nazilər, amma üzülməz.
Yalan çiçəklənər, boy atar ancaq
Bəhər verə bilməz, bar verə bilməz.

Bir uzaq mətləb var, bir də ən yaxın,
Turpun içindəki ağı görək, gəl.
Xoşbəxt o kəsdir ki, inandığının
Sözü də gözəldir, özü də gözəl!

"Haqq" deyənin
Haqqa inamı varsa,
Niyə haqq naminə özgəni soydu?
Yuxarı "haqq" dedi, aşağılarsa,
Haqqı görəmmədi, sözünə uydu...

Bu yazıq əsir də boyanıb qana.
Neçin? O, bu yola niyə inandı?
Fürerin dediyi "haqqın" adına
Özünün yaşamaq haqqını dandı.

Qəribə aləmdir, torpaq qazmada
Bir əsir ağlayır, bir şam ağlayır.
Çöldəsə atışma, ölüm, qan, qada,
Toplar nərə çəkir, axşam ağlayır.
Bağlanıb dodaqlar, dinir yaraqlar,
Donu inkar edir, qoyma yamaqlar,
Gör necə qarışıb nahaqlar, haqlar,

Dünya əzab çəkir, adam ağlayır.

Təpə də özünü dağ sayan zaman,
Həqiqət büdrəyib axsayan zaman,
Qara da özünü ağ sayan zaman,
Vicdan ləkələnir, inam ağlayır.
Qəribə aləmdir, torpaq qazmada
Bir əsir ağlayır, bir şam ağlayır.

İnlədi... çevrildim ona tərəf mən.
Gördüm üst köynəyi qan içindədir;
Könlümə od düşdü bu iniltidən,
Bu nədir? Düşmənə acımaq nədir?

O mənə acımaz, tapdayar məni,
Kövrəldim, acıdım ona mən yenə.
Heyvan qardaş bilir öz həmcinsini
İnsanam, düşməndir həmcinsim mənə.

Dözmədim, mən onu belə görüncə,
Dedim, bu məqamda nə qayda-qanun?
Dərhal tüfəngimi söykəyib küncə,
Getdim, yarasını sarıyım onun.

Açdım yarasını... mənə bir təpik...
Yıxıldım. Əl atdı dərhal tüfəngə,
Tez şamı söndürdüm, çəkildi tətik,
Bir güllə, qıçımı sıyırdı güllə!
Qazma zil qaranlıq... qalxıb yerimdən
Görməzə-bilməzə cumdum üstünə.

Süprüşmə başladı... üstələdim mən,
Bu namərd oğluna qıymadım yenə.

R ü c u :

Bu yerdə yadıma düşdü Koroğlu,
Gərək basdığını kəsməyə insan.
Namərdin əlində bir əsir oldu
O da mərdliyindən, qanacağından:
...Bolubəy dil tökdü qoç Koroğluya:
- Dünyada məni də bir nəfər duya,
Hanı elə adam, o igid hanı?
Məni əldən saldı bu üzüntülər.
Mən Həsən paşanın qızı Dünyanı
Sevirəm, Koroğlu, dünyalar qədər.

Mən elçi göndərib istədim onu,
Paşa buyurdu ki, elçi nə lazım?
Mənim bir şərtim var, qoç Koroğlunu
Tutub gətirənə qurbandır qızım.

Koroğlu qımışıb dedi: - Ey cavan,
Bir qızdan ötəri bu nə ah-fəğan?
Ancaq... mən hazıram elə bax bu gün,
Əgər sevirsənsə, ürəkdən onu.
Mən eşqə təslimәm, ancaq bir düşün,
Ucuz satmırsan ki, sən Koroğlunu?
Bolubəy diz çökdü, öpdü torpağı,
Koroğlu kövrəldi, “Qalx, gedək!”- dedi.
Açıldı cavanın qaşı-qabağı,

Onlar gecə ikən yol ətəklədi.
Bolubəy dilləndi: - Yox-yox, bu əsla
Düz deyil.
Koroğlu soruşdu: - Niyə?
Dedi: - Sən gedirsən öz ayağınla,
Paşa inanarmı bu əsirliyə?
Dedi: - Bəs neyləyək?
Dedi: - İzin ver,
Əlini, qolunu bağlayım sənin.
Bax, bu da qandallar, bax, bu da zəncir,
Nə danış, nə din!

Koroğlu dinmədi... sarıyıb onu
Yıxdı yeddi nəfər atın belinə
"Görək nə olacaq bu işin sonu".
Deyə, - o dinmədi, o susdu yenə...
Getdilər... Yol uzun
Keçdi bir qədər,
Bolubəy dilləndi: - Yox, Həsən Paşa
Deyəcək səninki deyil bu hünər.
Deyə, - o, atını ildırım kimi
Sürdü Koroğlunun üstə birbaşa.

Çəkib qılıncını endirdi alçaq
"Əsirin" alnına... fışqırdı al qan.
Qılınc bu zərbədən əyilib ancaq,
Sanki üzr istədi qoç Koroğludan.
İnsan utanmadı, dəmir utandı.
Koroğlu alışdı,
Koroğlu yandı.

- Ay namərd, ay namərd!
Bu nədir? - dedi.
Yoxsa... yaxşılığa töhfədir? - dedi.

## AZƏR

- Mənim əsirim də, deyirəm, yəqin
Əsl varisiymiş Bolubəylərin...
Dedim, insan gərək duya insanı.
Çox da biz düşmənik,
İnsanlıq hanı?
Sönən od üstünə od qalamazlar,
Yara bağlayanı yaralamazlar.

Ölmüşdüm, təzədən sanki dirildim,
Mərdlik qayda deyil, bir örnək imiş.
Düşmənə rəhm etmək, mən bir də bildim,
Heç demə, özünü məhv etmək imiş.

## TARİX

Tarixə baş vuraq... bu ağ, bu qara,
Mərdlik bazarında mən ki, sərrafam.
Haqqını göstərib çox haqsızlara
Ancaq düşməninə mərd olmuş babam,
Mərdlik mayasıyla yoğrulmuş babam.
Mərdlik şərəf oldu tariximizə,
Çox baha oturdu bu, ancaq bizə.

Gətir xatirinə səfəviləri,
Bəs niyə o zaman başda tac olduq?
Tacı duyğulara satandan bəri
Ağıllı bir başa biz möhtac olduq.

Bəzən özümüzü bəyənmədik biz,
Dedik filankəsə gərək oxşayaq.
Yandı öz bağrımız... fikir çeşməmiz
Özgə bağlarını suladı ancaq.

Heç kəs inciməsin, dedik, qoy bizdən,
Yandıq yad evində biz çıraq kimi.
"Buyur" deyə-deyə, hörmətimizdən,
Qonağı elədik evin sahibi.

Bizim böyük-böyük ustadlarımız
"Xəmsələr" bağladı özgə dilində.
Yadın malı oldu bizim varımız,
Babam talan oldu öz mənzilində.

Yada abidələr ucaldıb dedik:
Fəhləlik bizimdir, ustalıq sənin.
Çox zaman özgəyə qulluq elədik,
Beyin bizim oldu, əsər özgənin.

Nadir də, Qacar da ölkələr aldı,
Vətən ucalmadı, taxtı ucaldı...
Öz doğma yurdunu ayağa saldı,
Şahlar bizim oldu, zəfər özgənin.

Saldıq özümüzü özümüz gözdən,
Kül ilə oynadıq əl çəkib közdən;
Özgələr nur aldı şəfəqimizdən,
Günəş bizim oldu, səhər özgənin.

Mənim sərvətimə cahan göz dikdi,
Sərvətim, dövlətim ona gərəkdi.
Babam yer şumladı, babam yer əkdi:
Əmək bizim oldu, bəhər özgənin.

Açdı sinəsini bizə bu torpaq,
Aləmi bəzəyib lüt olduq ancaq...
Cıdırda çapsaq da hamıdan qabaq,
Hünər bizim oldu, nəmər özgənin.

Qızıl bizim oldu, kəmər özgənin.
Gəldi Səbuhinin dediyi günlər,
Açıldı bağlanan köhnə düyünlər.
El öz ipəyini özü geyindi,
Bütün var səsimlə deyirəm indi:
Günəş də bizimdir, səhər də bizim,
Hünər də bizimdir, nəmər də bizim...

***II fəsil***

## UKRAYNADA

Ukrayna, Ukrayna!
Qırx birinci ildən bəri,
Dneprin göy suları
Ötür matəm nəğmələri.
Yadlar geniş çöllərini
Ayaqlayır,
Şevçenkonun şerləri
Qan ağlayır.
Meşələrdə bülbüllərin
İndi ötür həzin-həzin.
Füzulinin nəvələri
Harayına gəlib sənin.
Gecə-gündüz meşədəyik,
Payızın gur yağışından
Çüllər, düzlər aşıb-daşır.
Diviziyamız,
Qarşıdakı döyüşlərə hazırlaşır.
Kəşfiyyatçı dəstələri
İz axtarır
Dövrəsində hər xəndəyin, hər kahanın.
Kəsik-kəsik ağ kötüklər
Dişlərini xatırladır
Yeddibaşlı əjdahanın.
Hər addımda ötən qanlı döyüşlərdən
Neçə izlər...
Səpələnib yola-kola
Dəbilqələr, boş gilizlər.

Hər cığırda
Bir vahimə, bir təhlükə.
Elə həmən bu meşədə
Canavarla qarşılaşıb
O qırmızıpapaq bəlkə?
Nələr, nələr pıçıldayır qulağıma
Bu cığırlar, dolay yollar.
Bəlkə... elə bu meşədə gizlənibdir,
Nənələrin danışdığı
Tükürpədən o nağıllar?..
Çəkmələrin dabanında əridərək
Günləri mən, ayları mən,
Keçib getdim
Coğrafiya kitabında
Adlarını oxuduğum
Neçə-neçə şəhərləri, çayları mən.
Kitablarda yazılanlar
Necə azmış, nə dayazmış...
Mərmilərin tüstüsündən
Göyün köksü damar-damar,
Qəlpələrin zədəsindən
Yerin köksü naxış-naxış,
Min kitabda yazılanı
Əvəz edə bilməz imiş bircə baxış.
Xəritədə, kitablarda
Adı belə çəkilməyən
Obalardan, aullardan, düzənlərdən
Keçirəm mən.
Saatlarla döyüş gedir,
Bu kəndlərin hər tinində, küçəsində.

Neçə qanlı xatirəm var
Bu kəndlərin neçəsində.

## YANA-YANA

Çox güclüdür hələ düşmən,
Bu kəndləri, şəhərləri
Asanlıqla vermir əldən.
Fevral ayı...
Sular aşır,
Sular daşır
Diviziyanın ön dəstəsi Dneprə
Yaxınlaşır.
Tanklarımız həmlə gəlir
Düşmənin ön cərgəsinə,
Katyuşalar
Matəm marşı qatıb bu gün öz dilinə -
Sıxışdırır almanları
Dneprin sağ sahilinə.
Döyüş gedir iki sahil arasında
Çay bölünüb iki yerə.
Çay sığışa bilmir daha -
Sağdan sola, soldan sağa
Mərmi atan sahillərə.
Dneprin göy suları
Al-əlvan, al-əlvan.
Sahil boyu hara baxsan
Qızıl qan, qızıl qan.
Elə bil ki, göy sulara

Payızdan xal düşür,
Sahil boyu meyid axır
O yandan, bu yandan.
Enli çayın ortasında
Meyidlər görüşür...
Dalğaların qucağında
Dayana-dayana.
Üzüb gedir
Düşmən olan meyidlər
Yan-yana, yan-yana.

## NİŞANGAH

Tuşlamışam tüfəngi
Kol dibində tərpənən
Düşmənə... Gözləyirəm...
Bir saatda elə bil
Bütüv bir zaman keçir,
Mənim yolum tüfəngin
Nişangahından keçir.
Biz hamımız bu yolda
Bir nəfərik, bir nəfər.
Bir hədəfə yönəlib
Atdığımız güllələr.
Nə gözəldir bu birlik,
Nə gözəldir bu vəhdət.
Bütün zəfərləri də
Hər zaman doğdu vəhdət.
Burda bircə hədəf var,

Artıq sözə yer olmur.
Burda uzun-uzadı
Hərəsi bir tərəfə
Çəkən nitqlər olmur.

Hər şöhrəti, şərəfi,
Ərzə yaydı bu vəhdət.
Kaş, hər yerdə, hər işdə
Saxlanaydı bu vəhdət.

Əməli bir,
Sözü bir
Yolu da bir olanlar
Neçin qadir olmasın?
Axı, Vətən də birdir,
Niyə bizim yolumuz,
Sözümüz bir olmasın?

Vətənim yaşayırsa,
Ölümdən qorxmaram mən;
Tək düşmənimlə deyil,
Ölümlə də varam mən!..
Yox! Vətən ölə bilməz.
Onun ölməzliyini
Qazanırıq biz bu gün
Nə şüarla, nə sözlə!
Qazanırıq burda biz
Ancaq ölümümüzlə!

Ölüm? Ona nə var ki,
Qorxulu gəlmir mənə.

Qorxuram həyatımı
Ucuz satam düşmənə!
Tuşlamışam tüfəngi,
Gözləyirəm bayaqdan.
Bir saatda elə bil,
Bütöv bir zaman keçir.
Yolumuz,
tüfənglərin
Nişangahından keçir.

## BİR PARÇA QƏND

Döyüşlər, döyüşlər, ağır döyüşlər
Düşmən alayının səbri tükəndi.
Kaxovka kəndinə girdik bir səhər,
Gəzirəm sinəsi yaralı kəndi.

Evlər qan ağlayır, küçələr lal-kar,
Boğulur daşlar da sanki qəhərdən;
Ordu-orddan keçən sısqa adamlar
Həyətdə, bacada görünür hərdən.

Girirəm evlərə... evlər ocaqsız,
Qazanlar paslanıb, gərəksiz qalıb.
Bacalar tüstüsüz, çıraqlar yağsız,
Təknələr, süfrələr çörəksiz qalıb.
Bir evin yanında əl-ələ gedən
İki uşaq dəydi gözümə birdən.
Biri lap uşaqdı... iki-üç yaşı

ancaq olardı,
Başında yamaqlı pilotka vardı.
Bizi görən kimi tez karıxdılar,
Ürkək baxışlarla mənə baxdılar.
Çatdım onlara
Əyilib uşağın öpdüm üzündən,
Dedim - qorxma, oğul, yad deyiləm mən.
Körpə ürəkləndi,
Açdım çantamı,
(Bizi seyr edirdi kənardan hamı).
Bir parça qənd tapdım:
- Götür, ye, - deyə,
Verdim körpəyə.
Aldı, qəndə baxdı,
Qaytardı ancaq.
Kənarda dayanan o biri uşaq
Dedi: - Qənd görməyib hələ qardaşım
Odur ki, tanımır.
Axdı göz yaşım,
İlk dəfə, cəbhəyə düşəndən bəri...
Ax! Nələr deyirdi onun gözləri.
Uşaq məlul-məlul bir qəndə baxdı,
Bir mənə baxdı.
O baxış deyildi,
Yox o, bıçaqdı -
Köksümə taxdı,
Ürəyim əridi, gözümdən axdı.
Ölümlər, qırğınlar gördüm
Mən yenə
Belə sarsılmadım,
yox, bu ağırdı.

O baxış, nəyəsə məni çağırdı
Baxan o deyildi, elə bil mənə
Onun gözlərilə Vətən baxırdı...

## MƏKTUBLAR

Ey Vətəndə bükülüb səngərlərdə açılan,
                    ətir kimi saçılan,
Əsgərlərin gözünə işıq verən, nur verən,
Bu soyuq səngərlərə bir istilik gətirən
            bir parçacıq kağızlar,
Sizdə elin, obanın nəğməsi var, səsi var.
Sizdə doğma ocağın odu var, nəfəsi var.
Siz ey sirli kağızlar,
Ey möhürlü kağızlar,
Əsgər sizi dönə-dönə oxuyur
Gündüz, günə oxuyur
Gecələrsə...
Ay-ulduza oxuyur.
Hər kəlməni yüz yerə
Yoza-yoza oxuyur.
Hər sözü əzbər bilir.
Cümlənin sonundakı, sözün əvvəlindəki
Hər mənanı, mətləbi
            güdə-güdə oxuyur.
Zərfin üzərindəki
    Möhürü də oxuyur.
    Möhürlərdə ay və gün,
    Bir də... şəhərin adı...

Bu nöqtədən güc alıb
Uçur,
Uçur, hey uçur,
xəyalların qanadı...
"Bakı", "Şəki", "Lənkəran" -
Bir əl boyda kağızda
O boyda Vətən gəlir.
Uzun-uzun yollara
Gözünü dikən gəlir,
Səbri tükənən gəlir.
Qurtarır nigaranlıq
Vətənin havasıyla
nəfəs alır bir anlıq.
Doğma od ocaq gəlir
Gözlərinin önünə
öz əlilə əkdiyi
bağça gəlir, bağ gəlir.
Döyüşlərdə bərkiyən,
Həmişə "vur, vur", deyən
əsgərin ürəyinə,
Bir parçacıq kağızla
Dağ gəlir, dayaq gəlir.
... Sulu səngər, tar axşam.
Güllə vıyıltısına
Xəyalımda dəm tutub,
Əlimdə qələm tutub,
Evə məktub yazıram:
Sabah böyük hücum var,
"Əziz ana, salamlar...
Aldım məktubunuzu,
Mən yaxşıyam...

Yaxşıyam...”
Sulu səngər.
          Yağış, qar...
Sabah böyük hücum var,
“Qəlbinizi sıxmayın
Əgər... məktub geciksə...
Nə olar...
          Darıxmayın.
Bəzən... vaxtımız olmur.
Sən demişkən, pis günün
Ömrü, günü az olar...”
Sulu səngər,
Soyuq, qar...
Sabah böyük hücum var.
Kim bilir, bu, bəlkə də...
Mənim evə son sözüm,
Son məktubumdur...
                    Qələm
Durdu, dayandı bu dəm.
Hə... bəlkə də... bu məktub
Evdə oxunan zaman
Qəlbim susmuş olacaq...
Ola bilər...
          Mən ancaq
İndi məktub yazıram,
Əlim sağ, ayağım sağ...
Ağrımamışdan əvvəl
Ağrısını düşünən
Başın dərdinə qalmaq...
Ölüm hələ gəlməmiş,
Qarşısında saralmaq

Nəyə gərəkdir, nəyə
Bu, yaraşmaz kişiyə...
Sulu səngər,
Yağış, qar...
Sabah böyük hücum var.

## TAPŞIRIQ

Bahəddinə tapşırıq:
İyirmi dəqiqəyə
Çatdırmalı
O, rabitə xəttini
Qarşıdakı təpəyə,
Qar yağır piltə-piltə.
Qəhrəmanlar sürünür,
Yanıb sönür fişənglər
Təpə gendən görünür.
Düşmən görüb onları
Yağır güllə yağmuru
Əsgərlərin üstünə.
Daşlardan tuta-tuta
Onlar sürünür yenə.

... Çatdılar,
Bircə göz qırpımında
Bölük ilə birbaşa
Rabitə yaratdılar.
Yanıb sönür fişənglər

Təpənin zirvəsində.
Onlar görür hər yeri,
Bahəddinin əmrilə
Nişangaha salınır
Düşmənin mövqeləri.
- Filan nöqtə, filan yer
- Atəş!
- Atəş!
- Atəş!
- Bir qədər sol tərəfə
- Atəş!
Bütün zərbələr,
Dəyir yalnız hədəfə.

Bir az keçir, otuz tank
Hücum çəkir vurhavur!
Səsdən qulaq tutulur.
Bu vurhavur içində
Eşidilir yenə də
Bahəddinin gur səsi,
"Atəş" səsi, "vur" səsi.
Tanklar alışıb yanır,
Çöllər nura boyanır.
Batareya düşmənin
Səkkiz tankını vurdu,
. . . . . . . . . . . . . . . . .
Düşmən geri oturdu.

## BORC

Hücum! Hücum! Can atırıq
Biz sahildən-sahilə,
Biz şəhərdən-şəhərə.
Addımlayır burda zaman
Keçən zaman
Biz səngərdən-səngərə.
Burda yalnız əməllərin gülləsiylə
Vaxt ölür.
Ayın, günün qiyməti də
Tutduğumuz obalarla, şəhərlərlə
Ölçülür.

Kəsilməyir gecə-gündüz
Hücumların arası.
Odessaya yaxınlaşır
Bizim diviziyamızın
Qarşıdakı sırası.

Ön sırada bizim bölük.
Qasım gedir lap öndə.
O danışır əlindəki
Avtomatın dilində.
Yox, yox bu mən tanıdığım
Uşaq kimi baxdığım
Qasım deyil,
O deyil.
Ona göydən vəhy gəlib elə bil.
Onun iradəsilə
Tənzim olur bu yürüşün
Həm əvvəli, həm sonu.

Qoyub dizi altına
Tərəddüdü, qorxunu.
Arxa yadından çıxıb
Önə baxır, o, önə!
Avtomatı sürəkli,
Çılğın qəhqəhələrlə
Gülür düşmən üstünə.

Güllə ötür solundan,
Mərmi keçir sağından.
Elə bil daş asılıb
Qasımın qulağından.
Nə eşidir, nə görür,
Ata-ata yürüyür.
Güllə dəyir əlinə,
Hiss eləmir o yenə.
Bu məqamda bənzəyir
O, qeyrət heykəlinə.
Davamıdır bu ömür
Neçə mənalı ömrün, -
Qazanxanın, Babəkin
Timsalıdır o, bu gün.

Atır özünü birdən
O, düşmən səngərinə,
Çəkir tətiyi... ancaq
Daraq boşdur o, yenə
İtirməyir özünü,
Tez çiynindən çıxarır
Avtomatın bağını,

Çevirir qundağını.

Qarşısına çıxanı
Vurub sərir:
- Bu sənin!
Bu sənin!... Bu da sənin!
Donub heyrət içində
Lap özü də düşmənin.
Birdən...
qəfil bir güllə.
Yıxılır üzü üstə.
Bizimkilər doluşur
Səngərə dəstə-dəstə.

Gəlir bizim komandir,
Cənazənin önündə
Baş əyib təzim edir.
Qasım komandirinin
Qarşısında quruyub
Neçə yol bircə gündə.
İndisə komandiri
Quruyub heykəl kimi
Əsgərinin önündə...

Kəndin baş meydanında
Qasımı dəfn elədik.
Onun düşmən əlilə
Oğurlanan ömrünü
Yaylım atəşləriylə
Biz havaya çilədik.

Yığıldı kənd əhli də,
Gül-çiçək gətirdilər.
Qəbr üstnə sərdilər.
Kənddəki tək məktəbə
“Qasım” adı qoyuldu.

Güllə qıran bir ömrün
O qırılan parçası
Bu kənddə məktəb oldu.
O, bir idi yüz oldu,
Körpələrin dilində
Nəğmə oldu, söz oldu...

Onun qırılmış ömrü
Azərbaycan önündə
Borc idi... aramızda
Payladıq o borcu biz.

Borc üstünə gəldi borc,
Yüngülləşdi yolumuz,
Ağırlaşdı çiynimiz.
Özü bu kənddə qaldı,
Arzuları bizdədir;
Səsi, sözü Vətəndə
Borcu çiynimizdədir.

***

Borcunu bilməyənlər
Həqiqətdən gen olur.
Torpaq da öz borcunu
Dərk edəndə... o torpaq
Çevrilib Vətən olur.
Həqiqəti tapmadıq
Müqəddəs sandığımız
Təriqətdə, dində biz.
Ancaq daim ucaldıq
Borcun üzərində biz.

Ucalmadı heç zaman
Şöhrəti məslək bilib
Ucalmağa tələsən.
Qalxdı əsrin fövqünə
Öz müqəddəs borcunun
Ayaqları altında
Özün qurban kəsən.

Dostumuz da çox bizim,
Qohum-qardaşımız da.
Vətənsə... bir dənədir.
Ey Vətən, ey anamız,
İlk borcumuz sənədir,
Son borcumuz sənədir!
Qürbətdə yox, Vətəndə
Olduğuyçün isidir
Bizim doğma komamız
Əqlimiz də hərlənir
Əqrəbinin ucunda,

Sənsən qiblənümamız!

## YOLLAR

Toplandıq alay-alay,
Qırıldıq bölük-bölük.
Tək yollar üstə deyil,
İllər üstə yürüdük,
Günlər üstə yürüdük.
Rast gəldik neçə-neçə
Düşmən alaylarına...

Gəlib çatdıq qırx dördün
Biz bahar aylarına...
Siz ey doğma Vətəndən
Uzaq, aralı yollar,
Başı bəlalı yollar.
Hər çalası, çuxuru,
Daşı yaralı yollar.
Getdik...
Getdik... Neçəmiz
Elə yollarda itdik.
Biz neçə cüt çəkməni
Sinənizdə əritdik.

Dərdimizi bu yollar
Nə eşitdi, nə bildi.
Hərarətli, təlaşlı

Könül vurğularımız
Sizin soyuq, buz kimi
Sinənizə səpildi,
Tozlu-torpaqlı yollar,
Sinəsi dağlı yollar.

Bizim öz əlimizlə
Bu yollarda qorundu
Namusumuz, arımız.
Anaların göz dikib
Səhər, axşam baxdığı
O yollardan başlanır
Bu döyüş yollarımız.

Bu əzablı yolların
Dastanı dilimizdə,
Əzabı çiynimizdə,
Tozu şinelimizdə...
Gördük əzablı günlər,
İnamımız itmədi,
Biz ona can vermədik.
Bu yollarda ən gözəl
Duyğuları, hissləri
Biz salıb itirmədik.

Bu yollarda nə qədər
Çovğuna, qara düşdük.
Neçə-neçə dost ilə
Bu yollarda ayrılıb,
Bu yollarda görüşdük.

Yolumuz əyri-üyrü,
Məqsədimiz düz oldu.
Bizim döyüş yolumuz
Ömür yolumuz oldu.

## SƏN GÜL AXTARIRSAN

Bülbül nalə çəkdi, bülbül uğundu,
Dəyişdi bir anda köhnə mənzərə.
Bu şirin nəğmədən təbəssüm qondu
Mürgülü gözlərə,
                    Dalğın üzlərə...

Qaldırdı başları səngərdən bu səs.
Hamı bir-birinə baxdı, dayandı.
Bu dəm bir anlığa özünü hər kəs
Doğma bağçasında, evində sandı.

- Bülbül, nəğmələrin sinəmi dağlar
Yaralı çöllərdə, gəl, ötmə dil-dil.
Bülbül, aldanmısan, yer-göy qan ağlar,
Bu bahar, umduğun o bahar deyil.

Dünyanın növrağı necə pozuldu,
Mahnılar çiləmə səngərimizə.
Güllə vıyıltısı nəğməmiz oldu
İndi bülbül səsi yaraşmır bizə.

Necə yaralıdır, gör necə torpaq,

Dayan, nəğməni kəs, ötmə boş yerə.
Gül-çiçək yerinə, bülbül, yaxşı bax,
Minalar əkilib indi çöllərə.

Sən gül axtarırsan, bülbül,
bir dayan!
Bahar həsrətilə alışıb yandın,
Yoxsa... sinələrdə açılıb yanan
Qızıl yaraları sən gülmü sandın?
Bülbül, nəğməni kəs, bülbül, amandır!
Nə özünü yandır, nə bizi yandır!

## ƏNVƏR ƏLİBƏYLİ

Taq-taq, taq-taq!
Bir saat qabaq
Düşmənə toplardan atəş yağdıran,
Ənvər şer yazır torpaq qazmada.
Düşmən səflərini dağıdıb qıran
Əllər şer yazır torpaq qazmada...

Qəlbinin oduna şair, anbaan
Saçdığı atəşdən od qatır indi.
Atdığı topların vurğularından
Şerinin vəznini yaradır indi.
Yumşaq təbiətli bu həlim insan,
Deyərdim, quşa da daş ata bilməz.
Ancaq... top dalına keçdiyi zaman
O, yalnız əsgərdir

Ölər, yenilməz!..

Döyüşdə əsgərdi,
Adicə əsgər.
Döyüş qurtardımı?
Şairdi Ənvər.

Onun şerində də top səsi gurlar
Günün öz səsidir hər təzə şer.
Burnunun üstdəki tək-tük çopurlar.
Qırma ləkəsinə necə bənzəyir.

Qəlbinin oduna şair, anbaan
Saçdığı atəşdən od qatır indi.
Atdığı topların gurultusundan
Şerinin vəznini yaradır indi:

“... İndi döyüşürəm mən
Gələcək xoş çağımçın.
Varlığımla hiss edib
Bunu bilirəm ancaq
Bu gün kilidli qalan
Aynabənd otağımçın
Mənim yeraltı qazmam
Təməl daşı olacaq!..”

## SƏNGƏRLƏR

Səngərlər,

xəndəklər,
uçurumlar, yenə!
Yazır tariximi mənim öz qanım.
Bu gün Rusiya ilə çiyin-çiyinə
Yarır cəbhələri Azərbaycanım.

Qanlı qovğalarda keçib canından
Nəyisə axtarır həmişə insan.
Hər xalqın, hər yurdun mərd oğulları
Vətənin naminə nələrdən keçir.
Deyərdim, tarixin ana yolları
Hər zaman cəbhədən, səngərdən keçir.

Səngərlər - zamanın ayaq izləri,
Səngərlər - torpağın dərdi-səridir.
Dünənin bu günə baxan gözləri,
Tarix kitabının hərifləridir.

Səngərlər - ən böyük imtahan yeri,
Səngərlər - torpağın min sinə dağı.
Səngərlər - zamanın təlatümləri,
Səngərlər - nifrətin açıq dodağı!

Səngərlər - dünyanın öz təzadları,
Yaranır fikirlər zəlzələsindən.
Səngərlər - məsləkin yer qanadları,
Şərəfi ucalır güllə səsindən.
Səngərlər - atəşlə danışıb dinən
Böyük bir ölkənin ən aydın dili.
Öz haqqı naminə təlatümlənən
Qəzəb dənizinin axır sahili!..

## YENİ QƏLƏBƏLƏR

Cəsarət ölçülmür qüvvətlə, sayla,
Haqq ilə yüksəldi şərəfim, şanım.
Gəldi öz qəhrəman oğullarıyla
Moldav torpağına Azərbaycanım.

Alaylar vermədi əldən fürsəti,
Qədim Veronnada toplandı, durdu.
Diviziya burada gələcək, qəti,
Böyük hücumlara hazırlaşırdı.

Döyüş yollarında özü yüksələn,
Hər kəsin öz yolu, rütbəsi,adı!
Dörd yüz on altıya təzəcə gələn
Cavan əsgərlərə təlim başladı.

Hamı bir məqsədə, yola can atdı,
Böyüdüb qəlbində qəzəbi, kini.
Hər igid əsgərin yolu yaratdı
Şanlı diviziyanın prospektini.

Qırx beşinci ilin qışı...
Diviziya,
Başladı ən qəti, son hücumlara.
Ölkələr adlayıb çatdı Polşaya,
Ağır cəbhələri o, yara-yara.

Qluzno... adamlar küçədə min-min,
Açıldı üzlərdə gül-çiçək yenə.
Azadlıq gətirdik böyük Şopenin
Dörd il darda qalan nəğmələrinə.

Azadlıq naminə silah qaldıran,
Ey əsgər, xoşbəxtsən... səndədir hünər.
Keçdiyin yerlərdə sənin hər zaman
Ayağın altına çiçək səpdilər.

Xoşbəxtsən!.. Üzünə gülür zəfər də,
Sənin aydan arı bir amalın var.
Bədbəxt o əsgər ki, keçdiyi yerdə
Onu çiçək deyil, qəzəb qarşılar.

O əsgər, nə qədər igid olsa da,
Barmağı tətikdə titrəməzmi bəs?
Belə bir əsgərin igidliyindən,
axı, nə fayda?
Çaldığı zəfər də bir heçə dəyməz.

Yad ordu yad yerə girdiyi zaman
Ölkə matəm tutar bu göz dağına.
Mənim diviziyamsa öz torpağımdan,
Səadət apardı yad torpağına...

*III fəsil*

## ALMAN TORPAĞINDA

Almaniya, Almaniya,
İki cəbhə, “qisas” deyə
Sinən üstə adladı.
Sənin məddən
Bu gün sənin öz başında çatladı.
Tarix boyu sən özünə sığışmadın,
Neçə dəfə partladın.
Öz əlinlə lənətləndi öz adın...

Yandırmaq istəyirdin
Sən bu boyda dünyanı,
Özün yandın,
boğuldun öz tüstünə.
İndi dayan, görürsənmi?
Dünya gəlir üstünə.

Yurd-yuvası talan olan,
Yetim qalan körpələrin
Məlul-müşkül baxışları
İndi gəlir üstünə.
O ölkədə, bu ölkədə
Tökdüyün göz yaşları
İndi gəlir üstünə.
Vətənindən uzaqda
Vətəni aydın görən
Düşünən, düşündürən
Alman vətəndaşları
İndi gəlir üstünə.

*X əsrdə işğalçı alman kralı.*

Uzaq, qərib ellərdə
Ağlayan baş daşları
İndi gəlir üstünə.

Sinələrə vurduğun
Çalın-çarpaz o dağlar
Gəlir indi üstünə.
Bağladığın qapılar,
Söndürdüyün ocaqlar
Gəlir indi üstünə.

## TARİX

Ottondan* - Hitlerə!
On əsr, nədən
Sərhəddin həmişə sənə dar oldu;
Bu qoca dünyamız sənin əlindən
Qanlar içə-içə lap bezar oldu.

Səlib yürüşləri hey zaman-zaman,
Yeddi, otuz illik müharibələr.
Qovğalar içində "böyüdü" alman,
Bir deyən olmadı bu qanlar yetər!

Gah Rimə dolaşdın, gah da Firəngə
Neçə yol dağıtdın Macarıstanı.
Hər dəfə sən çəkdin dünyanı cəngə,
Yıxdığın aşkardır, qurduğun hanı?

Böyütmək qəsdilə öz torpağını
Vuruşdun, görmədin ancaq bunu sən.
Pozdun gündüzlərin təmtərağını,
Sakit gecələrin yuxusunu sən.

Elə hey vuruşdun, barışdın yenə,
Heç vaxt bilinmədi dostun, düşmənin.
Hər dəfə sığındın öz sərhəddinə,
Özündən ağırdır tarixin sənin.

Müdhiş kralların söylədi: - "Mən, mən!"
Dedilər: "Dünyanı təzədən bölək.
Haqsız bölünübdür dünya əzəldən,
Haqqı bu dünyaya qaytaraq gərək".

Çoxları bu dərdi gətirdi dilə,
Çoxları dünyaya çox tələ qurdu;
Bir zaman Heyne də kinayəsilə
Bu "haqsız" bölgüyə işarə vurdu:

"Qurular - ruslara, fransızlara
Tabedir,
Dənizlər - ingilislərə.
Xəyalat aləmi, geniş səmalar
Qədimdən qismətdir təkcə bizlərə.

Bax, burda üstünlük bizimdir, bəli,
Biz göydə yerləşib salmışıq Vətən.
O biri millətlər aşağıları,
Quru yer üzünü ediblər məskən..."

Şair də olammır burda qərəzsiz,
Bunu bir dərd kimi düşünmüş o da.
Deyir: - Yuxarıya layiq ikən biz
Yer tapa bilmədik aşağıda da.

Şairin təzadı... o görür, duyur.
Bir yandan toxunur bu darlıq ona,
O biri yandan da lənət oxuyur
Zalimlər, zülmlər Almaniyasına:
"Ey Almaniya, sənə kəfən toxuyuruq,
Toxuduqca, əbədilik, üç qat
Lənət oxuyuruq,
Sənə lənət oxuyuruq..."

Sən zora güvəndin, bilmədin amma
Hər böyük zəfərə haqq bünyad olur.
Bilmədin,"zülm ilə qurulan bina
Ədl ilə uçulub tez bərbad olur..."

İnsandan əvvəldir bu torpaq, anla,
Mən burda,
sən isə orda yarandın.
Bu qədim bölgüyə öz üsyanınla
Xilqətin əzəli hökmün dandın...

Üsyanın mənasız, cəhdin havayı,
Zaman öz yoluyla durmadan gedir.
Hər xalqın, millətin öz torpaq payı,
Xilqətin, iqlimin öz ahəngidir.

Özünü qoyduqca dünyaya qarşı,
Pozmaqmı istərsən bu ahəngi sən?
İnsandan qocadır dövranın yaşı,
O ki, heç dönməyib öz gərdişindən.

Heç vurmaq olarmı qoza düyünü?
Bunu bacarmayıb elm də, din də.
Qismətə şükran ol, böyüklüyünü
Görmə özgəsinin kiçikliyində.

Düşündüm, daşındım, çox düşünüblər,
Nədəndir səndəki bu narahatlıq?
Sığmadı özünə, partladı Verter,
Əqlinmi, hissinmi, qanınmı artıq?
Torpağın çatmırmı?
Bəhanədir bu!

Burda birincilik iddiası var.
Elə bilirəm ki, torpaq, hava, su
Bu geniş dünyada hamıya çatar.
Başabəla oldu öz rəhbərlərin,
Torpağın azdırsa... idrakın ki, var.
Bir qarış torpaqda yüz qarış yerin
Gülünü dərməyə idrakın çatar.

Bu qanlı qovğalar sənə nə verdi?
Al qana bələdin hər qarış yeri.
Sənin fürerlərin qırdı, çevirdi
Uçuran əllərə quran əlləri.
Tamah, yenə tamah!..

Bütün dünyanı,
Ovuca sığdırmaq!
Nağıla bir bax!
Deyirəm, dünyaya nağıllar yetər,
Neronlar, Teymurlar bacarmayanı
Hitlerlər, Gebbelslər bacarmaq istər.

Nağıllar, dünyanın bəsidir, bəsi!
Nağıllar bir zaman tilsim açardı.
Tamah olmasaydı,
insan nəfəsi
Dünyaya atəş yox, ətir saçardı...

R ü c u :

Dahilər - hərəsi bir böyük cahan.
Tufandı Bethoven, borandı Hüte.
Elə bil ümmanlar fırtınasından
Yarandı Bethoven, yarandı Hüte!

Onlarda sevgi də, nifrət də, kin də
Sərhəd tanımadı, güldü xilqətə.
Sənin "fırtınalı dahilər"in də
Nə özünə sığdı, nə təbiətə.
Məkr və Məhəbbət! Üsyandır yerə!
Ağladır dünyanı tarixdən bəri.
Sığışa bilməyir dibsiz göylərə
Faustun dəhşətli düşüncələri.

**C.Cabbarlının "Oqtay Eloğlu" pyesinə işarədir.*

Şillerin amansız üsyanlarından
Nəsillər dərs aldı bir məktəb kimi;
Karlın bıçağıyla biz də bir zaman,
Məsum Firəngizi öldürmədikmi?*

Böyük bir millətin od nəfəsilə
Rusiya xilas oldu köhnə donundan.
Marksın, Engelsin üsyan səsilə
Danışdı "Avrora", dəyişdi dövran.

Öz əsrinə qarşı tək durdu Marks,
Şimşək parladı bizim əsrdə.
"Avrora" topunu doldurdu Marks,
Ancaq o gurladı bizim əsrdə.

Sən öz fəlsəfənlə yol açdın bizə,
Yarandı cahanda təzə bir cahan.
Marksın çevrildi əqidəmizə,
Zaman yaman çıxdı öz axarından.

Özün yaratdığın bir fəlsəfəyə
Niyə düşmən oldun, sən bu gün niyə?
Açdığın cığırla getmədin özün,
Xiyabana dönüb o cığır bu gün.

Həmən xiyabanla üstünə indi
Özün yaratdığın fəlsəfən gəlir;
Sənə ayrı yolu göstərənləri
Bükməyə,
o yolla bir kəfən gəlir!..

## TOMAS MANN

Veymar! Ləkələndi şərəfin sənin,
Ey neçə dahinin yurdu, məskəni.
Vilandın, Şillerin, Baxın, Hütenin
Adıyla tanıdı bu dünya səni...
Bəs indi?..

O şərəf, şan ləkələndi
Ayrı ad qoşuldu adına indi...
Ettersberq dağında - lap yaxınında
Ölüm düşərgəsi saldılar, Veymar.
Çimdirib səni də insan qanında,
Adına, gör, necə damğa vurdular.

Niyə Buhenvaldı burda tikdilər?
Bir xalqın şərəfi, gör, nəyə döndü.
Dünyaya ulduzlar bəxş edən şəhər,
Dünyanın qoynunda ləkəyə döndü.

Ettersberq civarı... bir vaxt, bu dağda
Hüte gəzinərdi,
Bax gəzinərdi.
Onlar düşünərdi insanlıq haqda,
Nəvələr, insana işgəncə verdi...

Hüte düşünərdi: görən neyləyək,
İnsan xilas olsun əzablarından.
Bu günsə Fausta sillə çəkərək,

İnsan əzabından həzz aldı insan.

“Ali həqiqətlər” gəzirdi Hüte,
Bu yolda bəşərə o, şöhrət oldu.
Onun vətənində bir alçaq bütə
Baş əyib, həqiqət yerə vuruldu.

Hüte söylədi ki, nə din, nə qanun,
İnsan idrakının qədrini bildi.
Bəşəri düşünən doktor Faustun
Vətəni bəşərə bəla kəsildi...

Bethoven! - Bahadır, yenməz qəhrəman!
Odunun mayası vüqardan oldu.
Yal¬nız öz qəlbinə qul olduğundan,
Bütün ürəklərə o soltan oldu.

Bethoven söylədi, insan ucalsın,
O, haqqa səslədi Napolyonları.
Onun yurdundasa tapdandı min-min
İnsan şəxsiyyəti, insan vüqarı...
Bax yerdən qoparıb əllərimizi,
Səmavi dünyaya çağırdı bizi...
Onun yurdundasa... xoş xəyalları
Səmadan endirib əzdilər yerdə.
Göylərə sığmayan idealları
Hasara aldılar düşərgələrdə...
Qəhvəyi vəbanın rəzalətini
Yuya bilməmişik hələ bu gün də.
Hitler əməlinin xəcalətini
Çəkdi Tomas Mannlar dünya önündə.

O dedi: - “Dünyada biabır olduq,
Görün, peyvənd ikən necə cır olduq.
Dünya cəllad kimi tanıyır bizi,
Lənətlə yad edir Vətənimizi.

Damğadır dünyaya indi Vətənim,
Arzumuz, qəsdimiz belə deyildi.
Ucadır, böyükdür millətim mənim,
Bəs niyə bu qədər alçala bildi?”

İyirmi beş il keçir o fırtınadan,
Doğrunu əyridən seçən hər alman,
Bu gün də düşünüb hey dərin-dərin
Çəkir əzabını o dəhşətlərin.

Ey alman həmkarım Şmiide, indi
Əsl söz, doğru söz mənim, sənindi!
Sən öz millətinin adından bu gün
Lənət oxuyursan ötən günlərə.
Sənin məktubların... amalın, arzun,
İstərəm haqq əkib, həqiqət dərə...

Köhnə Almaniya dünyaya güldü,
Nəhayət cəbhədə başı üzüldü.
Təzə Almaniya doğuldu bir də,
Ölümlər yuvası - düşərgələrdə.
Buhenvald salındı otuz yeddidə,
Fikir zəncirləndi, vicdan boğuldu.
Tarixin ləkəsi, bu ağır ildə
İnsan ahı üstə il təhvil oldu.

Elə bil vaxt özü özünü dandı,
Köklədi sazını zaman qəm üstə.
Günlər düyün düşdü, tarix utandı,
Hünkürüb ağladı bu rəqəm üstə.
Dərin düşüncələr oda qalandı,
Əsrin venasında qan laxtalandı...

Söküldü dirəklər, uçuldu damlar,
Müsibət yağışı yağdı dünyaya.
Adamlar, adamlar, yazıq adamlar
Qorxu çeşməyiylə baxdı dünyaya.

Zülmlər danışdı qorxu - hürküsüz
Zəhmi yaman idi dəmir məhbəsin.
Ötəri bir nida, ötəri bir söz
Oldu can bahası düşünən kəsin.

Dəyişib haqq oldu nahaqqın adı
Qırıldı qanadı hər xəyalın da.
Əsarət əl çaldı, zülm oynadı,
Ədalət hönkürdü qapı dalında.

Qaranı ağ kimi dürtdülər gözə,
Həqiqət boğuldu, haqq iflic oldu.
Fikirlər, əməllər durdu üz - üzə,
Zaman yoldan çıxdı, vaxt iflic oldu.
Təzə "din" yaradıb, o köhnə dini
"Mayn Kampf"* - bəşərin ahına satdı.

**Hitlerin "Mənim mübarizəm" əsərinin almanca adı.*

Allahın göydəki cəhənnəmini
İnsan, insan üçün yerdə yaratdı.

“Mənim mübarizəm!” - nə deyir bizə?
Nəyin uğrundadır bu mübarizə?
Bir qansız cəlladın hökm, qayəsi
Oldu bir ölkənin məramnaməsi.

Bu qanlı kitabın hər cümləsinin
Mübtədası nifrət, xəbəri “öldür!”
Onlar cümlə deyil, yaxşı bax,
                              min-min,
Şəhərlər üstünə yağan ölümdür.

Hər nidada qəzəb, hər sözdə bir kin,
Hər qara siriftdən qan iyi gəlir.
Bütün millətlərin, bütün irqlərin
Sümüyü üstündə bir xalq yüksəlir.
Deyirəm, ikinci cahan hərbinin
Yolu bu kitabdan başlanır yəqin...

## ÇƏKMƏLƏR

Soldat çəkmələrinin
Səsindəki sözü tap,
Mənanı tap!
Tap-tarap!
Dərə aşdı, dağ aşdı çəkmələr,
Neçə-neçə ölkənin

Tozlarına bulaşdı
çəkmələr!
Bu yollara səpilən
Müsibətdən, yolları
Təmizlədi çəkmələr.
Qurdu yuvasınadək
Hey izlədi çəkmələr.

Çətin, uzun yolları
Dabanında əridib,
Uddu, yedi çəkmələr.
Qafqaz ətəklərindən
Avropaya yol açdı
Dünən bizim çəkmələr.

Bu qocaman dünyanın
Ən təzə tarixində
Ayaq izim çəkmələr!..
Aylarla, həftələrlə
Ayaqlardan çıxmayır
Addımları şərəfli,
Özü qaba çəkmələr!
Sahibiylə bir dözür,
Hər əzaba çəkmələr!

Bu çəkmələr bənzəmir,
Avropadan ölkəmə
İxrac olan: şiş burun,
Modern çəkmələrə!
Təzə dəblər aparmır,
Yox, azadlıq aparır

Keçdiyi ölkələrə!

Alman torpağındayam,
Yol gedirəm dəmadəm
Draysiqi, Lansberqi,
Zonenburqu, Xammeri
Çoxdan ötüb keçmişəm.
Oderin sol yaxası,
Düşmən təslim olmayır,
Son nəfəsi hələ var.
Çox qəzəbli olurmuş
Son nəfəsdə canavar...

## BUHENVALD DUSTAĞI

Ayağında yun dolaq,
Pencəyi zolaq - zolaq,
Şalvarı zolaq - zolaq
Bizim elli bir nəfər
Qoşuldu cərgəmizə,
Başına gələnləri
Danışdı bir - bir bizə:
- Mayordum, əsir düşdüm.
Əsir... o gündən bəri
Gəzdim Almaniyadakı
Bütün düşərgələri.
Naxhauzen, Daxau...
Son bir ildəsə oldum
Mən Buhenvald dustağı…

Danışdıqca, yazığın
Əsir əli - ayağı...
- Əynimizə geyincə
Zolaq-zolaq paltarı
Hər şey dəyişdi birdən,
İtirdik insanlığı,
Əzmi, eşqi, vüqarı...

Biz hasarlar içində
İnsanlıq cərgəsindən
Qaralandıq, pozulduq.
Faşist çəkmələrinin
Pəncəsində toz olduq.
Bizi nömrələdilər,
Soyadımız, adımız,
Fərdimiz unuduldu.
Mənim nömrəm, elə ki,
Min üç yüz yetmiş oldu,
Şəxsiyyətim, varlığım
Bununla bitmiş oldu...
Qaya çapdıq, daş yardıq,
Uzaq tikintilərə
Çiynimizdə apardıq.
Daşlar, daşlar, a daşlar.
Dan yeri ağarmamış
Daşlar içində başlar,
Daşlar ilə vuruşlar.
Daşlar kimi daşlaşan
Qabar əllərimizdə
Açdı min yara daşlar,
Faşist ürəyi kimi

Daşlanan qara daşlar.
Gözlərdə yaşlar ağlar,
Kipriklər, qaşlar ağlar.
Bizim gözlərimizlə
Dil deyib daşlar ağlar.

Bizi hey döyə-döyə,
Bizi hey söyə-söyə
İnsanlıqdan çıxarıb
Çevirdilər sürüyə:
Paltarımız bir bizim,
Naharımız bir bizim,
Axşamımız bir bizim,
Səhərimiz bir bizim.
Əzabımız bir bizim,
Kədərimiz bir bizim.
Səhər getdik naxıra,
Axşam döndük axura.
Başımız da qırxıldı,
Fərqimizi bildirən
Bir şey qalmadı bizdə.
Bir-birinə bənzədi
Hələ sifətimiz də.

Mən indi də bilmirəm
Doğrudanmı insanam?
Görən, bir vaxt olmuşmu
Mənim də atam, anam?..
Mənim də öz Vətənim,
Elim, günüm varmıdır?
İnsanammı? Söyləyin,

Bu sizə aşkarmıdır?
Kiməm?
Kiməm yox, nəyəm?
Döşəmələr silməyə
Bir parçacıq əskiyəm!..
İnsan hüquqlarıyla
İnsan cərgəsindədir.
Bütün haqqı, hüququ
Əlindən alınanlar
Kim deyil, nədir, nədir!..
Düşərgədə nə sözün,
Nə söhbətin, nə özün,
Nə gülüşün, yerişin,
Nə də... işin sənindir.
Nəfəsin də, canın da,
Fikrin də, gümanın da,
Namusun da, arın da,
O zol-zol paltarın da
Sənin yox, özgənindir!..

Bu halda... sənsənmi sən?
Söylə, insansanmı sən?
Öləndə də demirlər:
Filankəs öldü... Yox-yox!..
Deyirlər, min yeddi yüz
Qırx altı öldü artıq!..
O yoxdur, yoxdur dəxi!
Onun bundan sonrakı
    yolu:

---

**Krematoriya.*

“Villi mətbəxi”*.

Yandırırlar meyidi,
Ancaq heç soran olmur
Bu rəqəmə dönənin
Günahı bəs nə idi?
Səhərdən axşamadək
Yanır “Villi mətbəxi”.
Burda ölüm - o son yol
Azadlığa, dincliyə
Gedən təkcə yol olur.
Dünən var olan insan,
Bir saatın içində
Bir ovucluq kül olur.

Yanır mətbəx cırhacır,
Mətbəxin borusundan
Düşərgəyə his yağır...
Nədən imiş bilmirəm
Düşərgə divarları?
. . . . . . . . . . . . . . . . .
O niyə sökülmədi?
O niyə dağılmadı?
İnsan nalələrinə
O necə dözə bildi?
Yox! O, daşdan deyildi,
O, dəmirdən deyildi...
Dəmirdən olsaydı o
Əriyərdi mum kimi.
Daşdan olsaydı əgər,
Lağım-lağım uçulub,

Tökülərdi qum kimi.
Daşdan, dəmirdən deyil,
İsti göz yaşlarından,
Məlamət daşlarından
Tikilib o divarlar.
Buna şübhənizmi var?
Bəli, oda od dözər,
Fəryada fəryad dözər!..

Mən orda bildim ancaq,
Səadətçin insana
Necə az şey gərəkmiş.
Səadət - bir içim su,
Bir doyumluq çörəkmiş!..

Xoşbəxtliyin içində
“Mən xoşbəxtəm!” - söyləyib
Nəfəsini dərən yox.
Gündüz yanan çırağın
İşığını görən yox!..

... Bir alman şairiydi
Mənim yataq yoldaşım.
O demədi: “Az aşım,
Mənim ağrımaz başım”..
O, öz nəğmələrilə
Faşist zindanlarına
Lənət oxuduğundan
Nəsibi zindan oldu.
Ancaq həmən nəğmələr
Lənətlənən ölkəyə

Şərəf oldu, şan oldu.
Susmadı zindanda da.
Bəşər düşmənlərinin
Bostanına daş atdı.
Suçsuz günahkarların
Nəğməsini yaratdı:
“Ey Buhenvald,
Ey yaralı məskənim,
Səni heç vaxt unutmaram,
Taleyim oldun mənim.
Gün gələydi,
Tərk edəydim mən səni.
Onda daha çox bilərəm
Azadlığın qədrini”.

Nəğmə dillər dolaşdı,
Nəğmə hasarlar aşdı...
Yetişdi rəislərə,
Rəislər bir-birilə
İki gün davalaşdı.
Biz oxuduq nəğməni,
Onlar bizə hürdülər;
Şer yazdığı üçün
Şairi öldürdülər.
Nəğmə oxuyanlara
Gör necə dərs verdilər -
Şairin dərisindən
Bir abajur düzəldib,
Faşizmi tərifləyən
Şairə göndərdilər.

O şair də Şairin
Dərisindən nur saçan
Gur işığın altında
Yazdı: "Yaşasın insan!"
İndi müharibədir.
Hamı dəhşət içində
Ömür sürür, gün sürür.
Hərəsi bir diyarda
Tək-tək doğulanları
Cəbhə yüz-yüz öldürür.
Mənim gördüklərimi
Görənlər çəkinərmi
Bir çovutma gülllədən?
Düşərgədə olanda
Cəbhədə ölənlərə
Necə küsənmişəm mən...

Necə yalvarmışam mən,
Taleyimə, bəxtimə,
Ömrümün çırağını
Havayı söndürməsin.
Bu hasarlar içində
Gözlərim baxa-baxa,
Məni müftə verməsin!..

Ölsəm də, ancaq bilim
Niyə öldüm mən, niyə?
Heç olmasa həyatım
Dəysin bircə gülləyə.

Ucuzdur! Ancaq yenə

Bilərəm, görərəm ki,
Ömrümü verdimsə də,
Bu qan hərislərindən
Qopartdım bir güllə mən!

Yox!.. Neçin öldüyünü
Bilən zaman bir insan,
Ölüm özü utanır
Aldığı qurbanından.

## KÜSTRİN UĞRUNDA

Biz Oderi adladıq,
Əmr gəldi: - Düşmənin
Arxasını kəsdirin!
Berlinə gedən yolun
Üstündə qala kimi
Dayanıbdır Küstrin.
Bu qalaya toplayıb
Düşmən bütün gücünü,
Min-min ağır qurbana
Başa gəlir hər günü.
Ancaq geri çəkilmir,
Bütün bəşəriyyətə
Verdiyi işgəncədən
O yorulmur,
Yorulmur.
Son ümid saplağından

Asılıb,
təslim olmur.
Ənvərin topçuları
Mərmi yağışlarıyla
Cavab verdi düşmənin
Bütün ciddi-cəhdinə.
Çatdı dörd yüz on altı
Son istehkam xəttinə.

Rabitələr calandı,
Küstrin halqalandı.
Varta, Oder çayları
Üç yerə bölüb keçir
Bu balaca şəhəri.
Düşmən bir-bir dağıdır
Yolumuz üstündəki
Dəmir, daş körpüləri.
Durub yolumuz üstə
Çaylar bir xəndək təki
Düşmənin əlindəki
İstehkamlar birbəbir,
Dağılıb ələ keçir...
Çayların üzərindən
İp körpülər quruldu, -
Martın on ikisində
Küstrin təslim oldu...

"Panser Faust!"
Bu raketli qumbara
Almaniyanı xilas üçün
Son ümidgah, son çara.

“Yox, Almaniya əyməyəcək
Düşməninə başını!”
Bu xəbəri yaydı bütün dünyaya
Reyxstaqın
O təbliğat maşını.
“Panser Faust”,
Utan, utan, Almaniya!
Mərhəməti, insanlığı,
Bədxahlığa, alçaqlığa
Axı, niyə dəyişdin?
Bir dahinin əsərini
Sən mərmiyə dəyişdin.
O, “Faust”la insanları,
İnsanlığa çağırdı.
“Panser Fa¬ust” raketindən
Bu torpağın sinəsi,
İndi yağır-yağırdı...

## BERLİNƏ

Berlin! Berlin!
Təslim olmur o yenə.
Gecə -
Yüz-yüz projektor
İşıq salır Berlinə!
Gur işıq sütunları
Aydınladır hər yeri.
Durbinlərlə biz baxırıq,
Biz görürük

Gündüz kimi hər yeri...
Küçələrdə adamlar,
Tanklar, toplar, maşınlar...
Görən, hansı ümidlə
Yaşayır indi onlar?..
Hücum! Hücum! Berlinə!
Qəti hücum!
Son hücum!

Səngərlər oyum-oyum!
Döngələr dağım-dağım,
Küçələr lağım-lağım!
Binaların sinəsi
Gülədən düyün-düyün,
O dünənki şüarlar
Topların lüləsində
Berlinə girdi bu gün.
Berlin! - Küçə döyüşü.
Hey vuruşa-vuruşa
Düşmən qaçır dal-dalı.
Önümüzdə dayanır
Sileziya vağzalı.
Nəhayət Şpree çayı,
Diviziyanın
Qarşıdakı alayı
Körpülərə yan aldı.
Düşmənin top atəşi!
Yerlər, göylər qaraldı.
Keçdi dəmir körpünü
Sərdar əlində bayraq.

O biri sahildəki
Daş binaya çataraq,
Qan-tərə bata-bata
Qalxdı ikinci qata.
Arxadakı bölük də
Yaxınlaşdı binaya.
Əllər ələ calandı,
Binanın eyvanında
Al bayraq dalğalandı.

Şəhərdə hər məhəllə
Hər zirzəmi, hər bina
Təmizlənir yağıdan
Min qurban bahasına.
Bu yaralı yırtıcı
Təslim olmur hələ də,
Üzülməyib nəfəsi.
İstehkamdır hər bina,
Bütün pəncərələrsə
Onun atəş nöqtəsi.
Vağzal civarındakı
Müqavimət qırıldı.

O Kayzer sarayını
Tutmaq, diviziyamızın
On üç, yetmiş üçüncü
Polkuna tapşırıldı

## KAYZER SARAYI

Alman imperiyası! Zarafat deyil!
Aləmə səs saldı hayı, harayı.
Dünyanı daladı düz qırx yeddi il
Vilhelm sarayı, Kayzer sarayı.
Özü söndürsə də öz çırağını,
Güvənir o keçmiş əzəmətinə.
İmperiya dövrünün təmtərağını,
O vermək istəmir əlindən yenə.
Nə imiş əvəzi hədər qanların?
Sənə bu əməldən bir nifrət qalır.
Özündə özgəni alçaldanların
Özü məğmun qalır, özü alçalır.

Xasayın bölüyü...
Səhər lap erkən.
Kayzer sarayına hücuma keçdi.
Sarayın qaranlıq zirzəmisindən
Atılan atəşlər bölüyü biçdi.

- Dayanın! - Vahabın səsi ucaldı,
Birbaşa Saraya burdan yeraltı
gizlicə yol var,
O yolla əvvəlcə kəşfiyyatçılar
Qoy getsin, kapitan!
Xasay düşündü.
Bölük asta-asta geriyə döndü.
Yüz ölçdü, bir biçdi,
çəkdi haqq-hesab.

Nəhayət kapitan qərara gəldi,

Gizli yol tapıldı,
Bir azdan Vahab
Döyüş dostlarıyla yola düzəldi.
Yeraltı gizli yol...
                    hər tərəf zülmət,
Qırmızı fənərlər əllərdə yandı,
Onlar su içində üzür...
                    nəhayət,
Çatıb zirzəmiyə Vahab dayandı.
İşarə gözləyir bölük bayaqdan
Vahab zirzəmiyə bir bomba atdı.
Müdhiş partlayışı eşidən zaman,
Dostlar bir qırpımda saraya çatdı.

Binada vuruşma... düşmənin sayı
Çoxalır...
Qarışır burda qan-qana,
Qoca imperiya - Kayzer sarayı
Əyilmək istəmir Azərbaycana.

Naqafil güllə... Vahab yıxılır,
Rəqib fənd işlədir öz xanasında.
Nə qədər ağırdır, nə qədər ağır,
Ölmək, son məqsədin astanasında.

Vahab dağlar keçmiş, qayalar aşmış,
Dünən məktub yazdı evə:
"Sağam mən".
Açdıq yaxasını qana bulaşmış
Bir qəzet parçası çıxdı cibindən.

Bu köhnə qəzetdə Vurğunun şeri
Hamını sarsıtdı...
Susdu komandir,
Vahabla bərabər üç ildən bəri
Mazdokdan - Berlinə yol keçib şer:

"And olsun günəşə, ey gözəl səhər,
And olsun sevdiyim o dilbər qıza,
Siz ey od içində yanan körpələr,
And olsun müqəddəs məzarınıza.
Yerə batdısa da sizin kamınız,
Yerdə qalmayacaq intiqamınız".
Vahab bu inamla döyüşmüş üç il,
Bu inam naminə hər gün yanıbmış.
O, təkcə mərmiylə, tüfənglə deyil,
Vurğunun şerilə silahlanıbmış.

Vahabın sinəsi dağım-dağımdır,
Dağılan sinəsi sinə dağımdır.
Sinəmdə ucalan Qoşqar dağımdır,
Dağlar ağlamasın, uca dağam mən!

Beynimə könlümdən od doldurmuşam,
Həmlələr önündə möhkəm durmuşam,
Yollar ağartmışam, yollar yormuşam,
Yollar ağlamasın, üzü ağam mən!
Demə, bu faciə, bu dəhşət nədir?
Hər kəsin qiyməti əməlindədir.
Tarixim, bu günüm at belindədir,

Eyvazam, Nəbiyəm - Çalpapağam mən!

Yolunda can verdi min-min tərlanım,
Nəğmədir, şerdir şərəfim, şanım.
Bu gün Berlindədir Azərbaycanım,
Təbrizəm, Şirvanam, Qarabağam mən!

## BRANDENBURQ

Brandenburq qapıları,
Beş sütunun üzərində
Bir aypara tağ ucalır.
Unter-Linden küçəsinin
Baş ucunda
Elə bil ki, dağ ucalır.
Reyxstaqa gedən yola
Kölgə salır.
Tağ üstünə həkk olunub
Qədim zəfər allahının Arabası.
Bu memarlıq abidəsi
İmperiyanın - öz ədası,
Dəbdəbəsi!..
Atlar çapır,
Toz dumanı pərdə çəkir
Yerə, göyə;
O aparır imperiyanı
"Qələbədən qələbəyə"...
"Günəş belə bu dünyaya

Bu qapıdan doğulmalı,
Bu darvaza qarşısında
Bütün dünya qul olmalı,
Burdan gəlib keçməlidir
Əlibağlı, qolubağlı
Bütün xalqlar, qəbilələr.
Zaman gələr,
Bu qapının səcdəsinə
Cahan gələr...
Sən memarın danışdığı
Nağıla bax!
Darvazanın kəlləsində
Dalğalanır bizim bayraq.
Yer üzünü hədələyən
Canavardan kam aldılar,
O bayrağı
Darvazanın kəlləsinə
Sancdı dörd yüz on altılar...
Bir bax, Hitler ordusunun
Rəsmi-keçid meydanına.
Elə bil ki, lənət deyir
O, dünənki niyyətinə,
Gümanına.
O, başını yerə dikib
O utanır, yox, utanmır,
Öz içindən yanır-yanır,
İndi bütün məmləkətə kölgə salan
Al bayrağa o qısqanır...
Sən ey zəfər arabası,
Öz yolunu niyə sapdın?

Düz yolunu sapa-sapa
Ölkələri çapa-çapa
Bu çapmaqla, de, nə tapdın?
Tək Allahı sanmırdınmı
Sən özünü göyün, yerin?
Sən ey zəfər arabası,
Hanı sənin zəfərlərin?

## QƏLƏBƏ

Dedilər: Qələbə!
İnanmadım mən –
Qurdun yuvasında boğulduğuna.
İnana bilmədim dörd il səslənən
Topların bir anda lal olduğuna.
Dedilər, barışdır,
Baxdım dörd yana,
Demək sonu çatdı müsibətlərin.
Mən ki, öyrəşmişdim ölğmə, qana
Bir anda həyata öyrəşmək çətin!

Dedilər "qələbə", bilmirəm nədən,
Saxlaya bilmədim göz yaşlarımı.
Unutdum yanımda "qələbə" deyən,
Sevincdən qışqıran yoldaşlarımı,
Döyüş yollarında iki yol ancaq
Ağladım,
Gözümdə yaş gilələndi:

İlk dəfə ağlatdı məni bir uşaq,
Kövrəldim,
Ağladım sevincdən indi.

Döyüş yollarında dostlarım öldü,
Ağlamadım mən.
Binalar uçulub yerə töküldü,
Ağlamadım mən.
Düşdüm bu yollarda çox boşa, bərkə,
Ağlamadım mən.
Şəhərlərlə birgə, kəndlərlə birgə
Alışdım, yandım,
Möhkəm dayandım!

Bəs niyə?
Bəs niyə ağladım indi?
Deyirəm sevincdən axan yaşların
Qaynağı dərindi, kökü dərindi.
Baharda səpilən gur yağışların
Hikməti sabahkı meyvələrindi...

Səadət insana bu qədər yaxın?
İnana bilmədim, İnanın mənə!
Haqqın, ədalətin, xeyirxahlığın,
Bir anın içində təntənəsinə.

Axı, bir az əvvəl vuruşurduq biz,
İndi barışmıdır?
Bəs nə tez belə?

**S.Vurğunun "Ront-Foront" şeirindən.*

Axı, bu gün səhər göndərdiyimiz
Məktublar, xəbərlər yoldadır hələ...

Sükut su çilədi ürəyimizə.
Sükut... öyrənmişik gurultulara.
Qəribə göründü bu sükut bizə,
Bu nədir? Biz hara, sakitlik hara?

Sinəmin yarası incidir məni,
Könlümün başında bir düyün kimi.
Bu gün biz ilk dəfə müharibəni
Andıq tarix kimi, ötən gün kimi.

Güldü ürəklərdə arzu da, kam da,
Könülə dar gəldi köksün qəfəsi.
İlk dəfə səsləndi qulaqlarımda
Körpə qəhqəhəsi, qadın nəfəsi...
Təslim oldu Reyxstaq,
"Berlinin kəlləsinə
Sancılacaq bu bayraq"* -
Misrasını bizimkilər,
Reyxstaqın divarına
yazdılar,
Bu misrada neçə-neçə xatirə,
Neçə-neçə arzu var.
Mən bu şeri əzbər deyib,
"Beş" aldığım yadımdadır,
yadımda.
Bu misranı mən Bakıdan
Gətirmişəm Berlinə,
Arzular qanadında...

***

Hitler dəftərxanası,
Faşizmin öz yuvası...
Əsrimizin bəlası.
Komendantı –
Əlizadə Əziz Məmməd –
Azərbaycan balası!
Müxbirlər gəlibdir xaricdən bu gün,
Məğlub Reyxstaqı seyr etmək üçün.
Kimdir komendantı dəftərxanənin?
- Mənəm.
Əziz Məmməd keçdi irəli.
- Siz?
- Bəli!
- Təəccüb!
- Təəccüb neçin?

- Cənab, siz russunuz?
- Xeyr!
- Bəs siz hardansınız?
- Bakıdanam mən.
- Bakı...Azərbaycan...Əhsən, min əhsən!..
İcazə olarmı? Müxbirlərik biz...
Baxmaq istəyirik...
- Sənədləriniz?
- Buyur...
Kinayəylə qımışır müxbir,
Əziz sənədləri yoxlayır bir-bir...

***

Masasına bax Hitlerin,
Bu masanın arxasında əyləşibdir
Düz on üç il
Gündən qaçan yarasa.
Nifrət daşı üzərində dayanıbdır
Bu masa.
Nifrət! Nifrət! Ən insani duyğulara, insana.
Nifrət! Nifrət!
Mərhəmətə, vicdana!
Nifrət! Nifrət! Min kərə
Ürəkdəki zərif, həssas tellərə.
Gərək,
Ürək
Ən müqəddəs, ən ilahi
Hisslərdən azad ola, boşala,
Ürək,
Gərək
daş ola.
Bu imanla
Hərbə girdi dünya ilə bu masa.
Döndü nəhəng bir cəllada,
Bir qatilə bu masa.
Başlar kəsdi,
Evlər yıxdı nə qədər.
Bu masadan ayaq açıb, yeriyibdir
Müsibətlər zülümlər.
Hitler elə bilirdi ki,
Bu dünyanı titrətməyə
Çatar onun öz səsi.

Arxasında əyləşdiyi masa da
Ərzin dayaq nöqtəsi!..
Bu nöqtədən o, Londona, Moskvaya,
Praqaya, Budapeştə yol çəkib.
O, burada neçə-neçə fərmanlara,
Hökmlərə qol çəkib...
Şəhərlərin üzərində
Mərmilərin kişnəməsi,
Anaların "bala" səsi,
Balaların "ana" səsi,
Ürəklərdə düyünlənən
Dərd daşları, qəm daşları,
Gəlinlərin üzündəki qırışları,
Buhenvaldda, Osvensimdə
Əzab çəkən bədbəxtlərin
Göz yaşları
Bu masadan başlanıb...
Ölüm saçan təyyarələr,
Ağır tanklar, ağır toplar,
Yer üzünə bu masadan
Tuşlanıb...
Hitler elə zənn edirdi,
Yer üzünün kompasıdır
Bu masa.
Məmləkətlər bata bilər
Bu kompasın gündoğana tuşlanan
Əqrəbləri olmasa...
Divardakı saata bax,
Bu saatla nizamlanıb
Nəqşələri Hitlerin.
Bu saatın hökmü ilə

Zaman çıxıb axırına
Neçə-neçə imamların, bütlərin!!!
Budur yenə əqrəbləri
Cahan kimi,
Dövran kimi dolanır.
Saat həmən o saatdır,
Ancaq hökmü dəyişib.
Yoxsa indi
Tərsinəmi dolanır?
Bir zamanlar bu əqrəblər
Hitlerin öz əlində qələmdi.
Zaman özü o qələmdən
od əmdi.
O zamanlar bu saatın anları
Bu masanın üzərinə
Səpilirdi toz kimi.
Onda saat o anların arxasından
Gülümsünüb səslənirdi:
Görək sonda kimkimi?..
Saat - zamanın hökmü,
Masa - zülmün fərmanı...
Dayandılar üzbəüz,
Döyüşdülər, bu döyüşlə
Sarsıtdılar dünyanı...
Saat hər an,
Xırda-xırda zərbəsini
Miz üstünə vura-vura söylədi:
"Tanı məni, bil məni"
Zaman, artıq
Adi taxta parçasına çevirmiş
Kürəmizə atəş saçan kürəni...

## EPİLOQ

Analar cəbhəyə canından kəsib
Can yola saldı,
Əvəzindəsə
Qara xəbərli
Bir kağız aldı.

Qara kağızlara dönüb şəhidlər,
Döyür qapıları bir gün, bir səhər.
Sönər son işartı, ölər son güman,
Ümid gözlərini çəkir qapıdan
Bir üzü gəlinlər, bir üzü qızlar,
Qapılar döyəndə qara kağızlar...

Analar...
Onların səbri çox dərin.
Lap yüzü gəlsə də, qara xəbərin.
Qapıdan çəkilməz ana gözləri,
Çöllərə "gəl" yazar ayaq izləri.

Gəlinlər yorulur, ana gözləyir,
Qapıda illərlə saxlanan quzu
Böyüyüb qoç olur, ana gözləyir.
Arzular, xəyallar sönür, puç olur,
ana gözləyir.
Qəlbi bulud sarır,
ana gözləyir,

Dava da qurtarır,
ana gözləyir.
Ötüşür xəbərsiz, ətərsiz illər,
ana gözləyir.
Gəlir dünyamıza təzə nəsillər,
ana gözləyir.
Ana əldən düşər,
yenə gözləyir.
Nəvə əsgər gedir,
nənə gözləyir.
Bir ana dedi ki, "mənim səbrimi,
Min qara xəbərlə tükətmək olmaz.
Şəhid övladımın yox qəbri kimi
Mənim səbrimin də qəbri tapılmaz.

Qadirsən hər şeyə sən ki, büsbütün.
Quru ağacları göyərdən Allah,
Balam yoxdursa da...
Nolar mənimçün,
Göyərt yeganəmi sən yerdən, Allah..."

Analar gözlədi illərdən bəri,
Ömürlər çevrilib intizar oldu.
Bəli, anaların öz könülləri
Şəhid övladlara bir məzar oldu.

Əsrimiz günahsız axan qanların
Hesabını çəkən bir hakim istər.
Çiçəyi burnunda növcavanların
Vaxtsız ölümünü, axı, kim istər?
Keçdik bu dörd ildə, biz basa-basa

Ölüm yollarını, qan yollarını.
Sülh vaxtı oğullar,
                    hərb vaxtındasa
Analar dəfn edir oğullarını.

Ey Vətən yolunda haraysız, səssiz,
                              ölən ərənlər.
Siz ey təmənnasız, qəsdsiz qərəzsiz
Canını bizlərə qurban verənlər,
                    Eşq olsun sizə!
Eşq olsun o polad iradənizə!
Təzə şəhərləri, təzə kəndləri
Ənvərin dediyi aynabəndləri,
Qəbriniz üstündə ucaltdıq bu gün,
                              ancaq bununçün
Əvəz ummadınız siz gələcəkdən.
Yazdım bu nəğməni bu şərəfə mən.

Ağaclar kök üstə qalxır, yüksəlir,
Meyvənin şirəsi rişədən gəlir.
Ancaq bunun üçün
Rişə, heç zaman
                              əvəz istəmir
Ağacın meyvəli budaqlarından.

Ey Vətən yolunda yad torpağında
                              can verən ərlər,
Siz ey həyatının bahar çağında
Gündüzü gəlməmiş batan səhərlər,
Sizi dəfn etmədik çiçəklərlə biz,
Yaylım atəşləri matəm himniniz!..

Qəbriniz üstündə uzun-uzadı
Qanadlı nitqlər deyən olmadı.
Qürbətdə yatdınız...
                    Vətəndən sizə
Qismət də olmadı bir parça torpaq.
Qələbə günləri şərəfinizə
Yaylım atəşləri atıldı ancaq.

Yaylım atəşləri... göylərin zəri...
Dedi insan gedər, ad qalar ancaq.
Gələcək günlərin dan şəfəqləri
Sizin qanınızdan rəng alar ancaq.
Yaylım atəşləri... titrədi göy, yer.
Bu sözsüz, cümləsiz, yeknəsək səslər,
Doludur, büyükdür ən böyük sözdən,
O səslər doğuldu ölümünüzdən.

Layiqdir sizdəki cəsarət, hünər
Ən böyük şöhrətə, ən böyük ada;
Fəxri xiyabanlar və təntənələr
Sizin qismətiniz olmadısa da.

Ən böyük şərəfə layiq ikən siz
Ancaq taleyiniz ayrı cür oldu.
Vətənin naminə siz can verdiniz,
Vətənin verdiyi təşəkkür oldu...

Bəs biz?
Biz neylədik Vətən naminə?
Vətəndən umuruq,

Umuruq yenə...
Siz Vətən uğrunda candan keçdiniz,
Beş otaq uğrunda vuruşuruq biz.
Vətən təhsil verdi, oxutdu bizi,
İşıqla doldurdu ürəyimizi
o, bərk ayaqda
Özünü bizimçün yandırıb-yaxdı.
Biz layiq olsaq da, lap olmasaq da,
Vətən döşümüzə ordenlər taxdı.
Ev-eşik verdi,
Bizə neçə-neçə fəxri ad verdi,
mükafat verdi.
Gəlin, bir düşünək:
Dünən, ya bu gün,
Bəs biz neyləmişik bu Vətən üçün?
Çox vaxt düşünmədik dostu, yoldaşı,
Dünya nemətinə aldanıb uyduq.
Gəl haqq-hesab verək, biz hansı daşı
Çaylaqdan gətirib daş üstə qoyduq?
Bəzən özgəsini düşünmədik biz,
Nitqlər söyləyib yerə söz əkdik...
Sərin kölgəsində dincəldiyimiz
Hansı bir ağacı özümüz əkdik?

Əkdik... əkdik... ancaq öz bağımızda,
Biz cənnət yaratdıq otağımızda.
Öz evimizin
Divarlarında,
Öz bağımızın
Hasarlarında

Bəzən qurtarır
Ana yurdumuza məhəbbətimiz.
Budurmu Vətənə sədaqətimiz?
Gəlin, biz həmişə düşünək: Bu gün,
Neylədik, neylədik bu Vətən üçün?!

***

Almaniya,
İtirilmiş şührətinə,
qüdrətinə
Yas tutma, gəl,
Tarixindən götürdüyün
Böyük ibrət dərslərini
unutma, gəl.
Yox, sən yenə silahlanır,
Keçmişinə can atırsan,
Təzə növlü "Panser Faust"
yaradırsan.
Panserlərlə bir kəndi də
İşğal edə bilməmisən.
"Faust"unla fəth etmisən
Dünyanı sən.
Almaniya, Almaniya,
Qüdrətlisən, qüvvətlisən
Sən sözünlə, Sən nəğmənlə,
hikmətinlə.
Çox kiçiksən, çox acizsən
Silahınla,
nifrətinlə!..

Almaniya, Almaniya,
Sən özünü yaxşı tanı.
Sən nəğmənlə, sən sözünlə
“İşğal” elə bu dünyanı!

## ƏSGƏR KİMİ

İsfəndiyar! Sənə verdim
Qardaşımın adını mən.
Sən mənimçün
Qardaşımın əvəzisən!
Sənin əmin
Bu gün mənim
Qələmimlə dolaşdığım bu yollarda
Həlak oldu.
Yox! Demə ki, unuduldu.
Mən həmişə inanmışam
İstiqbala.
Axı, sənin gəlişinlə dünyamıza
O, təzədən gəldi, bala!
Budur, indi lap çatırsan
Məndən böyük qardaşımın
Yaşına sən.
Əmin kimi vurul, oğlum,
Bu Vətənin
Torpağına, daşına sən!
Vurul dedim!..
Bu süzdəki hikmət ilə yaşa, oğul,

Zaman-zaman...
Mən deyərdim yaşamayır
Vurulmayan!
Vurulanda, biz həyata
Bənd oluruq
Doğulurkən vurulmuruq,
Vurulanda doğuluruq...
Qoy ucaltsın sevgi dolu
İllər səni.
Əsgər gürmək istəyirəm əmin kimi.
Əsgər səni!
Bu zamanın axarını gürən əsgər
Öz yolunun əvvəlindən
Axırını görən əsgər.
Arzusunu, amalını görə bilən
Bir əsgər ol!
Tüfənginin çaxmağında məsləkini
Görə bilən bir əsgər ol.
Yalnız görən əsgər olur.
Oğlum, baxan əsgər deyil.
Hər əlinə tüfəng alan,
Hər çiyninə paqon taxan
Əsgər deyil!
Mən də şerin əsgəriyəm,
Sən həkim ol, sən alim ol,
Fərqi yoxdur, çilingər ol,
Ya dülgər ol,
Sənətində sən möhkəm ol,
Sən əsgər ol!
Hər peşənin öz yeri var.

Ancaq yenə,
Alimin də,
Şairin də,
Fəhlənin də,
Özü üçün siqar çəkən ağası var,
Keşik çəkən əsgəri var!
Keşik çəkmək!
Şərəf güdmək!
Bundan büyük şərəfmi var?
Şərəf güdən özü dönüb şərəf olar.
Əsgər kimi sev Vətəni,
Sev peşəni!
Əsgər görmək istəyirəm, əsgər səni!
İstəyirəm, vurulasan əmin kimi
Bir amala, bir məsləkə.
İstəyirəm, yaşayasan əsgər kimi
Sən nəyinsə keşiyini çəkəçəkə...
Vüqarını əyməyəsən,
Tək Vətənin qarşısında
Əyiləsən əsgər kimi.
Hər bir işdə vəzifəni
Sən biləsən əsgər kimi!
İstəyirəm sən alışıb, sən yanasan
əsgər kimi!
Öz yolunu haqq sanasan,
əsgər kimi!
İmanına güvənəsən,
İnamına inanasan
əsgər kimi.
Qarşındakı hər əngəli, maneəni

Sən yarasan əsgər kimi.
Yeri gəlsə, öz canından keçməyi də
Bacarasan əsgər kimi!

*1969*

# KİTABIN İÇİNDƏKİLƏR

ÖN SÖZ *(Tərtibçi-redaktordan)* 3

## SƏYAHƏT DƏFTƏRİNDƏN

Gözlərim 19
Rafaelin qəbri üstə 20
İstiqbal 23
Mavi mağara 25
Ağlayan pəri 28
Mumiya 30
Bircə ayda 31
Mikelanjelonun "kədəri" önündə 32
Gəmilərin dili 33
İstanbul 35
Açıq səhər 38
Atılmayan toplar 40
Bir üzdə iki dünya 44
Fəryad 46
Gizli təbəssüm 49
Bakı vaxtı ilə 51
Vətən həsrəti 53
Günahsız müqəssirlər 54
Latın dili 58

## NƏĞMƏLƏR

Bu gecə 63
Min il danışmaq olar 64
Sən olmasaydın 65
Hər gün 66
Telefon telləri 67
Neçin 68
Mümkünmü ayrılmaq 69
Biri sənsən, biri mən 70
Şirin arzular 71
Dodaqda gəz 72
Yadındamı 73
Ağarma, saçım ,ağarma 74
Yar, yara bağlar 75
Neylərəm 76
Bir tərəfdə 77
Nəgmələr 78
Kölgəm qədər yaxınsan 79
Daim ucalaq biz 80
Nağıllar 81
Mən həmişə səninləyəm 82
Gəl, diləyim, gəl 83
Alma ağacları çiçəklənəndə 84
Qəlbi dolu gecələr 85
Xəyalım 86
Ulduzlara salam 87
Dan ulduzu 88
Təzə bahar gətir 89
Külək döyür pəncərəni, qapını 90
Könlümün könlü 91

Qüruru neyləyirsən 92
Azərbaycan 93
Vətən torpağı 94
Həyat eşqı 95
El arasında 96
Yaddaşım 97
Əlvida 98
İllər gəlib keçsə də 99
Biz günəş övladıyıq 100

## UŞAQ VƏ MƏKTƏB DÜNYASI

Şəfəqin arzusu 103
Gəlin, dostlar görüşək 105
Sinif-həyat 107
Birinci zəng 110
Aynası bol, daşı az 112
Qəbələ məktəbi 113
Fərqə bax 114
Qar yağır 115
Uşaqkən düşünərdim 116
Üşümürmü, görəsən 117
Saat 118
Günəş və mən 119
Taxıl içində çiçək 120

## POEMALAR

Etiraf 123
Ağlar-güləyən 213
Yollar, oğullar 240

Hər baharın öz qaranquşu 302
Həyat-ölüm 319
Uçun, nəğmələrim 389
Qəm içində sevinc 395
Vaxt, sürət, fikir 403
Təzadlar 411
Dörd yüz on altı 466

# BƏXTİYAR VAHABZADƏ

**ƏSƏRLƏRİ**

**On iki cilddə**

**III cild**
**(1960-1969)**

«Qafqaz Turizm Redaksiyası» MMC-də hazırlanmışdır.

*Bədii dizayneri*
***Xəyyam Əliyev***

*Rəssamı*
***Zaur Əliyev***

*Texniki redaktorları*
***Ləman***
***Ləman Qafarova***

Çapa imzalanmış 16.05.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 36,35. Tirajı 500. Sifariş 151.
Qiymәti müqavilə ilə.

*Direktor:* ***prof. N.B.Məmmədli***

*Nəşrə məsul:* ***Əziz Ələkbərli***

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap edilmişdir.*
***E-mail: nurlan 1959@yahoo.com***
*Tel.: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*